

**Elman Nəsirov**

1968-ci il mayın 23-də Cəlilabad rayonunun Təzəkənd kəndində anadan olmuşdur. Bakı Dövlət Universitetinin (BDU) Tarix fakültəsini fərqlənmə diplomu ilə bitirmiş və BDU Böyük Elmi Şurasının qərarı ilə universitetdə saxlanılmışdır. Siyasi elmlər doktoru, professordur. “Qazaxıstanın müstəqilliyinin 25 illiyi” yubiley medalı, “Azərbaycan Respublikası Milli Məclisinin Fəxri medalı”, “Parlament” medalı, “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)” yubiley medalı, “Qabaqcıl təhsil işçisi” döş nişanı, “Tərəqqi” medalı və “Heydər Əliyevin 100 illiyi (1923-2023)” yubiley medalı ilə təltif edilmişdir. “Qızıl qələm” mükafatı laureatıdır. 1997-ci ildə BDU, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti və AMEA-nın birgə təşkil etdikləri “Azərbaycan neftinin dünəni, bu günü və sabahı” mövzusunda gənc alim və tədqiqatçıların ümumrespublika müsabiqəsinin qalibi olmuş, I dərəcəli diplom və mükafatla təltif edilmişdir. 2000-ci ildə eyni tipli müsabiqənin qaliblərindən biri olaraq, III dərəcəli diplom və mükafata layiq görülmüşdür.

10 kitab, 100-dən çox elmi məqalə və 6 tədris-metodik vəsaitin müəllifidir. Elmi məqalələri ABŞ, Rusiya, Çexiya, Rumıniya, Türkiyə, İran, Bolqarıstan, Makedoniya, Qazaxıstan, Özbəkistan və Ukraynada çap edilmişdir. Rus və ingilis dillərini bilir.

1995–2003-cü illərdə Bakı Dövlət Universitetində işləmiş, 2001–2008-ci illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında baş müəllim, dosent, elmi kitabxananın müdiri, baş elmi işçi, elmi katib, 2008–2012-ci illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin baş elmi işçisi, Dövlət İdarəçilik Akademiyasının Geostrateji Araşdırmalar Mərkəzi direktorunun müavini, 2012–2014-cü illərdə Geostrateji Araşdırmalar Mərkəzinin direktoru vəzifələrində çalışmışdır. 2014-cü ildən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi Araşdırmalar İnstitutunun direktorudur.

Yeni Azərbaycan Partiyası Təftiş komissiyasının üzvüdür. Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. Milli Məclisin İnsan hüquqları komitəsinin, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvüdür. Azərbaycan-Albaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Belarus, Cənubi Afrika Respublikası, Çin, Latviya, Macarıstan, Özbəkistan, Rusiya, Türkiyə parlamentləri ilə əlaqələr üzrə işçi qruplarının üzvüdür. Azərbaycan–Avropa İttifaqı parlament əməkdaşlıq komitəsinin üzvüdür. Evlidir, 3 övladı var.

AZƏRBAYCAN RESPUBLİKASININ ENERJİ TƏHLÜKƏSİZLİYİ SİYASƏTİ:
ƏNƏNƏVİ ENERJİDƏN “YAŞIL ENERJİ”YƏ KEÇİD

ELMAN NƏSİROV

ELMAN NƏSİROV

# AZƏRBAYCAN RESPUBLİKASININ ENERJİ TƏHLÜKƏSİZLİYİ SİYASƏTİ: ƏNƏNƏVİ ENERJİDƏN “YAŞIL ENERJİ”YƏ KEÇİD



ELMAN NƏSİROV

# AZƏRBAYCAN RESPUBLİKASININ ENERJİ TƏHLÜKƏSİZLİYİ SİYASƏTİ: ƏNƏNƏVİ ENERJİDƏN "YAŞIL ENERJİ"YƏ KEÇİD

BAKI – 2026

*Monoqrafiya Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası Böyük Elmi Şurasının 12 fevral 2026-cı il tarixli iclasının qərarı ilə (protokol №05) çapa tövsiyə edilmişdir.*

**Elmi redaktor:** **Vüsal Qasımlı**
*İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru, iqtisad elmləri doktoru, professor*

**Rəyçilər:** **Urxan Ələkbərov**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik*

**Eldar Quliyev**
*Azərbaycan Respublikası Milli Məclisinin deputatı, iqtisad elmləri doktoru, professor*

**Vüqar Rəhimzadə**
*Azərbaycan Respublikası Milli Məclisinin deputatı, siyasi elmlər doktoru, professor*

**ELMAN NƏSİROV. AZƏRBAYCAN RESPUBLİKASININ ENERJİ TƏHLÜKƏSİZLİYİ SİYASƏTİ: ƏNƏNƏVİ ENERJİDƏN "YAŞIL ENERJİ"YƏ KEÇİD.** *Monoqrafiya.* – Bakı: Mütərcim, – 2026. – 384 s.

***Müəllif monoqrafiyanın çap olunmasında göstərdiyi dəstəyə görə "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinə və onun rəhbərliyinə öz dərin minnətdarlığını bildirir.***

*Monoqrafiyada "yaşıl enerji"yə keçid şəraitində Azərbaycan Respublikasının enerji təhlükəsizliyi siyasətinin mahiyyəti, strukturu, prioritetləri və perspektivləri təhlil olunmuşdur. Bu xüsusda ölkəmizin xarici şirkətlərlə əməkdaşlığı, beynəlxalq səviyyədə "yaşıl keçid"ə verdiyi töhfələr, COP29-da irəli sürülən təşəbbüslər, qəbul olunmuş qərarlar öyrənilmiş və müvafiq qiymətləndirmələr aparılmışdır.*

*Kitab enerji təhlükəsizliyi və xarici siyasət məsələləri ilə məşğul olan mütəxəssislər, diplomatlar, müəllimlər, tələbələr və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

ISBN: 978-9952-28-805-6

© E.X.Nəsirov, 2026

# MÜNDƏRİCAT

**GİRİŞ** ....................................................................................................5

**I FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASININ ENERJİ TƏHLÜKƏSİZLİYİ SİYASƏTİNİN FORMALAŞMASI VƏ İNKİŞAF MƏRHƏLƏLƏRİ** ..........................................................8

1.1. Enerji təhlükəsizliyi siyasətinin mahiyyəti, parametrləri və problemləri ..........................................................8

1.2. Azərbaycan Respublikasının enerji təhlükəsizliyi siyasətinin təşəkkülü, inkişafı və hüquqi əsasları .................31

1.3. Respublikanın enerji təhlükəsizliyi siyasətinin milli və beynəlxalq aspektləri ..................................................................45

**II FƏSİL. AZƏRBAYCANIN ENERJİ SEKTORUNUN STRUKTURU VƏ ENERJİ TƏHLÜKƏSİZLİYİ SİYASƏTİNİN PRİORİTETLƏRİ** ......................................................68

2.1. Neft-qaz ehtiyatları və onlardan istifadənin ölkənin enerji təhlükəsizliyi baxımından qiymətləndirilməsi ...........68

2.2. Bərpa olunan enerji mənbələri və onların potensialı .............92

2.3. Respublikada elektrik enerjisi istehsalı üzrə infrastrukturun mövcud vəziyyəti.........................................108

2.4. Azərbaycanın enerji təhlükəsizliyi siyasətinin prioritetləri ........................................................................120

**III FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASINDA "YAŞIL ENERJİ"YƏ KEÇİDİN MÜASİR VƏZİYYƏTİ VƏ PERSPEKTİVLƏRİ** .......... **132**
3.1. Bərpa olunan enerji sahəsində Azərbaycanın dövlət siyasəti .......... 132
3.2. Azərbaycanın beynəlxalq "yaşıl enerji" siyasətinin əsas istiqamətləri .......... 143
3.3. COP 29: qloballaşan dünyada "yaşıl" gələcəyin təmin olunmasında Azərbaycanın iştirakı .......... 160
3.4. Azərbaycanda "yaşıl iqtisadiyyat"a keçidin siyasi, sosial-iqtisadi, ekoloji aspektləri və perspektivləri .......... 178

**NƏTİCƏ** .......... **189**
**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI** .......... **194**
**ƏLAVƏLƏR** .......... **223**
**İXTİSARLARIN SİYAHISI** .......... **383**

# GİRİŞ

Tarixi prosesin hər bir mərhələsi siyasi və sosial-iqtisadi sistemin inkişafı ilə yanaşı, enerjiyə tələbatın artması ilə də səciyyələnir. 1973-cü il neft böhranına qədər dünyada enerji amili diqqətdən kənarda qalmasa da, ciddi siyasi məna kəsb etmirdi. Qeyd edilən böhrandan sonra "enerji təhlükəsizliyi" anlayışı dövriyyəyə daxil olmuş və enerji daşıyıcılarının ehtiyatlarını yaratmaq bu mərhələdə ölkələrin qarşısında duran əsas məqsəd kimi müəyyənləşdirilmişdi. XXI əsrin ilk onillikləri ərzində enerji sektoru köklü dəyişikliklərə məruz qalmış, enerji faktoru yalnız iqtisadi deyil, həm də siyasi güc amilinə çevrilmiş, qlobal siyasətdə enerji diplomatiyası xüsusi bir istiqamət kimi formalaşmış, enerji təhlükəsizliyi isə milli təhlükəsizliyin əsas tərkib elementlərindən biri olaraq ön plana çıxmışdır. Beynəlxalq həyatın bütün sahələrində qloballaşmanın sürətləndiyi müasir dövrdə formalaşan əməkdaşlıq münasibətlərinin, meydana gələn çağrış, təhdid və təhlükələrin, mövcud olan münaqişə və qarşıdurmaların təhlili göstərir ki, onların səbəbləri sırasında enerji amili sonuncu yerdə deyildir.

Zəngin enerji mənbələrinə malik olan, dayanıqlılıq prinsipinə əsaslanan inklüziv inkişaf yolu seçən və eyni zamanda qlobal enerji bazarında özünəməxsus yer tutan Azərbaycan üçün də enerji təhlükəsizliyinin etibarlı təminatı milli təhlükəsizlik məsələsidir. Hal-hazırda respublikanın enerji təhlükəsizliyi siyasəti bərpa olunmayan enerji mənbələrindən istifadəyə və müvafiq infrastrukturun yaradılmasına daha çox əsaslansa da,

"yaşıl enerjiyə" keçid dövrün tələbi olaraq getdikcə ön plana çıxır, ciddi siyasi, iqtisadi və sosial əhəmiyyət kəsb edir.

Enerji təhlükəsizliyinin təmin olunmasında "yaşıl enerji"-nin rolu ilə bağlı, beynəlxalq aləmdə hamı tərəfindən qəbul edilən vahid yanaşma mövcud deyildir. Ölkələrin bu məsələyə münasibəti onların inkişaf səviyyəsi, təbii-coğrafi vəziyyəti, enerji mənbələrinin növü, enerji strategiyası, mövcud enerji bazarının seqmentasiyası və s. amillərin təsiri altında formalaşır. Nəticədə milli səviyyələrdə "yaşıl enerji"yə keçid, onun prioritetləri, idarə olunması və inkişaf meyllərini özündə əks etdirən müxtəlif modellər təşəkkül tapır və onların müqayisəli təhlili isə daha səmərəli və dayanıqlı mexanizmlərin, mövcud beynəlxalq və ölkədaxili konyuktura nəzərə alınmaqla, adekvat dövlət siyasətinin müəyyənləşdirilməsinə imkan verir.

"Yaşıl keçid" sadəcə elektrik enerjisi istehsalı ilə məhdudlaşmır, o, daha geniş məzmun və əhatə dairəsinə malikdir. "Yaşıl enerji"yə keçid dayanıqlı iqtisadiyyatın inkişafını, bərpa olunmayan resursların getdikcə tükənməsindən qaynaqlanan problemlərin həllini, fərd, cəmiyyət və dövlətin maraqlarının uzlaşdırılmasını, insan üçün sağlam və təhlükəsiz ətraf mühitin təmin olunmasını, ekoloji təmiz texnologiyaların tətbiqini, qlobal iqlim dəyişikliyinin törətdiyi mənfi təsirlərin aradan qaldırılmasını və s. özündə ehtiva edən kompleks inkişaf strategiyasıdır.

Bərpa olunan enerji mənbələrindən istifadə nəticəsində yeni istehsal sahələrinin meydana gəlməsi ölkə iqtisadiyyatının şaxələndirilməsi, yeni iş yerlərinin yaradılması isə əhalinin sosial rifahının davamlı olaraq yüksəldilməsi ilə müşaiyət olunur. "Yaşıl keçid" həm də ölkənin investisiya cəlbediciliyinin artmasına müsbət təsir göstərir.

Azərbaycanda həyata keçirilən rəsmi siyasət daxili enerji tələbatının tam ödənilməsi ilə yanaşı, beynəlxalq səviyyədə milli maraqların qorunmasını da nəzərə alır. Xəzər-Qara dəniz hövzəsində formalaşan neft-qaz kəmərləri şəbəkəsi respublikanın qlobal enerji bazarlarına çıxışını təmin edir. Son illərdə isə Azərbaycanın Gürcüstan, Bolqarstan və Macarstan ilə birlikdə qərb istiqamətində, Qazaxstan və Özbəkstan ilə birlikdə şərq istiqamətində "yaşıl enerji" dəhlisləri yaratmaq məqsədilə atdığı addımlar Avropa-Cənubi Qafqaz-Mərkəzi Asiya regionunda yeni geosiyasi mənzərə yaradacaqdır.

Kitabın birinci fəslində müstəqillik illərində Azərbaycanın enerji təhlükəsizliyi siyasətiin formalaşması və inkişaf mərhələlərindən, ikinci fəslində respublikasının enerji ehtiyatları və enerji təhlükəsizliyi siyasətinin prioritetlərindən, üçüncü fəslində Azərbaycanda "yaşıl enerji"yə keçid prosesinin müasir vəziyyətindən və perspektivlərindən bəhs olunur, əlavələr hissəsində isə, 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanma mərasimində Ümummilli lider Heydər Əliyevin çıxışının, COP29-un Liderlər Sammitinin açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və BMT-nin baş katibi Antonio Quterreşin çıxışlarının mətni, "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında", "Energetika haqqında", "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının qanunları və COP29-da Azərbaycanın təşəbbüsü ilə qəbul edilmiş vacib sənədlər (ingilis dilində) oxuculara təqdim edilir.

# I FƏSİL

## AZƏRBAYCAN RESPUBLİKASININ ENERJİ TƏHLÜKƏSİZLİYİ SİYASƏTİNİN FORMALAŞMASI VƏ İNKİŞAF MƏRHƏLƏLƏRİ

### *1.1. Enerji təhlükəsizliyi siyasətinin mahiyyəti, parametrləri və problemləri*

Enerji təhlükəsizliyi milli, regional və beynəlxalq təhlükəsizlik sisteminin əsas elementlərindən olub, müasir dövrdə xüsusi aktuallığı ilə seçilən məsələlərdən, hətta dövlətin mövcudluğu və inkişafını şərtləndirən amillərdən birinə çevrilmişdir. Ayrı-ayrı ölkələrin və təşkilatların enerji siyasəti və strategiyasında tez-tez baş verən dəyişikliklər də məhz bu reallıqdan qaynaqlanır.

XIX əsrin ortalarından etibarən enerji təminatı məsələsi hər bir ölkənin daxili və xarici siyasətinin vacib elementlərindən birinə çevrilsə də, keçən əsrin 70-ci illərinə qədər olan dövrdə milli təhlükəsizlik sistemində enerji təhlükəsizliyi xüsusi aktuallıq kəsb etməmişdir. 1973-cü ilin oktyabrında Yaxın Şərqdə baş vermiş müharibə zamanı ərəb ölkələri tərəfindən, İsraili müdafiə edən dövlətlərə qarşı neft embarqosu tətbiq edilmiş, nəticədə neft qiymətləri 3-4 dəfə artmış və dünya ilk enerji böhranı ilə qarşılaşmışdı, bu da enerji daşıyıcıları ətrafındakı mövcud münasibətlərin transformasiyasına gətirib çıxarmışdı.

Neftdən siyasi təzyiq vasitəsi kimi istifadə edilməsi, məntiqi olaraq, yeni münaqişə ocaqlarının formalaşmasına yol açmışdır. *"Əgər tədarük onu (nefti) qorumaq, yenidən yönləndirmək və ya qiyməti artırmaq məqsədilə süni şəkildə məhdudlaşdırılırsa, onda, 1973-1974-cü illərdə ərəb ölkələri neft məhdudiyyətləri tətbiq edərkən olduğu kimi, münaqişə potensialının miqyası artır"* [231, s.26]. Bütün bunlar enerji təhlükəsizliyi məsələsini istər ölkə, istərsə də beynəlxalq səviyyədə aktuallaşdırmış və ölkələri öz təhlükəsizliyini daha etibarlı təmin etmək üçün tədbirlər görməyə vadar etmişdir.

Diqqəti cəlb edən məqamlardan biri enerji təhlükəsizliyi siyasətinin konseptuallaşdırılmasının nəzəri və metodoloji əsaslarının müəyyənləşdirilməsi sahəsindəki çətinliklərlə bağlıdır. Siyasi quruluşu, institusional strukturu, dəyərlər sistemi, beynəlxalq və regional mövqeyi, sosial, iqtisadi və ekoloji siyasəti, enerji daşıyıcılarını idxal və ya ixrac etməsi baxımından bir-birindən fərqlənən dövlətlərin enerji siyasətinin miqyası, istiqamətləri, məzmunu və məqsədləri müxtəlif olur və bu səbəbdən də, özünün çoxaspektliliyi və çoxölçülülüyü ilə seçilən enerji təhlükəsizliyinə ümumi qəbul edilmiş tərif vermək, demək olar ki, mümkün deyildir. Müasir dövrdə beynəlxalq münasibətlər sistemində müşahidə olunan qeyri-müəyyənlik, əmtəə və maliyyə bazarlarında, fond birjalarında tez-tez təkrarlanan trubulentlik və dalğalanma, hadisə və proseslərin proqnozlaşdırılmasının çətinliyi, energetika sektorunun rəqəmsallaşdırılması və s. amillər enerji təhlükəsizliyi siyasətinə yeni ölçülər daxil etmişdir.

Bu vaxta qədər enerji təhlükəsizliyinə müxtəlif təriflər verilmişdir. Beynəlxalq Enerji Agentliyinin (BEA) verdiyi tərifin ilk variantında qeyd olunur ki, *"Enerji təhlükəsizliyi mövcud iqtisadi şəraitdə sərəncamda tələb olunan kəmiyyətdə və keyfiyyətdə ener-*

*jinin olacağına inamdır"*. Agentlik sonradan enerji təhlükəsizliyini *"enerji mənbələrinin münasib qiymətə davamlı mövcudluğu"* kimi müəyyənləşdirmiş, onu uzunmüddətli və qısamüddətli olaraq iki növə ayırmışdır. Uzunmüddətli enerji təhlükəsizliyi enerji təchizatı sahəsinə sərmayə qoyuluşu, qısamüddətli enerji təhlükəsizliyi isə, enerji sisteminin tələb-təklif dəyişikliklərinə reaksiya vermək qabiliyyəti ilə bağlıdır [182, s.4-5].

1996-cı ildə MDB çərçivəsində keçirilən müşavirədə enerji təhlükəsizliyinə belə tərif verilmişdir: *"Enerji təhlükəsizliyi cəmiyyətin və iqtisadiyyatın elə bir vəziyyətidir ki, o, xarici və daxili təhdidlərin və sabitliyi pozan iqtisadi, sosial-siyasi, təbii və texnogen mənşəli amillərin mövcud olduğu şəraitdə milli enerji təhlükəsizliyinin zəruri səviyyəsini saxlamağa, bu amillərin mənfi təsirini aradan qaldırmağa və kompensasiya etməyə imkan verir"* [179, s.74].

Dünya Enerji Şurası (DEŞ) tərəfindən 2010-cu ildən başlayaraq hazırlanan və ölkələrin energetika sistemlərinin illik reytinqini özündə əks etdirən "Dünya Enerji Trilemma İndeksi"ndə (DETİ) "enerji təhlükəsizliyi" anlayışı fərqli izah olunur: *"Enerji təhlükəsizliyi ölkənin cari və gələcək enerji tələbatını etibarlı şəkildə ödəmək, həmçinin təchizatda minimal fasilələrlə sistem şoklarına tab gətirmək və tez bir zamanda bərpa olmaq qabiliyyətini ölçür. Bu ölçü daxili və xarici enerji mənbələrinin idarə edilməsinin səmərəliliyini, həmçinin enerji infrastrukturunun etibarlılığını və dayanıqlığını əhatə edir"* [260, s.80].

V.V.Zemskov və V.İ.Prasolova görə, enerji təhlükəsizliyi ölkə daxilində və xaricində enerji resurslarının əldə olunması və istifadəsi prosesində dövlət naraqlarına qarşı yönələn real və potensial təhdidlərin minimuma endirilməsi, təhdidlər reallaşdığı təqdirdə isə onların nəticələrini aradan qaldırmaq və ya

minimuma endirmək yolu ilə enerji ehtiyatlarının qorunması tədbirlərini özündə ehtiva edir [180, s.910-911].

Bəzi tədqiqatçılar enerji təhlükəsizliyini siyasi risklərin aşağı olduğu şəraitdə təchizatçıların şaxələndirilməsi ilə əlaqələndirirlər [229, s.6].

Enerji təhlükəsizliyinin polisemik təbiətə malik olduğuna, bu məsələ ilə bağlı konseptual yanaşmalara diqqət yetirən tədqiqatçı L.Çester onun beş təməl aspektini müəyyənləşdirmişdir:

1. enerji bazarlarının qeyri-sabitliyi, texniki və ya təhlükəsizlik problemlərindən qaynaqlanan risklər idarə olunur;
2. ölkədə enerji istehlakı, yerli resursların mövcudluğu və idxalından asalıdır;
3. "enerji təhlükəsizliyi" termini müəyyən strateji niyyətləri olan konsepsiyanı əks etdirir;
4. enerji təhlükəsizliyi ilə bağlı risklər zaman ölçüsünə malikdir, belə ki, qısamüddətli risklər ekstremal hava şəraiti, qəzalar, terror hücumları və texniki nasazlıqlar, uzunmüddətli risklər isə tələbatın ödənilməsi üçün təklifin və bazarlara təchizat çatdırmaq üçün infrastrukturun adekvatlığı ilə bağlıdır;
5. neft, qaz, atom və elektrik enerjisi bazarları bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir, bu səbəbdən də onların hər biri üçün təhlükəsizliklə bağlı xüsusi yanaşma təklif olunmalıdır [204, s.890-891].

Enerji təhlükəsizliyi ilə bağlı fikirlərin şaxələnməsi ölkələrin dünya enerji sektorundakı mövqeyi, yəni ixracatçı, tranzit və ya idxalatçı olması və onların bundan qaynaqlanan maraqlarının üst-üstə düşməməsi ilə bilavasitə əlaqəlidir. Məlumdur ki, əlverişli bazar konyukturası ixracatçı, enerji resurslarının əlça-

tanlığı isə idxalatçı ölkələrin nail olmaq istədikləri əsas hədəfdir. Eyni zamanda, tərif və yanaşmalardakı fərqlərə baxmayaraq, enerji təhlükəsizliyinin təmin olunması üçün vacib olan iki məsələdə konsensus mövcudur. Bunların birincisi, tələbata uyğun enerji resurslarının olması, ikincisi isə, enerji infrastrukturunun və logistikasının təhlükəsizliyinin təmin edilməsidir.

XX əsrin ortalarına qədər enerji təhlükəsizliyi sistemi üç meyara əsaslanırdı:

1. enerji daşıyıcılarının kifayət qədər mövcudluğu;
2. yanacaq mənbələrinin əlçatanlığı;
3. enerji təchizatı sisteminin xarici təsirlərə davamlılığı.

Sonrakı dövrdə enerji təhlükəsizliyi paradiqması ciddi dəyişikliyə məruz qalmasa da, texnoloji inkişaf və innovasiyaların tətbiqi enerji təhlükəsizliyi strategiyasının inkişafını, qeyd olunan meyarların yeni məzmun kəsb etməsini şərtləndirmişdir. Belə ki, mineral enerji mənbələri ilə yanaşı, yeni enerji mənbələrinə çıxış təmin olunmuş, daxili və xarici ticarətin inkişafı, qısa və uzunmüddətli ölçülərə malik əlçatanlığın genişlənməsi üçün şərait yaratmış və nəhayət, davamlılıq meyarı təkcə enerji ehtiyatlarını deyil, həmçinin elektrik şəbəkəsini xarici müdaxilələrdən qorumaq istiqamətində inkişaf etmişdir [215, s.6].

Enerji təhlükəsizliyinin etibarlı təmin olunmasında beynəlxalq enerji bazarlarının və idxal-ixrac əməliyyatlarını həyata keçirmək üçün müvafiq infrastrukturun mövcudluğu ilə yanaşı, siyasi subyektivlik və hökumətlərin həyata keçirdiyi siyasət əhəmiyyətli rol oynayır. Qlobal və regional enerji sektorunun mövcud vəziyyəti və perspektivləri barədə informasiyanı hərtərəfli təhlil etmədən, hədəfləri düzgün müəyyənləşdirmədən, ölkə üçün xarakterik olan siyasi və iqtisadi imkanları və

məhdudiyyətləri qiymətləndirmədən, qarşıya qoyulan strateji məqsədləri bir-biri ilə əlaqələndirmədən enerji təhlükəsizliyi ilə bağlı real, rasional, praqmatik və çevik siyasəti formalaşdırmaq mümkün deyildir. Beynəlxalq münasibətlərin mövcud vəziyyətinin və inkişaf meyllərinin, ayrı-ayrı ölkələr arasında və beynəlxalq təşkilatlar çərçivəsində cərəyan edən inteqrasiya və ya dezinteqrasiya proseslərinin nəzərə alınması, yəni dünyadakı vəziyyətin "swot" analizinin aparılması düzgün qərarların qəbul edilməsi uçun vacib şərtlərdəndir və bütün bunlar siyasi hakimiyyətin və dövlət aparatının peşəkarlığının və səriştəliliyinin böyük əhəmiyyət kəsb etdiyini göstərir. Bunu Cənubi Qafqaz respublikalarının davranışları əsasında əyani şəkildə sübut etmək mümkündür. Regional əməkdaşlığın gətirə biləcəyi siyasi və iqtisadi dividendləri proqnozlaşdıra bilməyən, imkanlarını və regiondakı proseslərin inkişaf dinamikasını düzgün qiymətləndirməyən, əvəzində qonşu dövlətlərə qarşı aqressiv siyasət aparan, etnik separatizmi və terrorçuluğu dəstəkləyən Ermənistan son nəticədə bütün regional layihələrdən kənarda qalmış, enerji müstəqilliyi də daxil olmaqla, iqtisadi müstəqilliyini itirmişdir. Bunun əksinə olaraq, Azərbaycan və Gürcüstan praqmatik siyasət yürüdərək, birincinin zəngin karbohidrogen ehtiyatlarının, ikincinin isə tranzit potensialının yaratdığı imkanlardan rasional istifadə etmiş və özlərinin enerji təhlükəsizliyinin etibarlı şəkildə təminatına nail olmuşlar.

Enerji təhlükəsizliyi siyasəti müxtəlif parametrlərdə həyata keçirilir. DETİ-də ölkələrin energetika sisteminin vəziyyəti 3 əsas, 1 əlavə parametr üzrə qiymətləndirilir. Əsas parametrlər enerji təhlükəsizliyi, enerjiyə əlçatanlıq və ekoloji dayanıqlığı, əlavə parametr isə ölkənin xüsusiyyətlərini əhatə edir.

Əsas parametrlərin hər biri enerji trilemma indeksinin 30 %-ni, əlavə parametr isə 10%-ni təşkil edir. Enerji təhlükəsizliyini səciyyələndirən göstəricilər iki qrupa bölünür. Ümumi indeksdə xüsusi çəkisi 12% olan birinci qrupa enerjiyə tələbat və onun təchizatının təhlükəsizliyi, xüsusi çəkisi 18% təşkil edən ikinci qrupa isə energetika sisteminin sabitliyi aiddir. Enerjiyə əlçatanlıq parametrini təşkil edən faktorlar üç qrupa bölünür. Birinci qrup, 12% xüsusi çəki ilə, ümumilikdə enerjiyə çıxışı, ikinci qrup, 6% xüsusi çəki ilə, keyfiyyətli enerjiyə çıxışı, üçüncü qrup isə, 12% xüsusi çəki ilə, enerji əlçatanlığını özündə ehtiva edir. Energetika sisteminin ekoloji dayanıqlığı ilə bağlı göstəricilər də üç qrupdan ibarət olub, 9% xüsusi çəkiyə malik olan birinci qrupa enerji resurslarının məhsuldarlığı, 9% xüsusi çəkiyə malik olan ikinci qrupa karbonsuzlaşdırma, 12% xüsusi çəkiyə malik olan üçüncü qrupa isə ətraf mühitin çirkləndirilməsi daxildir. Əlavə parametr üzrə göstəricilər dövlət sistemi və makroiqtisadi mühit ilə bağlı vəziyyəti özündə əks etdirir [174, s.192].

Enerji təhlükəsizliyi parametri üzrə ölkələrin reytinqi daxili enerji ehtiyatlarından istifadənin vəziyyəti, enerji sistemlərinin diversifikasiyası və karbonsuzlaşdırmanın səviyyəsi əsasında müəyyənləşdirilir. 2021-ci ildə bu parametr üzrə ilk onluğa Kanada, Finlandiya, Rumıniya, Latviya, İsveç, Braziliya, ABŞ, Bolqarıstan, Çexiya və Almaniya daxil olmuşdur [258, s.8].

Son illərdə Rusiya-Ukrayna müharibəsi, OPEC ölkələrinin hasilatı azaltması və qlobal xarakterli digər hadisələr dünyada enerji təhlükəsizliyi parametri üzrə müəyyən problemlər yaratmışdır. Enerji qiymətlərində volotillik, təchizat zəncirlərinin planlaşdırılması və əlaqələndirilməsidə problemlər, bəzi enerji

məhsullarının qıtlığı və s. amillər ciddi iqtisadi və siyasi təsirlər doğurmuşdur. Məsələn, Rusiya-Ukrayna müharibəsindən əvvəl Avropa ölkələrinin təbii qaz ilə təchizatında Rusiya əsas yer tuturdusa, müharibə səbəbindən vəziyyət dəyişmiş, ixracatçı əlverişli bir bazarı itirmiş, idxalatçılar isə istehlakı məhdudlaşdırmaq və alternativ mənbələr axtarmaq məcburiyyəti qarşısında qalmışlar. 2022-ci ildə Avropada 497,7 mlrd. $m^3$ təbii qaz istehlak edilmişdisə, 2023-cü ildə bu göstərici 6,9% azalaraq, 463,4 mlrd. $m^3$-ə bərabər olmuşdur. İstehlakda geriləmə Aİ-də daha çox olmuş və 7,1% təşkil etmişdir [237, s.39]. 2019-cu ildə Rusiyadan Avropaya boru kəmərləri vasitəsilə 179 mlrd. $m^3$, 2024-cü ildə isə cəmi 31 mlrd. $m^3$ təbii qaz ixrac edilmişdi. 2025-ci il yanvarın 1-dən Rusiya təbii qazının Ukrayna ərazisindən Avropaya tranziti tamamilə dayandırılmışdır. 2024-cü ildə Rusiya təbii qazının 15 mlrd. $m^3$-i Ukrayna ərazisindən keçən kəmər, 16 mlrd. $m^3$-i isə "Türk axını" vasitəsilə Avropa bazarına göndərilmişdi [236]. Deməli, 2019-2024-cü illərdə Rusiyadan Avropaya təbii qaz ixracı 5,7 dəfə azalmışdır, bu da Avropa ölkələrini əlavə tədbirlər görməyə, alternativ mənbələrə üz tutmağa vadar etmişdir. Rusiya və Avropanın enerji sektorunun konfiqurasiyasını kökündən dəyişən müharibənin yaratdığı reallıq bir daha sübut edir ki, təchizat və infrastrukturun sabitliyi enerji təhlükəsizliyinin təmin edilməsi üçün vacib şərtlərdəndir.

Enerjiyə əlçatanlıq parametri enerji resurslarına əhalinin ədalətli çıxışının təmin edilməsi ilə və bu resursların dəyər, qiymət və keyfiyyət ölçüləri arasındakı qarşılıqlı əlaqə ilə bağlıdır və enerji qiymətlərini əhali üçün münasib səviyyədə saxlamaq məqsədilə dövlət subsidiyalarından istifadə edilməsini, qeyd olunan ölçülərin hər hansı birində dəyişiklik baş verdikdə,

onun maliyyə və sosial nəticələrinin nəzərə alınmasını tələb edir. 2021-ci ildə ölkələrin bu parametr üzrə sıralanmasında ilk on yeri Qətər, Küveyt və BƏƏ (hər üçü 1-ci yeri), Oman və Bəhreyn (hər ikisi 2-ci yeri), İslandiya, Lüksemburq, İrlandiya, İsveçrə, Səudiyyə Ərəbistanı və İsrail (hər ikisi 7-ci yeri), ABŞ, Böyük Britaniya, Danimarka və Avstriya (hər ikisi 10-cu yeri) tutur [258, s.8-9].

Ekoloji dayanıqlılıq parametri enerji mənbələrinin şaxələndirilməsi, karbon emissiyalarının minimuma endirilməsi, enerjidən istifadənin səmərəliliyinin yüksəldilməsi istiqamətində fəaliyyəti əhatə edir. 2021-ci ildə bu sahədə ən yüksək nəticə göstərən ölkələr sırasında İsveçrə, Uruqvay, Norveç, Panama, Braziliya, Danimarka, Fransa, Albaniya və Böyük Britaniya yer almışdır. Həmin ildə, qeyd olunan parametr üzrə vəziyyətini yaxşılaşdıran ön ölkə sırasında Azərbaycan ikinci yeri tutmuşdur [258, s.9].

2023-cü ildə ölkələrin, DETİ-nin hər üç parametri üzrə ümumi nəticələr əsasında sıralanmasında ilk on yeri Danimarka və İsveç (hər ikisi 1-ci yeri), Finlandiya, İsveçrə, Kanada, Avstriya, Fransa, Almaniya və Estoniya (hər ikisi 7-ci yeri), Böyük Britaniya və Norveç (hər ikisi 8-ci yeri), Yeni Zellandiya və ABŞ tutmuşdur. Bu reytinq sıralamasında Xəzər-Qara dəniz hövzəsi ölkələrindən Rusiya 39-cu, Azərbaycan 42-ci, Gürcüstan və Türkiyə 46-cı, Qazaxstan 51-ci, Ermənistan 58-ci, İran isə 61-ci yerdə qərarlaşmışdır [260, s.76-78]. Azərbaycan region ölkələri arasında, Rusiyadan sonra ən yüksək göstəriciyə malikdir. Buna baxmayaraq, o, əvvəlki illərlə müqayisədə bir-neçə pillə geriləmişdir, belə ki, respublika 2020-ci ildə 36-cı [257, s.12], 2021 və 2022-ci illərdə isə 39-cu yeri tutmuşdu [258, s.42, 259, s.32]. Geriləmə, "yaşıl enerji"yə keçid istiqamətində əha-

miyyətli addımların atılmasına baxmayaraq, ekologiya sahəsində müəyyən problemlərin hələ də mövcud olması ilə bağlıdır.

Enerji təhlükəsizliyi siyasətinin effektivliyini təmin edən parametrlər sırasında enerji balansının diversifikasiyası əhəmiyyətli yer tutur. Bu parametr, ölkənin sabit və davamlı inkişafı, əhalinin rifahının yüksəldilməsi və beynəlxalq mövqelərinin möhkəmləndirilməsi üçün həlledici rollardan birini oynayan enerji təhlükəsizliyini etibarlı təmin etmək məqsədilə bir deyil, bir-birinə alternativ olan bir neçə mənbədən istifadə olunmasını, yəni həm enerji mənbələrinin, həm təchizatçıların, həm də çatdırma marşrut və vasitələrinin şaxələndirilməsini tələb edir.

Enerji balansının diversifikasiyası ölkədaxili və ölkəxarici olmaqla, iki səviyyədə həyata keçirilir. Ölkədaxili diversifikasiya enerji istehsalında ölkənin malik olduğu müxtəlif enerji mənbələrindən istifadəyə əsaslanır və bu sahədə düzgün siyasətin aparılması beynəlxalq enerji bazarlarında tələb və təklif arasında uyğusuzluğa gətirib çıxaran hadisələrin mənfi təsirinin azaldılmasına imkan verir. Məsələn, mavi yanacaq sahəsində xarici mənbələrdən aslılığın yüksək olduğu Aİ-də həyata keçirilən müəyyən qabaqlayıcı tədbirlər və Avropa qaz bazarını formalaşdırmaq siyasəti [213, s.29-33, 214, s.9-89, 239, s.24-29, 240, s.263-289] nəticəsində yaradılan strateji ehtiyatlar, son illərdə beynəlxalq təbii qaz bazarında yaranmış qeyri-sabitliyin mənfi təsirlərinin neytrallaşdırılmasında yardım etmişdir.

Enerji təhlükəsizliyinin möhkəmləndirilməsində daxili imkanların rolunu artırmaq üçün mövcud enerji növlərindən istifadənin balanslaşdırılması, enerji resurslarının sahələr üzrə bölgüsünün optimallaşdırılması, BOEM-dən istifadənin genişləndirilməsi, müasir texnologiyaların tətbiqi hesabına enerjiyə

tələbatın azaldılması istiqamətində fəaliyyəti intensivləşdirmək vacib şərtlərdəndir.

Ölkəxarici diversifikasiya enerji resurslarının idxalını, tranzitini və ölkəyə çatdırma vasitələrini əhatə edir. İxracatçılar və idxalatçılar arasında münasibətlərin tez-tez dəyişdiyi müasir dövrdə xarici mənbələrdən istifadə etməklə enerji təhlükəsizliyinin davamlı və etibarlı təminatı mürəkkəb bir problemə çevrilmişdir. Enerji resurslarının geosiyasi proseslərin elementinə çevrilməsi və enerji nəqli və təchizatı məsələlərinin siyasiləşdirilməsi vəziyyəti daha da çətinləşdirir. Bu səbəbdən də, enerji ehtiyatlarının hasilatı, ticarəti, tranziti və istehlakı ilə bağlı münaqişə və böhranların meydana gəlməsini əvvəlcədən proqnozlaşdırmağa, qarşısını almaq məqsədilə preventiv tədbirlər görməyə, baş verdiyi təqdirdə isə onları dərhal aradan qaldırmağa imkan verən beynəlxalq mühitin formalaşdırılması enerji sektorunda dövlətlərarası ədalətli münasibətlərin və əməkdaşlığın inkişafı üçün vacib şərtlərdəndir.

Müasir dövrdə ilkin enerji neft, təbii qaz, daş kömür, nüvə enerjisi və BOEM-dən alınır. Sonunculardan istifadənin miqyası ildən-ilə genişlənsə də, ilkin enerji istehsalında qalıq yanacaq növləri əsas rol oynamaqda davam edir.

2020-ci ildə dünyada 557 eksacoul (1 eksacoul = 277777777777.78 kVt.s), 2023-cü ildə isə bundan 63 eksacoul və ya təxminən 10% çox, yəni 620 eksacoul ilkin enerji istehlak olunmuşdur. İlkin enerjinin 2020-ci ildə 174 eksacoulu və ya 31%-i neft, 151 eksacoulu və ya 27%-i daş kömür, 138 eksacoulu və ya 25%-i isə təbii qaz mənbələrindən əldə olunduğu halda, 2023-cü ildə bu göstəricilər, mənbələr üzrə müvafiq olaraq, 196 eksacoul və ya 32%, 164 eksacoul və ya 26%, 144 eksacoul və ya

23% təşkil etmişdir. Deməli, 2020-ci ildə ilkin enerjinin 83%-i, 2023-cü ildə isə 81%-i qalıq yanacaq növləri hesabına əldə olunmuşdur. Qeyd olunan illər ərzində bərpa olunan enerji istehlakı 70 eksacouldan 91 eksacoula qədər və ya təxminən 23%, nüvə enerjisi istehlakı isə 24 eksacouldan 25 eksacoula qədər və ya 4% artmışdır. 2020-ci ildə ümumi istehlakda bərpa olunan enerjinin payı 13%, nüvə enerjisinin payı 4%, 2023-cü ildə, müvafiq olaraq, 15% və 4% təşkil etmişdir. İlkin enerji istehsalında Asiya-Sakit okean hövzəsi daş kömürdən, Şimali və Cənubi Amerika, Avropa, keçmiş SSRİ məkanı, Yaxın Şərq və Afrika isə neft və təbii qazdan aslı vəziyyətdədir. Avropa və Amerikada enerji təhlükəsizliyini təmin etmək məqsədilə neft və təbii qazla yanaşı, nüvə enerjisindən və BOEM-dən də geniş istifadə olunduğu halda, keçmiş SSRİ məkanı və Afrikada neft və təbii qazdan, Asiya-Sakit okean hövzəsi ölkələrində neft və daş kömürdən istifadəyə üstünlük verilir. Yaxın Şərqdə isə ilkin enerji yalnız neft və təbii qazdan əldə olunur [203, s.10-12, 237, s.6-14]. Mövcud reallıq ölkələrin enerji təhlükəsizliyinin hələ də onların qalıq yanacaq mənbələrinə çıxış imkanlarından aslı olduğunu sübut edir.

Dünyada mövcud olan qalıq yanacaq ehtiyatlarının coğrafi cəhətdən qeyri-bərabər yerləşməsi, neft və təbii qaz bazarlarında iri dövlətlərin dominantlığı ölkələrin çoxu üçün diversifikasiyanı və enerji təhlükəsizliyinin etibarlı təminatını çətinləşdirir. Bunu dünyada sübut olunmuş neft və təbii qaz ehtiyatlarının regionlar və ölkələr üzrə yerləşməsini, istehsalçılar və istehlakçıların mövqelərini özündə əks etdirən statistik məlumatlar da sübut edir.

**Cədvəl 1.1.1**

**2015-2023-cü illərdə dünyada sübut olunmuş neft və təbii qaz ehtiyatlarının regionlar üzrə miqdarı və ümumi ehtiyatların tərkibində regionların payı**

| | **Neft (mlrd. ton) Xüsusi çəki (%-lə)** | | | **Təbii qaz (trln. m³) Xüsusi çəki (%-lə)** | | |
|---|---|---|---|---|---|---|
| | **2015** | **2020** | **2023** | **2015** | **2020** | **2023** |
| **Dünya üzrə** | **239,4 (100%)** | **244,5 (100%)** | **250,7 (100%)** | **186,9 (100%)** | **188,2 (100%)** | **208,2 (100%)** |
| Avropa | 1,9 (0,7%) | 1,8 (0,8%) | 1,5 (0,6%) | 3,3 (1,7%) | 3,2 (1,7%) | 3,4 (1,6%) |
| Keçmiş SSRİ məkanı | 19,1 (7,9%) | 19,9 (8,4%) | 19,8 (7,9%) | 53,5 (28,7%) | 56,6 (30,1%) | 65,7 (31,6%) |
| Şimali Amerika | 35,9 (14,9%) | 36,1 (14,0%) | 35,7 (14,2%) | 12,8 (6,8%) | 15,2 (8,1%) | 21,3 (10,3%) |
| Mərkəzi və Cənubi Amerika | 51,0 (21,4%) | 50,8 (18,7%) | 53,6 (21,4%) | 7,6 (4,1%) | 7,9 (4,1%) | 7,3 (3,5%) |
| Yaxın Şərq | 108,7 (45,5%) | 113,2 (48,3%) | 118,0 (47,1%) | 80,0 (42,8%) | 75,8 (40,3%) | 83,1 (39,9%) |
| Asiya-Sakit okean hövzəsi | 5,7 (2,4%) | 6,1 (2,6%) | 6,3 (2,5%) | 15,6 (8,4%) | 16,6 (8,8%) | 11,6 (5,5%) |
| Afrika | 17,1 (7,2%) | 16,6 (7,2%) | 15,8 (6,3%) | 14,1 (7,5%) | 12,9 (6,9%) | 15,8 (7,6%) |

*Cədvəl "BP Statistical Review of World Energy" statistic məcmuəsinin 2016 və 2021-ci illər, "World Energy Review" statistic məcmuəsinin 2024-cü il nəşrinin materialları əsasında tərtib edilmişdir.*

Cədvəldən göründüyü kimi, dünyada əsas neft və təbii qaz ehtiyatlarının 40-45 %-i Yaxın Şərqdə yerləşir. Neft ehtiyatlarına görə Amerika qitəsi, təbii qaz ehtiyatlarına görə isə keçmiş SSRİ məkanı nisbətən əlverişli vəziyyətdədir. Dünya neft

ehtiyatlarının dörddə üç hissəsindən çoxu Yaxın Şərq regionu və Amerika qitəsində, təbii qaz ehtiyatlarının isə üçdə iki hissəsindən çoxu Yaxın Şərq və keçmiş SSRİ məkanında yerləşir.

**Cədvəl 1.1.2**

**2015-2023-cü illərdə dünyada ən çox neft və təbii qaz ehtiyatlarına malik olan on ölkənin ərazisindəki ehtiyatların miqdarı (mlrd. tonla)**

| | Neft (mlrd. ton) | | | Təbii qaz (trln. $m^3$) | | |
|---|---|---|---|---|---|---|
| | 2015 | 2020 | 2023 | 2015 | 2020 | 2023 |
| Rusiya | 14,0 | 14,8 | 14,8 | 32,3 | 37,4 | 47,1 |
| Türkmənistan | | | | 17,5 | 13,6 | 13,9 |
| ABŞ | 6,6 | 8,2 | 6,0 | 10,4 | 12,6 | 18,9 |
| Kanada | 27,8 | 27,1 | 30,5 | | | |
| Venesuela | 47,0 | 48,0 | 47,8 | 5,6 | 6,3 | 5,5 |
| İran | 21,7 | 21,7 | 28,6 | 34,0 | 32,1 | 33,9 |
| İraq | 19,3 | 19,6 | 19,6 | | | |
| Səudiyyə Ərəbistanı | 36,6 | 40,9 | 36,7 | 8,3 | 6,0 | 9,5 |
| Küveyt | 14,0 | 14,0 | 14,0 | | | |
| BƏƏ | 13,0 | 13,0 | 15,0 | 6,1 | 5,9 | 8,2 |
| Qətər | | | | 24,5 | 24,7 | 23,8 |
| Liviya | 6,3 | 6,3 | 6,2 | | | |
| Əlcəzair | | | | 4,5 | - | 4,5 |
| Nigeriya | | | | 5,1 | 5,5 | 5,9 |
| Çin | | | | | 8,4 | |

*Cədvəl "BP Statistical Review of World Energy" statistic məcmuəsinin 2016 və 2021-ci illər, "World Energy Review" statistic məcmuəsinin 2024-cü il nəşrinin materialları əsasında tərtib edilmişdir.*

Cədvəldən aydın olur ki, Venesuela, Səudiyyə Ərəbistanı və Kanada neft ehtiyatları baxımından ən zəngin ölkələrdir və

dünya neft ehtiyatlarının 45%-dən çoxu onların ərazisində yerləşir. Təbii qaz sektorunda lider ölkələr isə, dünya üzrə ehtiyatların təxminən 50%-nə malik olan Rusiya, İran və Qətərdir.

Hal-hazırda Rusiya, İran və Venesuelanın sanksiya təzyiqləri altında olması dünya neft-qaz bazarlarında dalğalanmalara səbəb olur və qlobal miqyasda enerji təhlükəsizliyinin təmin olunmasına təsirsiz qalmır.

**Cədvəl 1.1.3**

**2015-2023-cü illərdə dünyada regionlar üzrə hasil və istehlak olunan neft və təbii qazın miqdarı**

| | **Neft (mln. ton)** | | | **Təbii qaz (mlrd. $m^3$)** | | |
|---|---|---|---|---|---|---|
| | **2015** hasilat istehlak | **2020** hasilat istehlak | **2023** hasilat istehlak | **2015** hasilat istehlak | **2020** hasilat istehlak | **2023** hasilat istehlak |
| **Dünya üzrə** | **4361,9**<br>**4331,3** | **4165,1**<br>**4160,6** | **4514,1**<br>**4691,1** | **3538,6**<br>**3468,6** | **3853,8**<br>**3822,7** | **4059,1**<br>**4010,2** |
| Avropa | 169,2<br>674,7 | 167,1<br>622,7 | 152,1<br>676,6 | 238,3<br>460,7 | 218,6<br>541,1 | 204,3<br>463,4 |
| Keçmiş SSRİ məkanı | 677,4<br>187,5 | 660,1<br>195,6 | 675,2<br>218,7 | 751,4<br>542,7 | 802,4<br>538,2 | 773,6<br>596,0 |
| Şimali Amerika | 910,3<br>1036,3 | 1060,0<br>937,9 | 1207,5<br>1052,1 | 984,0<br>963,6 | 1109,9<br>1030,9 | 1261,1<br>1104,8 |
| Mərkəzi və Cənubi Amerika | 396,0<br>322,7 | 300,3<br>253,7 | 378,1<br>310,7 | 178,5<br>174,8 | 152,9<br>145,6 | 162,0<br>161,7 |
| Yaxın Şərq | 1412,4<br>425,7 | 1297,3<br>375,2 | 1413,9<br>436,6 | 617,9<br>490,2 | 686,6<br>552,3 | 712,7<br>577,7 |

**Cədvəl 1.1.3-in ardı**

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Asiya-Sakit okean hövzəsi | 398,6<br>1501,4 | 353,1<br>1603,8 | 345,7<br>1793,7 | 556,7<br>701,1 | 652,1<br>861,6 | 691,8<br>935,4 |
| Afrika | 398,0<br>183,0 | 327,3<br>171,7 | 341,5<br>202,7 | 211,8<br>135,5 | 231,3<br>153,0 | 253,6<br>171,2 |

*Cədvəl "BP Statistical Review of World Energy" statistic məcmuəsinin 2016 və 2021-ci illər, "Statistical Review of World Energy" statistic məcmuəsinin 2024-cü il nəşrinin materialları əsasında tərtib edilmişdir.*

Cədvəldə yer almış statistik materiallara əsasən qeyd etmək olar ki, ehtiyatları çox olan regionlar, məntiqi olaraq, neft-qaz hasilatında da yüksək nəticə göstərirlər. İstehlak üzrə isə vəziyyət bir qədər fərqlidir. Amerika qitəsində hasilat ilə istehlak arasında müəyyən uyğunluq olduğu halda, keçmiş SSR-i məkanı, Yaxın Şərq və Afrikada hasilat istehlakdan, Avropa və Asiya-Sakit okean hövzəsində isə istehlak hasilatdan çoxdur.

Dünyada neft istehlakı sahəsində ABŞ və Çin, təbii qaz istehlakı sahəsində isə ABŞ, Rusiya və Çin liderlik edirlər. 2023-cü ildə dünya üzrə neft istehlakının 18%-i ABŞ-nin, 17%-i Çinin, təbii qaz istehlakının isə 22%-i ABŞ-nin, 11%-i Rusiyanın, 10%-i Çinin payına düşürdü [237, s.27, s.39].

Daş kömürün dünya üzrə ehtiyatları 2001-ci ildə 984,4 mlrd. tona, 2005-ci ildə 909,0 mlrd. tona, 2010-cu ildə 860,9 mlrd. tona bərabər idisə, 2020-ci ildə 1,0 trln. tondan çox olmuşdur. Ehtiyatların 23-27%-i ABŞ-nin, 15-18%-i Rusiyanın payına düşür. XXI əsrin ilk illərində daş kömür hasilatına görə ABŞ dünyada birinci yerdə olsa da, sonrakı illərdə əvvəlcə Çin, sonra isə Hindistan onu arxada qoymuşdur. 2001-ci ildə dünya

üzrə hasil olunmuş 2,2 mlrd. ton daş kömürün 26,2%-i ABŞ-nin, 24,3%-i Çinin, 7,1%-i Hindistanın payına düşürdüsə, 2023-cü ildə hasilat 9,0 mlrd. tona bərabər olmuş, bunun da 51,7%-i Çinin, 11,1%-i Hindistanın, 5,7%-i isə ABŞ-nin hesabında idi. Eyni mənzərə istehlak sahəsində də müşahidə olunur. 2001-ci ildə dünya üzrə istehlak olunmuş 2,2 mlrd. ton daş kömürün 24,6%-i ABŞ-nin, 23,0%-i Çinin, 7,6%-i Hindistanın payına düşürdüsə, 2023-cü ildə ümumi hasilat 8,2 mlrd. ton, bunun tərkibində Çinin payı 56,0%, Hindistanın payı 13,3%, ABŞ-nin payı 4,9% təşkil etmişdir. Ümumilikdə, 2023-cü ildə dünyada daş kömürün 82,8%-i Asiya-Sakit okean hövzəsi ölkələrində, 5,4%-i Şimali Amerikada, 5,1%-i Avropada, 3,3%-i MDB ölkələrində, 2,5%-i Afrikada, 0,7%-i Mərkəzi və Cənubi Amerikada, 0,2%-i Yaxın Şərq ölkələrində istehlak edilmişdir [199, s.30, s.32-33, 200, s.32, 201, s.32, 203, s.46, 237, s.47, s.51].

Müasir dövrdə enerji təhlükəsizliyini təmin etmək məqsədilə qalıq yanacaq növlərindən geniş istifadə olunması ciddi ekoloji problemlərə yol açır. Dünyada enerjiyə tələbatın artdığı şəraitdə mineral enerji mənbələrinin istismarının intensivləşməsi karbon emissiyası səviyyəsinin yüksəlməsinə gətirib çıxarır. Antropogen amillər ətraf mühitin çirklənməsində, istixana effektinin yaranmasında və qlobal iqlim dəyişikliklərində böyük rol oynayır. Yer planetində temperaturun artması bəşəriyyəti ciddi təhdid və risklərlə üz-üzə qoymuşdur və proseslərin belə davam edəcəyi təqdirdə oykumenanın sərhədlərinin daralacağı, onun müəyyən hissəsində insan yaşayışı və fəaliyyəti üçün qeyri-əlverişli mühitin formalaşacağı artıq aksiomaya çevrilmişdir.

Məlumdur ki, əsrlər boyu insan fəaliyyəti nəticəsində ətraf mühitə ziyan dəymiş, onun çirkləndirilməsi müşahidə olunmuş-

dur. XIX əsrdə sənaye inqilabının baş verməsi ilə ekoloji problemlərin dairəsi də genişlənmiş, onun mənfi təsirləri isə ildən-ilə artmışdır. İstehsal prosesində və nəqliyyatda mineral yanacaq növlərindən istifadə olunması atmosferə böyük miqdarda zəhərli tullantıların atılması və dünyada ekoloji tarazlığın pozulması ilə nəticələnmişdir.

1850-ci ildən 2005-ci ilədək olan dövrdə dünyada kumulyativ emissiyaların miqdarı təxminən 1,1 trln. ton olmuşdur. Bunun 750,1 mlrd. tonu və ya təxminən 65%-i yüksək gəlirli ölkələrin, 395,1 mlrd. tonu və ya təxminən 33%-i orta gəlirli ölkələrin, cəmi 24,0 mlrd. tonu və ya təxminən 2%-i isə aşağı gəlirli ölkələrin payına düşürdü [178, s.362-363].

Zaman keçdikcə ətraf mühitin çirkləndirilməsində yüksək gəlirli ölkələrin payının azalması, orta gəlirli ölkələrin payının isə artması müşahidə olunur. Məsələn, 1990-cı ildə dünyada enerji ilə əlaqəli emissiyalar və karbon intensivliyi nəticəsində alınan karbon dioksid tullantılarının miqdarı 20,6 mlrd. tona bərabər olmuşdusa, bundan 15 il sonra, yəni 2005-ci ildə 26,5 mlrd. tona çatmışdı. Tullantıların 1990-cı ildə 10,9 mlrd. tonu (53%), 2005-ci ildə 13,2 mlrd. tonu (50%) yüksək gəlirli, illər üzrə müvafiq olaraq, 9,1 mlrd. tonu (44%) və 12,6 mlrd. tonu (47%) orta gəlirli, 549 mln. tonu (3%) və 707 mln. tonu (3%) isə aşağı gəlirli ölkələrin hesabında idi [178, s.362-363]. Müşahidə olunan bu tendensiya yüksək gəlirli ölkələrdə ekoloji təmiz texnologiyalara daha geniş yer verilməsi ilə bağlıdır.

Qeyd olunan illərdə ətraf mühiti karbon dioksid tullantıları ilə çirkləndirən ölkələr sırasında liderlik ABŞ və Çinə aid olmuşdur. 1990-cı ildə ABŞ-də 4,8 mlrd. ton, Cində isə 2,2 mlrd. ton karbon dioksid ətraf mühitə atıldığı halda, 2005-ci ildə tul-

lantıların miqdarı ABŞ-də 19,9% artaraq 5,8 mlrd. tona, Çində isə 1,2 dəfə artaraq 5,0 mlrd. tona çatmışdır. Nəticədə, 2005-ci ildə dünya üzrə karbon dioksid tullantılarının 22%-i ABŞ-nin, 19%-i Çinin payına düşmüşdür [178, s.362-363]. Çində artım tempinin yüksək olmasının əsas səbəblərindən biri sənaye istehsalının nisbətən aşağı texnoloji səviyyəli müəssisələrdə həyata keçirilməsi ilə bağlıdır.

Armosferdə istiliyin artmasına birbaşa təsir göstərən istixana qazı emissiyaları energetika sektorunda daha yüksdkdir. 2007-2008-ci illərdə dünya üzrə emissiyaların 26%-i energetika sektorunun, 19%-i sənayenin, 17%-i torpaqdan istifadə dəyişiklikləri və meşə təsərrüfatının, 14%-i kənd təsərrüfatının, 13%-i nəqliyyatın, 8%-i kommersiya və yaşayış binalarının istismarının, 3%-i isə tullantılar və çirkab suların hesabına yaranmışdır. Dünya və ölkə qrupları üzrə göstəriciləri müqayisə etdikdə aydın olur ki, yuxarıda qeyd olunan göstəricilər orta gəlirli ölkələrin göstəriciləri ilə uyğunluq təşkil etsə də, digər ölkə qruplarının göstəricilərindən ciddi çəkildə fərqlənir. Belə ki, yüksək gəlirli ölkələrdə emissiyaların 36%-i energetika, 23%-i nəqliyyat, 15%-i sənaye, 8%-i kənd təsərrüfatı, 18%-i digər sahələrin, aşağı gəlirli ölkələrdə isə 50%-i torpaqdan istifadə dəyişiklikləri və meşə təsərrüfatı, 20%-i kənd təsərrüfatı, 7%-i sənaye, 5%-i energetika, 4%-i nəqliyyat, 14%-i digər sahələrin payına düşür [178, s.195]. Başqa sözlə, yüksək və orta gəlirli ölkələrdə istixana qazı emissiyalarında energetika sektoru birinci yeri tutur.

İlkin enerji istehsalı prosesində karbon emissiyaları sonrakı illərdə də, COVID-19 pandemiyası səbəbindən iqtisadi fəallığın aşağı düşdüyü 2020-ci il istisna olmaqla, artmaqda davam etmişdir.

**Cədvəl 1.1.4**

**2015-2023-cü illərdə dünyada və ayrı-ayrı regionlarda enerji istehsalı prosesində atmosferə atılan karbon-dioksidin miqdarı (mlrd. tonla)**

| | Dünya üzrə | Asiya-Sakit okean hövzəsi | Şimali Amerika | Avropa | Yaxin Şərq | MDB | Mərkəzi və Cənubi Amerika | Afrika |
|---|---|---|---|---|---|---|---|---|
| 2015 | 32,7 | 15,8 | 6,1 | 4,2 | 2,0 | 1,9 | 1,3 | 1,2 |
| 2016 | 32,7 | 15,7 | 6,0 | 4,2 | 2,0 | 2,0 | 1,3 | 1,2 |
| 2017 | 33,3 | 16,2 | 6,0 | 4,3 | 2,0 | 2,0 | 1,3 | 1,2 |
| 2018 | 34,0 | 16,8 | 6,1 | 4,2 | 2,0 | 2,1 | 1,2 | 1,2 |
| 2019 | 34,0 | 17,2 | 6,0 | 4,0 | 2,0 | 2,0 | 1,2 | 1,3 |
| 2020 | 32,3 | 16,9 | 5,3 | 3,6 | 2,0 | 1,9 | 1,1 | 1,2 |
| 2021 | 34,0 | 17,6 | 5,7 | 3,8 | 2,0 | 2,0 | 1,2 | 1,3 |
| 2022 | 34,5 | 18,0 | 5,7 | 3,7 | 2,2 | 2,1 | 1,2 | 1,3 |
| 2023 | 35,1 | 18,8 | 5,6 | 3,5 | 2,2 | 2,1 | 1,3 | 1,3 |

*Cədvəl "Statistical Review of World Energy" statistic məcmuəsinin 2024-cü il nəşrinin materialları əsasında tərtib edilmişdir.*

Cədvəldən göründüyü kimi, 2015-ci il ilə müqayisədə 2023-cü ildə dünyada atmosferə 2,4 mlrd. ton çox karbon dioksid atılmışdır. Daş kömürdən istifadə səviyyəsinin yüksək olduğu Asiya-Sakit okean hövzəsi karbon emissiyalarının ən çox baş verdiyi regiondur. 2015-ci ildə dünya üzrə karbon emissiyalarının 48,3%-i, 2023-cü ildə isə artıq 53,5%-i bu regionun payına düşürdü.

Ətraf mühiti çirkləndirən ölkələr sırasında Çin birinci yerdədir. 2023-cü ildə dünyada atmosferə atılan karbon dioksidin 31,9%-i (11,2 mlrd. ton) bu ölkənin hesabında idi. İkinci yerdə 13,2%-lə (4,6 mlrd. ton) ABŞ, üçüncü yerdə 8,0%-lə (2,8 mlrd. ton) Hindistan, dördüncü yerdə isə 4,6%-lə (1,6 mlrd. ton) Ru-

siya yer almışdır [237, s.16]. Yəni, dünya üzrə karbon qazı emissiyalarının təxminən 60%-i bu dörd ölkənin payına düşür.

Onu da nəzərə almaq lazımdır ki, dünyada bərpa olunan enerji üzrə istehsal güclərinin çox hissəsi Asiyada yerləşir. 2022-ci ildə dünya üzrə bu güçlərin 48%-i Asiyanın, 21%-i Avropanın, 15%-i Şimali Amerikanın və 8%-i Cənubi Amerikanın payına düşürdü. Həmin ildə dünyada bərpa olunan enerji sektorunda çalışan 13,7 mln. nəfərin üçdə iki hissəsi Asiyada, 41%-i isə konkret olaraq Çində çalışırdı [181, s.91-92]. Buna baxmayaraq, əldə olunan alternativ enerji ölkələrin tələbatının çox az hissəsini ödəyir, bu da qalıq yanacaq növlərinə tələbatı yüksək səviyyədə saxlayır.

Hər bir ölkə, özünün enerji təhlükəsizliyini malik olduğu imkanlar hesabına təmin etməyə daha çox çalışır, yəni yaxın perspektivdə ilkin enerji istehsalında qalıq enerji növlərindən imtina ediləcəyi real deyildir. Buna baxmayaraq, qlobal iqlim dəyişikliklərinin qarşısını almaq və bəşəriyyəti istixana effektindən qorumaq, eyni zamanda enerji təhlükəsizliyini düha etibarlı təmin etmək üçün "yaşıl enerji"yə keçidin stimullaşdırılması və sürətləndirilməsi ən optimal yoldur. Buna nail olmaq üçün isə, bərpa olunan enerji sahəsinə sərmayə qoyluşunun artırılması həlledici amildir.

2004-cü ildə dünyada bərpa olunan enerji sektoruna 32 mlrd. dollar sərmayə yatırılmışdısa, 2019-cu ildə bu, 282,2 mlrd., 2022-ci ildə isə 495 mlrd. dollara bərabər olmuşdur [180, s.912, 181, s.92].

Şübhəsiz ki, BOEM-dən istifadəni genişləndirmək məqsədilə həyata keçirilən layihələrin maliyyə yükünü, atmosferi karbon-dioksid ilə daha çox zəhərləyən iri dövlətlər çəkməlidir-

lər, lakin praktikada bu müşahidə olunmur. 2024-cü ilin noyabrında Bakıda keçirilən COP 29-da çıxışı zamanı, BMT-nin baş katibi A.Quterreşin qeyd etdiyi kimi, *"Bütün bunlar və digər faciələr eyni zamanda faktiki olaraq insanların səbəb olduğu iqlim dəyişmələri ucbatından baş verir. Burada hər hansı bir ölkə istisna deyil. Bu şoklar bütün xərcləri artırır... Bütün bunlar həqiqətən də bir növ qaçılmaz ədalətsizliyə səbəb olur, bunu varlılar yaradır, yoxsullar isə onun haqqını ödəyirlər"* [61, s.5].

"Yaşıl istiqrazlar" bərpa olunan enerji mənbələrinə keçidin stimullaşdırılması məqsədilə tətbiq edilən faydalı alətlərdəndir. Bu istiqrazların buraxılması və emissiyası təkcə BOEM-dən rasional istifadə etməklə enerji istehsalını artırmaq, ətraf mühiti sağlamlaşdırmaq, "yaşıl dəhliz"lər yaratmaq baxımından deyil, maliyyə sistemini və infrastrukturunu təkmilləşdirmək və inkişaf etdirmək baxımından da əhəmiyyətlidir.

2020-ci ilə qədər dünyada dəyəri 226 mlrd. dollara bərabər olan "yaşıl istiqraz" maliyyə bazarlarına çıxarılmışdır. Bu istiqrazların əsas emitenti, yəni emissiyanı həyata keçirən struktur Dünya Bankıdır. "Yaşıl enerji" sektoru dövriyyəyə buraxılan istiqrazların ən çox tətbiq olunduğu sahədir. Məsələn, 2018-ci ildən 2021-ci ilin ikinci yarısına qədər olan dövrdə buraxılan və dəyəri 144 mlrd. dollara bərabər olan 164 "yaşıl istiqraz"ın 30%-dən çoxu BOEM və enerji səmərəliliyi ilə bağlı layihələrin dəstəklənməsinə yönəldilmişdir. Sonrakı yerləri 27%-lə təmiz nəqliyyat sektoru, 15 %-lə kənd təsərrüfatı və s. tutur [47, s.57].

"Yaşıl istiqraz" bazarında liderlik, iqtisadi potensialı güclü olan ölkələrin əlindədir. Məsələn, 2021-ci ilin birinci yarısında ABŞ 37,59 mlrd., Almaniya 29,09 mlrd., Fransa 23,68 mlrd., Çin 21,97 mlrd., İspaniya 11,69 mlrd., Hollandiya 11,46 mlrd., İsveç

11,13 mlrd., İtaliya 6,05 mlrd., Cənubi Koreya 5,89 mlrd., Böyük Britaniya 5,55 mlrd., Yaponiya 5,54 mlrd., Norveç 5,52 mlrd., Sinqapur 5,25 mlrd., Hindistan 4,59 mlrd., Kanada 4,52 mlrd. dollar dəyərində “yaşıl istiqraz” buraxmışdır [47, s.58]. Qeyd olunan 15 ölkə tərəfindən buraxılan istiqrazların 178,39 mlrd. dollara bərabər olan dəyərinin 21%-i təkcə ABŞ-nin, 63%-i isə birlikdə ABŞ, Almaniya, Fransa və Çinin payına düşür. Bu rəqəmlər iqtisadi cəhətdən aparıcı ölkələrin “yaşıl dünya”da da güclü mövqe qazandığını və qlobal enerji təhlükəsizliyinin təmin olunmasının həlledici səviyyədə onlardan aslı olduğunu sübut edən faktlardan biridir. Onu da qeyd etmək lazımdır ki, bu istiqrazların bazarda dövriyyəsi onların sahiblərinə dividendlər gətirir.

Ümumi nəticə ondan ibarətdir ki, enerji təhlükəsizliyi müasir dövrdə dünya birliyinin gündəliyində yer alan ən vacib məsələlərdən biridir. Ölkədaxili və beynəlxalq parametrlərə malik olan enerji təhlükəsizliyi enerji resurslarının mövcudluğu və əlçatanlığı, onları daşıma sistemlərinin funksionallığı və təhlükəsizliyi kimi amillərdən çox aslıdır. Hal-hazırda dünyada ilkin enerji istehsalı qalıq yanacaq növlərindən istifadəyə daha çox əsaslanır və bu da öz növbəsində ciddi ekoloji problemlərin və iqlim dəyişikliklərinin meydana gəlməsi ilə müsaiyət olunur. Qalıq yanacaq mənbələrinin regionlar üzrə qeyri-bərabər yerləşməsi nəticəsində ölkələr enerji daşıyıcılarının ixracatçısı və idxalatçısı olmaqla iki yerə bölünür və sonuncuların enerji təhlükəsizliyi səviyyəsi dünya enerji bazarlarındakı konyukturadan, tələb və təklifin nisbətindən və qiymətlərdən aslıdır. Qalıq yanacaq növlərindən istifadə və ölkələrin enerji təhlükəsizliyi ilə əlaqədar yaranan problemlərin həlli üçün “yaşıl enerji”yə keçidin sürətləndirilməsi və miqyasının genişləndirilməsi zəruri şərtlərdən biridir.

## *1.2. Azərbaycan Respublikasının enerji təhlükəsizliyi siyasətinin təşəkkülü, inkişafı və hüquqi əsasları*

Enerji təhlükəsizliyi Azərbaycanın milli təhlükəsizlik siyasətinin tərkib hissəsi olub, onun daxili və xarici siyasətinin əsas strateji istiqamətlərindən birini təşkil edir. Məlumdur ki, energetika sektoru istənilən ölkənin iqtisadiyyatının vacib tərkib hissəsidir, onun təsərrüfat həyatının inkişafını təmin edən hərəkətverici qüvvədir. Tarixən dünyanın neft mərkəzlərindən biri kimi tanınan, XIX əsrin ortalarında ilk dəfə sənaye üsulu ilə neft hasilatını həyata keçirən Azərbaycan müasir dövrdə də zəngin enerji resurslarına və böyük enerji potensialına malikdir. Respublikada reallaşdırılan enerji siyasətinin əsas məqsədi bu resurs və potensialdan səmərəli istifadə etmək, əldə olunan gəlirləri ölkənin davamlı inkişafının, təhlükəsizliyinin və xalqın rifahının təmin olunmasına yönəltməkdən ibarətdir.

Azərbaycanın enerji təhlükəsizliyi siyasətinin formalaşması, 1991-ci ildə dövlət müstəqilliyi bərpa edildiyi andan zərurət olaraq meydana gəlmişdir. Keçən əsrin 80-ci illərinin sonlarında SSRİ-də mərkəzdənqaçma meyllərinin təşəkkülü və sürətlə genişlənməsi nəticəsində, əvvəlcə, bu vaxta qədər mövcud olmuş siyasi və sosial-iqtisadi sistem tənəzzülə uğramış, sonda isə, İttifaq dövləti parçalanaraq, tarix səhnəsini tərk etmişdir. Təməlində kooperasiya münasibətləri və qarşılıqlı asılılıq dayanan vahid iqtisadi kompleksin parçalanması, müstəqillik əldə etmiş keçmiş sovet respublikaları arasındakı əlaqə və kommunikasiyaların qırılmasına gətirib çıxarmış və onları, həyatın bütün sahələrini əhatə edən dərin böhranla üz-üzə qoymuşdu. Vəziyyətdən çıxış yollarını isə hər respublika özünün imkanlarına və mövqeyinə uyğun olaraq axtarırdı.

Yeni reallıqlarda Azərbaycanın sosial-iqtisadi siyasətinin əsasında onun malik olduğu karbohidrogen ehtiyatlarının dayanacağı apriori məlum idi, lakin müstəqilliyin ilk illərində mövcud olmuş qeyri-sabit siyasi vəziyyət, ölkə rəhbərliyinin səriştəsizliyi və peşəkar kadrların proseslərdən kənarlaşdırılması real vəziyyəti düzgün qiymətləndirərək rasional qərarlar qəbul etməyə imkan vermirdi. Keçmiş SSRİ respublikaları ilə ənənəvi əlaqələrin pozulması, texnoloji gerilik, maliyyə çatışmazlığı kimi obyektiv xarakterli problemlər isə iqtisadiyyatın, o cümlədən enerji sektorunun üzləşdiyi böhranı daha da dərinləşdirirdi.

Mövcud vəziyyətdə Azərbaycanın enerji təhlükəsizlinin təmin olunması beynəlxalq əməkdaşlıq olmadan və enerji sahəsində ixtisaslaşan transmilli şirkətləri cəlb etmədən mümkün deyildi, lakin işləri bu istiqamətdə inkişaf etdirmək yolunda da respublika müəyyən maneələrlə qarşılaşır, xüsusilə də Rusiyanın təzyiqlərinə məruz qalırdı. Postsovet məkanı öz təsir dairəsində saxlamağa çalışan Kreml xarici neft-qaz şirkətləri ilə əməkdaşlıq qurmağa çalışan Azərbaycana qarşı siyasi, hərbi, iqtisadi və s. təzyiq rıçaqlarından istifadə edirdi, əvəzində isə, rasional heç nə təklif və təqdim edə bilmirdi, çünki *"onun ya texnologiyaları, ya kapitalı, ya da özünün ixrac bazarları yox idi"* [170, s.383]. Buna baxmayaraq, milli maraqları əsas götürən Azərbaycan xarici aləmlə, konkret olaraq beynəlxalq maliyyə qurumları və transmilli şirkətlərlə əməkdaşlıq əlaqələri qurmaqda qətiyyətli idi.

Azərbaycanın Qərb neft şirkətləri ilə danışıqları SSRİ-nin mövcudluğunun son illərində, şübhəsiz ki, Kremlin razılığı ilə başlamış və sovet dövlətinin süqutundan sonra da davam etmişdi. Xəzər dənizinin Azərbaycana aid hissəsində yerləşən Azəri-

Çıraq-Günəşli (AÇG) yataqlarının işlənməsi ətrafında əvvəlcə A.Mütəllibov, sonra isə Ə.Elçibəy hökuməti ilə aparılan danışıqlarda Böyük Britaniyanın "BP", Şotlandiyanın "Remko", Norveçin "Statoil", Türkiyənin "TPAO", ABŞ-nin "Amoko", "Yunokal", "Pennzoil" və "MakDermott" şirkəti iştirak edirdi [132, s.211-216, 126, s.25-26, 184, s.115]. 1992-ci ilin sentyabr ayında Böyük Britaniyanın keçmiş baş naziri M.Tetçerin Azərbaycana səfəri zamanı da neft məsələsi əsas müzakirə obyekti olmuşdur.

Danışıqlar 1993-cü ilin iyun ayında başa çatmış və yekun razılaşma Londonda imzalanmalı idi, lakin həmin ilin yayında Azərbaycanda daxili siyasi vəziyyətin gərginləşməsi və Ə. Elçibəy hökumətinin iflası son nəticədə respublikada hakimiyyət böhranının yaranmasına gətirib çıxarmış və bu səbəbdən də gözlənilən razılaşmanı imzalamaq mümkün olmamışdı.

Ümummilli lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışı ilə ümumilikdə respublikanın həyatında yeni mərhələ başlamışdı. 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri, oktyabrın 3-də isə Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyevin müəyyənləşdirdiyi, sistemli xarakter daşıyan və milli maraqlara cavab verən dövlət siyasəti enerji sektorunu da əhatə edirdi. Respublikanın enerji təhlükəsizliyini təmin etmək Ulu öndərin strateji xəttinin əsas prioritetlərindən idi. Heydər Əliyev Qərb şirkətləri ilə aparılan danışıqlardan nəinki imtina etməmiş, əksinə bu vaxta qədər görülən işlər dərindən yoxlanılmış, buraxılan səhvlər üzə çıxarılmış və işlər daha təkmil, tərəflərin maraqlarının daha aydın şəkildə öz əksini tapdığı yekun sənədin hazırlanması istiqamətində davam etdirilmişdi. Heydər Əliyev xarici şirkətlərlə apardığı danışıqlarda nail olmaq istədiyi məqsədi

belə ifadə etmişdi: *"Bu müqavilələr, gərək çox dolğun və düzgün yazılsın. Heç kəs heç kəsi aldatmağa çalışmasın, hərə gərək öz tərəfinin mənafeyini qorusun"* [82, s.84-87].

Azərbaycanın yeni enerji siyasətinin formalaşması mərhələsində Heydər Əliyevin qarşısında Rusiyanın hələ də davam edən təzyiqlərini neytrallaşdırmaq kimi çətin bir vəzifə də dururdu. Kreml Xəzər dənizinin hüquqi statusu müəyyənləşənədək dənizdə hər-hansı kəşfiyyat və qazma işlərinin aparılmasını qanunsuz elan etmiş, təkcə Azərbaycanı deyil, onunla əməkdaşlıq edən ölkələri belə müxtəlif təhdidlər qarşısında qoymuşdu [188, s.309]. Bu məsələyə münasibət bildirən İlham Əliyev Xəzər dənizinin statusu məsələsinin Rusiya tərəfindən çox kəskin şəkildə qoyulduğunu, *"Biz imkan verməyəcəyik!"* mövqeyindən çıxış edən Kremlin Azərbaycana güclü təzyiq göstərdiyini, hətta xarici neft şirkətlərinin geri addım ataraq, əldə olunacaq razılaşmanın dənizin statusu müəyyələşəndən sonra qüvvəyə minəcəyi ilə bağlı fikirlər irəli sürdüklərini, bunun isə faktiki olaraq, imzalanacaq müqavilənin qüvvəyə minməyəcəyi anlamına gəldiyini qeyd etmişdi. Belə vəziyyətdə Heydər Əliyev özünəməxsus uzaqgörənliklə hərəkət etmiş, rəhbəri olduğu dövlətin maraqlarını hər şeydən üstün tutaraq, vəziyyətin gərginləşməsinə yol verməmiş və Rusiyanın "LUKoil" neft şirkətini danışıqlar prosesinə cəlb edərək, strateji addım atmışdı [171, s.157-159], bununla da, gələcəkdə "Əsrin müqaviləsi" adlandırılacaq yekun sənədin imzalanması yolundakı bu maneəni aradan qaldırmağa nail olmuşdu.

1994-cü il sentyabrın 20-də Bakıda Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) ilə 6 ölkəni təmsil edən 10 şirkət arasında AÇG yatağının birgə işlənməsi və hasilatın pay bölgüsü

haqqında müqavilə – "Əsrin müqaviləsi" imzalandı. Bu müqavilənin hazırlanması və imzalanması prosesi elmi ədəbiyyatda geniş şərh olunmuşdur [126, 136, 171]. "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın enerji təhlükəsizliyinin təmin edilməsində həlledici addım idi, çünki məhz bundan sonra xarici neft şirkətləri ilə onlarla yeni neft müqaviləsi imzalanmışdır.

Neft ehtiyatları ilə yanaşı, Azərbaycanın malik olduğu təbii qaz ehtiyatlarından da səmərəli istifadə olunması respublikanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsində əhəmiyyətli rol oynamışdır. Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən nəhəng "Şahdəniz" təbii qaz yatağı xarici şirkətlərin də marağını cəlb etmiş, bu yatağın kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü barədə aparılan danışıqlar nəticəsində, 1996-cı il iyunun 4-də ARDNŞ, Böyük Britaniyanın "BP", Norveçin "Statoil", İranın OİK, Fransanın "Elf akiten", Türkiyənin TPAO və Rusiyanın "LUKoil" şirkəti arasında müqavilə imzalanmışdır [153, s.1].

Karbohidrogen ehtiyatlarının nəqlində əsas rol oynayan boru kəmərləri Azərbaycanın enerji siyasətində əhəmiyyətli yer tutur. Qeyd etmək lazımdır ki, neft-qaz müqavilələri imzalanandıqdan sonra, hasil olunacaq neft və təbii qazın ixracı məsələsi əsas müzakirə obyektinə çevrilmişdi. Neft ixracı marşrutlarının müəyyənləşdirilməsi ətrafında aparılan danışıqlar daha prinsipal xarakter daşımış və prosesdə iştirak edən ölkələrin geosiyasi maraqlarından qaynaqlanan rəqabət mühitində inkişaf etmişdir.

Ümumilikdə, "Əsrin müqaviləsi" çərçivəsində hasil olunacaq nefti dünya bazarlarına çıxarmaq üçün 11 marşrut təklif edilmişdi [176, s.13]. Təklif olunan marşrutların bir hissəsi ya Ermənistan, ya da İran ərazisindən keçməli idi. Qərb ölkələri-

nin, xüsusilə də ABŞ-nin İranla olan problemləri, Ermənistanın isə Azərbaycanla müharibə vəziyyətində olması onların tranzit ölkə kimi seçilməsi şansını minimuma endirirdi.

Rusiya Azərbaycan neftinin əsas hissəsinin Bakı-Novorossiysk kəməri vasitəsilə ixracına nail olmağa çalışırdı və şübhəsiz ki, neftin təhlükəsiz və fasiləsiz şəkildə ixracının Bakı üçün həyati əhəmiyyət daşıdığını nəzərə alan Moskvanın bu iddianı irəli sürməkdə əsas məqsədi Azərbaycana təzyiq imkanını əlində saxlamaq idi. Rusiya marşrutundan tamamilə imtina etməyən Azərbaycan ixrac marşrutlarının şaxələndirilməsində, Gürcüstan və Türkiyə ərazindən keçən Qərb marşrutunun isə əsas ixrac marşrutu kimi seçilməsində maraqlı idi.

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) ilə Azərbaycan hökuməti arasında 1995-ci ilin oktyabrında imzalanan razılaşmaya əsasən, hasil olunacaq ilkin neftin ixracı üçün Bakı-Novorossiysk və Bakı-Supsa marşrutları seçilmişdi [169, s.40-41]. 1996-cı il yanvarın 18-də isə Moskvada "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında Azərbaycan neftinin Rusiya Federasiyası ərazisindən tranziti haqqında" Saziş [40, s.305-312] imzalanmışdı. Buna münasibət bildirən Heydər Əliyev qeyd etmişdir ki, bu, *"Rusiyanın və Azərbaycanın mənafeyi xeyrinədir, neft sənayesi kimi sahənin inkişaf etməsinin xeyrinədir"* [83, s.279-280].

Əsas ixrac boru kəmərinin marşrutunun müəyyənləşdirilməsi istiqamətində danışıqlar isə davam edirdi. 1999-cu il noyabrın 18-də İstanbulda "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhuriyyətinin ərazisiləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair Azərbaycan Respublikası, Gürcüstan və Türkiyə Cümhu-

riyyəti arasında Saziş" imzalandı [152, s.29] və bununla da Azərbaycanın enerji təhlükəsizliyi siyasətinin inkişafında növbəti vacib addım atıldı.

Diversifikasiya olunmuş ixrac boru kəmərləri sisteminin mövcudluğu həm də ölkənin enerji siyasətinin inkişaf səviyyəsini göstərən amillərdəndir. Olobal enerji layihələrinin təşəbbüskarlarından və fəal iştirakçılarından biri olan, eyni zamanda regionda maraqlarını təmin etməyə çalışan güclərin təzyiqləri ilə üzləşən Azərbaycanın qətiyyətli mövqeyi və Türkiyə, Rusiya, ABŞ, Aİ, Gürcüstan və Qazaxstan ilə yaxından əməkdaşlığı nəticəsində, respublikada hasil olunan enerji daşıyıcılarının dünya bazarlarına çıxarılmasını təmin edən ixrac marşrutları şəbəkəsi formalaşmışdır. 2006-cı ildə istifadəyə verilən Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri və Bakı-Tbilisi-Ərzrum (BTƏ) qaz kəməri ixrac dəhlizinin əsas tərkib hissələridir. Bundan başqa, Azərbaycan neftinin ixracında Bakı-Novorossiysk və Bakı-Supsa marşrutlarından da istifadə olunmuşdur.

Azərbaycanda ilkin enerji istehsalında neft və təbii qazın xüsusi çəkisi yüksək olaraq qalır, lakin bu, digər enerji mənbələrinin diqqətdən kənarda qalması mənasını vermir. Qlobal səviyyədə enerji sektorunda müşahidə olunan meyllərə uygun olaraq, respublikada alternativ enerji mənbələrindən istifadənin genişləndirilməsi və ölkənin enerji təhlükəsizliyinin təmin olunmasında bu seqmentin xüsusi çəkisinin ildən-ilə artırılması prioritet olaraq müəyyənləşdirilmişdir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, *""yaşıl enerji"yə keçid prosesində öndə gedənlərdən olmaq bizim üzərimizə düşən öhdəlikdir"* [51, s.1].

Enerji təhlükəsizliyinin etibarlı təminatı, bütövlükdə ölkənin tərəqqisi üçün vacib şərtlərdən olan ektrik enerjisi istehsalını

inkişaf etdirmədən mümkün deyildir. Hal-hazırda Azərbaycanda müasir tələblər səviyyəsində qurulmuş elektrik enerjisi şəbəkəsi fəaliyyət göstərir və eyni zamanda, bu sahədə mövcud infrastrukturun daha da inkişaf etdirilməsi, yeni generasiya güclərinin yaradılması istiqamətində işlər davam etdirilir və elektrik enerjisi istehsalında alternativ enerji mənbələrindən istifadənin miqyasını getdikcə genişləndirmək vəzifə olaraq qarşıya qoyulmuşdur.

Prezidenti İlham Əliyev 2020-ci il fevralın 14-də Münhen Təhlükəsizlik Konfransında çıxışı zamanı, bərpa olunan enerji sahəsində Azərbaycanın konkret və aydın planının olduğunu diqqətə çatdırmışdı: *"... bərpa olunan enerji ilə bağlı deməliyəm ki, Azərbaycanda da buna böyük diqqət yetirilir. Bizim planımız 2030-cu ilə qədər elektrik enerjisinin 30%-ni bərpa olunan enerji hesabına ödəməkdir"* [93, s.297].

Şübhəsiz ki, qarşıya qoyulan məqsədlərə çatmaq üçün əsas şərtlərdən biri müvafiq qanunvericilik bazasının formalaşdırılmasıdır və qeyd etmək lazımdır ki, müstəqillik illərində Azərbaycanda enerji təhlükəsizliyi siyasətinin hüquqi çərçivəsini müəyyənləşdirən qanunlar qəbul edilmiş və ümumi inkişaf strategiyasına uyğun olaraq, onlar müvafiq əlavə və dəyişikliklərlə təkmilləşdirilmişdir.

Enerji sektorunda fəaliyyəti tənzimləyən qanuvericilik bazasının yaradılmasına keçən əsrin 90-cı illərinin ortalarından başlanılmışdır. 1996-cı il mayın 30-da "Enerji resurslarından istifadə haqqında" Qanun qəbul edilmiş və o, 2022-ci il iyulun 1-dək qüvvədə olmuşdur. Həmin tarixdə "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" yeni Qanun [71] qüvvəyə minmişdur. Qanun respublikada enerji resurslarından istifadə qaydalarının və enerji effektivliyi ilə bağlı dövlət

siyasətinin əsaslarını müəyyənləşdirir, bu sahədə dövlət orqanlarının, hüquqi və fiziki şəxslərin fəaliyyətini və onlar arasındakı münasibətləri tənzimləyir. Qanunun əhatə etdiyi dairədə dövlət siyasətinin əsas məqsədi energetika sisteminin etibarlı və təhlükəsiz fəaliyyətini təmin etməkdən, enerji resurslarından səmərəli istifadə etmək üçün əlverişli mühitin yaradılmasından və onlardan istifadə eməklə rəqabət qabiliyyətli iqtisadi inkişafa nail olmaqdan, enerji sektoruna investisiya qoyuluşunu təşviq etməkdən, enerji istehsalından onun son isteklakına qədər olan proseslərdə dövlət və yerli özünüidarəetmə orqanları arasında əməkdaşlığı genişləndirməkdən ibarətdir. Dövlət enerji resurslarından istifadə və enerji effektivliyi sahəsində normativ-hüquqi bazanı beynəlxalq təcrübəyə uyğunlaşdırır, stimullaşdırıcı və təşviqedici mexanizmlərdən istifadə edir, müvafiq tədbirlər həyata keçirir, texnologiya və xidmətlərə investisiya cəlb olunmasına yardım edir, istehlakçıları maarifləndirir, energetika sistemində iş rejimini və tarif siyasətini optimallaşdırır, xidmət bazarlarını inkişaf etdirir, dövlət nəzarəti və kadr hazırlığını həyata keçirir, dövlət proqramları qəbul edir və s.

Qeyd olunanlarla yanaşı, bu Qanun enerji auditi, menecmenti və effektivliyi üzrə xidmətlər, onların təşkili və təşviqi, istehlak olunan enetjinin hesablanması, istehlakçıların məlumatlandırılması və məlumatların qorunması, enerji effektivliyi potensialının qiymətləndirilməsi, enerjinin istehsalı, saxlanması, ötürülməsi, nəqli, paylanması və s. ilə bağlı məsələləri də özündə ehtiva edir. Qanunun 16-cı maddəsi Enerji Effektivliyi Fondunun yaradılması haqqındadır. Fondun maliyyələşdirilməsi enerji resurslarının satışından əldə olunan gəlirdən ayrılan vəsaitlər, kredit, qrant və könüllü ianələr, beynəlxalq təşkilatlar

və donorların ayırmaları, fondun öz vəsaitlərinin idarə olunmasından daxil olan gəlirlər və qanunla qadağan edilməyən digər mənbələrin hesabına həyata keçirilir.

Enerji Effektivliyi Fondu Prezident İlham Əliyevin 2024-cü il 1 mart tarixli Fərmanı [69] əsasında yaradılmış və həmin Fərmanla Fondun vəsaitlərinin formalaşdırılması və istifadə Qaydası da təsdiq edilmişdir. Fondun vəsaitlərindən enerji effektivliyinin təmin olunması üzrə tədbirlərin, dövlət proqramlarının icrasının dəstəklənməsi, elmi-texniki sahədə fəaliyyətin maliyyələşdirilməsi, enerji menecmenti sisteminin, ağıllı sayğacların və sistemlərin, kogenerasiya qurğularının tətbiqi və BOEM-dən istifadə məqsədilə istifadə oluna bilər. Bu vəsaitlərə sərəncam vermək səlahiyyəti Energetika Nazirliyinin tabeliyində olan Enerji Məsələlərini Tənzimləmə Agentliyinə (EMTA) aiddir. Qanunda, enerji effektivliyi ilə bağlı layihələrin Agentliyin ayırdığı kiçikhəcmli, ortahəcmli və böyükhəcmli güzəştli kreditlər hesabına maliyyələşdirilməsi də nəzərdə tutulmuşdur. Kiçikhəcmli kreditlər 1000-50000 manat həddində olub 5 ilədək, ortahəcmli kreditlər 50001-100000 manat həddində olub 10 ilədək, böyükhəcmli kreditlər isə 100001-10000000 manat həddində olub 15 ilədək müddətə verilir. Agentlik həm də təqdim olunan layihələrin ekspertizası və qiymətləndirilməsini, onların icra olunmasının monitorinqini həyata keçirir.

Enerji sahəsində fəaliyyətin və münasibətlərin tənzimlənməsində "Energetika haqqında" Qanun [66] əhəmiyyətli rol oynayır. Bu Qanunun birinci variantı 1998-ci ildə, yeni variantı isə 2023-cü ildə qəbul edilmişdir. Tətbiq dairəsinə energetika subyektləri, dövlət orqanları, tənzimləyici və istehlakçılar daxil olan Qanun enerji resurslarının kəşfiyyatı, işlənməsi, hasilatı və emalı, enerjinin saxlanması, nəqli, paylanması, idxalı, ixracı,

topdan və pərakəndə satışı, təbii qaz və elektrik enerjisi bazarlarının təşkili sahəsindəki fəaliyyəti tənzimləyir.

Qanun həm də energetika sahəsində dövlət siyasətinin prinsiplərini, dövlət tənzimləməsinin məqsədlərini və dövlətin vəzifələrini müəyyənləşdirir. Qeyd olunan sahədə dövlət siyasəti bazar münasibətləri və azad rəqabətin tətbiqi, ayrı-seçkiliyin yolverilməzliyi, şəffaflığın təmin olunması, istehlakçıların hüquqlarının qorunması və dayanıqlı inkişafın təmin edilməsi prinsiplərinə əsaslanır. Enerji təhlükəsizliyinin təmin olunması, energetika subyektləri ilə istehlakçıların maraqları arasında balans yaradılması və istehlakçıların tələb olunan səviyyədə enerji ilə təmin olunması məqsədilə dövlət tənzimləməsi həyata keçirilir. Bununla yanaşı, dövlət sağlam rəqabət və əlverişli investisiya mühitinin yaradılması, təbii inhisarlar və dövlət inhisarlarının fəaliyyətinin tənzimlənməsi, beynəlxalq və regional əməkdaşlığın, özəl investisiyaların, BOEM-dən istifadənin və enerji səmərəliliyinin dəstəklənməsi və ətraf mühitin mühafizəsi sahəsində vəzifələr yerinə yetirir.

Qanunun dördüncü fəslinə əsasən, Azərbaycanın enerji təhlükəsizliyini təmin etmək üçün enerji mənbələrindən ölkənin inkişaf perspektivləri nəzərə alınaraq istifadə edilməli, enerji istehsalı BOEM hesabına artırılmalı, enerji ehtiyatları yaradılmalı və tələb olunan səviyyədə saxlanılmalı və enerji effektivliyi artırılmalıdır.

Enerji istehsalında qalıq yanacaq növləri ilə yanaşı, alternativ mənbələrdən istifadə olunması, qlobal səviyyədə olduğu kimi, Azərbaycanda da öz aktuallığı ilə seçilən və enerji təhlükəsizliyi siyasətinin prioritetlərindən birini təşkil edən məsələlərdəndir. Bu sahədə münasibətlərin hüquqi tənzimlənməsini

həyata keçirmək məqsədilə, 2021-ci ildə "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Qanun [63] qəbul edilmişdir. Qanunda BOEM-dən istifadə sahəsində dövlət tənzimləməsinin prinsipləri, dövlətin vəzifələri, dəstək mexanizmləri, texniki və təşkilati məsələlərlə bağlı tələblər, istehsalçıların hüquq və vəzifələri öz əksini tapmışdır.

2023-cü ildə qəbul olunmuş "Elektroenergetika haqqında" Qanun [64] elektrik enerjisi istehsalı və istehlakı prosesində baş verən münasibətləri tənzimləyir. Elektroenergetika sektorunda dövlət siyasəti və tənzimləməsi, enerjisinin istehsalı və istehlakı, elektrik enerjisi bazarının təşkili, təbii ehtiyatlardan istifadə, elektroenergetika obyektlərinin qorunması və təhlükəsizliyi və s. ilə bağlı məsələlər bu Qanunun məzmununu təşkil edir.

Qaz təchizatı sahəsindəki fəaliyyətin tənzimlənməsi isə, 1998-ci ildə qəbul edilmiş "Qaz təchizatı haqqında" Qanuna [118] əsasən həyata keçirilir. Qanunda təbii qaz istehsalı, emalı, saxlanması və istehlakı üzrə tələblər, təhlükəsizlik, ətraf mühitin qorunması və s. ilə bağlı məsələlər öz əksini tapmışdır.

Müasir dövrdə ümumilikdə Azərbaycanın enerji sektorunun vəziyyətini qiymətləndirərək vurgulamaq olar ki, respublika bu sahədə strateji məqsədlərinə nail olmuşdur, yəni ölkənin enerji təhlükəsizliyi yüksək səviyyədə, heç bir xarici mənbədən aslı olmadan təmin edilmişdir və bunu statistik məlumatlarla da təsdiq etmək mümkündür.

Son illərdə Azərbaycanda energetika sahəsində fəaliyyət göstərən müəssisələrin sayı davamlı olaraq artmışdır. Bu sektorda 2019-cu ildə 405, 2020-ci ildə 423, 2021-ci ildə 437, 2022-ci ildə 463, 2023-cü ildə isə 484 müəssisə fəaliyyət göstərmişdir. Qeyd olunan illərdə bu müəssisələrdə əsas fondlarda və isteh-

sal olunan məhsulun həcmində artım, işə cəlb olunan muzdlu işçilərin sayında isə azalma müşahidə olunmuşuşdur. 2019-cu ildə əsas fondlar 131,8 mlrd. manat, istehsal olunmuş məhsulun həcmi 37,4 mlrd. manat, muzdlu işçilərin sayı isə 65,2 min nəfər olduğu halda, 2020-ci ildə, müvafiq olaraq, 137,4 mlrd. manat, 27,3 mlrd. manat və 62,2 min nəfər, 2021-ci ildə 146,5 mlrd. Manat, 42,1 mlrd. manat və 59 min nəfər, 2022-ci ildə 154,0 mlrd. manat, 71,6 mlrd. manat və 60,3 min nəfər, 2023-cü ildə isə 157,4 mlrd. manat, 52,2 mlrd. manat və 61 min nəfər olmuşdur [11, s.16]. Əsas fondlarda və məhsul istehsalında artım fonunda işçilərin sayının azalması texnoloji yeniliklərin tətbiqi ilə bağlıdır.

Energetika sektorunda əsas kapitala qoyulan investisiyalara gəldikdə isə, 2019-cu ildə bu, 6,3 mlrd manata, 2020-ci ildə 6,4 mlrd manata, 2021-ci ildə 6,2 mlrd manata, 2022-ci ildə 6,1 mlrd manata, 2023-cü ildə isə 7,3 mlrd manata bərabər olmuşdur. Qeyd olunan beş il ərzində neft və təbii qaz hasilatına yönəldilən investisiyalarda müəyyən azalma, neft məhsulları istehsalı və elektrik enerjisi təchizatı sahəsinə qoyulan investisiyalarda əhəmiyyətli artım baş vermişdir. 2019-cu ildə əsas kapitala neft və təbii qaz hasilatında 5,6 mlrd manat, neft məhsulları istehsalında 208,7 mln. manat, elektrik enerjisi təchizatında isə 490,0 mln. manat, 2020-ci ildə, sahələr üzrə müvafiq olaraq, 5,5 mlrd manat, 463,9 mln. manat və 486,6 mln. manat, 2021-ci ildə 4,7 mlrd manat, 1,0 mlrd manat və 482,9 mln. manat, 2022-ci ildə 4,5 mlrd manat, 557,1 mln. manat və 689,8 mln. manat, 2023-cü ildə isə 5,6 mlrd manat, 565,4 mln. manat və 1,0 mlrd manat investisiya qoyulmuşdur. Ölkə üzrə iqtisadiyyata qoyulmuş investisiyaların 2019-cu ildə 34,2%-i, 2020-ci ildə 37,6%-i, 2021-ci ildə 37,4%-i, 2022-ci ildə 34,4%-i, 2023-cü ildə isə 34,7%-i energetika sektoruna yönəldilmişdir [11, s.26].

Azərbaycanda ilkin enerji məhsulunun istehsalı ilə istehlakı arasında balans birincinin xeyrinədir, başqa sözlə, istehsal olunan ilkin enerji məhsulunun miqdarı ölkədaxili tələbatdan çoxdur. 2019-cu ildə respublikada 61724,7 min NET (NET (neft ekvivalenti tonu) – enerji məhsullarının istiliktörətmə qabiliyyəti üzrə qəbul olunmuş etalon şərti ölçü vahidi. 1 NET = 11,6 MVt/saat) ilkin enerji məhsulu istehsal edildiyi halda, ümumi enerji təchizatı 17085,6 min NET, enerjinin son istehlakı isə 11348,5 min NET olunmuşdur. 2020-ci ildə istehsal 60458,3 min NET, ümumi təchisat 16642,8 min NET, son istehlak 11264,1 min NET, 2021-ci ildə istehsal 66202,0 min NET, ümumi təchizat 17566,6 min NET, son istehlak 12053,7 min NET, 2022-ci ildə istehsal 66451,8 min NET, ümumi təchizat 18655,4 min NET, son istehlak 13297,8 min NET, 2023-cü ildə isə istehsal 65257,6 min NET, ümumi təchizat 18850,2 min NET, son istehlak 13852,4 min NET təşkil etmişdir [11, s. 28].

Hal-hazırda Azərbaycanın enerji təhlükəsizliyinin təmin olunduğunu qeyd etməklə yanaşı, onu da nəzərə almaq lazımdır ki, ölkənin sosial-iqtisadi inkişafı məntiqi olaraq enerjiyə tələbatı da artırır və bu da enerji sektorunun davamlı olaraq inkişaf etdirilməsi zərurətini meydana çıxarır. Bununla yanaşı, dünyada baş verən hərbi-siyasi və iqtisadi proseslərin mütəhərrikliyi digər sahələrdə olduğu kimi, enerji təhlükəsizliyi sahəsində də yeni təhlükə və çağrışlar yaradır və onları vaxtında qarşılamaq və ya onların mənfi təsirlərini minimuma endirmək üçün enerji təhlükəsizliyi siyasətini daxili imkanlar hesabına təkmilləşdirməklə yanaşı, beynəlxalq əməkdaşlığın genişləndirilməsi də vacibdir.

Nəticə olaraq qeyd etmək olar ki, Azərbaycanda enerji təhlükəsizliyi siyasətinin formalaşması prosesi ölkədaxili və

beynəlxalq şərtlərin kifayət qədər mürəkkəb olduğu bir dövrə təsadüf etsə də, Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi strateji xəttin reallaşdırılması nəticəsində uğurla başa çatmış və inkişaf mərhələsinə qədəm qoymuşdur. Mövcud neft-qaz ehtiyatlarından səmərəli və məqsədyönlü istifadə olunması nəticəsində respublikanın enerji təhlükəsizliyi etibarlı şəkildə təmin olunmuşdur. Neft-qaz ixrac boru kəmərlərinin tikilib istifadəyə verilməsi, respublikada həm institusional, həm də funksional baxımdan mükəmməl enerji infrastrukturunun yaradılması, bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi sahəsində tədbirlərin görülməsi və müvafiq qanunvericilik bazasının yaradılması ölkənin enerji təhlükəsizliyinin daha da möhkəmləndirilməsi üçün şərait yaratmışdır.

### *1.3. Respublikanın enerji təhlükəsizliyi siyasətinin milli və beynəlxalq aspektləri*

İstənilən ölkənin enerji təhlükəsizliyinin təmin olunması həm milli, həm də beynəlxalq kontekstdən aslı olsa da, burada milli aspektlərin daha çox əhəmiyyət kəsb etdiyini vurğulamaq lazımdır, çünki enerji siyasəti ilk növbədə ölkənin daxili resurs bazası və imkanları nəzərə alınmaqla müəyyənləşdirilir. Milli konteksti formalaşdıran əsas amillər enerji daşıyıcısı olan təbii ehtiyatların, onların emalı, ixracı, idxalı və tranziti üçün imkanların mövcudluğu, dövlətin sosial-iqtisadi sisteminin və xarici siyasətinin xarakteri və məzmunu ilə bağlıdır. Eyni zamanda, müvafiq enerji infrastrukturunun, siyasi sabitliyin, əlverişli investisiya mühitinin, lazımi səviyyədə maliyyə təminatının mövcudluğu və müasir texnologiyaların tətbiqi enerji təhlükəsizliyi siyasətinin

uğurunu təmin edən əsas amillərdir. Bundan başqa, enerji təhlükəsizliyi siyasəti özünün ölkədaxili sosial-iqtisadi nəticələri baxımından da diqqəti cəlb edir. Bütün bunları nəzərə alaraq, hər bir dövlət, o cümlədən Azərbaycan, enerji təhlükəsizliyini təmin etmək üçün, malik olduğu imkanlar çərçivəsində özünəməxsus siyasət həyata keçirir.

2025-ci il aprelin 4-də Bakıda keçirlən "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclaslarında çıxış edən Prezident İlham Əliyevin bildirdiyi kimi, *"enerji təhlükəsizliyi ölkələrin milli təhlükəsizliyinin ayrılmaz hissəsidir"* [12, s.2]. Enerji təhlükəsizliyi siyasətinin dövlət siyasətinin fövqündə yer alması, bu sahədə müxtəlif konsepsiya, srtrategiya və proqramların həyata keçirilməsi də respublika Prezidentinin qeyd etdiyi reallıqdan qaynaqlanır.

Azərbaycanın enerji təhlükəsizliyinin təmin olunmasında BOEM-dən istifadə məsələsi getdikcə daha çox aktuallıq kəsb edir. Respublikada BOEM-dən istifadə olunması üzrə Dövlət Proqramının [25, s.2831-2838] həyata keçirilməsi də bunu sübut edir. Bu Dövlət Proqramının əsas məqsədi BOEM əsasında enerji istehsalını genişləndirməkdən və karbohidrogen ehtiyatlarından daha səmərəli istifadə etməkdən ibarətdir. Bu məqsədə nail olmaq üçün ölkənin bərpa olunan enerji potensialının müəyyənləşdirilməsi və ondan səmərəli istifadə edilməsi yolu ilə ölkənin enerji gücünün artırılması vəzifə olaraq qarşıya qoyulmuşdur.

Yanacaq-energetika kompleksini inkişaf etdirmək, enerji və enerji daşıyıcılarına olan tələbatı dolğun şəkildə ödəmək məqsədilə, 2005-2015-ci illəri əhatə edən Dövlət Proqramı [37, s.362-375] həyata keçirilmişdir və bu zaman yeni texnologi-

yaların tətbiqi, investisiyaların cəlb edilməsi, elmi-texniki və təşkilati tədbirlərin reallaşdırılması hesabına bu kompleksin səmərəliliyinin artırılması, rəqabət mühitinin və ekoloji təhlükəsizliyin təmin olunması diqqət mərkəzində olmuşdur.

Proqram çərçivəsində neft-qaz yataqlarının kəşfiyyatı və işlənməsi işləri davam etdirilmiş, Xəzər Dəniz Neft Donanmasının gəmiləri modernləşdirilmiş, karbon emissiyalarının azaldılmasına nail olmaq məqsədilə SOCAR və BMT-nin İnkişaf Proqramı arasında müqavilə imzalanmış, Təhlükəli tullantıların idarə olunması üzrə Milli Mərkəz yaradılmış, Abşeron yarımadasında neft və neft məhsulları ilə çirkləndirilmiş 1540 hektar ərazi təmizlənmiş, Naxçıvan MR-nın təbii qazla təminatı tam həcmdə bərpa edilmiş, respublikanın yaşayış məntəqələrinin qazlaşdırılması sahəsində əhəmiyyətli işlər görülmüş, 32 min kilometrdən çox yeni qaz xətti çəkilmiş, 8 min kilometrdən çox qaz xətti əsaslı təmir olunmuş, yeni magistral qaz kəmərlərinin, elektrik stansiyalarının tikintisi həyata keçirilmiş, təmir və yenidənqurmaya ehtiyacı olan infrastruktur obyektlərində müvafiq işlər yerinə yetirilmişdir və s. [36].

Respublika Prezidentinin 2012-ci il 29 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında [42, s.2245-2580] enerji sektorunun inkişafı və strukturunun təkmilləşdirilməsi ilə bağlı məsələlər də yer almışdır. Konsepsiyada, bütövlükdə ölkə həyatının davamlı inkişafına nail olmaq üçün hədəf olaraq müəyyənləşdirilən prioritetlərin bir hissəsi enerji sektoruna aiddir: neft-qaz və neft-kimya sahələrini modernləşdirmək, BOEM-dən istifadəni genişləndirmək və bu məqsədlə stimullaşdırıcı təsdbirlər görmək, institusional mühitin təkmilləşdirilməsi və enerji istehlakçılarının maarifləndirilməsi istiqamətində işlər aparmaq, neft və

təbii qazın satışından əldə olunan gəlirləri, tədricən onların investisiya kimi qoyuluşundan əldə olunan gəlirlərlə əvəz etmək, neft, qaz emalı və neft-kimya müəssisələrini klaster əsasında inkişaf etdirmək və ARDNŞ-nin investisiya fəallığını artırmaq.

İnkişaf Konsepsiyasında enerji sahəsinə aid olan prioritetlərin icrası ilə bağlı həyata keçirilən tədbirlər barədə məlumatlar Energetika Nazirliyinin, 2014-2020-ci illəri əhatə edən və hər il üzrə hazırlanan hesabatlarında öz əksini tapmışdır [23].

2021-ci il fevralın 2-də Prezident İlham Əliyev tərəfindən, respublikanın sosial-iqtisadi inkişafının davamlılığını təmin etmək məqsədilə prioritetlərin müəyyənləşdirildiyi növbəti sənəd, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" [43, s.1, s.5] təsdiq edilmişdir. Sənəddə iqtisadiyyatın qeyri-neft sektorunu inkişaf etdirməyin vacibliyi vurğulanmış və eyni zamanda, neft sektoru bu inkişafı təmin edəcək əsas dayaqlardan biri hesab olunmuş, 2030-cuilədək respublikada dayanıqlı enerji mənbələrindən səmərəli istifadə etməklə, "yaşıl enerji" məkanının formalaşdırılması da prioritet vəzifə olaraq qarşıya qoyulmuşdur.

Prezidentin 2022-ci il 22 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda [38] nəzərdə tutulan tədbirlər Milli Prioritetlərin icrası kontekstində qiymətləndirilməlidir. Strategiyada qeyd olunduğu kimi, 2014-2015-ci illərdə neft qiymətləri təxminən 3 dəfə azalmışdır. Bununla yanaşı, qlobal meyllərin təsiri altında dünyada neftə tələbatın azalması Azərbaycanın neft gəlirlərinə mənfi təsir göstərə bilər və bunu kompensasiya etmək üçün zəruri addımların atılması qaçılmazdır. Bu məqsədlə Strategiyada, mineral xammal bazasından və enerji sistemlərindən səmərəli istifadə edilməsi, energetika sektorunda təkmilləşdirmə və

liberallaşdırmanın aparılması və enerji səmərəliliyinin artırılması, istehlakçıların tələbatının ödənilməsi, BOEM-dən istifadənin genişləndirilməsi, Azərbaycan-Türkiyə-Avropa Enerji Qovşağının yaradılması fəaliyyət istiqamətləri kimi müəyyənləşdirilmişdir.

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramına [35, s.11-14] əsasən, həmin ərazilərdə müasir enerji infrastrukturunun, xüsusilə də "yaşıl enerji" məkanının yaradılması nəzərdə tutulmuşdur.

Enerji sektorunun institusional əsaslarının təkmilləşdirilməsi Azərbaycanın enerji təhlükəsizliyi siyasətinin tərkib hissələrindən biridir. Respublikada dövlət energetika siyasətini və onun tənzimlənməsini həyata keçirən icra orqanı Energetika Nazirliyidir. Prezident İlham Əliyevin 2017-ci il 22 dekabr tarixli Fərmanı ilə Nazirliyin tabeliyində EMTA yaradılmışdır. Publik hüquqi şəxs statusunda fəaliyyət göstərən bu Agentlik elektrik, istilik enerjisi, qaz təchizatı sahəsində münasibətləri tənzimləyir və dövlət nəzarətini həyata keçirir. Bundan başqa, Prezidentin 2020-ci il 22 sentyabr tarixli Fərmanı ilə Nazirliyin yanında, BOEM-dən istifadə ilə bağlı fəaliyyətin təşkili və tənzimlənməsi ilə məşğul olan Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi (BOEMDA) yaradılmışdır [23].

Karbohidrogen resursların satışından əldə olunan gəlirlərdən səmərəli istifadə etmək məqsədilə, 1999-cu ildə Dövlət Neft Fondu (DNF) təsis olunmuşdur [29, s.2848-2849]. 1999-2022-ci illərdə Fonda neft-qaz müqavilələrindən 176,2 mlrd. dollar, investisiya fəaliyyətindən isə 7,8 mlrd. dollar maliyyə vəsaiti daxil olmuşdur [21, s.6].

Azərbaycanda enerji sektoru dövlət büdcəsinin əsas gəlir mənbəyidir. 1999-cu ildən 2025-ci il yanvarın 1-dək DNF-dən döv-

lət büdcəsinə 155,9 mlrd. dollar vəsait transfert edilmişdir [21]. Azərbaycanda Ümumi Daxili Məhsulun (ÜDM) tərkibində də neft-qaz sektorunun payı yüksəkdir. 2000-ci ildə ÜDM 4,7 mlrd. manata, onun tərkibində neft-qaz sektorunun payı 1,3 mlrd. manata, 2010-cu ildə, müvafiq olaraq, 42,4 mlrd. və 20,4 mlrd. manata, 2020-ci ildə 72,5 mlrd. və 20,4 mlrd. manata, 2021-ci ildə 93,2 mlrd. və 34,5 mlrd. manata, 2022-ci ildə 133,9 mlrd. və 62,4 mlrd. manata, 2023-cü ildə 123,1 mlrd. və 42,2 mlrd. manata, 2024-cü ildə isə 126,3 mlrd. və 38,6 mlrd. manata bərabər olmuşdur [30]. Başqa sözlə, 2000-ci ildə ÜDM-in 27,6%-i, 2010-cu ildə 48,1%-i, 2020-ci ildə 28,1%-i, 2021-ci ildə 37,0%-i, 2022-ci ildə 46,6%-i, 2023-cü ildə 34,2%-i, 2024-cü ildə isə 30,5%-i neft-qaz sektorunun hesabına formalaşmışdır.

Karbohidrogen resurslarının xüsusi çəkisi ölkənin ixracatında da yüksəkdir. Azərbaycandan ixrac olunmuş malların ümumi dəyəri 2019-cu ildə 19,6 mlrd. dollara, ixrac olunmuş mineral yanacaq, neft və onun məhsullarının dəyəri isə 17,8 mlrd. dollara, 2020-ci ildə, müvafiq olaraq, 13,7 mlrd. və 11,9 mlrd. dollara, 2021-ci ildə 22,2 mlrd. və 19,6 mlrd. dollara, 2022-ci ildə 38,1 mlrd. və 35,2 mlrd. dollara, 2023-cü ildə isə 33,8 mlrd. və 31,0 mlrd. dollara bərabər olmuşdur [15, s.63-64]. Beləliklə, 2019-cu ildə ümumi ixracatın 90,8%-i, 2020-ci ildə 86,8%-i, 2021-ci ildə 88,2%-i, 2022-ci ildə 92,3%-i, 2023-cü ildə isə 91,7%-i karbohidrogenlərin payına düşürdü, bu da ölkə iqtisadiyyatının neft-qaz sektorundan asılılığının hələ də yüksək səviyyədə olduğunu göstərir. L.N.Əlizadənin qeyd etdiyi kimi, *"Ölkənin neft-qaz ixracından aslı olduğu şəraitdə təbii resurslardan səmərəli istifadə, dünya bazarlarındakı dalğalanmalarla əlaqəli olan risklərin azaldılmasında mühüm rol oynayır"* [173, s.27].

Birmənalı qəbul edilən fakt ondan ibarətdir ki, enerji sektorunun inkişaf etdirmədən iqtisadiyyatın digər sahələrində tərəqqiyə nail olmaq mümkün deyildir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, *"sənayeni inkişaf etdirmək üçün bizə enerji ehtiyatları, neft-kimya məhsulları, gübrələr lazımdır"* [12, s.2].

Bununla yanaşı, müasir texnoloji yeniliklərin və innovasiyaların tətbiqi istehsal olunan məhsulun hər vahidinə düşən enerji həcminin azalması ilə nəticələnir ki, bu da, enerji səmərəliliyinin artırılmasını şərtləndirən amillərdəndir. Məsələn, Azərbaycan sənayesində 1 manatlıq məhsulun istehsalına sərf olunan enerji məhsullarının həcmi 2019-cu ildə, neft ekvivalenti ilə, 0,153 kq., 2020-ci ildə 0,149 kq., 2021-ci ildə 0,118 kq., 2022-ci ildə 0,122 kq., 2023-cü ildə 0,124 kq., elektrik enerjisinin həcmi, illər üzrə müvafiq olaraq, 0,432 kVt.s, 0,403 kVt.s, 0,349 kVt.s, 0,342 kVt.s və 0,313 kVt.s, təbii qazın həcmi 0,099 $m^3$, 0,094 $m^3$, 0,075 $m^3$, 0,084 $m^3$ və 0,087 $m^3$ təşkil etmişdir [11, s.23-25]. Belə bir nəticə hasil olur ki, 1 manatlıq sənaye məhsulunun istehsalına, 2019-cu il ilə müqayisədə 2023-cü ildə 19,0% az neft, 27,6% az elektrik enerjisi, 12,2% az təbii qaz sərf olunmuşdur.

İstehsal prosesində enerji məsrəfinin azaldılması innovativ iqtisadiyyatı inkişaf etdirməyin, ekoloji balansın qorunmasının, atmosferə atılan istixana qazlarının azaldılmasının əsas şərtlərindən biridir. *"Az enerji sərfi həmçinin gələcək nəsillərin maraqları çərçivəsində təbii ehtiyatların səmərəli istifadəsi deməkdir"* [76, s.27].

Enerji təhlükəsizliyi strategiyasının daxili aspektlərini səciyyələndirən amillərdən biri də, neft-qaz satışından əldə olunan gəlirlərin müəyyən hissəsinin müxtəlif layihələrin maliyyələşdirilməsinə yönəldilməsidir. 1999-2022-ci illərdə bu məqsədlə təkcə DNF-dən 11,8 mlrd. dollar ayrılmışdır [21]. Bu vəsaitlərin inves-

tisiya kimi cəlb olunan və gəlir gətirən hissəsi multiplikasiya effekti yaradaraq, milli iqtisadiyyatın inkişafında, əhalinin rifahının yaxşılaşdırılmasında, ölkənin təhlükəsizliyinin və beynəlxalq nüfuzunun möhkəmləndirilməsində əhəmiyyətli rol oynayır.

İstər neft-qaz satışından dövlət büdcəsinə birbaşa daxil olan, istərsə də DNF-də toplanan vəsaitlər Azərbaycanda qeyri-neft sektorunun, sosial sahənin və mədəniyyətin inkişafı üçün əsas maliyyə mənbəyi olmuşdur. Bu da ÜDM-in tərkibində qeyri-neft sektorunun xüsusi çəkisinin artması ilə nəticələnmişdir. Ümumilikdə, Azərbaycan hökumətinin strateji xətti neft-qaz ehtiyatlarından səmərəli istifadə etməkdən, akademik Urxan Ələkbərovun qeyd etdiyi kimi, "qara qızılı" "insan potensialına" çevirməkdən ibarətdir [75, s.189-190].

2000-ci ildə neft-qaz sektorunda 1371,0 mln. manat, qeyri-neft sektorunda 3055,9 mln. manat dəyərində ÜDM istehsal olunmuşdu. 2010-cu ildə bu göstəricilər, sektorlar üzrə müvafiq olaraq, 20409,5 mln. və 19179,0 mln. manat, 2015-ci ildə 15382,2 mln. və 34138,2 mln. manat, 2020-ci ildə 20417,5 mln. və 45312,2 mln. manat, 2022-ci ildə isə 62340,9 mln. və 61619,5 mln. manat olmuşdur [30]. Rəqəmlərdən göründüyü kimi, 2000-ci ildə qeyri-neft sektorunda neft-qaz sektoruna nisbətən 2 dəfə çox ÜDM istehsal olunmuşdu. 2010-cu ildə neft-qaz sektorunda istehsal olunan ÜDM-in dəyərinin kəskin artması həm hasilatın, həm də neft qiymətlərinin yüksək səviyyəsi ilə bağlı olmuşdur. 2014-cü ildə neft qiymətlərinin kəskin şəkildə aşağı düşməsi və neft hasilatının azalması neft-qaz sektorunda istehsal olunan ÜDM-in dəyərinin azalmasına, 2022-ci ildə Rusiya-Ukrayna müharibəsinin təsiri altında neft və qaz qiymətlərinin artması isə bu dəyərin artmasına səbəb olmuşdur.

Azərbaycanın enerji təhlükəsizliyinin xarici aspektləri hər şeydən əvvəl beynəlxalq və regional səviyyədə tərəfdaş ölkələrlə qarşılıqlı əməkdaşlığı genişləndirmək, qlobal enerji təhlükəsizliyinin təmin olunmasında iştirak etmək, dünya enerji bazarlarında malik olduğu mövqeləri qoruyub saxlamaq və möhkəmləndirməklə bağlıdır. Dünya iqtisadiyyatının ekstensiv və intensiv yolla inkişafı enerjiyə tələbatı artırır, qlobal enerji balansının inkişafında yeni meyllərin meydana gəlməsini şərtləndirir və bütün bunlar Azərbaycanın enerji təhlükəsizliyi siyasətinin də yeni reallıqlara uyğun olaraq təkmilləşdirilməsini tələb edir.

2015-ci il sentyabrın 25-də BMT Baş Assambleyası tərəfindən "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" təsdiq edildi. Bu Gündəlikdən irəli gələn öhdəliklərin milli səviyyədə yerinə yetirilməsi üçün Azərbaycanda da zəruri işlər görülür. Prezident İlham Əliyevin 2016-cı il 6 oktyabr tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılmışdır [60, s.6-7].

Gündəliyin yeddinci məqsədi "Hamının sərfəli, etibarlı, dayanıqlı və müasir enerji mənbələrinə çıxışını təmin etmək" adlanır və 2030-cu ilədək dünyada enerji xidmətlərinə hamının çıxışını təmin etmək, enerji təchizatında bərpa olunan enerjinin payını əhəmiyyətli dərəcədə, enerjidən səmərəli istifadə səviyyəsini isə iki dəfə artırmaq, inkişaf etməkdə olan ölkələrdə enerji infrastrukturunu genişləmdirmək və texnologiyaları yeniləmək kimi hədəfləri özündə ehtiva edir. Qeyd olunan istiqamətlərdə Azərbaycanın əldə etdiyi müsbət nəticələr, Gündəliyin icrası baxımından qlobal əhəmiyyətə malikdir. 2023-cü ildə respublikada elektrik enerjisinə çıxışı olan əhalinin xüsusi çəkisi 100%-ə, təmiz yanacaq və texnologiyalardan istifadə edən əhalinin xüsusi

çəkisi 90,9%-ə, son enerji istehlakının ümumi həcmində bərpa olunan enerjinin xüsusi çəkisi 1,3%-ə bərabər olmuşdur. Bundan başqa, ilkin enerji istehlakının ÜDM-ə nisbəti kimi hesablanan enerji tutumu (kq. neft ekvivalenti /min manatla) 2015-ci ildə 260,0 min manat, 2023-cü ildə 320,5 min manat, bərpa olunan enerji daşıyıcıları əsasında işləyən generasiya qurğularının istehsal gücü 2015-ci ildə adambaşına 119,6 vatt, 2023-cü ildə isə 156 vatt təşkil etmişdir. [60, s.132, s.327-329].

Xarici ölkələr, beynəlxalq təşkilatlar və maliyyə qurumları ilə enerji sahəsində qarşılıqlı əməkdaşlığı inkişaf etdirmək Azərbaycanın enerji siyasətinin vacib istiqamətlərindən biridir.

Enerji sahəsində Azərbaycanın əməkdaşlıq etdiyi xarici ölkələrin coğrafiyası kifayət qədər genişdir. Respublika hökuməti və ya Energetika Nazirliyi Qazaxstan, Özbəkstan, Qırğızstan, Türkmənstan, Gürcüstan, Ukraynan, Moldova, Rusiya, Belarus, Türkiyə, İspaniya, İtaliya, Böyük Britaniya, Macarıstan, Rumıniya, Serbiya, Bolqarstan, Avstriya, Almaniya, İsveçrə, Polşa, Slovakiya, Norveç, Fransa, Çexiya, Bosniya və Herseqovina, Xorvatiya, Yunanıstan, Hollandiya, Montenegro, Albaniya, Malta, Sloveniya, Yaponiya, İndoneziya, Koreya Respublikası, Avstraliya, Pakistan, Çin, Vyetnam, İran, İraq, Misir, BƏƏ, Səudiyyə Ərəbistanı, Suriya, Əlcəzair, CAR və Mavritaniyanın müvafiq qurumları və ya şirkətləri ilə enerji sahəsində əməkdaşlıq haqqında memorandum, anlaşma memorandumu, yol xəritəsi, niyyət protokolu, müqavilə, protokol, saziş və ya bəyannamə imzalamışdır [23].

Respublikanın əməkdaşlıq etdiyi beynəlxalq təşkilat və maliyyə qurumları sırasında isə BMT-nin İnkişaf Proqramı, Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyası, Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı, Avro-

pa üzrə İqtisadi Komissiyası və Ətraf Mühit Proqramı, BEA, DEŞ, Dünya Neft Şurası, OPEC, Beynəlxalq Bərpa Olunan Enerji Agentliyi, Qaz ixrac edən ölkələrin Forumu, Aİ, Türk Dövlətləri Təşkilatı (TDT), İqtisadi Əməkdaşlıq Təşkilatı, Mərkəzi Asiya Regional Əməkdaşlıq Proqramı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, GUAM, MDB, İslam İnkişaf Bankı (İİB), Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB), Asiya İnkişaf Bankı (AİB) və s. yer almışdır [23].

Azərbaycanın beynəlxalq əməkdaşlığı çərçivəsində onlarla layihə həyata keçirilmişdir. Məsələn, yanacaq-enerji kompleksinin inkişafı üzrə, 2005-2015-ci illərdə yerinə yetirilmiş Dövlət Proqramı çərçivəsində, "Babək" qaz yatağında dərin qazma işləri aparmaq üçün zəruri olan qurğu və cihazlar Hollandiya, ABŞ, Almaniya, Çin və Rusiyadan alınmışdır. Gücü 330/110/10 kV olan Xaçmas yarımstansiyasının inşası və onun mövcud 110-330 kV-luq ötürücü xətləri ilə birləşdirilməsi layihəsi İİB tərəfindən maliyyələşdirilmişdir. Qeyd olunan yarımstansiya 2009-cu ildə istifadəyə verilmişdir. Azərbaycan ilə İran arasında enerji mübadiləsini artırmaq məqsədilə və İranın Eksport İnkişaf Bankının ayırdığı kredit hesabına həyata keçirilən layihə çərçivəsində 107 kilometr uzunluğunda 330 kV-luq və 230 kilometr uzunluğunda 220 kV-luq elektrik hava xətti çəkilmiş, gücü 220 kV olan "Salyan" yarımstansiyası tikilmiş və mövcud "Masallı" yarmstansiyası yenidən qurulmuşdur. İranın "Sunir" şirkətinin podratçı olduğu bu layihənin həyata keçirilməsi 2010-cu ildə başa çatdırılmışdır. Bundan başqa, Azərbaycanla İran arasında, optik kabellərdən istifadə etməklə, ikinci "İmişli-Parsabad" elektrik verici xətti çəilmişdir. "Azərbaycan" istilik elektrik Stansiyası (İES) ilə "İmişli" yarımstansiyasını birləşdirən

330 kV-luq elektrik veriliş xətlərinin və 330 kV-luq Goranboy paylayıcı məntəqəsinin tikintisində Almaniyanın "KfW" bankı kreditor, həmin ölkənin Decon/Fichtner konsorsiumu məsləhətçi, Çinin "CNEEC" şirkəti isə podratçı olmuşdur. Almaniyanın "AWAS" şirkəti Suraxanı neft yatağının lay sularının və H. Əliyev adına Neft Emalı Zavodunda istehsal prosesində alınan suların təmizlənməsi üzrə pilot layihə həyata keçirmişdir. Dənizin 200 metr dərinliyində dalğıc işləri aparmağa imkan verən "Mobil dərinlik dalğıc kompleksi" CAR-da yenidən qurulduqdan sonra istifadəyə verilmişdir və s. [36].

Müasir dövrdə Azərbaycan beynəlxalq enerji təhlükəsizliyinin təmin olunmasına töhfə verən ölkələr sırasında yer almışdır. Son dərəcə mürəkkəb geosiyasi vəziyyətdə "Əsrin müqaviləsi"nin imzalanmasına, bunun ardınca, qlobal əhəmiyyət daşıyan BTC və BTƏ boru kəmərlərinin inşasına və istifadəyə verilməsinə, TANAP və TAP layihələrinin reallaşdırılmasına nail olan Azərbaycanın əsas məqsədlərindən biri, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, *"öz qonşuları və tərəfdaşları üçün enerji təhlükəsizliyini təmin etməkdir"* [12, s.2]. Energetika Nazirliyinin illik hesabatlarında əks olunmuş məlumatlara görə, Azərbaycanın dünya bazarına nəql etdiyi neftin miqdarı 2020-ci ildə 28,3 mln. ton, 2021-ci ildə 28,1 mln. ton, 2022-ci ildə 26,3 mln. ton, 2023-cü ildə 25,2 mln. ton, həmin dövrdə ixrac olunan təbii qazın həcmi isə, illər üzrə müvafiq olaraq, 13,4 mlrd. $m^3$, 18,9 mlrd. $m^3$, 22,6 mlrd. $m^3$, 23,8 mlrd. $m^3$ təşkil etmişdir [23].

Respublikanın beynəlxalq enerji siyasətinin vektorlarının istiqamətləndiyi coğrafiyada Avropa xüsusi yer tutur. 1997-ci il dekabrın 2-də Milli Məclis tərəfindən, 1994-cü il dekabrın 17-də Lissabonda imzalanmış Beynəlxalq Enerji Xartiyası Müqaviləsi-

nin ratifikasiya edilməsi, coğrafi, geoloji və geosiyasi cəhətdən üstünlüklərə malik olan Azərbaycanın Avropa ilə enerji dialoqunu inkişaf etdirməkdə maraqlı olduğunun göstəricisi idi. Azərbaycan Aİ-nin, MDB ölkələrinə texniki yardım göstərilməsini nəzərdə tutan TACİS proqramında, enerji sahəsində əməkdaşlığı təşviq edən İNOGATE proqramında iştirak etmişdir. 2004-cü il noyabrın 13-də Bakıda, Aİ-nin Avropa Qonşuluq Siyasəti çərçivəsində keçirilmiş konfransda, Aİ ilə Xəzər-Qara dəniz hövzəsi ölkələri arasında enerji sahəsində əməkdaşlıq məsələsi müzakirə olunmuş və yekunda, "Bakı təşəbbüsü" adı almış sənəd, 2006-cı il noyabrın 7-də isə, Azərbaycan ilə Aİ arasında enerji sahəsində əməkdaşlığın prioritetlərini müəyyənləşdirən "Enerji sahəsində strateji tərəfdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanmışdır. [101, s.697-700, 130, s.48, 189, s.131-133]. Tərəflər arasında əməkdaşlığın genişləndirilməsinə xidmət edən növbəti addım, 2011-ci ildə Azərbaycan və Avropa Komissiyası prezidentləri arasında, Cənub Qaz Dəhlizi haqqında Birgə Bəyannamənin imzalanması ilə atıldı. Bəyannamədə Azərbaycan bu dəhlizə "əsas töhfə verən" və onu "həyata keçirən ölkə kimi" təqdim olunmuşdur [101, s.700, 103, s.16-17, 130, s.48-49, 157, s.27]. Cənub Qaz Dəhlizinin inkişafı ilə bağlı tərəflər arasında müşahidə olunan həmrəylik enerji sahəsində əməkdaşlığın genişləndirilməsinə müsbət təsir göstərmişdir

2022-ci il iyulun 18-də Bakıda Prezident İlham Əliyev və Avropa Komissiyasının Prezidenti Ursula fon der Leyen tərəfindən imzalanan yeni Anlaşma Memorandumunda Avropaya ixrac olunan Azərbaycan təbii qazının həcmini 2027-ciilədək ildə ən azı 20 mlrd. $m^3$-ə qədər artırmaq nəzərdə tutulmuşdur [101, s.700-701, 183, s.40].

Ursula fon der Leyenin "etibarlı tərəfdaş" adlandırdığı Azərbaycan Aİ ilə əməkdaşlıq çərçivəsində üzərinə götürdüyü öhdəliklərə layiqincə əməl edir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan təbii qazını alan 16 ölkədən 10-u Aİ-nin üzvüdür. *"Bu gün 3500 kilometrlik inteqrasiya edilmiş boru kəməri sistemi... tam gücü ilə işləyir. İstər Cənubi Qafqaz Boru Kəməri, istərsə də TANAP və ya TAP – "Cənub qaz dəhlizi"nin üç ayrılmaz hissəsi tam dolu işləyir"* [12, s.2].

Azərbaycanın enerji təhlükəsizliyi siyasətinin uğurlu nəticələrindən biri də onun enerji sektoru ilə bağlı müxtəlif beynəlxalq tədbirlərə ev sahibliyi etməsidir. Bakıda mütəmadi olaraq təşkil edilən Xəzər Neft və Qaz Sərgisi, Bakı Enerji Həftəsi, Bakı Enerji Forumu, Cənub Qaz Dəhlizi Məşvərət Şurasının və Yaşıl Enerji Məçvərət Şurasının iclasları qlobal enerji problemlərinin və bu sektorun inkişafı ilə bağlı məsələlərin müzakirə olunduğu platformalara çevrilmişdir.

İstər ölkədaxili, istərsə də beynəlxalq səviyyədə Azərbaycanın həyata keçirdiyi enerji təhlükəsizliyi siyasətinin uğurlu nəticələri beynəlxalq indekslərdə də öz əksini tapmışdır.

Respublikanın enerji təhlükəsizliyi siyasətinin müsbət istiqamətdə inkişaf etdiyini DETİ üzrə beynəlxalq reytinqdə onun tutduğu mövqe də sübut edir. DEŞ ölkələrin qeyd olunan indeks üzrə reytinqini 2010-cu ildən başlayaraq müəyyənləşdirsə də, Azərbaycan üzrə ilk qiymətləndirmə 2013-cü ildə aparılmışdır.

Birinci paraqrafda qeyd olunduğu kimi, DETİ üzrə beynəlxalq reytinqdə ölkələrin yeri əsasən enerji təhlükəsizliyi, enerjiyə əlçatanlıq və ekoloji dayanıqlıq parametrləri üzrə onların əldə etdikləri nəticələr əsasında müəyyənləşdirilir. Ölkələrin göstəriciləri hər bir parametr üzrə ayrı-ayrılıqda və dörd diapazonda qiymətləndirilir. Ən yaxşı göstəricilərə malik olan ölkələrin tutduğu

yer reytinq siyahısının 1-25%-ni təşkil edir və bu diapazon "A" hərfi ilə işarələnir. Göstəriciləri aşağı olan ölkələr isə, müvafiq olaraq daha aşağı diapazonlarda yer alır. "B" hərfi ilə 25-50%, "C" hərfi ilə 50-75%, "D" hərfi ilə isə 75-100% diapazonu işarələnir.

**Cədvəl 1.3.1**

**Dünya Enerji Trilemma İndeksi üzrə beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyi**

| İllər | Reytinq siyahısında ölkələrin sayı | Reytinq sıralamasında Azərbaycanın yeri* | Parametrlər | | |
|---|---|---|---|---|---|
| | | | Enerji təhlükəsizliyi | Enerjiyə əlçatanlıq | Ekoloji dayanıqlıq |
| 2013 | 129 | 81 | B | C | D |
| 2014 | 129 | 71 | A | B | D |
| 2015 | 130 | 55 | A | B | C |
| 2016 | 125 | 26 | A | B | A |
| 2017 | 125 | 31 | B | B | A |
| 2018 | 125 | 27 | B | B | A |
| 2019 | 128 | 57 | B | B | B |
| 2020 | 127 | 36 | A | B | B |
| 2021 | 127 | 39 | A | B | C |
| 2022 | 127 | 39 | B | B | C |
| 2023 | 126 | 42 | B | B | C |
| 2024 | 126 | - | B | B | C |

*Cədvəl "World Energy Trilemma İndex" məcmuəsinin 2015-2022-ci illər və 2024-cü il nəşrinin materialları əsasında tərtib edilmişdir.*

**2024-cü il üçün DETİ-də ölkələrin yeri ümumi siyahı üzrə deyil, regionlar üzrə müəyyənləşdirilmişdir və bu indeksdə Asiya qrupuna aid edilən Azərbaycan region ölkələrinin siyahısında yeddinci sırada yer almışdır.*

Cədvəldən göründüyü kimi, DETİ üzrə beynəlxalq reytinqdə Azərbaycanın mövqeyi ümumilikdə möhkəmlənmişdir, belə ki, 2013-cü ildə reytinq siyahısında 129 ölkə arasında 81-ci yerdə olan respublika, 2023-cü ildə 126 ölkə arasında 42-ci yeri tutmuşdur. Azərbaycan ən yüksək göstəriciyə 2016-cı ildə nail olmuşdur. Həmin ildə o, 125 ölkə arasında 26-cı yeri tutmuş, enerji təhlükəsizliyi və ekoloji dayanıqlıq parametrləri üzrə isə A diapazonunda yer almışdır.

Ümumilikdə, respublika ən yaxşı göstəriciyə enerji təhlükəsizliyi sahəsində nail olmuş və bu parametr üzrə A və B diapazonlarında yer almışdır. Enerji bərabərliyi parametri üzrə onun mövqeyi ümumən sabit qalmış və C diapazonunda yer aldığı 2013-cü il istisna olmaqla, qalan illər ərzində B diapazonuna aid ölkələr sırasında qərarlaşmışdır. Ekoloji dayanıqlıq parametri üzrə Azərbaycanın mövqeyi qeyri-sabit olmuşdur. 2013-2018-ci illərdə respublika bu parametr üzrə D diapazonundan A diapazonuna qədər irəliləsə də, sonrakı illərdə geriləyərək, əvvəlcə B, sonra isə C diapazonuna düşmüşdür.

DETİ üzrə beynəlxalq reytinqdə keçmiş SSRİ respublikalarının çoxunun Azərbaycandan geridə qalması Bakının enerji təhlükəsizliyi siyasətinin effektivliyini göstərən faktorlardandır. Məsələn, 2013-cü ilə aid reytinq siyahısında Litva (42-ci yer), Latviya (43-cü yer), Rusiya (54-cü yer), Qazaxstan (58-ci yer) və Estoniya (68-ci yer) Azərbaycandan (81 yer) irəlidə idisə [252, s.148-140], 2016-cı il siyahısında 26-cı yerdə olan Azərbaycanı, keçmiş SSRİ respublikalarından yalnız biri, 25-ci yeri tutan Latviya qabaqlayırdı. Həmin siyahıda Litva 28-ci, Estoniya 40-cı, Rusiya 45-ci, Gürcüstan 51-ci, Ukrayna 63-cü, Ermənistan 69-cu, Qazaxstan 82-ci sırada yer almışdı [253, s.10-11]. 2023-cü

ildə isə Azərbaycanın reytinqi, Baltikyanı ölkələr və Rusiya istisna olmaqla, postsovet məkanın digər ölkələrinin reytinqindən yüksək idi [260, s.77-78].

Azərbaycanda həyata keçirilən enerji təhlükəsizliyi siyasətinin müsbət dinamika ilə inkişaf etdiyi Dünya İqtisadi Forumunun hazırladığı Qlobal Enerji Arxitekturasının Effektivliyi İndeksində (QEAEİ) də öz əksini tapmışdır. Ölkələrin bu indeks üzrə reytinq cədvəlindəki yeri üç parametr – iqtisadi artım və inkişaf, ekoloji dayanıqlıq, enerji əlçatanlığı və təhlükəsizliyi – əsasında müəyyənləşdirilir. İqtisadi artım və inkişaf parametrinin indikatorları enerji intensivliyi (ÜDM-in bir vahidinə düşən, neft ekvivalentində enerji istehlakı), benzin və dizel yanacağının qiymətinin süni şəkildə təhrif olunmasının dərəcəsi, sənayedə istifadə olunan elektrik enerjisinin qiyməti, idxal və ixrac olunan enerjinin dəyəri və onun UDM-də xüsusi çəkisi, ekoloji dayanıqlıq parametrinin indikatorları elektrik və istilik enerjisi istehsalında karbon dioksid emissiyaları, ölkə üzrə PM10 (atmosferə atılan kiçik bərk hissəciklər) səviyyəsi, enerji sektorunda azot oksidi emissiyaları, minik avtomobilləri parkı üçün hər 100 kilometrə düşən yanacaq sərfiyyatı, ümumi enerji istehlakında alternativ enerjinin və nüvə enerjisinin xüsusi çəkisi, enerji əlçatanlığı və təhlükəsizliyi parametrinin indikatorları isə ilkin enerji təchizatının diversifikasiyası, ölkənin elektrikləşdirilməsi səviyyəsi, elektrik enerjisi təchizatının keyfiyyəti, yemək hazırlamaq üçün bərk yanacaqdan istifadə edən əhalinin faizi, enerji idxalından asılılıq səviyyəsi ilə bağlıdır [243, s.15].

QEAEİ üzrə, 2012-ci ilin nəticələri əsasında hazırlanmış hesabatda Azərbaycan 105 ölkə arasında, parametrlər əsasında hesablanmış ümumi 0,59 balla 42-ci yerdə olmuşdur. Ölkə iqti-

sadi artım və inkişaf parametri üzrə 0,47 bal, ekoloji dayanıqlıq parametri üzrə 0,51 bal, enerji əlçatanlığı və təhlükəsizliyi parametri üzrə isə 0,78 balla qiymətləndirilmişdir. Müqayisə üçün qeyd etmək olar ki, reytinq cədvəlində birinci yerdə olan Norveçin ümumi balı 0,75-ə bərabər olmuşdur. Keçmiş SSRİ respublikalarından yalnız dördü - ümumilikdə 0,69 balla yeddinci yerdə olan Latviya, 0,63 balla iyirmi ikinci yerdə olan Litva, 0,61 balla iyirmi yeddinci yerdə olan Rusiya, 0,61 balla otuzuncu yerdə olan Estoniya Azərbaycandan irəlidə idi [243, s.17].

2013-cü ilin yekunlarını özündə əks etdirən reytinq cədvəlində Azərbaycan ümumilikdə 0,55 balla 124 ölkə arasında 52-ci yeri tutmuş, iqtisadi artım və inkişaf parametri üzrə 0,44 bal, ekoloji dayanıqlıq parametri üzrə 0,43 bal, enerji əlçatanlığı və təhlükəsizliyi parametri üzrə isə 0,79 bal almışdır. Keçmiş SSRİ respublikalarından Baltikyanı ölkələr, Rusiya və Qazaxstanın ümumi göstəriciləri Azərbaycanın ümumi göstəricisindən yüksək olmuşdur [244, s.18]. Əvvəlki il ilə müqayisədə Azərbaycanın on pillə geriləməsinə ekoloji dayanıqlıq parametri üzrə göstəricinin nəzərəçarpacaq dərəcədə pisləşməsi təsir göstərmişdir. Sonrakı illərdə respublikanın ümumi inkişafı fonunda onun QEAEİ üzrə reytinq göstəriciləri də yaxşılaşmışdır.

2015-ci il üçün hesabatda Azərbaycan ümumilikdə 0,67 balla 33-cü yerdə, 2016-cı il üçün hesabatda 0,68 balla 32-ci yerdə, 2017-cı il üçün hesabatda isə 0,67 balla 36-ci yerdə olmuşdur. Ayrı-ayrı parametrlər üzrə göstəricilərə gəldikdə isə, bu, 2015-ci ildə iqtisadi artım və inkişaf parametri üzrə 0,59 bal, ekoloji dayanıqlıq parametri üzrə 0,62 bal, enerji əlçatanlığı və təhlükəsizliyi parametri üzrə isə 0,80 bal, 2016-cı ildə, parametrlər üzrə müvafiq olaraq, 0,68 bal, 0,57 bal və 0,79 bal, 2017-ci

ildə isə 0,65 bal, 0,57 bal və 0,79 bal təşkil etmişdir. Rəqəmlərdən də göründüyü kimi, Azərbaycan ən yüksək göstəriciyə enerji əlçatanlığı və təhlükəsizliyi parametri üzrə nail olmuşdur. Ümumilikdə, qeyd olunan illərdə reytinq cədvəlində liderlik İsveçrə və Norvecə məxsus olmuşdur. Keçmiş SSRİ respublikalarına gəldikdə isə, 2015 və 2016-cı illərdə yalnız Latviya, 2017-ci ildə isə Latviya və Litva Azərbaycandan irəlidə olmuşdur. Qeyd etmək lazımdır ki, QEAEİ üzrə reytinq cədvəlində Azərbaycan dünyanın ən iri iqtisadiyyatına malik olan ABŞ-ni, enerji daşıyıcıları ilə zəngin olan Rusiya və Qazaxstanı, sənayecə ən inkişaf etmiş ölkələr sırasında yer alan Yaponiyanı geridə qoymuşdur [223, s.8, 224, s.10, 225, s.9].

2018-ci ildə Dünya İqtisadi Forumu QEAEİ üzrə hesabatların hazırlanmasını dayandırmış, əvəzində Səmərəli Enerji Keçidinin Təşviqi İndeksi üzrə hesabatlar tərtib etməyə başlamışdır. Yeni formatda hesabatların hazırlanıb təqdim edilməsi dünya enerji sektorunun inkişaf meyllərindən, ölkə miqyasında və qlobal səviyyədə enerji təhlükəsizliyini təmin etmək məqsədilə mövcud infrastrukturu təkmilləşdirməyi və ekoloji cəhətdən daha təmiz enerji mənbələrindən istifadəni təşviq etmək zərurətindən qaynaqlanır.

Dünya İqtisadi Forumunun mövqeyinə görə, QEAEİ üzrə hesabatlar enerji sistemində makro səviyyədə meydana gələn meylləri və onların təsirlərini öyrənmək, ölkə səviyyəsində enerji sistemlərinin səmərəliliyini qiymətləndirmək məqsədi daşıyırdısa, Səmərəli Enerji Keçidinin Təşviqi layihəsi, qeyd olunanları davam etdirməklə yanaşı, enerji keçidi barədə qlobal dialoqun transformasiyasına nail olmaq niyyətindən irəli gəlmişdir. Yeni layihənin reallaşdırılmasında qarşıda duran hədəflər aşağıdakılardır:

– həm qlobal miqyasda, həm də ölkə səviyyəsində enerji keçidini sürətləndirmək və ölkə başçılarını bu işə həvəsləndirmək məqsədilə müvafiq strukturu və məlumat bazasını yaratmaq;
– cəmiyyət və biznes üçün uzun müddət ərzində səmərəli ola biləcək milli enerji keçid prioritetləri üzrə ümumi və inklüziv yanaşmanı təşviq etmək üçün maraqlı tərəfləri vahid məxrəcə gətirmək;
– çevik və uzunmüddətli siyasi yol xəritələri hazırlamaq məqsədilə dövlət-özəl əməkdaşlığı üçün inklüziv platformalar yaratmaq;
– yeni enerji sisteminə keçidi, dövlət və özəl sektor arasında əməkdaşlığı təmin etmək üçün yerlərdə göstərilən fəaliyyəti genişləndirmək məqsədilə xarici həmkarların və Forumun ekspertlərinin qabaqcıl təcrübəsindən bəhrələnmək [217, s.5].

Səmərəli Enerji Keçidinin Təşviqi İndeksi ölkələrdə sistem məhsuldarlığı imperativi və enerji keçidinə hazırlıq parametrləri üzrə müəyyənləşdirilir. Sistem məhsuldarlığı imperativi özündə, digər indekslərdə olduğu kimi, "enerji üçbucağını", yəni enerji təhlükəsizliyi və əlçatanlıq, ekoloji dayanıqlıq, iqtisadi inkişaf və artım parametrlərini ehtiva edir. Təhlükəsizlik və əlçatanlıq parametri enerji əlçatanlığı və enerji təchizatının keyfiyyəti indikatorları, ekoloji dayanıqlıq parametri hava çirklənməsi, enerji intensivliyi, karbon intensivliyi, adambaşına karbon emissiyası indikatorları, iqtisadi inkişaf və artım parametri isə əlverişlilik, sənayenin rəqabət qabiliyyəti, qalıq yanacağa yönəldilən subsidiyalar, xarici təsirlərin dəyəri və ÜDM-də iştirak indikatorları üzrə müəyyənləşdirilir. Enerji keçidinə hazırlıq parametrlərinə isə enerji sisteminin strukturu, kapital və inves-

tisiyalar, tənzimləmə və siyasi öhdəliklər, insan kapitalı və istehlakçı iştirakı, infrastruktur və innovativ biznes mühiti, institutlar və idarəçilik aiddir. Enerji tələbatının artması, elektrik enerjisi istehsalı mənbələri və qalıq yanacaqdan aslılıq enerji sisteminin strukturu parametrinin, investisiya mühiti, kapital əlçatanlığı, enerji səmərəliliyi sahəsinə və bərpa olunan enerji sisteminə qoyulan son investisiyalar kapital və investisiyalar parametrinin, beynəlxalq öhdəliklər və müqavilələr, stabil siyasət, enerji səmərəliliyi və bərpa olunan enerji sisteminin tənzimlənməsi tənzimləmə və siyasi öhdəliklər parametrinin, bərpa olunan enerji sektorunda iş yerləri və təhsilin keyfiyyəti insan kapitalı və istehlakçı iştirakı parametrinin, ticarət logistikası, nəqliyyat infrastrukturu, texnologiyaların mövcudluğu və innovativ biznes mühiti infrastruktur və innovativ biznes mühiti parametrinin, şəffaflıq və siyasi sabitlik, qanun aliliyi, maliyyə sabitliyi institutlar və idarəçilik parametrinin indikatorlarını təşkil edir. Müəyyənləşdirilmiş metodologiyaya uyğun olaraq, ölkənin ümumi reytinqi 0-100% diapazonunda qiymətləndirilir və bunun ilk 50%-i sistem məhsuldarlığı imperativi, digər 50%-i isə enerji keçidinə hazırlıq parametrləri üzrə hesablanır [217, s.11, s.28]. Azərbaycanda qeyd olunan istiqamət və parametrlər üzrə sistemli və davamlı tədbirlərin həyata keçirilməsi Səmərəli Enerji Keçidinin Təşviqi İndeksi üzrə reytinq cədvəlində respublikanın layiqli yer tutmasını təmin etmişdir.

2019-cu ildə Azərbaycan qeyd olunan indeks üzrə reytinq cədvəlində, 115 ölkə arasında, 55% göstərici ilə 57-ci yeri tutmuşdu. Ölkənin sistem məhsuldarlığı imperativi üzrə göstəricisi 63%-ə, enerji keçidinə hazırlıq parametrləri üzrə göstəricisi isə 48%-ə bərabər olmuşdur. Bu reytinq üzrə sıralamada Azər-

baycan keçmiş SSRİ respublikaları Estoniya, Latviya, Litva, Gürcüstan və Ermənistandan geridə olmuşdu [218, s.11], lakin bu müvəqqəti bir hal idi. Hər iki parametr üzrə göstəricilərini yaxşılaşdıran Azərbaycan növbəti, 2020-ci ildə sistem məhsuldarlığı imperativi üzrə 67%-ə, enerji keçidinə hazırlıq parametrləri üzrə 49%-ə bərabər nəticə göstərərək, ümumilikdə 58,1%-lə 115 ölkə sırasında 44-cü yerə qalxmışdı. Buna baxmayaraq, respublika reytinqdə postsovet ölkələrindən Baltikyanı respublikalar və Gürcüstandan hələ də geri qalırdı [219, s.13]. 2021-ci ildə Azərbaycanın göstəriciləri daha da yaxşılaşsa da (sistem məhsuldarlığı imperativi üzrə 69,5%, enerji keçidinə hazırlıq parametrləri üzrə 56,3%, ümumi göstərici 63%), onun reytinq cədvəlindəki yerində və keçmiş sovet respublikaları ilə müqayisədə mövqeyində dəyişiklik baş verməmişdir [220, s.13].

2023-cü ildə Səmərəli Enerji Keçidinin Təşviqi İndeksi üzrə reytinqi müəyyənləşdirilən ölkələrin sayı 115-dən 120-yə yüksəldi. Həmin ildə ümumi göstəricisi 62%, sistem məhsuldarlığı imperativi üzrə göstəricisi 69,6%, enerji keçidinə hazırlıq parametrləri üzrə göstəricisi 50,7% olan Azərbaycan reytinq cədvəlində 32-ci sıraya yüksəlmiş və postsovet respublikalarından Estoniya və Latviyadan geri qalmışdır [221, s.12]. Azərbaycanın, 2021-ci il ilə müqayisədə 2023-cü ilə aid göstəricilərində müəyyən geriləmələrin olmasına baxmayaraq, reytinq cədvəlində 12 pillə irəliləməsi digər ölkələrdə geriləmə faizinin daha yüksək olması ilə bağlı idi.

2024-cü ildə göstəriciləri bir qədər də geriləyərək, sistem məhsuldarlığı imperativi üzrə 68,9%-ə, enerji keçidinə hazırlıq parametrləri üzrə 47,6%-ə, ümumi göstəricisi isə 60,3%-ə düşən Azərbaycan reytinq cədvəlinin 38-ci sırasında yer almış və keçmiş SSRİ respublikalarından yalnız Baltikyanı respublikalardan geri qalmışdır [222, s.12].

İsveçrə, İsveç, Norveç, Danimarka və Finlandiya Səmərəli Enerji Keçidinin Təşviqi İndeksi üzrə ən yüksək reytinqə malik olan ölkələrdir.

Ümumilikdə, beynəlxalq indekslər üzrə Azərbaycanın reytinqini, ölkənin imkanlarını nəzərə almaqla, yüksək hesab etmək olar. Qeyd olunan reytinq cədvəllərində respublikanın tutduğu mövqe, mahiyyət etibarı ilə bir-birinə uyğun gəlir, bu da həmin cədvəllərdə əksini tapan məlumatların obyektivliyinə inamı artırır. Azərbaycan bütün parametrlərə görə, Baltikyanı ölkələr istisna olmaqla, keçmiş SSRİ respublikalarının hamısından yaxşı nəticələrə malikdir. Ayrı-ayrı parametrlər üzrə qiymətləndirməyə gəldikdə isə, enerji təhlükəsizliyi ilə bağlı nəticələr daha yüksək, ekoloji dayanıqlıqla bağlı nəticələr isə nisbətən aşağıdır.

Bütün qeyd olunanlara əsasən belə nəticəyə gəlmək olar ki, Azərbaycanda həyata keçirilən enerji təhlükəsizliyi siyasəti ölkənin həm milli səviyyədə inkişafına, həm də beynəlxalq səviyyədə əlaqələrinin genişlənməsinə müsbət təsir göstərmişdir. Respublikada Dövlət proqramları, İnkişaf Konsepsiyası, İnkişaf Strategiyası və Milli Prioritetlərin icra olunması, təkcə enerji təhlükəsizliyinin möhkəmləndirilməsi baxımından deyil, ümumilikdə ölkənin davamlı inkişafını təmin etmək baxımından müsbət qiymətləndirilməlidir. Azərbaycanın enerji təhlükəsizliyi siyasəti BMT-nin "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" də daxil olmaqla, irəli sürülən mütərəqqi təşəbbüslərə qoşulmaqla və qlobal səviyyədə cərəyan edən prosesləri nəzərə almaqla inkişaf edir və bunun da nəticəsində ölkə istər ikitərəfli, istərsə də çoxtərəfli müstəvidə geniş beynəlxalq əlaqələr qurmağa nail olmuş və müxtəlif beynəlxalq indekslər üzrə mövqelərini yaxşılaşdırmışdır.

# II FƏSİL

# AZƏRBAYCANIN ENERJİ SEKTORUNUN STRUKTURU VƏ ENERJİ TƏHLÜKƏSİZLİYİ SİYASƏTİNİN PRİORİTETLƏRİ

## *2.1. Neft-qaz ehtiyatları və onlardan istifadənin ölkənin enerji təhlükəsizliyi baxımından qiymətləndirilməsi*

Keçmişdə olduğu kimi, bu gün də Azərbaycan neft-qaz ölkəsi olaraq diqqəti cəlb edir. Respublikanın malik olduğu zəngin karbohidrogen ehtiyatları onun təkcə enerji təhlükəsizliyinin təməl elementi deyil, ümumilikdə daxili və xarici siyasətinin vacib amillərindən biridir. Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi, *"Allah Azərbaycan xalqına zəngin təbii sərvətlər bəxş etmişdir. Azərbaycan xalqının da dəyərli insanları, böyük alimləri, fədakar başqa mütəxəssisləri bu zəngin sərvətlərin vətən, xalq naminə istifadə edilməsi üçün böyük işlər görmüşlər"* [84, s.231]. Təbii sərvətlərdən səmərəli istifadə etmək məqsədilə başlayan bu işlər təcrübədən, beynəlxalq və regional inteqrasiyanın yaratdığı imkanlardan və elmi texniki nailiyyətlərdən istifadə etməklə müasir dövrdə də davam edir.

Alternativ enerji mənbələrinin potensialından bəhrələnmək məqsədilə konkret layihələrin həyata keçirilməsinə baxmayaraq, Azərbaycanın enrerji təhlükəsizliyinin təmin olumasında

neft və təbii qaz öz dominantlığını saxlayır. 2019-cu ildə respublikanın ümumi enerji təchizatının 67.9%-i təbii qazın, 30,5%-i neftin, 2023-cü ildə isə 69,6%-i təbii qazın, 28,9%-i neftin hesabına təmin olunmuşdur [11, s.21]. Bu prosesdə təbii qazın xüsusi çəkisində artım, netin xüsusi çəkisində azalma müşahidə olunsa da, ümumi enerji təchizatında qalıq yanacaq növlərinin payı 98%-dən çoxdur. 2030-cu ilədək respublikada elektrik enerjisi istehsalında alternativ mənbələrin payını 30%-ə çatdırmaq barədə strateji məqsədin reallaşacağı təqdirdə belə, həmin dövrdə ilkin enerji istehsalında neft və təbii qazın payının 90%-dən az olmayacağını proqnozlaşdırmaq olar.

Dünya ölkələrinin, o cümlədən Azərbaycanın neft-qaz ehtiyatları barədə məlumatları müxtəlif mənbələrdən əldə etmək mümkündür və bəzi hallarda bu məlumatlar bir-biri ilə uzlaşmır, bu da onların etibarlılıq dərəcəsini aşağı salır. ABŞ Enerji Departamenti Enerji İnformasiya İdarəsinin, ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin, OPEC-in, Böyük Britaniyanın "Britiş Petroleum" şirkətinin, İtaliynın "Eni S.p.A." şirkətinin icmal və hesabatlarında yer alan statistik məlumatları müqayisə edərək və ümumiləşdirmələr apararaq, dünya, ayrı-ayrı regionlar və ölkələr üzrə enerji ehtiyatları barədə müəyyən nəticələr əldə etmək mümkündür.

ABŞ Enerji Departamenti Enerji İnformasiya İdarəsinin təqdim etdiyi məlumatlarda Azərbaycanın neft ehtiyatları 7 mlrd. barel (1,0 mlrd ton) həcmində qiymətləndirilir [250]. Bu ölkənin digər bir qurumunun, Mərkəzi Kəşfiyyat İdarəsinin hazırladığı "Ümumdünya Faktlar Kitabı"nda da respublikanın neft ehtiyatlarının 7 mlrd. barelə bərabər olduğu göstərilir [245].

OPEC-in 2005-2022-ci illəri əhatə edən məlumatlarında Azərbaycanın 7 mlrd. barel neft ehtiyatına malik olduğunu bildirir [235, s.22, 232, s.22, 233, s.22, 234, s.22].

İtaliyanın "Eni S.p.A." enerji şirkətinin 2020-ci ildə nəşr etdirdiyi "Dünyanın neft, qaz və bərpa olunan mənbələrinin icmalı"nda Azərbaycanın neft ehtiyatları 2000-ci ildə 1,17 mlrd. barelə, 2005-2019-cu illərdə 7 mlrd. barelə bərabər olduğu göstərilmişdir [261, s.3] Həmin şirkətin 2024-cü ildə nəşr etdirdyi "Dünya energetikasının icmalı"nda isə 2010-2023-cü illərdə respublikda 6,95 mlrd. barel neft ehtiyatının olduğu qeyd edilir [251, s.42] və bu zaman şirkətin müxtəlif illərdə təqdim etdiyi iki icmalında eyni illərə aid rəqəmlərdəki fərqin hansı səbəbdən qaynaqlandığına aydınlıq gətirilmir.

"BP" şirkəti tərəfindən nəşr edilən "Dünya energetikasının statistik icmalı"nın 2016-cı il nəşrində 1995-ci ildə Azərbaycanın 1,2 mlrd. barel (175,3 mln. ton) neft ehtiyatına malik olduğu qeyd olunur [202, s.6]. Şirkətin icmallarında 2000-ci il ilə bağlı məlumatlarda müəyyən ziddiyyət mövcuddur, belə ki, 2002-ci il icmalında 2000-ci ildə ehtiyatların həcmi 6,9 mlrd. Barelə (1,0 mlrd ton) [199, s.4], 2021-ci il icmalında isə 1,2 mlrd. barelə bərabər olduğu bildirilir [203, s.16]. İcmallarda, 2001-ci ildən başlayaraq növbəti illərdə Azərbaycanın neft ehtiyatlarının 7,0 mlrd. barel və ya 1,0 mlrd ton təşkil etdiyi göstərilir. "BP"-nin məlumatına görə, 2001-ci ildə dünya üzrə ehtiyatların 0,7%-i, 2004-cü ildə 0,6%-i, sonrakı illərdə isə 0,4%-i Azərbaycanın payına düşürdü [202, s.6, 199, s.4, 203, s.16]. 2000-ci il ilə bağlı rəqəmlərdəki fərqin texniki yanlışlıq olduğunu ehtimal etmək olar. Eyni zamanda, qeyd olunan ildə ehiyatlarla bağlı təqdim edilən məlumatları digər mənbələr əsasında dəqiqləşdirmək mümkün olmamışdır. ABŞ Enerji Departamenti Enerji İnformasiya İdarəsi və ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin həmin il üzrə statistik məlumatlarında bu barədə konkret rəqəmlər ve-

rilmir, OPEC-in 2009-cu ilə qədər olan illik bülletenlərində isə keçmiş SSRİ respublikalarının neft-qaz ehtiyatları ilə bağlı məlumatlar ümumiləşdirilmiş şəkildə təqdim olunur. "Eni S.p.A." şirkəti isə, artıq qeyd olunduğu kimi, 2000-ci il ilə bağlı fərqli məlumat (1,17 mlrd. barel) təqdim edir.

Nəzərə almaq lazımdır ki, müxtəlif icmal və bülletenlərdə enerji ehtiyatları ilə bağlı verilən məlumatlar sadəcə statistikanın aparılması baxımından əhəmiyyət daşımır, ölkələrin iqtisadi, hətta siyasi vəziyyətinə təsir göstərir, çünki süni surətdə azaldılmış rəqəmlər və ya təhrif edilmiş informasiya potensial investorların planlarına və davranışına mənfi təsir göstərə bilər. Keçən əsrin 90-cı illərində məkrli qüvvələrin məqsədlərindən biri məhz respublikanın rentabelli hesab oluna biləcək səviyyədə neft-qaz ehtiyatlarına malk olmadığı barədə yalan məlumatları dövriyyəyə buraxmaqdan və bu yolla dünyanın nəhəng transmilli şirkətləri ilə əməkdaşlığa mane olmaqdan ibarət idi. Bu, iqtisadiyyatın vəziyyəti və ehtiyatların həcmi barədə olan statistikanın hər bir ölkə üçün strateji xarakter daşıdığını qeyd etməyə əsas verir.

Xəzər dənizində təbii qaz ehtiyatlarının kəşfiyyatı üzrə aparılan işlərin uğurlu nəticələri bu sahəyə aid göstəricilərin müsbət dinamika ilə dəyişməsinə səbəb olmuşdur.

ABŞ Enerji Departamenti Enerji İnformasiya İdarəsinin və ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin qiymətləndirməsinə görə, respublikada 1,69 trln. $m^3$ (60 trln. $fut^3$) təbii qaz ehtiyatı mövcuddur [250].

OPEC-in hesablamalarına görə Azərbaycanda aşkarlanan təbii qaz ehtiyatlarının həcmi 2005-2007-ci illərdə 1,2 trln. $m^3$, 2008-2014-cü illərdə 1,3 trln. $m^3$ [232, s.23, 233, s.94], 2015-2017-

ci illərdə 1,2 trln. $m^3$, 2018-ci ildə 1,4 trln. $m^3$, 2019-cu ildə 1,7 trln. $m^3$ [234, s.76], 2020-2022-ci illərdə 1,9 trln. $m^3$ təşkil etmişdir [235, s.76].

"Eni S.p.A." şirkəti Azərbaycanın məlum təbii qaz ehtiyatlarını 2000 və 2005-ci illərdə 499 mlrd $m^3$, 2010-cu ildə 515 mlrd $m^3$, 2015 və 2016-cı illərdə 665 mlrd $m^3$, 2017-ci ildə 1,0 trln. $m^3$, 2018-ci ildə 1,4 trln. $m^3$, 2019-cu ildə 1,9 trln. $m^3$ həcmidə dəyərləndirmiş və sonuncu rəqəm növbəti illərdə dəyişməmişdir [251, s.142, 261, s.61].

"BP" şirkətinin təqdim etdiyi məlumatlar "Eni S.p.A." şirkətinin məlumatlarından fərqlənir. Britaniya şirkətinin təbii qaz ehtiyatları ilə bağlı məlumatlarında da müəyyən uyğunsuzluqlara təsadüf edilir. Məsələn, 2000-ci ildə Azərbaycanın təbii qaz ehtiyatlarının, şirkətin 2002-ci ildə işıq üzü görmüş "Dünya energetikasının statistik icmalı"nda 0,85 trln. $m^3$ [199, s.20], 2021-ci il icmalında isə 1,0 trln. $m^3$ olduğu göstərilir [203, s.34]. Göstəricilərdəki fərq 2005-ci ilə aid məlumatlarda da müşahidə olunur. Həmin ildə ehtiyatların həcmi, şirkətin 2006-cı il icmalında 1,37 trln. $m^3$-ə [200, s.22], 2016-ci il icmalında isə 0,9 trln. $m^3$-ə bərabər olduğu qeyd edilmşdir. Sonuncu qeyd olunan icmala əsasən respublikada təbii qaz ehtiyatlarının həcmi 2014-cü ildə 1,2 trln. $m^3$, 2015-ci ildə 1,1 trln. $m^3$ (dünya üzrə ehtiyatların 0,6%-i) təşkil etmişdir [202, s.20]. "BP" şirkəti ölkələr üzrə neft-qaz ehtiyatları barədə sonuncu dəfə 2021-ci ildə məlumat vermişdir və bu məlumatlara əsasən 2019 və 2020-ci illərdə Azərbaycanın təbii qaz ehtiyatları 2,5 trln. $m^3$ (dünya üzrə ehtiyatların 1,3%-i) həcmində qiymətləndirilmişdir [203, s.34].

Göründüyü kimi, Azərbaycanın təbii qaz ehtiyatları ilə bağlı son illərə aid məlumatlar 1,69 – 2,5 trln. $m^3$ diapozonunda dəyişir.

Prezidenti İlham Əliyev Azərbaycanın təbii qaz ehtiyatlarının yuxarıda qeyd edilənlərdən daha çox, 2,6 trln. $m^3$-ə bərabər olduğunu bildirmişdir [89, s.211].

Müxtəlif mənbələrdən əldə olunan məlumatların ümumiləşdirilməsi nəticəsində aydın olur ki, hal-hazırda Azərbaycanın təsdiq olumuş neft ehtiyatları ən azı 1 mlrd. ton, təbii qaz ehtiyatları isə 2,6 trln. $m^3$ təşkil edir və bu da qarşıdakı onilliklərdə də ölkənin enerji təhlükəsizliyini və davamlı inkişafını təmin etmək üçün ciddi bir əsasdır.

Respublikada, istər ölkədaxili imkanlar hesabına müstəqil şəkildə, istərsə də xarici tərəfdaşlarla əməkdaşlıq çərçivəsində görülən işlərin müsbət nəticəsi neft-qaz hasilatında özünü göstərir.

Azərbaycanda neftdən istifadənin tarixi qədim dövrlərə gedib çıxsa da, onun sənaye üsulu ilə hasilatına XIX əsrin ortalarında başlanılmış və fasiləsiz olaraq davam etdirilmişdir. 1991-ci ilə qədər olan dövrdə neft hasilatında iki dəfə rekorda imza atılmışdır. Məlumdur ki, Rusiya imperiyası zamanı ən yüksək göstəriciyə, 667,1 milyon pud (təxminən 11 mln. ton) neft hasil edildiyi 1901-ci ildə, SSRİ dövründə isə hasilatın 23,5 mln. tona çatdırıldığı 1941-ci ildə nail olunmuşdur.

1991-1997-ci illərdə respublikada neft hasilatının səviyyəsi davamlı olaraq aşağı düşmüşdür. 1990-cı ildə 12,51 mln. ton neft çıxarıldığı halda, 1991-ci ildə hasilat 11,74 mln., 1992-ci ildə 11,08 mln., 1993-cü ildə 10,29 mln., 1994-cü ildə 9,56 mln., 1995-ci ildə 9,16 mln., 1996-cı ildə 9,10 mln., 1997-ci ildə isə 9,07 mln. tona bərabər olmuşdur [30]. Statistik məlumatlardan göründüyü kimi, 1991-ci il ilə müqayisədə 1997-ci ildə hasilat 2,67 mln. ton və ya 22,7% azalmışdır. Bu dövrün özünü iki mərhələyə bölmək olar. 1991-1993-cü illəri əhatə edən birinci mərhələdə

geriləmə daha çox olmuş, 1,45 mln. ton və ya 12,3% təşkil etmişdir. Belə vəziyyətin yaranmasında əsas rolu SSRİ-nin süqutundan və səriştəsiz idarəetmədən qaynaqlanan obyektiv və subyektiv amillər oynamışdır. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra görülən təxirəsalınmaz tədbirlər nəticəsində hasilatın azalma tempi əhəmiyyətli dərəcədə zəifləmişdir. 1994-1997-ci illərdə geriləmə cəmi 490 min ton və ya 0,5% təşkil etmişdir.

1997-ci ildə "Əsrin müqaviləsi" çərçivəsində ilk neftin hasil olunması ilə respublikanın neft hasilatı sənayesində müsbət dönüşün əsası qoyuldu. 1998-ci ildə 11,42 mln. ton, 1999-cu ildə isə 13,80 mln. ton neft hasil olunmuşdu [30] ki, bu da 1997-ci il ilə müqayisədə 1998-ci ildə 20,5%, 1999-cu ildə isə 34,2% artım demək idi. Hasilatda 2010-cu ilədək artım, bundan sonra isə, bəzi illər istisna olmaqla, azalma baş vermişdir.

**Cədvəl 2.1.1**

**2000 – 2024-cü illərdə Azərbaycanda neft hasilatı (mln. ton)**

| İllər | Neft hasilatı | İllər | Neft hasilatı | İllər | Neft hasilatı |
|---|---|---|---|---|---|
| 2000 | 14,0 | 2009 | 50,4 | 2018 | 38,8 |
| 2001 | 14,9 | 2010 | 50,8 | 2019 | 37,5 |
| 2002 | 15,3 | 2011 | 45,6 | 2020 | 34,5 |
| 2003 | 15,3 | 2012 | 43,3 | 2021 | 34,5 |
| 2004 | 15,5 | 2013 | 43,4 | 2022 | 32,6 |
| 2005 | 22,2 | 2014 | 42,1 | 2023 | 30,1 |
| 2006 | 32,2 | 2015 | 41,4 | 2024 | 29,0 |
| 2007 | 42,5 | 2016 | 41,0 | | |
| 2008 | 44,5 | 2017 | 38,6 | | |

*Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, Azərbaycan Respublikası Energetika Nazirliyi və SOCAR-ın statistik materialları əsasında hazırlanmışdır.*

Cədvəldən də göründüyü kimi, 2000-ci il ilə müqayisədə 2010-cu ildə 36,8 mln. ton və ya 2,6 dəfə çox neft hasil edilmişdir. Müstəqillik illərində neft hasilatı sahəsində ən yüksək göstəriciyə məhz 2010-cu ildə nail olunmuşdur. Sonrakı iki ildə isə hasilatda nəzərəçarpacaq azalma baş vermişdir. 2010-cu il ilə müqayisədə 2013-cü ildə 7,5 mln. ton və ya 14,7% az neft çıxarılmışdır.

Neft hasilatında azalmaya reaksiya verən Prezident İlham Əliyev istismar olunan yataqlarda ehtiyatların zaman keçdikcə tükənməsinin təbii hal olduğunu vurğulayaraq, bildirmişdir ki, 2011-2012-ci illərdəki azalma təbii səbəblərdən deyil, "Əsrin müqaviləsi" üzrə fəaliyyət göstərən konsorsiumun operatoru olan "BP" şirkətinin kobud səhvləri nəticəsində baş vermişdir. Ölkə başçısının bildirdiyinə görə, Azərbaycan və konsorsium arasında, "Azəri" və "Çıraq" neft yataqları üzrə pay bölgüsü ilkin mərhələdə 75-25% nisbətində xaricilərin xeyrinə olmuşdur. Onlar qoyduqları investisiyanı qaytardıqdan sonra pay bölgüsü 50-50% nisbətində həyata keçirilmiş, 2008-ci ilin ortalarında isə yenidən 75-25% nisbətində, bu dəfə Azərbaycanın xeyrinə dəyişmişdir. 2012-ci ilin oktyabr ayına qədər konsorsium "Azəri" və "Çıraq" yataqlarına 28,7 mlrd. dollar investiyia qoymuş, əvəzində 73 mlrd. dollar gəlir götürmüşdür. Prezidentin yanaşmasından məlum olur ki, xarici şirkətlər pay bölgüsü nisbəti Azərbaycanın xeyrinə dəyişdikdən sonra işə qeyri-ciddi yanaşmış və hasilatla bağlı verilən proqnozlar yerinə yetirilməmişdir. 2009-cu ildə konsorsium 46,8 mln. ton neft çıxartmağı proqnozlaşdırdığı halda, faktiki hasilat 40,3 mln. tona bərabər olmuşdur. 2010-cu ildə proqnozlaşdırılan 42,1 mln. ton əvəzinə 40,6 mln. ton, 2011-ci ildə isə proqnozlaşdırılan 40,2 mln. ton

əvəzinə 36,0 mln. ton neft hasil edilmişdir. Nəticədə Azərbaycan 8,1 mlrd. dollara bərabər gəlirdən məhrum olmuşdur [90, s.208-210].

Prezidentin iradları öz müsbət nəticəsini vermiş, növbəti illərdə konsorsium proqnozlaşdırdığından çox neft hasil etmişdir. Məsələn, 2014-cü ildə AÇG yatağı üzrə proqnoz 30,6 mln. ton, faktiki hasilat 31,4 mln. ton, 2015-ci ildə proqnoz 30,3 mln. ton, faktiki hasilat 30,0 mln. ton, 2016-cı ildə proqnoz 30,0 mln. ton, faktiki hasilat 31,6 mln. ton olmuşdur [23]. Buna baxmayaraq, ümumi hasilatın səviyyəsi aşağı düşməkdə davam etmişdir. 2014-2024-cü illərdə hasilat 13,0 mln. ton və ya 30,9% azalmışdır. Bunun əsas səbəbi yataqlarda ehtiyatların tükənməsi ilə bağlı idi.

Yataqlarda ehtiyatların tükənməsi fikri müəyyən şərtiliklə qəbul edilməlidir, çünki hazırkı vəziyyətdə söhbət yataqların üst laylarındakı ehtiyatlardan gedir. Daha dərin laylarda isə kifayət qədər neft ehtiyatı qalır. Texas Universitetinin professoru S.V.Tinkerin qənaətinə görə, ərazidən aslı olaraq, yataqlardakı ehtiyatların yarıdan azı, bəzən 60%-i, hətta 80%-i çıxarılmamış qalır [186, s.17]. Azərbaycanda da laylardakı neftin orta hesabla 20-30%-i çıxarılır [135, s.114]. Daha dərin laylardan neftin çıxarılması müvafiq texniki avadanlıq və əlavə xərc tələb edir, bu da, bir tərəfdən, son məhsulun maya dəyərinin artması, digər tərəfdən isə, quyuların rentabelliliyinin aşağı düşməsi ilə nəticələnir.

Azərbaycanda təsərrüfat həyatında, məişətdə və enerji təhlükəsizliyinin təmin olunmasında təbii qaz əhəmiyyətli yer tutur. Hələ qədim zamanlardan başlayaraq ölkənin müxtəlif bölgələrində, xüsusilə də Abşeron yarımadasında yer səthinə təbii

yolla çıxan qazların yanması əhalinin adət-ənənələri, mərasimləri, folkloru, etiqad və inanclarının formalaşmasına təsir göstərmiş, zaman keçdikcə isə təbii qazdan istifadə yolları axtarılmışdır.

Azərbaycanda təbii qazdan yanacaq kimi istifadənin tarixi XIX əsrin ortalarına gedib çıxır. 1859-cu ildə inşa edilən və ölkədə ilk neft emalı müəssisəsi olan Suraxanı zavodunda buxar əldə etmək üçün təbii qazdan istifadə olunmuşdur. 1902-ci ildə qazılan bəzi quyulardan neft əvəzinə təbii qaz çıxması Azərbaycanda ilk qaz nəqletmə sisteminin yaradılması ilə nəticələnmişdir. Bu dövrdə tələbatın son dərəcə aşağı olması səbəbindən hasil olunan qazın çox hissəsi havaya buraxılırdı. Keçən əsrin 20-ci illərindən başlayaraq təbii qazdan sənayedə və mənzillərin qısdırılmasında geniş istifadə olunması bu sahənin inkişafına müsbət təsir göstərmişdir. Həmin əsrin 50-60-cı illərində sənaye və kommunal təsərrüfat sahələri ilə yanaşı, ES-lərdə də təbii qazdan istifadənin genişlənməsi hasilatın səviyyəsinin yüksəlməsinə səbəb olmuşdur. SSRİ dövründə Azərbaycanda bu sahədə rekorda, 14,9 mlrd. $m^3$ təbii qazın hasil edildiyi 1982-ci ildə nail olunmuşdur [105, s.10-15]. Sonrakı illərdə isə hasilatın səviyyəsi tədricən aşağı düşmüşdür.

Müstəqillik dövründə təbii qaz sənayesi uzun müddət tənəzzül mərhələsində olmuşdur. 1991-ci ildə respublikada 8,6 mlrd. $m^3$ təbii qaz hasil olunduğu halda, 2004-cü ildə hasilatın səviyyəsi cəmi 4,9 mlrd. $m^3$ təşkil etmişdi [30], yəni 1991-2004-cü illərdə hasilat 3,7 mlrd. $m^3$ və ya 43% azalmışdır. Bunun əsas səbəbi, bir tərəfdən, nəzərdən keçirilən dövrdə diqqətin neft sənayesinə daha çox yönəldilməsi, digər tərəfdən isə, istismarda olan təbii qaz yataqlarında debitin aşağı olması ilə bağlı idi.

**Cədvəl 2.1.2**

**2000-2024-cü illərdə Azərbaycanda təbii qaz hasilatı (mln. $m^3$)**

| İllər | Təbii qaz hasilatı | İllər | Təbii qaz hasilatı | İllər | Təbii qaz hasilatı |
|---|---|---|---|---|---|
| 2000 | 5,6 | 2009 | 23,5 | 2018 | 30,4 |
| 2001 | 5,5 | 2010 | 26,3 | 2019 | 35,6 |
| 2002 | 5,1 | 2011 | 25,7 | 2020 | 37,1 |
| 2003 | 5,1 | 2012 | 26,7 | 2021 | 43,8 |
| 2004 | 4.9 | 2013 | 29,2 | 2022 | 46,7 |
| 2005 | 5,7 | 2014 | 29,5 | 2023 | 48,4 |
| 2006 | 9,0 | 2015 | 28,9 | 2024 | 50,4 |
| 2007 | 16,8 | 2016 | 29,3 | | |
| 2008 | 23,3 | 2017 | 28,5 | | |

*Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, Azərbaycan Respublikası Energetika Nazirliyi və SOCAR-ın statistik materialları əsasında hazırlanmışdır.*

Cədvəldə yer alan statistik məlumatlardan da aydın olduğu kimi, 2005-ci il Azərbaycanın təbii qaz sənayesində dönüş ili olmuşdur. Həmin ildə hasilat, əvvəlki il ilə müqayisədə 16,3% artmışdır. 2006-cı ildən başlayaraq isə hasilatda artım daha böyük rəqəmlərlə ifadə olunur. Belə ki, 2006-2024-cü illərdə hasilat 41,4 mlrd. $m^3$ və ya 5,5 dəfədən çox artmışdır, bu isə 2006-cı ildə "Şahdəniz" yatağında hasilatın başlaması ilə bağlıdır.

Keçən əsrin 30-cu illərindən bu günədək respublikanın quru ərazisində və Xəzər dənizinin Azərbaycan sektorunda 81 neft-qaz yatağı kəşf edilmişdir [16, s.5]. Şübhəsiz ki, keçən dövr ərzində bu yataqların bir hisəsinin ehtiyatları tükənmiş və onlar istismar müddətini başa vurmuşdur.

SOCAR-ın məlumatlarına əsasən, hal-hazırda Azərbaycanda 50-dən çox neft-qaz yatağı istismar edilir. Onların bir his-

səsi SOCAR tərəfindən müstəqil şəkildə, digər hissəsi isə müxtəlif şirkətlərlə birlikdə işlənilir. Müstəqil şəkildə işlənən yataqlara SOCAR-ın "Azneft" İstehsalat Birliyinin balansında olan, Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Abşeron bankası", "Bulla-dəniz", "Bibiheybət", "Ələt-dəniz", "Günəşli", "Çilov adası", "Darvin bankası", "Qərbi Abşeron", "Neft Daşları", "Palçıq pilpiləsi", "Səngəçal-Duvannı-Xarə-Zirə adası", "8 mart" yataqları, Abşeron yarımadasında yerləşən "Bəndovan", "Korgöz-Qızıltəpə-Şonqar", "Qaradağ", "Lökbatan-Puta-Quşxana", "Pirallahı adası", "Şərqi Hacıevi" və "Şabandağ-Şubanı-Yasamal dərəsi-Atəşgah" yataqları, Siyəzən, Şabran və Quba rayonlarının ərazisində yerləşən "Siyəzən monoklinalı" yatağı, Xızı rayonunun ərazisində yerləşən "Şurabad" yatağı, Şamaxı və Qobustan rayonlarının ərazisində yerləşən "Duvannı" və "Umbakı" yataqları, Naftalan şəhəri ərazisində yerləşən "Naftalan" yatağı, Salyan rayonunun ərazisində yerləşən "Qalmaz" yatağı, İmişli rayonunun ərazisində yerləşən "Cəfərli" yatağı, Kürdəmir rayonunun ərazisində yerləşən "Muradxanlı" yatağı və Şəmkir rayonunun ərazisində yerləşən "Tərsdəllər" yatağı aiddir [146].

Neft-qaz yataqlarının müxtəlif şirkətlər tərəfindən birgə işlənməsi, SOCAR ilə xarici şirkətlər arasında imzalanan, kapital və əməliyyat xərcləri ödənildikdən sonra mənfəətin qalan hissəsinin tərəfdaşlar arasında bölüşdürülməsini nəzərdə tutan Hasilatın Pay Bölgüsü sazişləri və neft-qaz hasil edən şirkətə hasilatın müqabilində dövlət tərəfindən pul mükafatı verilməsini nəzərdə tutan Risk Xidməti sazişləri əsasında həyata keçirilir. Azərbaycanda yataqların birlikdə işlənməsi üzrə Hasilatın Pay Bölgüsü sazişləri daha çox imzalanmışdır və "Əsrin müqaviləsi" ilk belə sazişdir.

1994-cü il sentyabrın 20-də 7 ölkəni təmsil edən 11 neft şirkəti tərəfindən imzalanmış "Əsrin müqaviləsi" və ya "Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinsulu hissəsinin birgə işlənməsinə və Hasilatın Pay Bölgüsünə dail Saziş"də, qeyd olunan yataqların işlənməsi üzrə tərəfdaş şirkətlərin pay bölgüsü müəyyənləşdirilmişdir: ARDNŞ (Azərbaycan) – 20,0%, "BP" (Böyük Britaniya) – 17,1267%, "Amoco" (ABŞ) – 17,0100%, "LUKoil" (Rusiya) – 10,0%, "Pennzoil" (ABŞ) – 9,8175%, "Unocal" (ABŞ) – 9,5200%, "Statoil" (Norveç) – 8,5633%, "McDermott" (ABŞ) – 2,4500%, "Remco" (Böyük Britaniya) – 2,0825%, TPAO (Türkiyə) – 1,7500% və "Delta" (Səudiyyə Ərəbistanı) – 1,6800%. Otuz il müddətinə imzalanan bu müqavilə 2024-cü il dekabrın 12-dək qüvvədə olmalı idi, lakin 2017-ci il sentyabrın 14-də, keçən dövr ərzində Azərbaycan neft sənayesinin inkişafını və yaranmış yeni imkanları nəzərə alaraq, Sazişin yenilənmiş variantı imzalanmış və müqavilə müddəti 2050-ci ilədək uzadılmışdır. Doqquz şirkət tərəfindən imzalanan yeni Sazişdə tərəfdaşların pay bölgüsü də dəyişmişdir: SOCAR – 25,0%, "BP" – 30,374551%, "Chevron" (ABŞ) – 9,569102%, "İnpex" (Yaponiya) – 9,307229%, "Statoil" ("Equinor") – 7,269034%, "Exxon" (ABŞ) – 6,791381%, TPAO – 5,729798%, "İtochu" (Yaponiya) – 3,648905%, "ONGC Videsh" (Hindistan) – 2,310%. [151, s.46, s.174]. Göründüyü kimi, 1994-2017-ci ildə "Əsrin müqaviləsi"nin iştirakçılarının tərkibində ciddi dəyişiklik baş vermiş, onlardan yalnız 4-ü (SOCAR, "BP", "Statoil" və TPAO) hal-hazırda müqavilədə iştirakını davam etdirir. Bu illər ərzində "LUKoil", "Amoco", "Pennzoil", "Unocal", "McDermott", "Remco" və "Delta" şirkətləri müqaviləni tərk etmiş, "Chevron", "İnpex", "Exxon",

"İtochu" və "ONGC Videsh" şirkətləri isə iştirakçıların arasında yer almışdır.

AÇG yatağının ehtiyatları 1,072 mlrd. ton həcmində qiymətləndirilir. 2019-cu ildə "Chevron" şirkəti öz payını Macarıstanın "MOL Group" şirkətinə, 2023-cü ildə isə "Equinor" şirkəti öz payını SOCAR-a satmışdır [146] və bunun da nəticəsində Azərbaycan şirkəti müqavilədə ən çox paya (32,269034%) malik olmuşdur.

SOCAR-ın xarici tərəfdaşlarla Hasilatın Pay Bölgüsü üzrə imzaladığı ikinci ən böyük Saziş, 1999-cu ildə kəşf edilmiş və ehtiyatları 1,2 trln. $m^3$ təbii qaz və 240 mln. ton kondensat olan "Şahdəniz" qaz-kondensat yatağını əhatə edir [23]. 1996-cı il iyunun 4-də, 7 ölkəni təmsil edən 7 şirkətin nümayəndələri tərəfindən imzalanan Sazişə əsasən "BP" layihədə 25,5%, "Statoil" – 25,5%, SOCAR – 10,0%, "LUKoil" – 10%, "Elf" ("Total") (Fransa) – 10,0%, OİEK (İran) – 10%, TPAO – 9 % pay almışdır [153, s.20]. 2014-cü ildə "Total" öz payını TPAO-ya satmışdır [158], bunun da nəticəsində "Şahdəniz" layihəsində TPAO-nun payı 9%-dən 19%-ə qədər artmışdır.

Prezident İlham Əliyevin 2014-cü il 25 fevral tarixli Sərəncamı ilə "Şahdəniz" layihəsində SOCAR-a aid iştirak payı yeni yaradılmış, səhmlərinin 49%-i dövlətə, 51%-i SOCAR-a məxsus olan "Cənub Qaz Dəhlizi" QSC-yə keçmişdir [154]. Həmin ilin oktyabrında "Statoil" şirkəti layihədəki payını Malayziyanın "Petronas" şirkətinə [148], sonuncu da öz növbəsində, 2022-ci ildə iştirak payından 9,9% "LUKoil" şirkətinə, 4,35% "Cənub Qaz Dəhlizi" QSC-yə və 1,16% "BP" şirkətinə satmışdır [161]. 2024-cü ilin iyununda "Cənub Qaz Dəhlizi" QSC 5% iştirak payını Macarıstanın "MVM Group" şirkətinə satmışdır [54].

Qeyd olunan bütün dəyişikliklərdən sonra "Şahdəniz" layihəsində pay bölgüsü nisbəti belədir: "BP" – 29,99%, "LUKoil" – 19,99%, TPAO – 19%, "Cənub Qaz Dəhlizi" QSC 16,02%, OİEK – 10%, MVM – 5%.

SOCAR-ın xarici şirkətlərlə əməkdaşlığı sənaye əhəmiyyətli işlənməyə cəlb olunan 25-dən çox digər yatağı da əhatə edir. Onların mütləq əksəriyyətinin işlənməsi Hasilatın Pay Bölgüsü Sazişi əsasında həyata keçirilir. SOCAR Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Abşeron" qaz-kondensat yatağını "Total" və BƏƏ-nin "ADNOC" şirkəti, "Bahar" qaz-kondensat və "Qum-dəniz" neft yataqlarını "Bahar Energy Operating Company" şirkəti, Abşeron yarımadasında yerləşən "Balaxanı-Sabunçu-Ramana" və "Kürdəxanı" neft yataqlarının daxil olduğu bloku "Balakhani Operating Company Ltd" və Siqapurun "UQE-Lancer PTİ. Ltd" şirkəti, "Binəqədi", "Çaxnaqlar", "Fatmayı", "Qırməki", "Masazır", "Sulutəpə", "Şabandağ" yataqlarının daxil olduğu bloku "Binagadi Oil Company" və Hollandiyanın "Azen Oil Company B.V." şirkəti, "Hövsan" və "Zığ" neft yataqlarının daxil olduğu bloku "Absheron Operating Company Limited" və Rusiyanın "Russneft Absheron İnvestments Limited" şirkəti, "Suraxanı" və "Qaraçuxur" yataqlarını "Surakhani Oil Operating Company S.A." və BƏƏ-nin "Rafi Oil FZE" şirkəti, "Pirsaat" yatağını Çinin "Shengli Oilfield Shengda Group Company" və "Petro-HongKong-Pirsaat" şirkəti, Neftçala və Salyan rayonları ərazisində yerləşən "Neftçala", "Xıllı" və "Dürovdağ-Babazanan" neft yataqlarının daxil olduğu bloku "Neftchala İnvestments Limited" şirkəti, Salyan rayonu ərazisində yerləşən "Kürsəngi" və "Qarabağlı" neft yataqlarının daxil olduğu bloku "Salyanneft" MMC, ABŞ-

nin "Frontera Resorces", Səudiyyə Ərəbistanının "Delta-Hess Ltd.", Çinin "CNPC İnternational", BƏƏ-nin "FAL" şirkəti, Salyan rayonu ərazisində yerləşən "Mişovdağ" və Şamaxı rayonu ərazisində yerləşən "Kəlaməddin" neft yataqlarının daxil olduğu bloku "Karasu Development Company" şirkəti, "Kürovdağ" neft yatağını "Shirvan Operating Company" və "Global Energy Azerbaijan Limited" şirkəti ilə birlikdə, Hasilatın Pay Bölgüsü sazişlərinə uyğun olaraq istismar edir [146].

Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Ümid" qaz-kondensat yatağı SOCAR, "SOCAR Umid Oil and Gaz Ltd" və "Nobel Oil Explorataion and Production" şirkəti, "Qarabağ" neft yatağı SOCAR, "SOCAR Karabakh" və "Equinor" şirkəti, "Buzovna-Maştağa", "Qala" və "Zirə" neft yataqlarının daxil olduğu blok SOCAR, "Taghiyev Operating Company" və Böyük Britaniyanın "CL İnternational Ltd" şirkəti tərəfindən Risk Xidməti sazişləri əsasında işlənilir [146].

Neft-qaz yataqlarının işlənməsinə xarici şirkətlərin cəlb olunması, onların maliyyə və texniki imkanlarından istifadə edilməsi respublikada neft-qaz sənayesinin inkişafı və enerji təhlükəsizliyinin təmin olunması üçün əlavə imkanlar yaradır.

Ehtiyatlar və məhsuldarlıq baxımından yataqlar bir-birindən fərqlənir. Onların çoxu onilliklər ərzində istismar edilir və bu səbəbdən də aşağı debit göstəricilərinə malikdir. Neft-qaz hasilatında əsas rol AÇG və "Şahdəniz" yataqlarına məxsusdur.

**Cədvəl 2.1.3**

**2014-2024-cü illərdə Azərbaycanda SOCAR tərəfindən, "Əsrin müqaviləsi" çərçivəsində və "Şahdəniz" layihəsi üzrə neft hasilatı* (mln. ton)**

| İllər | Azərbaycan üzrə | O cümlədən | | |
|---|---|---|---|---|
| | | SOCAR üzrə | "Əsrin müqaviləsi" çərçivəsində | "Şahdəniz" layihəsi üzrə [kondensat] |
| 2014 | 42,1 | 8,4 | 31,4 | 2,3 |
| 2015 | 41,4 | 8,1 | 31,1 | 2,2 |
| 2016 | 41,0 | 7,5 | 31,0 | 2,5 |
| 2017 | 38,6 | 7,4 | 28,9 | 2,3 |
| 2018 | 38,8 | 7,5 | 28,8 | 2,5 |
| 2019 | 37,4 | 7,7 | 26,2 | 3,5 |
| 2020 | 34,5 | 7,4 | 23,6 | 3,5 |
| 2021 | 34,6 | 7,9 | 22,5 | 4,2 |
| 2022 | 32,6 | 7,8 | 20,4 | 4,4 |
| 2023 | 30,1 | 7,7 | 17,8 | 4,3 |
| 2024 | 29,0 | 7,5 | 16,8 | 4,2 |

*Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, Azərbaycan Respublikası Energetika Nazirliyi və SOCAR-ın statistik materialları əsasında hazırlanmışdır.*
** 2023 və 2024-cü illərdə "Abşeron" qaz-kondensat yatağından, müvafiq olaraq, 0,3 və 0,5 mln. ton neft hasil olumuşdur.*

Cədvələ əsasən qeyd etmək olar ki, hasil edilən neftin əhəmiyyətli hissəsi AÇG yatağının payına düşür. 2014-cü ildə ümumi hasilatın 74,4%-i, 2020-ci ildə 68,4%-i, 2024-cü ildə 57,9%-i bu yataqdan alınmışdır. SOCAR-ın və "Şahdəniz" yatağının ümumi hasilatdakı payı isə, 2020-ci ildə, müvafiq olaraq, 19,9% və 5,4%, 2020-ci ildə 21,4% və 10,1%, 2024-cü ildə isə 25,8% və 14,4% təşkil etmişdi. "Əsrin müqaviləsi" çərçivəsində hasilatın azalması AÇG

yatağında ehtiyatların getdikcə tükənməsi ilə bağlıdır. Respublika üzrə neft hasilatınn səviyyəsinin getdikcə aşağı düşməsi fonunda SOCAR-ın göstəricilərinin nisbətən sabit qalması ümumi hasilatda onun xüsusi çəkisinin artması ilə nəticələnmişdir. 2018-ci ildən sonra "Şahdəniz" yatağından kondensat çıxarılmasında əhəmiyyətli artım, həmin ildə Şahdəniz Mərhələ 2 layihəsi üzrə hasilatın başlamasından qaynaqlanırdı.

**Cədvəl 2.1.4**

**2014-2024-cü illərdə Azərbaycanda SOCAR tərəfindən, "Əsrin müqaviləsi" çərçivəsində və "Şahdəniz" layihəsi üzrə təbii qaz hasilatı* [mln. $m^3$]**

| İllər | Azərbaycan üzrə | O cümlədən | | |
|---|---|---|---|---|
| | | SOCAR üzrə | "Əsrin müqaviləsi" çərçivəsində | "Şahdəniz" layihəsi üzrə [kondensat] |
| 2014 | 29,5 | 7,2 | 12,5 | 9,8 |
| 2015 | 28,9 | 6,9 | 12,1 | 9.9 |
| 2016 | 29,3 | 6,2 | 12,4 | 10,7 |
| 2017 | 28,5 | 6,1 | 12,3 | 10,1 |
| 2018 | 30,4 | 6,5 | 12,5 | 11,4 |
| 2019 | 35,6 | 6,8 | 12,0 | 16,8 |
| 2020 | 37,1 | 7,3 | 11,7 | 18,1 |
| 2021 | 43,9 | 7,9 | 13,4 | 22,6 |
| 2022 | 46,7 | 8,1 | 13,4 | 25,2 |
| 2023 | 48,4 | 8,4 | 12,9 | 26,3 |
| 2024 | 50,4 | 7,7 | 13,4 | 27,8 |

*Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, Azərbaycan Respublikası Energetika Nazirliyi və SOCAR-ın statistik materialları əsasında hazırlanmışdır.*

**2023 və 2024-cü illərdə "Abşeron" qaz-kondensat yatağından, müvafiq olaraq, 0,8 və 1,5 mlrd. $m^3$ təbii qaz hasil olumuşdur.*

Cədvəldə verilmiş statistik rəqəmlərin təhlili göstərir ki, 2018-ci ilədək respublikada ən çox təbii qaz AÇG yatağından çıxarılmışdır. 2014-cü ildə ümumi hasilatın 42,3%-i, 2018-ci ildə isə – 41,1%-i "Əsrin müqaviləsi" çərçivəsində əldə olunmuşdur. Həmin illərdə "Şahdəniz" yatağından hasil edilən təbii qaz ümumi hasilatın, müvafiq olaraq, 33,2% və 37,5%-nə bərbər idi. Şahdəniz Mərhələ 2 layihəsi üzrə hasilatın başlaması ilə vəziyyət əks istiqamətdə dəyişmişdi. 2019-cu ildə ümumi hasilatın 47,1%-i "Şahdəniz", 33,7%-i AÇG yatağından əldə olunduğu halda, beş il sonra, yəni 2024-cü ildə birincinin payı 55,1%-ə qədər artmış, ikincinin payı isə 26,5%-ə qədər azalmışdır. Nəzərdən keçirilən dövrdə SOCAR-ın hasil etdiyi təbii qazın həcmində kəskin dəyişiklik baş veməmiş, bu da yüksələn xətlə inkişaf edən ümumi hasilatın tərkibində onun xüsusi çəkisinin azalmasına səbəb olmuşdur. 2014-cü ildə SOCAR ümumi hasilatın 24,4%-nə, 2020-ci ildə 19,6%-nə, 2024-cü ildə isə 15,2%-nə sahib idi.

Respublikada hasil edilən neft və təbii qazın bir hissəsi ölkənin daxili tələbatının ödənilməsinə, digər hissəsi isə ixracata yönəldilir.

Neft emalı sənayesi Azərbaycan iqtisadiyyatının əsas və inkişafda olan sahələrindən biridir. Yerli xammal bazasında fəaliyyət göstərməsi onun rentabelliliyini təmin edən əsas amildir. Neft məhsulları istehsal edən müəssisələrin sayının ildənilə artması da bunu sübut edir. Ölkə daxilində məsrəf olunan xam neftn çox hissəsi məhz bu müəssisələrdə emal olunur.

2019-cu ildə respublikada neft məhsulları istehsal edən 8 müəssisə fəaliyyət göstərirdisə, 2023-cü ildə onların sayı 14-ə çatmışdır. Bu müəssisələrdə 2019-cu ildə 2,9 mlrd., 2020-ci ildə

2,7 mlrd., 2021-ci ildə 3,7 mlrd., 2022-ci ildə 4,4 mlrd., 2023-cü ildə isə 4,5 mlrd. manat dəyərində məhsul istehsal olunmuşdur [11, s.17]. Qeyd olunan illər ərzində ölkədə emal olunan xam neftin miqdarında ciddi dəyişiklik baş verməmişdir. 2019-cu ildə 6,24 mln. ton xam neft və ya ümumi hasilatın 16,6%-i ölkə daxilində emal olunmuşdur. 2020-ci ildə bu göstəricilər, müvafiq olaraq, 5,96 mln. ton və 17,2%, 2021-ci ildə 6,69 mln. ton və 19,3%, 2022-ci ildə 6,35 mln. ton və 19,4%, 2023-cü ildə 6,36 mln. ton və 21,1% təşkil etmişdir. Neft emalı müəssisələrinin xam neft məsrəfinə gəldikdə isə, bu, 2019-cu ildə 6,19 mln., 2020-ci ildə 5,89 mln., 2021-ci ildə 6,63 mln., 2022 və 2023-cü illərin hər birində 6,27 mln. tona bərabər olmuşdur [102, s.37]. Statistik rəqəmlərdən göründüyü kimi, ölkə daxilində istifadə olunan xam neftin 98-99%-i neft emalı müəssisələrinin, yerdə qalan 1-2% isə energetika sektorunun daxili istehlakının və itkilərin payına düşür.

Diqqəti cəlb edən məqamlardan biri, neft emalı müəssisələrinin sayı və istehsal olunan məhsulun dəyəri artdığı halda, bu müəssisələrdə məsrəf olunan xam neftin ümumi miqdarı, demək olar ki, dəyişməməsidir. 2019-cu ildə istehsal edilən neft məhsullarının dəyərindən, orta hesabla hər müəssisəyə təxminən 362 mln. manat düşürdüsə, 2023-cü ildə bu rəqəm təxminən 321 mln. manat olmuşdur. Eyni zamanda, 2019-cu ildə hər müəsisədə orta hesabla 783 min ton, 2023-cü ildə isə 454 min ton xam neft emal edilmişdir. Başqa sözlə, qeyd olunan illər ərzində hər müəssisədə məsrəf olunan xam neftin miqdarı orta hesabla 42,0% azaldığı halda, istehsal olunan məhsulun dəyəri cəmi 11,3% azalmışdır. Belə vəziyyət, bir tərəfdən, respublikanın emal müəssisələrində müasir texnologiyaların tətbiq edildiyini, digər tərəfdən isə, bazar dəyəri daha yüksək olan məhsul

istehsalının genişləndiyini göstərir. İqtisadi təhlükəsizliyin təmin olunması baxımından yüksək qiymətləndirilməli olan bu vəziyyət həm də respublikada təbii ehtiyatlardan istifadənin səmərəlilik dərəcəsinin yüksəldiyinə dəlalət edir.

Ölkənin enerji təhlükəsizliyinin təmin olunmasında daha çox əhəmiyyət kəsb edən təbii qazdan transformasiya və son istehlak sektorlarında istifadə edilir. Transformasiya sektoru elektrik və istilik enerjisi istehsalı sahəsini əhatə edir. Son istehlak sektoru isə enerji məqsədli son istehlak və qeyri-enerji məqsədli son istehlak olmaqla iki hissəyə bölünür. Enerji məqsədli son istehlak sənaye və tikintidə, nəqliyyatda və iqtisadiyyatın digər sahələrində (kənd təsərrüfatı, balıqçılıq, meşəçilik, kommersiya, ictimai xidmətlər, ev təsərrüfatları), qeyri-enerji məqsədli son istehlak isə qeyri-energetika məqsədləri üçün, daha çox kimya sənayesindəki texnoloji prosslərdə təbii qazdan istifadəni özündə ehtiva edir.

Hasil olunan təbii qaz əmtəəlik və qeyri-əmtəəlik olmaqla iki hissəyə bölünür. Bazarda satış və ya istifadə üçün hazır olan hissə əmtəəlik, hazır olmayan hissə isə qeyri-əmtəəlik təbii qaz adlanır. Məsələn, təzyiqi lazımi səviyyədə saxlamaq üçün neft quyularına vurulan, məşəllərin yandırılmasında istifadə edilən, havaya buraxılan təbii qaz qeyri-əmtəəlikdir.

2019-cu ildə Azərbaycanda 24,5 mlrd. $m^3$, 2020-ci ildə 26,4 mlrd. $m^3$, 2021-ci ildə 32,5 mlrd. $m^3$, 2022-ci ildə 34,9 mlrd. $m^3$, 2023-cü ildə isə 36,4 mlrd. $m^3$ əmtəəlik qaz istehsal olunmuşdur. Bunun 2019-cu ildə 12,5 mlrd. $m^3$-i və ya 51,0%-i, 2020-ci ildə 12,6 mlrd. $m^3$-i və ya 47,7%-i, 2021-ci ildə 13,1 mlrd. $m^3$-i və ya 40,3%-i, 2022-ci ildə 13,9 mlrd. $m^3$-i və ya 39,8%-i, 2023-cü ildə isə 14,3 mlrd. $m^3$-i və ya 39,2%-i ölkədaxili istehlaka yönəl-

dilmişdir. Daxili istehlakın strukturuna gəldikdə, 2019-cu ildə transformasiya sektorunda 6,1 mlrd. $m^3$, son istehlak sektorunda 5,1 mlrd. $m^3$, 2020-ci ildə, müvafiq olaraq, 6,1 mlrd. $m^3$ və 5,5 mlrd. $m^3$, 2021-ci ildə 6,3 mlrd. $m^3$ və 5,8 mlrd. $m^3$, 2022-ci ildə 6,5 mlrd. $m^3$ və 6,6 mlrd. $m^3$, 2023-cü ildə isə 6,6 mlrd. $m^3$ və 7,0 mlrd. $m^3$ təbii qaz məsrəf olunmuşdur [102, s.37-38]. 2019-cu il ilə müqayisədə 2023-cü ildə təbii qaz istehlakı təxminən 8,0% artdığı halda, son istehlak sektorunda artım təxminən 37,0% olmuşdur. Bu da, bir tərəfdən, elektrik və istilik enerjisi istehsalı sahəsində enerji səmərəliliyinin səviyyəsinin yüksəlməsinə, yəni bir kVt.s elektrik enerjisinin və ya 1 Coul istilik enerjisinin istehsalına məsrəf olunan qazın həcminin azalmasına, digər tərəfdən isə, sənayedə, tikintidə, nəqliyyatda, kənd təsərrüfatında və s. sahələrdə inkişafa və bu səbəbdən də təbii qaza olan tələbatın artmasına dəlalət edir.

Yaşayış məskənlərinin qazlaşdırılması ölkənin enerji təhlükəsizliyi siyasətinin tərkib elementlərindən biri olub, əhalinin yüksək həyat səviyyəsinin təmin olunmasında əhəmiyyətli rola malikdir. Təbii qaz hasilatı və emalı sahəsində müşahidə olunan inkişaf dinamikasının müsbət nəticələrindən biri də ev təsərrüfatlarının mütləq əksəriyyətinin təbii qazla təmin olunmasıdır. 2025-ci il yanvar ayının 1-dək Azərbaycanda yaşayış məskənlərinin təxminən 96,6%-i qazlaşdırılmışdır [23]. Bu, kifayət qədər yüksək nailiyyətdir və bu göstəriciyə görə Azərbaycan region ölkələrindən irəlidədir. Ümumiyyətlə, xarici ölkələrin çoxunda yaşayış məskənlərinin qazlaşdırılması səviyyəsi 90%-dən aşağı səviyyədədir.

Azərbaycan dünyada neft-qaz ixrac edən ölkə kimi tanınır. Hal-hazırda respububublika qonşu Gürcüstanın enerji təhlü-

kəsizliyinin təmin olunmasında əsas təchizatçı rolunda çıxış edir, Avropanın neft və təbii qaza olan tələbatının ödənilməsinə, malik olduğu imkanlar daxilində öz töhfəsini verir, İsrailə neft ixrac edən ölkələr sırasında yer alır.

**Cədvəl 2.1.5**

**2014-2024-cü illərdə Azərbaycandan neft-qaz ixracı**

| İllər | Neft ixracı [mln. ton] | Respublika üzrə neft hasilatına nisbətən [%-lə] | Təbii qaz ixracı [mlrd. $m^3$] | Respublika üzrə təbii qaz hasilatına nisbətən [%-lə] |
|---|---|---|---|---|
| 2014 | 35,0 | 83,1 | 8,0 | 27,1 |
| 2015 | 35,3 | 85,2 | 8,1 | 28,0 |
| 2016 | 34,9 | 85,1 | 8,0 | 27,3 |
| 2017 | 32,8 | 84,9 | 8,8 | 30,8 |
| 2018 | 32,6 | 84,0 | 9,9 | 32,5 |
| 2019 | 31,2 | 83,2 | 11,8 | 33,1 |
| 2020 | 28,3 | 82,0 | 13,8 | 37,1 |
| 2021 | 28,0 | 81,1 | 19,0 | 43,3 |
| 2022 | 26,6 | 81,5 | 22,6 | 48,3 |
| 2023 | 26,0 | 86,3 | 24,9 | 51,4 |
| 2024 | 24,4 | 84,1 | 25,3 | 50,1 |

*Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, Azərbaycan Respublikası Energetika Nazirliyi və SOCAR-ın statistik materialları əsasında hazırlanmışdır.*

Respublikada neft-qaz hasilatının dinamikası ixracatın səviyyəsinə bilavasitə təsir göstərir. Onuncu cədvəlin materiallarından da aydın olur ki, 2014-2024-cü illərdə neft ixracında azalma, təbii qaz ixracında artım baş vermişdir, bu da qeyd olunan dövrdə respublikada neft hasilatında səviyyənin aşağı düş-

məsi, təbii qaz hasilatında isə yüksəlməsi ilə bağlıdır. İstənilən halda, ölkədə hasil olunan neftin 80%-dən çoxu ixrac olunur. İxraca yönəldilən təbii qazın ümumi hasilatın tərkibindəki xüsusi çəkisinə gəldikdə isə, bu, ardıcıl şəkildə artaraq, 2023-2024-cü illərdə 50% səviyyəsini ötmüşdür. Bu, bir daha onu göstərir ki, ölkədaxili istehlakda, ekoloji baxımdan neftə nisbətən daha təmiz qalıq yanacaq növü olan təbii qaz üstünlük təşkil edir.

Qeyd etmək lazımdır ki, dünya bazarlarına çıxarılan Azərbaycan neftinin əsas hissəsini ABƏŞ tərəfindən AÇG yatağından hasil edilən neft təşkil edir. Məsələn, 2014-cü ildə ixrac olunan neftin təxminən 95%-i konsorsiumun, cəmi 5%-i SOCAR-ın hesabında idisə, on il sonra, yəni 2024-cü ildə ixrac olunan neftin təxminən 86-i AÇG yatağından, 12%-i SOCAR-ın balansında olan yataqlardan, 2%-i isə "Abşeron" qaz-kondensat yatağından çıxarılmışdır [23].

İxrac olunan təbii qazın əsas hissəsi "Şahdəniz" yatağından hasil olunur. 2018-ci ilədək Şahdəniz Mərhələ-1 layihəsi üzrə çıxarılan təbii qazın əsas hissəsi ölkənin daxili tələbatının ödənilməsinə yönəldilmiş, qalan hissəsi isə qonşu ölkələrə ixrac olunmuşdur [135, s.72-73]. Həmin ildə Şahdəniz Mərhələ-2 layihəsi çərçivəsində hasilata başlanılması xarici bazarlara daha çox təbii qaz göndərilməsi ilə nəticələnmişdir.

Qeyd olunanlara əsasən belə bir nəticəyə gəlmək olar ki, Azərbaycanda sənaye üsulu ilə neft-qaz hasilatının təxminən 200 ilə yaxın bir dövrdə davam etməsinə baxmayaraq, ölkə hələ də zəngin karbohidrogen ehtiyatlarına malikdir. Respublikada ən azı 1 mlrd. ton neft, 2,6 mlrd $m^3$ təbii qaz ehtiyatlarının mövcudluğu artıq təsdiqini tapmış faktdır və eyni zamanda, neft-qaz kəşfiyyatı işləri davam etdirilir, yəni ehtiyatlarla bağlı rə-

qəmlərin artması mümkündür. Azərbaycanda karbohidrogen yataqları respublikanın müxtəlif bölgələrində yerləşsə də, ən məhsuldar yataqlar Xəzər dənizinin Azərbaycan sektorundadır. Ehtiyatların mövcudluğu respublikanın enerjiyə olan tələbatını daxili mənbələr hesabına tam ödəməyə imkan verir və ölkənin enerji təhlükəsizliyinin təmin olunmasında neft və təbii qaz əsas yer tutur. Azərbaycan yalnız özünün deyil, neft-qaz ixrac etdiyi ölkələrin enerji təhlükəsizliyinin təmin olunmasında da paya malikdir. Bununla yanaşı, ölkədaxili istehlakda neftin xüsusi çəkisinin azalması, təbii qazın xüsusi çəkisinin isə artması meyli mövcuddur. Daha ucuz və ekoloji cəhətdən nisbətən təmiz olan təbii qazdan istifadə dairəsinin genişlənməsi ekoloji mühitin sağlamlaşdırılmasında əhəmiyyətli yer tutur. Neft-qaz hasilatı, emalı və istifadəsi sahəsində əldə olunan nailiyyətlər ümumilikdə ölkənin sosial-iqtisadi inkişafına müsbət təsir göstərmiş və mövcud ehtiyatların miqyası bu təsirin bundan sonra da onilliklər ərzində davam edəcəyini proqnozlaşdırmağa imkan verir.

## *2.2. Bərpa olunan enerji mənbələri və onların potensialı*

Çağdaş dövrdə iqtisadiyyatın permanent olaraq genişlənməsi və inkişafı, əhalinin tələbatlarının artması proporsional olaraq enerjiyə tələbatı artır, enerji təhlükəszliyini etibarlı təmin etmək məqsədilə, qalıq enerji mənbələri ilə yanaşı, BOEM-dən istifadə getdikcə daha çox əhəmiyyət kəsb edir. Alternativ enerji mənbələrinə diqqətin artması, bir tərəfdən, bərpa olunmayan enerji mənbələrində ehtiyatların tükənməsi, digər tərəfdən isə, meydana gəlməsində qalıq yanacaq növlərindən istifadənin də böyük rol oynadığı ekoloji böhranın dərinləşməsi ilə bağlıdır.

Su, günəş, külək, biokütlə, istehsalat və məişət tullantıları qalıq yanacaq növlərinə alternativ olan enerji mənbələridir və onlardan istifadəni stimullaşdıran səbəblər kifayət qədərdir. Bu mənbələr təbiətdə fasiləsiz olaraq cərəyan edən proseslərlə bağlıdır, insan tərəfindən hansı səviyyədə və intensivliklə istifadə edilməsindən aslı olmayaraq, tükənməsi qeyri-mümkündür, istifadə prosesində tez və fasiləsiz olaraq bərpa olunur. Qalıq yanacaq növlərinin kəşfiyyatı, hasilatı, emalı və daşınması böyük xərc tələb etdiyi halda, alternativ mənbələrdən istifadə dəfələrlə ucuz başa gəlir, atmosferi karbon qazı və istixana effekti yaradan digər qazlarla az çirkləndirməsi ekoloji tarazlığın qorunması və iqlim dəyişikliyinin qarşısının alınması baxımından onların əhəmiyyətini daha da artırır. Məhdud coğrafiyada mövcud olan qalıq yanacaq növlərindən fərqli olaraq, BOEM-ə hər yerdə rast gəlmək mümkündür. Su mənbələrinin bol olduğu ərazilərdə hdroenerjidən, düzən ərazilərdə külək enerjisindən, isti iqlim qurşağında yerləşən ərazilərdə günəş enerjisindən, kənd təsərrüfatı məhsullarının və meşə ehtiyatlarının zəngin olduğu ərazilərdə isə bioenerjidən daha çox istifadə olunur.

BOEM-dən istifadənin tarixi əsrlərin dərinliklərinə gedib çıxır. Qalıq yanacaq növlərindən bəhrələnməyin hələ mümkün olmadığı zamanlarda insanlar, elmi-nəzəri qanunauyğunluqları barədə tam məlumatlı olmadıqları halda, müşahidələrinə və nəsildən-nəslə ötürülən təcrübəyə əsaslanaraq, bioenerjidən, günəş, su və külək enerjisindən istifadə etmək vərdişlərinə yiyələnmişdilər.

Təxminən 1,5 mln. il bundan əvvəl insan oddan istifadə etməyə, təxminən 1 mln. il budan əvvəl isə odda yemək hazırlamağa başlamış, e.ə. VI əsrdə yelkənli qayıqların meydana

gəlməsi dənizçilər üçün küləyin əhəmiyyətini artırmışdı. E.ə. III əsrdə antik dövrün məşhur alimlərindən olan Arximedin günəş şüalarını əks etdirən güzgülər (parıldayan qılınclar) vasitəsilə, Sirakuza hücum edən Roma gəmilərini yandırması tarixi bir faktdır. Su və yel dəyirmanları uzun müddət insanların məişətinin vacib elementini təşkil etmişdir və s. Zaman keçdikcə elm və texnika inkişaf etmiş, XVIII əsrdən başlayaraq, əvvəlcə buxar gücü ilə hərəkətə gətrilən maşınların dövriyyəyə daxil olması, sonradan daş kömür, neft və təbii qaz hasilatı və istehlakına başlanılması BOEM-i arxa plana keçirmiş, son onilliklərdə isə atmosferə atılan və istixana effekti yaradan qazların həcminin artması dünyada, o cümlədən Azərbaycanda alternativ enerji mənbələrindən istifadə məsələsini aktuallaşdırmışdır.

Azərbaycan təkcə neft-qaz ilə deyil, həm də BOEM ilə zəgin ölkələr sırasındadır. Respublikanın Xəzər dənizi sahilində yerləşməsi, relyefinin müxtəlifliyi və ərazisində 9 iqlim tipinin olması onun alternativ enerji potensialının formalaşmasını şərtləndirir.

Çayların enerji potensialından istifadə edilməsi ölkənin enerji təhlükəsizliyini təmin olunması baxımından böyük əhəmiyyət kəsb edir. Respublikada hidroenerji istehsalı sahəsində perspektivli layihələrin həyata keçirilməsinə, su elektrik stansiyalarının (SES) istismara verilməsinə baxmayaraq, mövcud potensialdan tam istifadə edildiyini qeyd etmək mümkün deyildir.

Azərbaycan ərazisində 8359 çay axır. Tədqiqatçılar bu çayların tənifatı ilə bağlı fərqli məlumatlar təqdim edirlər. Məsələn, M.Məmmədov 2012-ci ildə nəşr etdirdiyi monoqrafiyasında uzunluğu 25 kilometrdən az olan çayların sayının 8188-ə, 26-50 kilometr olan çayların sayının 107-yə, 51-100 kilometr olan çayların sayının 40-a, 101-500 kilometr olan çayların sayı-

nın 22-yə, 500 kilometrdən çox olan çayların sayının 2-yə bərabər olduğunu qeyd edir [129, s.19]. S.C.Mahmudova isə 2021-ci ildə çap etdirdiyi məqaləsində ölkə üzrə çayların ümumi uzunluğunun 34 min kilometr təşkil etdiyini, onların çoxunun 5 kilometrdən az, 850-nin 5-10 kilometr arası, 500-nün 10-100 kilometr arası, 21-nin 100 kilometrdən çox uzunluğa malik olduğunu bildirir [123, s.26]. Müxtəlif vaxtlarda verilən məlumatların üst-üstə düşməməsi təbiətdə baş verən dəyişikliklərlə bağlı ola bilər. Belə ki, son dövrlərdə qlobal istiləşmənin təsiri altında su ehtiyatlarının azalması, sel və daşqınların törətdiyi fəsadlar çayların məcrasının, fiziki parametrlərinin və xüsusiyyətlərinin dəyişməsinə səbəb olur.

Respublikanın yerüstü su ehtiyatlarının çox hissəsi Kür və Araz çaylarının hesabına formalaşır. Bundan başqa, Samur, Qanıx, Qabırrı, Tərtər, Həkəri, Qudyal, Türyan, Agstafa, Viləş və s. nisbətən iri çaylardır.

Ölkənin yerüstü və yeraltı su ehtiyatları 3 mənbədən – yağıntı suları, transsərhəd çayların axımı və buzlaqların əriməsi – formalaşır. Bu ehtiyatların illik həcmini müəyyənləşdirmək məqsədilə müxtəlif illərdə tədqiqatlar aparılmış, əldə olunan nəticələr fərqli olsa da, bu fərq çox böyük rəqəmlərlə ifadə olunmur. 1967 və 1977-ci illərdə Dövlət Hidrologiya İnstitutu tərəfindən aparılmış tədqiqatlar nəticəsində respublikada 30,6 mlrd. $m^3$ su ehtiyatının olduğu, onun da təxminən 8 mlrd. $m^3$-nin yerli mənbələr hesabına formalaşdığı müəyyən edilmişdir. 1978-ci ildə S.H. Rüstəmov və R.M.Qaşqay tərəfindən aparılmış hesablamalara əsasən Azərbaycanda, 10,3 mlrd. $m^3$-i yerli mənbələr hesabına formalaşmaqla, 32,3 $m^3$ su ehtiyatı olmuşdur. Nəzərdən keçirilən sahədə növbəti tədqiqat 1988-ci ildə Zaqaf-

qaziya Elmi-Tədqiqat Hidrometeorologiya İnstitutu tərəfindən aparılmış və belə nəticə əldə edilmişdir ki, ölkə ümumilikdə 28,1 $m^3$ su ehtiyatına malik olmuş, onun tərkibində yerli mənbələrin payı isə 7,81 $m^3$ təşkil etmişdir. Bundan bir il sonra, 1989-cu ildə S.H.Rüstəmov və R.M.Qaşqay tərəfindən aparılmış yeni hesablamaların nəticələri bu rəqəmlərdən fərqlənir. Onların qənaətinə görə, keçən əsrin 80-ci illərinin sonlarında respublikada su ehtiyatlarının ümumi həcmi 30,9 mlrd. $m^3$-ə, yerli mənbələrdən formalaşan ehtiyatların həcmi isə 10,3 mlrd. $m^3$-ə bərabər olmuşdur. 2002-ci ildə H.Y.Fətullayev tərəfindən aparılmış hesablamaların nəticəsinə görə, Azərbaycanın ümumi su ehtiyatı 30.3 $m^3$ həcmində qiymətləndirilmişdir [72, s.20]. Qeyd olunan məlumatlardan aydın olur ki, XX əsrin son onilliklərində Azərbaycanın su ehtiyatları təxminən 28-32 mlrd. $m^3$, yerli mənbələrdən formalaşan ehtiyatlar isə 8-10 mlrd. $m^3$ diapazonunda dəyişmişdir. Nəərə almaq lazımdır ki, su ehtiyatları sabit və dayanıqlı olmayıb, iqtisadiyyatın inkişaf səviyyəsinin, əhalinin artım dinamikasının, sudan istifadənin strukturundakı transformasiyaların, qlobal iqlim dəyişikliklərinin təsir altında arta və ya azala bilər.

Su anbarlarının yaradılması mövcud ehtiyatların qorunması yollarından biridir. Respublikada ümumi həcmi təxminən 22 mlrd. $m^3$-ə bərabər olan 140-a qədər su anbarı vardır. Su tutumu 15,7 mlrd. $m^3$ olan Mingəçevir su anbarı, 2,6 mlrd. $m^3$ olan Şəmkir su anbarı, 1,3 mlrd. $m^3$ olan Araz su qovşağı, 0,5 mlrd. $m^3$ olan Sərsəng su anbarı ən böyük su anbarlarıdır [72, s.22]. Bu anbarlardan suya tələbatın müəyyən hissəsini ödəməklə yanaşı, elektrik enerjisi istehsalı məqsədi ilə də istifadə olunur.

Qeyd olunanlardan başqa, su ehtiyatlarının strukturunda təbii göllər də yer alır. Onların ehtiyatları son dərəcə az oldu-

ğundan respublikanın ümumi su ehtiyatının həcminə ciddi təsir göstərmir.

Azərbaycanda mövcud olan təxminən 450 gölün ümumi sahəsi 394 $km^2$-ə, ümumi su ehtiyatı 0,90 mlrd. $m^3$-ə, şirin su ehtiyatı isə cəmi 0,03-0,05 mlrd. $m^3$-ə bərabərdir. Yay fəslində bu göllərin təxminən 200-ü qoruyur [72, s.23].

Son illərdə su ehtiyatlarının həcmini müəyyənləşdirmək istiqamətində tədqiqatlar aparan A.B.Ələkbərov və F.Ə.İmanovun hesablamalarına görə, hal-hazırda Azərbaycanın illik ümumi su ehtiyatları 55-56 mlrd. $m^3$ təşkil edir. Bunun 20,6 mlrd. $m^3$-i transsərhəd çayların, 20 mlrd. $m^3$-i su anbarlarının, 9 mlrd. $m^3$-i yeraltı suların, 6 mlrd. $m^3$-i isə yerli çayların payına düşür [72, s.24]. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatına görə isə, respublikanın çay sularının ümumi ehtiyatları 28,5-30,5 mlrd. $m^3$-ə bərabərdir, bunun da 19,0-20,5 mlrd. $m^3$-ni tranzit çayların, 9,5-10 mlrd. $m^3$-ni isə yerli çayların axımları təşkil edir [22]. Göründüyü kimi, hesablamaların hamısında tranzit çayların illik axımı ilə bağlı rəqəmlər bir-birinə uyğun gəlsə də, yerli çayların axım səviyyəsi ilə bağlı bunu qeyd etmək mümkün deyildir. Ümumi nəticə ondan ibarətdir ki, Azərbaycanda çayların su ehtiyatının 70%-dən çoxu transsərhəd çayların hesabına formalaşır, bu da, bir tərəfdən, respublikanın məhdud su ehtiyatlarına malik olduğunu, digər tərəfdən isə, mövcud ehtiyatlardan maksimum səviyyədə səmərəli istifadə olunmasının zəruriliyini göstərir.

Hidroenerji istehsalında rolu getdikcə artmaqda olan çaylarda sululuğun azalması, ekoloji vəziyyətin pisləşməsi ölkədə alternativ enerji sektorunun inkişafına mənfi təsir göstərə bilər. İqlim dəyişmələri çayların su ehtyatının azalmasına təsir göstə-

rən əsas amillərdən biridir və bu prosesin davam etməsi və nəticədə buxarlanmanın intensivliyinin artması ciddi problemlər yaradır. 1991-2006-cı illərdə ölkə ərazisində orta illik temperatur 0,6$^0$C, 2007-2014-cü illərdə isə 0,7$^0$C artmışdır [1, s.233]. Regional və qlobal iqlim dəyişmələri arasında müəyyən kor-relyasiya əlaqəsinin olduğu nəzərə alınsa, davam etməkdə olan istiləşmə meylinin Azərbaycanın su ehtiyatlarına mənfi təsiri də qaçılmaz olacaqdır.

Çaylarda sululuğun azalmasının digər bir səbəbi isə qonşu respublikalarda transsərhəd çayların suyundan getdikcə daha çox istifadə edilməsidir. Bunun da nəticəsində bu çaylar vasitəsilə Azərbaycana daxil olan su həcmi əhəmiyyətli dərəcədə azalır. Azərbaycanın ən böyük transsərhəd çayları olan Kür və Araza münasibətdə bu məqam özünü daha aydın şəkildə büruzə verir.

Kür çayı Türkiyə, Gürcüstan və Azərbaycan ərazisindən axır, uzunluğu 1515 kilometrdir. Çayın hövzəsi Ermənistan ərazisinin bir hissəsini də əhatə edir. Kürün öz hövzəsində formalaşan su ehtiyatları 16,8 km$^3$ təşki edir, bunun da 4,6 km$^3$-i Gürcüstan, 9,39 km$^3$-i Azərbaycan, 1,54 km$^3$-i Ermənistan, 1,27 km$^3$-i isə Türkiyə ərazisində formalaşır. Keçən əsrin son onilliklərində çayın Gürcüstandan Azərbaycana keçən axımı 13-16 m$^3$/s azalmışdır. 2010-ci ilə qədər aparılmış müşahidələrə görə, çayın Tbilisi şəhərinə qədər olan hissəsinin illik axımında ciddi dəyişiklik baş verməmədiyi halda, Gürcüstan paytaxtından Azərbaycan sərhəddinə qədər olan hissədə əhəmiyyətli azalma baş verir. Bu ərazidə Kür çayından və onun qollarından 42,3 m$^3$/s su götürülür [111, s.89-91]. Bu sudan əsasən suvarma məqsədilə istifadə olunur. 1970-ci ildə Gürcüstanda Kür çayının suyundan istifadə etməklə 291 min hektar torpaq suvarıldığı halda, XX

əsrin sonlarında artıq 400 min hektar suvarılırdı [5, s.7]. Azərbaycan ərazisində Kür çayı və onun qolları üzərində Mingəçevir, Şəmkir, Yenikənd, Sərsəng və s. su anbarları tikilmişdir.

Türkiyə, İran, Ermənistan və Azərbaycan əraisindən keçən Araz çayının uzunluğu 1072 kilometr, hövzəsində formalaşan illik su ehtiyatı isə 9,12 km$^3$-ə bərabərdir. Su ehtiyatlarının 2,6 km$^3$-i Ttürkiyə, 4,70 km$^3$-i Ermənistan, 1,04 km$^3$-i Azərbaycan, 0,78 km$^3$-i İran ərazisində formalaşır. Ermənistan ərazisində Araz çayı və onun qolları üzərində 40-dan çox su anbarı tikilmişdir [111, s.98-100]. Çayın ən böyük qollarından biri Ermənistan ərazisindən Azərbaycana daxil olan Arpa çayıdır. Göyçə gölünün səviyyəsini tənzimləmək üçün onu Arpa çayı ilə birləşdirən və 1961-ci ildə inşa edilən su tuneli vasitəsilə çayın suyunun bir hissəsi həmin gölə axıdılır. Bundan başqa, Ermənistanda çayın üzərində Keçut su anbarı da tkilmişdir. Nəticədə Arpa çayının suyunun 30-40%-i Ermənistan ərazisində mənimsənilir [111, s.84]. Azərbaycan ərazisində Araz çayı üzərində Araz, Mil-Muğan və Bəhramtəpə hidroqovşaqları inşa edilmişdir. 1991-2010-cu illərdə Araz çayının Ermənistan-Türkiyə sərhəddindən başlamış, Saatlı rayonu ərazisində Kür çayına töküldüyü məntəqəyə qədər olan hissəsində illik su axımında azalma 34,5%-ə bərabər olmuşdur [111, s.102].

Antropogen amillərin təsiri altında təkcə Kür və Araz çaylarının deyil, digər çayların axımında da nəzərəçarpacaq transformasiyalar baş vermişdir. Ümumiyyətlə, istər təbii, istərsə də antropogen təsirlər nəticəsində Azərbaycanda çayların sululuq səviyyəsində azalma baş vermiş və son onilliklərdə bu daha ciddi xaraktr almışdır. 1961-1990-cı illərdə yerli çayların sululuğu 5,0%, transsərhəd çayların sululuğu 9,1% azaldığı halda,

1991-2023-cü illərdə bu rəqəmlər, müvafiq olaraq, 21,2% və 21,0% təşkil etmişdir [22].

Antropogen təsirlər təkcə su ehtiytlarının azalmasına səbəb olmur, həm də cayların ekoloji vəziyyətinin pisləşməsində əsas rol oynayır. Çayların çirkləndirilməsi bütövlükdə eko-sistemin pozulmasına gətirib çıxaran əsas amillərdəndir. Müasir dövrdə bütün çaylar çirklənməyə məruz qalsa da, transsərhəd çaylarda çirklənmə səviyyəsi daha yüksəkdir. Cənubi Qafqazda transsərhəd çaylarda ekoloji vəziyyəti yaxşılaşdırmaq məqsədilə br sıra beynəlxaq layihə həyata keçirilsə də [45, s.61-62], ümumi vəziyyət hələ də narahatlıq doğuran səviyyədədir. Ermənistan və Gürcüstanda bir çox hallarda təmizləyici qurğuların yaradılmasına vəsait xərcləmək əvəzinə, sənaye və məişət tullantıları Kür və Araz hövzəsi çaylarına axıdılır, buun da nəticəsində ciddi problemlərlə üzləşən ölkə Azərbaycan olur. Məsələn, Gürcüstanda Tbilisi, Axalsix, Borjomi, Qori və s. şəhərlərin sənaye və məişət tullantıları Kür çayına, Ermənistanda dağ-mədən sənayesi tullantıları, Araz çayının qolu olan Oxçuçaya axıdılır.

BOEM-in potensialı 4 parametr üzrə – resurs potensialı, texniki potensial, iqtisadi potensial və bazar potensialı – qiymətləndirilir. Resurs potensialı – konkret ərazidə mövcud enerji mənbəyindən tam istifadə nəticəsində əldə oluna biləcək enerjinin miqdarını ifadə edir və daha çox nəzəri xarakter daşıyır. Texniki potensial-texniki qurğu və vasitələrdən istifadə etməklə enerji mənbəyindən əldə oluna biləcək enerjinin miqdarını əks etdirir. İqtisadi potensial-texniki potensialın iqtisadi cəhətdən səmərəli istifadə oluna bilən hissəsidir. Bazar potensialı – əldə olunan enerjinin bazarda maksimum gəlir gətirmək potensialıdır.

Çay suları böyük potensial enerjiyə malik olan resursdur və Azərbaycanda da elektrik enerjisi istehsalında mövcud su ehtiyatlarından istifadə olunur. Respublikada çayların nəzəri hidroenerji potensialı 40 mlrd. kVt.s, texniki hidroenerji potensialı 16 mlrd. kVt.s, iqtisadi cəhətdən səmərəli enerji potensialı 6 mlrd. kVt.s, mövcud hidroenerji potensialı isə 4,7 mlrd. kVt.s təşkil edir [127, s.67]. Rəqəmləri müqayisə etdikdə, ölkədə istifadə olunmayan hidroenerji potensialının kifayət qədər olduğu üzə çıxır.

Azərbaycanın ümumi enerji təchizatında hidroenerjinin xüsusi çəkisi 2019-cu ildə 0,8%, 2020-ci ildə 0,5%, 2021-ci ildə 0,6%, 2022-ci ildə 0,7%, 2023-cü ildə 0,8% təşkil etmişdir [11, s.21], yəni ümumi enerji təchizatında hidroenerji mənbələrinin payı kiçik və dəyişməz olaraq qalmışdır. Bu sahədə üstünlük, xüsusi çəkisi 98%-dən çox olan neft-qaz sektoruna məxsusdur.

Hidroenerji mənbələrinin və SES şəbəkəsinin elektrik enerjisi istehsalında və enerji təhlükəsizliyinin təmin olunmasında rolu getdikcə artır. 2020-ci ildə respublikada istehsal olunan elektrik enerjisinin 4,1%-i SES-lərin payına düşürdüsə, 2021-ci ildə bu rəqəm 4,5%-ə, 2022-ci ildə 5,4%-ə, 2023-cü ildə 6,0%-ə, 2024-cü ildə isə 10,6%-ə bərabər olmuşdur [23, 30]. Başqa sözlə, 2020-ci il ilə müqayisədə 2024-cü ildə elektrik enerjisi istehsalında SES-lərin payı 2,5 dəfədən çox artmışdır. Artım respublikada, xüsusilə də işğaldan azad edilmiş ərazilərdə mövcud SES-lərin təmiri və yenilərinin inşası hesabına əldə edilmişdir.

Energetika Nazirliyinin məlumatına görə, 2023-cü ildə respublikada olan SES-lərin sayı 47-yə, onların ümumi qoyuluş gücü isə 1301,778 MVt-a (Mingəçevir – 424,6, Şəmkir – 380, Yenikənd – 150, Tərtər – 50, Fizuli – 25, Taxtakörpü – 25, Şəm-

kirçay – 24,42, Araz – 22, Arpaçay 1 – 20,5, Biləv – 20, Varvara – 17, Ağbulaq – 14,25, Cahangirbəyli – 10,5, Həsənrız -10, Çıraq 1 – 8,3, Güləbird – 8, Mişni – 8,25, Qamışlı – 6,3, Alxaslı – 6,0, Torağay 2 – 5,9, Soyuqbulaq – 5,3, Torağay 3 – 5,0, Suqovuşan 1 – 4,8, Vayxır – 4,5, Kəlbəcər 1 – 4,4, Muğan – 4,05, Sus – 4, Çıraq 2 – 3,6, Meydan – 3,4, Göyçay 1 – 3,1, Suqovuşan 2 – 3,0, Torağay 1 – 3,0, Çiçəkli – 3,0, İsmayıllı 1 – 1,581, İsmayıllı 2 – 1,581, Balakən – 1,44, Arpaçay 2 – 1,4, Oğuz 1 – 1,341, Oğuz 2 – 1,341, Şəki – 1,3, Qusar 1 – 0,96, Oğuz 3 – 0,894, Nüqədi – 0,83, Torağay 4 – 0,8, Şəki 2 – 0,58, Masallı – 0,3, Astara – 0,26 MVt) bərabər olmuşdur [23, 109, s.10-11]. 2024-cü il - 2025-ci ilin birinci yarısında "Azərenerji" ASC tərəfindən yeni SES-lər inşa edilmişdir. 2024-cü ilin may ayında Laçın rayonunda 2,8 MVt gücündə olan Zabux və 4 MVt gücündə olan Qarıqışlaq [140, s.10], Zəngilan rayonunda hər biri 10,5 MVt gücündə olan Sayıflı və Zəngilan [165, s.3], sentyabr ayında Kəlbəcər rayonunda 22,5 MVt gücündə olan Yuxarı Vəng [113, s.2], 4,3 MVt gücündə olan Zar, Göygöl rayonunda 4,1 MVt gücündə olan Toğanalı [139, s.4], oktyabr ayında Zəngilan rayonunda 10,5 MVt gücündə olan Sarıqışlaq [164, s.5], 2025-ci ilin may ayında Laçın rayonunda 3,1 MVt gücündə olan Aşağı Malıbəyli və 3,5 MVt gücündə olan Mirik SES, Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilmişdir [121, s.4]. Beləliklə, respublikada SES-lərin sayı 57-yə, qoyuluş gücü isə 1377,578 MVt-a çatmışdır.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında SES-lərin inşası istiqamətində işlər davam etdirilir. Bu rayonlarda kiçik su elektrik stansiyaların (KSES) ümumi gücünü 467 MVt-a, sayını isə 72-yə çatdırmaq planlaşdırılır [140, s.10]. Şübhəsiz ki, istifadəyə verilən hər yeni stansiya "yaşıl iqtisadiyyat"a keçid

siyasətinin uğurlu nəticəsi olmaqla yanaşı, ölkənin enerji təhlükəsizliyini daha da möhkəmləndirir.

Respublikada reallaşdırılan enerji təhlükəsizliyi siyasətinin əsas hədəflərindən birini, ümumilikdə dünyada elektroenergetika sektorunun strukturunu dəyişən günəş və külək enerjisindən istifadənin genişləndirilməsindən ibarətdir. Ölkənin müxtəlif bölgələrində günəşli və ya küləkli günlərin çox olması bu hədəfə çatmaq üçün zəruri olan potensialı formalaşdırır.

Azərbaycanda günəş və külək enerjisi istehsalı prosesi təşəkkül mərhələsindədir. Bu mənbələrdən əldə olunan enerjinin ümumi enerji təchizatında xüsusi çəkisinin cəmi 0,1% təşkil etməsi [11, s.21] də bunu sübut edir. Buna baxmayaraq, son illərdə bu sektoru inkişaf etdirmək dövlətin enerji siyasətinin əsas istqamətlərindən birinə çevrilmişdir.

Azərbaycanda günəş enerjisi üzrə iqtisadi potensial 23 min MVt-a (23 QVt), günəş elektrik stansiyalarının (GES) sayı 13-ə (3-ü hibrid elektrik stansiyası (HES)), onların qoyuluş gücü isə 281,916 MVt-a (Qaradağ GES – 230,0, Naxçıvan GES – 22,0, Şərur GES – 11,0, Kəngərli GES – 5,0, Qobustan HES – 2,863, Samux GES – 2,803, Sumqayıt GES – 2,072, Sahil GES – 1,927, Suraxanı GES – 1,559, Pirallahı GES – 1,1, Culfa HES – 0,985, Sosial obyektlər – 0,587, Ekoloji Park HES – 0,02 MVt) bərabərdir [23, 109, s.11]. Bu stansiyaların ümumi qoyuluş gücü respublikanın günəş enerjisi üzrə iqtisadi potensialının cəmi 1,2%-ni təşkil edir, yəni bu sektoru inkişaf etdirmək üçün imkanlar son dərəcə genişdir. 2023-cü ildə istifadəyə verilən və 230 MVt gücündə olan Qaradağ GES-in tikintsi kimi iri layihələrin reallaşdırılması günəş enerjisi istehsalını artırmaqda dövlətin maraqlı oduğunu göstərir.

2019-cu ildə ölkədə GES-lərdə ümumilikdə 44,2 mln. kVt.s, 2024-cü ildə isə bundan 512,1 mln. kVt.s çox, yəni 556,3 mln. kVt.s elektrik enerjisi istehsal edilmişdir. Respublika üzrə bütün mənbələrdən alınan elektrik enerjisinin tərkibində günəş enerjisinin xüsusi çəkisi 2019-cu ildə cəmi 0,1%, 2024-cü ildə isə 1,9% təşkil etmişdir [23, 30]. Statistik rəqəmlərdəki artım Qaradağ GES-in istismara verilməsindən qaynaqlanır.

Külək enerjisi elektroenergetikanı inkişaf etdirmək baxımından əlverişli mənbələrdən hesab olunur, çünki, birincisi, müxtəlif sürətli külək axınları istənilən coğrafiya üçün xarakterikdir, ikincisi, külək elektrik stansiyalarının (KES) inşası tez və daha ucuz başa gəlir.

Azərbaycanda külək enerjisi üzrə iqtisadi potensial 3 min MVt (3 QVt) həcmində qiymətləndirilir [23], bu da günəş enerjisi üzrə iqtisadi potensialdan 7,6 dəfə azdır. Külək enerjisi potensialının nisbətən az olması relyeflə bağlıdır, yəni Qafqaz sıra dağları külək axınlarının ölkəyə daxil olmasına mane olur. Xəzər dənizi istiqamətindən gələn külək axınları isə maneəsiz hərəkət edir və bu səbəbdən də xəzəryanı ərazilər, xüsusilə də Abşeron yarımadası külək enerjisi potensialının daha çox olması ilə seçilir.

Respublikada fəaliyyət göstərən KES-lərin sayı 8-ə (3-ü HES), onların ümumi qoyuluş gücü 66,45 MVt-a (Yeni Yaşma KES – 50, Hökməli KES – 8,0, Yaşma Bağları KES – 3,6, Qobustan HES – 2,7, Şurabad KES – 1,7, Culfa KES – 0,3, Culfa HES – 0,11, Ekoloji Park HES – 0,04) bərabərdir [23, 109, s.11]. Külək enerjisi sahəsində də iqtisadi potensialın çox az hissəsindən, cəmi 2,2%-dən istifadə olunur. Eyni zamanda, son illərdə KES-lərdə istehsal olunan elektrik enerjisinin miqdarının davamlı

olaraq azalması da, bu sahəyə diqqətin daha da artırılmasını tələb edir.

2019-cu ildə KES-lərdə 105,4 mln. kVt.s, 2020-ci ildə 96,1 mln. kVt.s, 2021-ci ildə 91,4 mln. kVt.s, 2022-ci ildə 83,3 mln. kVt.s, 2023-cü ildə 55,4 mln. kVt.s, 2024-cü ildə isə 50,9 mln. kVt.s elektrik enerjisi istehsal olunmuşdur. Respublika üzrə istehsal olunan elektrik enerjsinin tərkibində külək enerjisinin xüsusi çəkisi 2019-cu ildə 0,4%, 2024-cü ildə isə cəmi 0,1% təşkil etmişdir [23, 30]. 2019-2024-cü illərdə külək enerjisi istehsalı 51,7% azaldığı halda, onun ölkə üzrə istehsal olunan elektrik enerjsinin tərkibindəki xüsusi çəkisi 75,0% azalmışdır.

Sənaye və kənd təsərrüfatı istehsalının inkişafı, urbanizasiya proseslərinin intensivləşməsi və əhalinin istehlak səviyyəsinin yüksəlməsi sosial-iqtisadi və siyasi dividendlər gətirməklə yanaşı, ekosistemə və insanların sağlamlığına mənfi təsir göstərən istehsalat və məişət tullantılarının miqdarının artması üçün də şərait yaradır və bu tullantılar öz növbəsində həm də təkrar emal üçün xammal, elektrik və istilik enerjisi mənbəyidir. Mövcud qlobal meyllərə və Azərbaycanın enerji təhlükəsizliyi siyasətinə uyğun olaraq, respublikada istehsalat, məişət, bitki və heyvan mənşəli tullantılarından istifadə etməklə elektrik enerji istehsal olunur.

Energetika Nazirliyinin qiymətləndirməsinə görə, Azərbaycan tullantılar üzrə 380 MVt (0,38 QVt) iqtisadi enerji potensialına malikdir [23]. Şübhəsiz ki, bu rəqəm şərti xarakter daşıyır, çünki ölkədə tullantıların, xüsusilə də bərk tullantıların az bir hissəsindən enerji əldə etmək məqsədilə istifadə olunur. Məsələn, 2022-ci ildə respublikada yaranmış 2,6 mln. ton bərk məişət tullantısının cəmi 21,2%-i enerji istehsalı prosesinə cəlb

olunmuşdur [142]. Ümumi meyl isə tullantılar hesabına enerji istehsalını inkişaf etdirməkdən ibarətdir.

Hal-hazırda fəaliyyət göstərən Balaxanı Bərk Məişət Tullantılarının Yandırılması Zavodunun enerji istehsalı üzrə qoyuluş gücü 37 MVt-a, Qobustan HES-in – isə 0,7 MVt-a bərabərdir [23].

Ölkənin ümumi enerji təchizatında tullantıların xüsusi çəkisi 2019 və 2020-ci illərdə 0,7%-ə, 2021-ci ildə 0,6%-ə, 2022 və 2023-cü illərdə 0,5%-ə bərabər olmuşdur [11, s.21]. Son illərdə tullantılardan əldə olunan elektrik enerjisinin həcmində artım müşahidə olunur.

2019-cu ildə tullantılardan istifadə etməklə 195,9 mln. kVt.s, 2024-cü ildə isə 232,5 mln. kVt.s elektrik enerjisi istehsal olunmuşdur. 2024-cü ildə respublika üzrə istehsal olunan elektrik enerjisinin 0,8%-i tullantılardan əldə olunmuşdur [23, 30].

İstehsal və məişət tullantılarının tərkibində plastik kütlə əhəmiyyətli yer tutur. Ümumiyyətlə, dünyada istər sənayedə, istərsə də məişətdə plastiklərin tətbiqi sürətlə genişlənir, bu da son nəticədə onun istehsalını stimullaşdırır. Bu məhsulun istehsalının dünya üzrə illik artım tempi 6-10% təşkil edir. Hal-hazırda ən azı 150 növ plastik kütlə istehsal olunur ki, onların da 30%-i polimer mənşəlidir [81, s.5]. Polimerlərin istehsalında neft və təbii qazdan da istifadə olunduğu nəzərə alınsa, onda Azərbaycanda bu sahənin təşəkkülü və inkişafını təbii hal hesab etmək olar. Respublikada fəaliyyət göstərən Polipropilen Zavodu, Etilen-Polietilen Zavodu və Yüksək Sıxlıqlı Polietilen Zavodunda istehsal edilən müxtəlif növ məhsullar sırasında polimerlər də yer alır. Plastik kütlələrdən və polimer məmulatlarından istifadənin miqyasının davamlı olaraq genişlənməsi onların tullantıları ilə bağlı məsələni aktuallaşdırır.

Plastik kütlə və polmer tullantılarının bir hissəsi torpağa basdırılır, digər hissəsi isə təkrar emal prosesinə cəlb edilir. Müasir dövrdə bərk məişət tullantılarının cəmi 5-7%-i emal edilir, yerdə qalan hissə isə torpağa basdırılır. Emal edilən bərk tullantıların tərkibində polimerlərin payı təqribən 8%-ə bərabərdir. Təkrar emal prosesində plastik kütlə və polimer tullantılarının yandırılması zamanı ayrılan istilikdən buxar və elektrik enerjisi almaq mümkün olsa da, bu, nə iqtisdi, nə də ekoliji cəhətdən əlverişli deyildir, çünki ayrılan istiliyin effektivlik dərəcəsi aşağı olur, bundan başqa, qeyd olunan tullantıların yandırılması prosesində ayrılan texniki karbon və zərərli duzlar ekoloji problemlərin yaranmasına gətirib çıxarır [81, s.6], bu da "yaşıl enerji"yə keçid konsepsiyası ilə ziddiyyət təşkil edir.

Bütün qeyd olunanlara əsasən belə bir nəticə çıxarmaq olar ki, Azərbaycanda BOEM-in potensialı respublikanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə müsbət təsir göstərə biləcək səviyyədədir. Bu mənbələrin ümumi iqtisadi potensialı ən azı 32380 MVt-a bərabərdir. Ölkədə ümumi qoyuluş gücü 1763,644 MVt olan 76 stansiyada BOEM-dən elktrik enerjisi istehsal edilir. Stansiyaların qoyuluş gücü bərpa olunan enerji mənbələrinin iqtisadi potensialının cəmi 5,1%-ni təşkil edir, yəni möcud potensialın çox hissəsi istifadəsiz qalır və bunun da obyektiv səbəbi var. Belə ki, elektrik enerjisi istehsalında alternativ enerji mənbələrindən istifadə nisbətən yeni sahədir və təşəkkül mərhələsindədir. Eyni zamanda, respublikada bu sahəni davamlı olaraq inkişaf etdirmək dövlətin enerji siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. BOEM-dən istifadənin miqyasının genişləndirilməsi "yaşıl iqtisadiyyat"ın inkişafına və ekosistemin qorunmasına da öz töhfəsini

verir. Ölkədə onlarla su, günəş və külək stansiyasınn fəaliyyəti qalıq yanacaqdan daha az istifadə olunması, atmosferə daha az zəhərli qaz atılması və son nəticədə ətraf mühitin daha etibarlı qorunması mənasını verir.

### *2.3. Respublikada elektrik enerjisi istehsalı üzrə infrastrukturun mövcud vəziyyəti*

Dünyada elektrik enerjisi istehsalına XIX əsrin 80-ci illərində başlanılmış və ilk mərhələdə zavod və fabriklərin enerjiyə olan ehtiyacının ödənilməsi ön planda olmuşdur. Zaman kecdikcə elektrik enerjisindən istifadənin miqyası genişlənmiş, sənaye ilə yanaşı, şəhərlərdə küçələrin, obyektlərin və mənzillərin elektrik enerjisi vasitəsilə işıqlandırılmasına başlanılmışdır.

Azərbaycanda ilk elektrik stansiyası 1882-ci ildə, neft sənayesinin ehtiyaclarını ödəmək məqsədilə Bakıda inşa olunmuşdur. Neft sənayesinin inkişafı fonunda Bakı şəhərinin Rusiya imperiyasının əsas sənaye mərkəzlərindən birinə çevrilməsi, əhalinin sayının sürətlə artması və xidmət sektorunun təşəkkül taparaq genişlənməsi proporsional olaraq enerjiyə tələbatın artmasını, bu da yeni elektrik stansiyalarının tikintisini şərtləndirir, eyni zamanda, elektrik enerjisi istehsalı sahəsində fəaliyyət göstərən şirkətlər təsis olunurdu. 1889-cu ildə Bakıda yaradılan "Elektriçeskaya sila" səhmdar cəmiyyəti belə şirkətlərdən idi. 1901-ci ildə bu şirkətin Bibi-Heybətdə 1050 kVt gücündə, 1902-ci ildə isə Ağ Şəhərdə 4600 kVt gücündə olan İES istifadəyə verilmişdr. Bununla yanaşı neft mədənlərinin nəzdində elektrik stansiyaları meydana gəlirdi. 1906-cı ildə Ağ Şəhər stansiyasından Balaxanı neft mədənlərinə enerji ötürücü hava xətti çəkil-

mişdir. 1915-ci ildə Bakıdakı elektrik stansiyalarının ümumi gücü 197,8 min kVt-a, hava elektrik xətlərinin uzunluğu 75 km.-ə, kabellərin uzunluğu isə 52 km.-ə bərabər idi [112, s.4-5].

1920-ci ildə respublikada sovet hakimiyyəti qurulduqdan sonra elektroenergetika müəssisələri milliləşdirilmişdir. Həmin ildə Abşerondakı stansiyaların toplam gücü 58,6 kVt təşkil etmişdir. 1920-1940-cı illərdə ölkənin enerji sisteminin gücü 5 dəfə artmışdır. 1941-ci ildə, Azərbaycanda ilk İstilik Elektrik Mərkəzi (İEM) olan "Sumqayıt İEM-1", 1954-cü ildə Mingəçevir SES və "Şimal" Dövlət Rayon Elektrik Stansiyası (DRES), 1961-ci ildə Əli Bayramov DRES, 1966-cı ildə "Sumqayıt İEM-2" işə salınmışdır. 1970-ci ildə respublikadakı elektrik stansiyalarının istehsal gücü 11 mlrd. kVt.s-a bərabər idi. Paralel olaraq, enerji ötürücü xətlərin çəkilişi də davam edirdi. 1954-cü ildə Mingəçevir-Bakı, 1967-ci ildə Əli Bayramlı-Gəncə-Ağstafa elektrik veriliş xətləri istifadəyə verilmişdir [112, s.5].

1969-cu ildə Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişində sonra elektroenergetika sektorunda dinamik inkişaf mərhələsi başlamışdı. Ümummilli liderin müəyyənləşdirdiyi strategiyanın uğurla həyata keçirilməsi nəticəsində respublikada kənd təssərrüfatı və sənayenin sürətli inkişafı, yeni sənaye müəssisələri və xidmət obyektlərinin meydana gəlməsi öz növbəsində elektrik enerjisinə tələbatın artmasını şərtləndirir, mövcud elektrik stansiyaları isə bu tələbatı tam ödəmək iqtidarında deyildi. Yeni elektrik stansiyalarının inşası və mövcud stansiyaların gücünün artırılması təxirəsalınmaz vəzifəyə çevrilmişdi.

Problem yalnız elektrik stansiyalarının generasiya gücünün azlığında deyildi, həm də yeni elektrik stansiyalarının yaradılması yolunda Kremlin yaratdığı manеələr ilə bağlı idi.

Heydər Əliyevin qeyd etdiyi kimi, *"o illər Moskvanın etirazına, bu işimizə maneçilik törədən qüvvələrin çox güclü olmasına baxmayaraq, biz Azərbaycanın elektrik enerjisi müstəqilliyini, elektrik enerjisi sıradan asılılıqdan qurtarmasını təmin etmək üçün respublikamızda güclü potensiala malik olan elektrik stansiyaları yaratmağa başladıq, buna nail olduq"* [86, s.236]. Məhz enerji müstəqilliyinin təmin olunması ölkənin sosial-iqtisadi həyatında ciddi dönüş yaradılmasını təmin etmişdi.

Keçən əsrin 70-ci illəri və 80-ci illərinin əvvəllərində Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən enerji layihələri müasir dövrdə də respublikanın enerji təhlükəsizliyinin təmin olunmasında vacib rol oynayır. 1971-ci ildə Naxçıvan MR-da 22 MVt gücündə olan İran-Azərbaycan Araz SES-in, 1976-1977-ci illərdə 50 MVt gücündə olan Sərsəng SES-in və 1982-ci ildə 380 MVt gücündə olan Şamxor SES-in inşası başa çatdırılmışdı. Mingəçevirdə "Azərbaycan" DRES-in inşasını respublikanın elektroenergetika sistemi üçün əhəmiyyətini xüsusi qeyd etmək lazımdır. 1981-ci ildə bu stansiyanın 300 MVt gücündə olan birinci bloku, sonrakı illərdə isə daha yeddi bloku istismara verilmiş və nəticədə onun gücü 2400 MVt-a çatdırılmışdı [112, s.5, 138, s.4].

Ümumilikdə, XX əsrin 70-80-ci illərində ölkənin enerji tələbatını daxili ehtiyatlar hesabına ödəmək məqsədilə həyata keçirilən layihələrin müsbət nəticələri həm ES-lərin gücünün, həm də elektrik enerjisi istehsalının artmasında özünü göstərirdi. 1970-ci ildə respublikada ES-lərin ümumi gücü 2622,5 MVt-a, istehsal olunmuş elektrik enerjisi 12026,7 mln. kVt.s-a bərabər idisə, 1980-ci ildə bu göstəricilər, müvafiq olaraq, 2882,0 MVt-a və 15045,2 kVt.s-a, 1990-cı ildə isə, 5050,7 MVt-a və 23152,6 kVt.s-a çatmışdı [30]. Statistik rəqəmlərdən göründüyü kimi,

1970-1990-cı illərdə ES-lərin gücü 2428,2 MVt, istehsal olunmuş elektrik enerjisi 11125,9 kVt.s və ya hər iki parametr üzrə 92,5% artmışdır. Bu illərdə elektrik enerjisi İES-lərdə və SES-lərdə əldə olunurdu. Dövlət müstəqilliyinin bərpasına qədər olan dövrdə elektrik enerjisi istehsalında rekord göstərici 1990-cı ilə aiddir.

Keçən əsrin 90-cı illərinin əvvəllərində cərəyan edən proseslərin mənfi nəticələri elektroenergetika şəbəkəsindən də yan keçməmişdi. ES-lərdə avadanlıqların aşınması, maliyyə çatışmazlığı səbəbindən modernizasiya və yenidənqurma işlərinin aparılmaması generasiya güclərinin zəifləməsinə, elektrik enerjisi istehsalının azalmasına səbəb olmuş və nəticədə respublikanın enerji təhlükəsizliyinin təmin olunmasında ciddi problemlər meydana gəlmişdir.

1995-ci ildə ölkədə ES-lərin ümumi gücü 5043,7 MVt, bu stansiyalarda istehsal olunmuş elektrik enerjisi isə 17043,6 mln. kVt.s-a bərabər olmuşdur [30]. 1990-cı il ilə müqayisədə 1995-ci ildə stansiyaların ümümi gücü 7 MVt və ya 0,1%, elektrik enerjisi istehsalı isə 6109 mln. kVt.s və ya 26,3% azalmışdır, yəni qeyd olunan illər ərzində nəinki generasiya güclərini artırmaq, hətta mövcud güclərdən tam miqyasda istifadə etmək mümkün olmamışdır. Uzun müddət istismarda olan ES-lər həm fiziki, həm də mənəvi cəhətdən dövrün tələblərinə cavab vermirdi. Elektrik ötürücü xətlərdə tez-tez baş verən qəzalar istehsal olunmuş elektrik enerjisinin istehlakçılara çatdırılmasında problemlər yaradır, enerji təminatının keyfiyyətinin və enerji səmərəliliyinin səviyyəsinin aşağı düşməsinə səbəb olurdu.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıtdıqdan sonra elektroenergetika sektorunun inkişaf etdirilməsi istiqamətində apardığı məqsədyönlü siyasət, onun təşəbbüsü və

rəhbərliyi ilə həyata keçirlən islahatlar artıq keçən əsrin 90-cı illərinin ortalarından öz müsbət nəticələrini verməyə başlamışdır. İlk növbədə əsas diqqət stansiyaların mövcud imkanlarından səmərəli istifadə edərək, onların məhsuldarlığını artırmağa yönəldilmiş və əsrin sonuna doğru bu sahədə müəyyən müsbət nəticələr əldə edilmişdir.

2000-ci ildə ES-lərin gücü, 1995-ci ilə nisbətən 131,8 MVt və ya 2,6% azalaraq, 4911,9 MVt-a düşsə də, elektrik enerjisi istehsalı 1655,5 mln. kVt.s və ya 9,7% artaraq, 18699,1 mln. kVt.s-a çatmışdır [30]. İstehsalda artıma məhz mövcud generasiya güclərindən istifadənin səmərəliliyinin yüksəldilməsi yolu ilə nail olunmuşdu.

Elektrik enerjisi istehsalında geriləmənin aradan qaldırılması elektroenergetika sektorunda islahatların keyfiyyətcə yeni mərhələsinə keçid üçün əsas yaratmışdır. Bu mərhələdə qarşıya qoyulan vəzifələrin dairəsi də genişlənmişdir. Mövcud stansiyaların generasiya gücünün artırılması, yeni stansiya və yarımstansiyaların inşası, elektrik ötürücü və paylayıcı şəbəkənin iş keyfiyyətinin yüksəldilməsi yolu ilə infrastrukturu inkişaf etdirmək, elektroenergetika sahəsinə daxili və xarici mənbələrdən kapital qoyuluşunu artırmaq, iqtisadiyyatı və əhalini fasiləsiz elektrik enerjisi ilə təmin etmək əsas hədəf kimi müəyyənləşdirilmişdir.

2000-ci ilin may ayında 150 MVt gücündə olan Yenikənd SES-in tikintisinin başa çatdırılması qarşıya qoyulan məqsədlərə çatmaq naminə atılan addımlardan biri idi. Bu stansiyanın tikintisinə 1979-cu ildə başlanılmış, lakin sovet dövründə bu iş başa çatdırılmamışdır. 1994-cü ildə Ümummilli lider tikiniti işlərini davam etdirmək barədə qərar qəbul etmiş, bu məqsədlə AYİB-dən 53 mln. dollar məbləğində kredit alınmışdır [85, s.263-270].

"Şimal" DRES-in yenidən qurulması XXI əsrin əvvəllərində elektroenergetika sahəsində həyata keçirilən vacib layihələrdən biridir. 2000-ci il dekabrın 19-da Preident Heydər Əliyevin iştirakı ilə stansiyada 400 MVt gücündə yeni blokun təməlqoyma mərasimi keçirilmişdir. Bu layihənin maliyyə xərcləri Yaponiya hökumətinin güzəştli şərtlərlə 40 il müddətinə ayırdığı 339 mln. dollar məbləğində kredit hesabına ödənilmişdir [86, s.238-239]. Yeni blok 2002-ci ildə istismara verilmişdir.

2000-2001-ci illərdə 1 nömrəli Bakı İstilik-Elektrik Mərkəzində də yanidənqurma işləri həyata keçirilmiş və burada hər biri 53,5 MVt gücündə olan 2 qaz turbini və digər avadanlıqlar quraşdırılmışdır [138]. Bu işləri reallaşdırmaq məqsədilə Almaniya bankından 100 mln. dollar kredit götürülmüşdür [85, s.271-272].

Həyata keçirilən tədbirlər elektroenergetika sektorunun dinamik inkişaf yoluna keçməsində böyük rol oynamışdır. 2004-cü ildə respublikada ES-lərin generasiya gücü 5665,1 MVt-a, istehsal gücü isə 21743,2 mln. kVt.s-a bərabər olmuşdu [30], bu da 2000-ci il ilə müqayisədə generasiya gücü üzrı 753,2 MVt və ya 15,3%, istehsal üzrə 3044,1 mln kVt.s və ya 16,2% artım deməkdir.

2005-2015-ci illərdə yanacaq-enerji kompleksinin inkişafı üzrə Dövlət Proqramının [37, s.362-375] həyata keçirilməsinin Azərbaycanda elektroenergetika sektorunun inkişafı, onun infrastrukturunun təkmilləşdirilməsi baxımından əhəmiyyətini xüsusi qeyd etmək lazımdır. Proqramda yeni ES-lər inşa etmək, mövcud stansiyaları modernləşdirmək, BOEM-dən istifadəni genişləndirmək yolu ilə generasiya güclərini artırmaq və 2015-ci ildə 6500-7000 MVt-a çatdırmaq nəzərdə tutulmuşdu. Konkret olaraq isə, Sumqayıtda 400-500 MVt, Şirvan şəhərində 800-900 MVt gücündə olan İES, Naxçıvan MR-da 36 MVt gücündə "Ordubad" və 4,5

MVt gücündə "Vayxır" SES, "Şimal" DRES-in 400 MVt gücündə ikinci bloku tikilməli, "Azərbaycan" DRES-in 1-8-ci blokları yenidən qurulmalı, Mingəçevir SES-də isə yenidənqurma işləri başa çatdırılmalı idi. Bundan başqa, on il ərzində yüksək gərginlikli elektrik şəbəkəsini inkişaf etdirmək, Naxçıvan MR, Bakı və Sumqayıtın elektrik enerjisi ilə təchizatını yaxşılaşdırmaq, Gəncə və Şirvanda elektrik şəbəkəsində yenidənqurma və bərpa işləri aparmaq istiqamətində tədbirlər müəyyənləşdirilmişdir.

Dövlət Proqramının yerinə yetirilməsi nəticəsində Azərbaycanın enerji təhlükəsizliyi əhəmiyyətli dərəcədə möhkəmlənmiş, elektroenergetika sektorunda infrastruktur modernləşdirilmişdir. Proqram çərçivəsində 4 yeni ES - Sumqayıtda gücü 400-500 MVt, Şirvan şəhərində 800-900 MVt gücündə İES, Naxçıvan MR-da 36 MVt gücündə "Ordubad" və 4,5 MVt gücündə "Vayxır" SES – istismara verilmişdir. Eyni zamanda, "Şimal" DRES-də 400 MVt gücündə 2-ci blok inşa edilmiş, "Azərbaycan" DRES-in 1-8-ci blokları tam, Mingəçevir SES qismən yenidən qurulmuş, "Azərbaycan" DRES-in, "Şirvan" DRES-in və Sumqayıt İEM-in yanacaq təminatını yaxşılaşdırmaq məqsədilə magistral qaz kəmərləri və nəzarət ölçü qovşaqları tikilmiş, Naxçıvan MR-da İES maye yanacaqdan qaz yanacağına keçirilmişdir. Bundan başqa, yarımstansiyalar şəbəkəsinin inkişafı istiqamətində addımlar atılmışdır: "Xaçmaz", "Salyan" və "Böyükşor" yarımstansiyası inşa edilmiş, "İmişli" və "Masallı" yarımstansiysı yenidən qurulmuş, "Gəncə", "Xırdalan", "Ağsu", "Binəqədi", "Zabrat", "Əhmədli", "Müşfiq", "Qala", "Ramanı", "Abşeron" və "Səngəçal" yarımstansiyası gücləndirilmişdir. Dövlət Proqramının yerinə yetirilməsi prosesində yeni ötürücü xətlərin çəkilməsi də diqqət mərkəzində olmuşdur. On il ərzində

"Yaşma-Dərbənd", "İmişli-Parsabad", "Azərbaycan DRES-İmişli", "Şirvan-İmişli", "Şirvan DRES-Salyan", "Salyan-Masallı", "Masallı-Astara", "Naxçıvan-Culfa-"Araz" SES" və ""Şimal" DRES – "Hövsan", "Böyükşor", "Sənaye qovşağı" yarımstansiyası" arasında elektrik ötürücü xətlər çəkilmişdir. Nəhayət, Bakı, Sumqayıt, Gəncə şəhərlərinin, Quba, Xaçmas, Qusar, Şabran, Siyəzən, Qobustan, Lənkəran, Astara, Masallı, Biləsuvar rayonlarının enerji təchizatını yaxşılaşdırmaq məqsədilə tədbirlər həyata keçirilmişdir [23].

Elektroenergetika sektorunda görülən işlər Dövlət Proqramının yerinə yetirilməsi ilə nəinki məhdudlaşmamış, əksinə Prezident İlham Əliyevin inkişaf strategiyasına uyğun olaraq, sonrakı dövrdə daha geniş vüsət almışdır. Bu mərhələdə yeni generasiya güclərinin yaratmaq və infrastruktur layihələri həyata keçirmək siyasətini davam etdirməklə yanaşı, müasir texnologiyaların və innovasiyaların tətbiqinə də xüsusi önəm verilir. SCADA uzaqdan idarəetmə sistemindən istifadə edilməsi ölkənin elektroenergetika kompleksinin texnoloji cəhətdən böyük irəliləyişə nail olduğunu göstərir.

2018-ci ildə Lerik, 2019-cu ildə Şimal – 2 ES – istismara verilmiş, 2018-ci ildən başlayaraq "Azərenerji" ASC, elektrik stansiyalarının təhlükəsiz və fasiləsiz fəaliyyətini təmin etmək məqsədilə reallaşdırılan tədbirləri özündə ehtiva edən "Reabilitasiya Proqramı"nı həyata keçirir. Bu Proqram çərçivəsində Azərbaycan İES, Cənub elektrik stansiyası, Sumqayıt elektrik stansiyası, Şimal-1 elektrik stansiyası, Bakı İEM, Bakı elektrik stansiyası, Səngəçal elektrik stansiyası, Şahdağ elektrik stansiyası, Astara elektrik stansiyası, Şəki elektrik stansiyası, Xaçmas elektrik stansiyası, Mingəçevir SES və Şəmkir SES-də, onlarla

yarımstansiyada mövcud problemləri aradan qaldırmaq üçün təmir-bərpa işləri aparılmışdır [23, 109, s.49-95].

İşğaldan azad edilmiş ərazilərin bərpası çərçivəsində generasiya güclərinin, müvafiq infrastukturun yaradılmasını və onların Azərbaycanın ümumi energetika sisteminə inteqrasiyasını təmin etmək Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strateji xəttin əsas məzmununu təşkil edir. İşğaldan azad edilmiş ərazilərdə yurdlarına qayıdan əhalini, dövlət orqanlarını, müəssisə və obyektləri elektrik enerjisi ilə təmin etmək məqsədilə "Qarabağ enerji layihəsi" çərçivəsində təxirəsalınmaz tədbirlər həyata keçirilir.

2021-2024-cü illərdə, qeyd olunan ərazilərdə Meydan, Qamışlı, Soyuqbulaq, Çıraq-1, Çıraq-2, Güləbird, Suqovuşan-1, Suqovuşan-2, Zəngilan, Şayıflı, Zar, Toğanalı KSES, Yuxarı Vəng, Sarıqışlaq, Cahangirbəyli, Mirik, Ağbulaq, Alxaslı, Mişni, Zabux, Aşağı Malıbəyli və Qaraqışlaq SES istifadəyə verilmiş, müxtəlif infrastruktur layihələri həyata keçirilmişdir [23, 109, s.214-266].

Milli energetika sisteminin inkişaf etdirilməsi nəticəsində Azərbaycan elektroenergetika sahəsində özünün təhlükəsizliyini tam təmin etməyə nail olmuşdur. Respublikada ümumi qoyuluş gücü 5929,9 MVt-a bərabər olan 15 İES (Azərbaycan İES – 2400, Şimal elektrik stansiyası – 800, Cənub elektrik stansiyası – 780, Sumqayıt elektrik stansiyası – 523,3, Qobu elektrik stansiyası – 385, Səngəçal elektrik stansiyası – 299,3, Bakı İEM – 107, Bakı elektrik stansiyası – 104,4, Şahdağ elektrik stansiyası – 104,4, Astara elektrik stansiyası – 87, Xaçmaz elektrik stansiyası – 87, Şəki elektrik stansiyası – 87, Naxçıvan elektrik stansiyası – 87, Naxçıvan qaz turbinli elektrik stansiyası – 60, Lerik elektrik stansiyası – 16,5 MVt) fəaliyyət göstərir. Bundan başqa, 6 şirkətə aid və ümumi qoyuluş gücü 703,095 MVt olan 7 İES ("BP

Azərbaycan" – 517,5, ARDNŞ – 133,7, "Azərsun Holdinq" AŞİB – 24, "Şahdağ Turizm Mərkəzi" QSC – 10,5, "Azərsun Holdinq" AKKİK – 8,6, "Ümid-Babək" OCƏŞ – 6,5, "Bahar" EOCL – 2,295 MVt) də mövcuddur [23]. Deməli, qalıq yanacaqdan istifadə edən elektrik stansiyalarının sayı 22-yə, onların ümumi qoyuluş gücü isə 6632,995 MVt-a bərabərdir. Bununla yanaşı, BOEM-dən istifadə edən və ümumi qoyuluş gücü 1763,644 MVt olan 76 elektrik stansiyasının mövcudluğu da nəzərə alınsa, onda Azərbaycanda ümumi qoyuluş gücü 8396,639 MVt olan 98 elektrik stansiyasının fəaliyyət göstərdiyi məlum olar.

Elektroenergetika sektorunda yaradılmış potensial respublikanı fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təmin etməyə və xaricdən idxal edilən enerjidən aslılığı aradan qaldırmağa imkan verir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu potensial yaradılmasa idi idxaldan aslılıq, XXI əsrin əvvəlləri ilə müqayisədə 5 dəfə, 10 dəfə çox olardı. *"Bütövlükdə ölkəmizdə bu gün ixrac potensialı var və biz elektrik enerjisini idxal edən ölkədən elektrik enerjisini ixrac edən ölkəyə çevrilmişik"* [94, s.220-221].

Azərbaycanda elektrik enerjisi istehsalında müsbət dinamika təmin edilmişdir. İnkişaf istər qalıq yanacaqdan, istərsə də BOEM-dən alınan elektrik enerjisinin həcmində müşahidə olunur. Nəzərə almaq lazımdır ki, elektroenergetika sektoru iqtisadiyyatın kifayət qədər həssas və daimi diqqət tələb edən sahəsidir. Elektrik stansiyalarının funksionallığını tələb olunan səviyyədə saxlamaq üçün vaxtaşırı yenidənqurma və təmir-bərpa işlərinin aparılması vacib şərtlərdəndir və zərurət yarandıqda bu işlər təxirə salınmadan həyata keçirlir. Bu səbəbdən də bəzi illərdə elektrik enerjisi istehsalında müşahidə olunan müəyyən geriləmələr təbii və proqnozlaşdırılması mümkün olan haldır.

**Cədvəl 2.3.1**

**2014-2024-cü illərdə Azərbaycanda elektrik enerjisi istehsalı (mln. kVt.s)**

| İllər | Elektrik enerjisi istehsalı | O cümlədən | | | | |
|---|---|---|---|---|---|---|
| | | İES-lərdə və yanacaqla işləyən digər stansiyalarda | SES-lərdə | GES-lərdə | KES-lərdə | Biokütlənin və tullantıların yandırılmasından alınan elektrik enerjisi |
| 2014 | 24727,7 | 23249,3 | 1299,7 | 2,9 | 2,3 | 173,5 |
| 2015 | 24688,4 | 22859,9 | 1637,5 | 4,6 | 4,6 | 181,8 |
| 2016 | 24952,9 | 22761,0 | 1959,3 | 35,3 | 22,8 | 174,5 |
| 2017 | 24320,9 | 22344,9 | 1746,4 | 37,2 | 22,1 | 170,3 |
| 2018 | 25229,2 | 23177,0 | 1768,0 | 39,3 | 82,7 | 162,2 |
| 2019 | 26072,9 | 24162,6 | 1564,8 | 44,2 | 105,4 | 195,9 |
| 2020 | 25839,1 | 24425,9 | 1069,5 | 47,0 | 96,1 | 200,6 |
| 2021 | 27887,8 | 26270,7 | 1277,3 | 55,2 | 91,4 | 193,2 |
| 2022 | 29039,8 | 27094,6 | 1595,7 | 60,9 | 83,3 | 205,3 |
| 2023 | 29305,9 | 27183,4 | 1763,4 | 80,7 | 55,4 | 223,0 |
| 2024 | 28395,2 | 24544,4 | 3011,1 | 556,3 | 50,9 | 232,5 |

*Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, Azərbaycan Respublikası Energetika Nazirliyi və SOCAR-ın statistik materialları əsasında hazırlanmışdır.*

Cədvəldə yer alan statistik materiallardan aydın olur ki, 2014-cü il ilə müqayisədə 2024-cü ildə Azərbaycanda 3667,5 mln. kVt.s və ya 14,8% çox elektrik enerjisi istehsal olunmuşdur. Elektrik enerjisinin çox hissəsi qalıq yanacaqla işləyən

stansiyaların payına düşür. 2014-2024-cü illər ərzində bu stansiyalarda istehsalın həcmində artım 1295,1 mln. kVt.s və ya 5,5% təşkil etmişdir. 2014-cü ildə respublika üzrə istehsal olunmuş elektrik enerjisinin 94,0%-i, 2019-cu ildə – 92,6%-i, 2024-cü ildə isə 86,4% qalıq yanacaq növlərindən alınmışdır.

İstifadə miqyasına görə hidroenerji mənbələri BOEM sırasında birinci yerdə durur. 2014-cü ilə nisbətən 2024-cü ildə su elektrik stansiyalarında 1711,4 mln. kVt.s və ya 131,6% çox elektrik enerjisi istehsal edilmişdir. Bu yüksək göstəricinin əldə olunmasında işğaldan azad edilmiş ərazilərdə istismara verilən yeni stansiyaların rolu böyükdür. Respublika üzrə ümumi istehsalda su elektrik stansiyalarının payına gəldikdə, bu, 2014-cü ildə 5,2%-ə, 2019-cu ildə 6,0%-ə, 2024-cü ildə isə 10,6%-ə bərabər olmuşdur.

2014-2024-cü illərdə ən çox artım, 553,4 mln. kVt.s və ya 191,8 dəfə, GES-lər üzrə əldə edilmişdir. Azərbaycanda istehsal olunan elektrik enerjisinin 2014-cü ildə 0,01%-i, 2019-cu ildə 0,1%-i, 2024-cü ildə isə 1,9%-i bu stansiyaların hesabında idi.

Qeyd edilən illər ərzində KES-lərdə istehsal olunan məhsul üzrə artım 48,6 mln. kVt.s-ta və ya 22,1 dəfəyə, biokütlə və tullantılardan alınan elektrik enerjisi üzrə artım isə 59,0 mln. kVt.s-ta və ya 34%-ə bərabər olmuşdur. Respublika üzrə istehsal edilmiş elektrik enerjisinin tərkibində, bu enerji mənbələrindən istifadə etməklə əldə olunan elektrik enerjisinin xüsusi çəkisi 1,0%-dən də azdır.

Diqqəti çəkən əsas məqam ondan ibarətdir ki, qalıq yanacaqdan istifadə etməklə alınan elektrik enerjisinin ümumi istehsalın tərkibindəki xüsusi çəkisi davamlı olaraq azaldığı halda, BOEM-dən alınan elektrik enerjisinin xüsusi çəkisi artır. Bu, Prezident İlham Əliyevin "yaşıl iqtisadiyyata" keçid strategiyası çərçivəsində həyata keçirilən layihələrin müsbət nəticəsidir.

Bütün qeyd olunanları ümumiləşdirərək, belə bir nəticəyə gəlmək olar ki, Azərbaycanın mərhələli inkişaf yolu keçmiş elektroenergetika kompleksi ölkənin enerji təhlükəsizliyinin təmin olunmasında əsas rolu oynayır. Bu kompleksin maddi-texniki bazasını möhkəmləndirmək, ölkənin elektrik enerjisinə olan tələbatını tam ödəmək və idxaldan asılılığı aradan qaldırmaq məqsədilə respublikada reallaşdırılan enerji siyasəti əldə olunan müsbət nəticələrlə diqqəti cəlb edir. Ölkədə energetika infrastrukturu mosernləşdirilmiş, yeni generasiya gücləri yaradılmış və bunun da nəticəsində elektrik enerjisi istehsalı sahəsində dayanıqlı inkişafa və yüksək göstəricilərə nail olunmuşdur. BOEM-dən alınan elektrik enerjisinin həcminin ildən-ilə artması isə respublikanın təkcə enerji təhlükəsizliyinin deyil, həm də ekoloji təhlükəsizliyinin qorunması, işğaldan azad olunmuş ərazilərin bərpası və inkişaf etdiriməsi baxımından böyük əhəmiyyətə malikdir.

## *2.4. Azərbaycanın enerji təhlükəsizliyi siyasətinin prioritetləri*

Azərbaycan ərazisində enerji ehtiyatlarının zənginliyi təbii amil olduğu halda, ölkədə inkişaf etmiş energetika kompleksinin yaradılması, enerji iqtisadiyyatının diversifikasiyası, enerji əlçatanlığının və enerji təhlükəsizliyinin təmin olunması bilavasitə həyata keçirilən dövlət siyasətinin nəticəsidir. Respublikanın enerji portfelində neft-qaz sektorunun xüsusi çəkisi yüksək olaraq qalsa da, BOEM-dən istifadə səviyyəsi ildən ilə yüksəlir. Mövcud enerji resurslarından səmərəli istifadə respublikada siyasi sabitliyin, sosial-iqtisadi tərəqqinin və dayanıqlı inkişafın təmin olunmasında böyük rol oynayır. Bununla yanaşı, enerji ka-

pitalını insan kapitalına çevirmək məqsədinə nail olmaq üçün ciddi addımlar atılmış və bu istiqamətində həyata keçirilən siyasət ölkənin inkişaf strategiyasına uyğun olaraq davam etdirilir.

Müasir dövrdə ölkənin milli təhlükəsizlik maraqları, sosial-iqtisadi transformasiya prosesləri, rəqəmsallaşma, informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı, qlobal trendlər və transsərhəd fəaliyyət dairəsinin genişlənməsi əldə olunan nailiyyətlərlə kifayətlənməyə imkan vermir, dövrün inkişaf fəlsəfəsinə uyğun olaraq, qarşıya yeni vəzifə və tapşırıqlar qoyur. Ölkədaxili tələbatların artdığı və dünyada sərt və güzəştsiz rəqabət mühitinin formalaşdığı bir şəraitdə düzgün inkişaf strategiyasının və perspektivə hesablanmış prioritetlərin müəyyənləşdirilməsi hər bir dövlətin mövcudluğunun əsas şərtidir. Azərbaycanda dövlət siyasəti məhz qeyd olunan reallıqlar nəzərə alınaraq, ardıcıl və mərhələli şəkildə həyata keçirilir, bu da ölkənin daxili dayaqlarını və beynəlxalq mövqelərini möhkəmlədir. Prezident İlham Əliyevin bildirdiyi kimi, *"Biz işləri planlı şəkildə görürük – ilk mərhələdə infrastruktur layihələri, yol, elektrik stansiyaları, ondan sonra sosial infrastruktur, məktəblər, içməli su, ondan sonra iş yerləri, kreditlər, kənd təsərrüfatı. Mən gələcəyə çox böyük ümidlərlə və nikbinliklə baxıram. Heç bir böhran, dünyada baş verən heç bir hadisə bizə təsir edə bilməz. Azərbaycan sabitlik diyarıdır, inkişaf məkanıdır"* [91, s.120].

Azərbaycan Cənubi Qafqzda ən böyük iqtisadiyyata və perspektiv inkişaf imkanlarına malik olan dövlətdir və bu üstünlüyün yaranması və qorunub saxlanmasını təmin edən həlledici faktorlardan biri enerji müstəqilliyi və təhlükəsizliyidir. Enerji potensialından, əvvəlki dövrdə olduğu kimi, bundan sonra da məqsədyönlü şəkildə istifadə olunması dövlət siyasətinin əsas istiqamətlərindən biridir.

Enerji sektorunda səmərəliliyin artırılması, iqtisadiyyatın və əhalinin enerji məhsulları ilə təminat səviyyəsinin yüksəldilməsi enerji təhlükəsizliyi siyasətinin əsas prioriteti olaraq qalır. Bu sektorda diqqət mərkəzində saxlanılması vacib olan məqam dayanıqlığın möhkəmləndirilməsi və yeni investisiyalar cəlb etməklə istehsal güclərinin artırılmasından ibarətdir. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də [43, s.5], enerji sektorunun da əhəmiyyətli yer tutduğu real iqtisadiyyatın dayanıqlığını və rəqbət qabiliyyətini artırmaq, infrastrukturunu gücləndirmək üçün daxili və xarici mənbələrdən investisiyaların cəlb olunmasının və buna mane ola biləcək əngəllərin aradan qaldırılmasının vacibliyi qeyd olunur.

“Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda [38] mineral xammal resurslarından istifadənin səmərəliliyinin artırılması qarşıda duran məqsədlərdən biri kimi müəyyənləşdirilmişdir. Bu məqsədə nail olmaq üçün, qeyd olunan resurslardan istifadə mexanizmi təkmilləşdirilməli, hasilat işində müasir texnologiyaların tətbiqi stimullaşdırılmalı, istismar müddəti bitmiş yataqların rekultivasiyası həyata keçirilməlidir.

Strategiyada müəyyənləşdirilən məqsədlərdən biri də energetika sektorunda tənzimləmənin təkmilləşdirilməsi və liberallaşmanın aparılması ilə bağlıdır. Bu istiqamətdə təbii qaz və elektrik enerjisi istehsalı, paylanması və təchizatı sahəsində fəaliyyətin təkmilləşdirilməsi, istehsalçılarla təchizatçılar arasında rəqabət mühiti formalaşdırmaq məqsədilə müstəqil təchizatçıların yaradılması və onların fəaliyyətinin bazar qaydalarına uyğun şəkildə qurulmasının stimullaşdırılması, qoyuluş gücü 500 MVt olan qaz-turbin elektrik stansiyalarının tikintisi, dövlət-özəl

əməkdaşlığı çərçivəsində BOEM üzrə infrastrukturun yaradılması, bioenerji və geotermal eneridən istifadə sahəsində pilot layihələrin reallaşdırılması və s. həyata keçirilir.

Elm və texnikanın nailiyyətlərindən istifadə enerji sektorunda səmərəliliyi artırmağın ən optimal yollarından biridir. Enerji məhsulları istehsalında müasir texnoloji yeniliklərin tətbiqi xərcləri, enerji məsrəfini azaltmaqla, məhsuldarlığı artırmağa və keyfiyyəti yüksəltməyə imkan verir. Azərbaycanda istər neft-qaz sənayesində, istər BOEM-in istismarında, istərsə də elektrik enerjisi istehsalında müasir texnologiyalardan geniş istifadə olunur.

Neft-qaz yataqlarının üst qatlarında ehtiyatların tükənməsi daha dərin qatlarda kəşfiyyat-qazma işləri aparmaq zərurətini ortaya çıxarır. Şübhəsiz ki, dəniz dibinin dərinliklərində olan neft-qaz yataqlarını aşkarlamaq məqsədilə geoloji-kəşfiyyat quyularının qazılması müvafiq qurğu və avadanlıqlar olmadan qeyri-mümkündür.

Azərbaycan neftçiləri dəniz dibinin dərin qatlarından neft hasil etmək təcrübəsinə malikdirlər. Belə ki, 1976-1979-cu illərdə Bakı arxipelaqının Bulla dəniz yatağında 5629 və 5877 metr dərinlikdə qazılmış iki quyudan neft çıxarılmışdır. Bunlar SSRİ-də o dövr üçün ən dərin neft quyuları idi [135, s.99].

Keçən əsrin 70-ci illərində "Xəzərdənizneftqaz" İstehsalat Birliyinə məxsus "Xəzər", "Bakı", "Oktyabrın 60 illiyi", "Azərbaycan" və "Abşeron" üzən qazma qurğuları Xəzər dənizinin təkcə Azərbaycan deyil, Qazaxstan, Türkmənistan və Dağıstan şelfində də kəşfiyyat-qazma işləri həyata keçirirdilər [135, s.83-85]. Müstəqillik illərində, mövcud qazma qurğularının əsasında hazırlanmış, elm və texnikanın nailiyyətlərini özündə əks etdirən qazma qurğularının yeni-yeni nəsilləri istismara daxil edilmişdir.

Sovet dövründə inşa olunmuş "Şelf-2" və "Şelf-5" üzən qazma qurğularında təmir-bərpa və modernləşdirmə işləri aparıldıqdan sonra, birinci 1996-cı ilin avqustunda "Dədə Qorqud", ikinci isə 1998-ci ilin sentyabrında "İstiqlal" adı altında istismara verilmişdir və hal-hazırda hər iki qurğu öz fəaliyyətini davam etdirir.

2017-ci ilin may ayında istifadəyə verilən Heydər Əliyev adına yarımdalma qazma qurğusu 12,2 min metr dərinlikdə quyu qazmaq imkanına malikdir. İri infrastruktur layihəsi olan və tikintisi 1 mlrd. dollara başa gələn bu qurğunun inşası "Caspian Drilling" şirkəti ilə Sinqapurun "Keppels FELS" şirkəti arasında imzalanan podrat müqaviləsi əsasında həyata keçirilmişdir. Çəkilən xərclərin 90%-i DNF, 10%-i isə SOCAR tərəfindən ödənilmişdir [106, s.2]. Bu vaxta qədər Xəzər dənizinin şelfində maksimum dərinliyi təxminən 7-7,5 min metr olan quyular qazılmışdır və müasir texnologiyalar əsasında hazırlanan bu qurğunun istifadəyə verilməsi neft-qaz yataqlarının daha dərin qatlarının işlənməsi üçün əlavə imkanlar yaradır.

İstehsal və xidmət sahələrnin ekstensiv və intensiv olaraq inkişaf etməsi idarəetmə və nəzarətlə bağlı problemlərin meydana gəlməsini də qaçılmaz edir və rəqəmsal platformaların, innovativ sistemlərin imkanlarından bəhrələnmədən bu problemləri həll etmək mümkün deyildir. Ənənəvi iqtisadiyyata nisbətən səmərəliliyi daha yüksək olan rəqəmsal iqtisadiyyatın inkişaf etdirilməsi xüsusi diqqət yetirilən sahələrdəndir və bu istiqamətdə həyata keçirilən siyasət və islahatlar iqtisadiyyatın rəqəmsallaşma səviyyəsinin yüksəlməsi üçün hüquqi və iqtisadi təməl formalaşdırmışdır [156, s.64-66]. Enerji sektorunda SCADA sisteminin tətbiqi də idarəetmə və nəzarət mexanizmini təkmilləşdirmək məqsədilə reallaşdırılan tədbirlərdən biridir.

SCADA sistemi obyekt haqqında məlumatların real vaxt rejimində toplanması, emalı, saxlanması və monitorinqini təmin edir, istehsal prosesinə, qurğu və avadanlıqların texniki vəziyyətinə məsafədən nəzarət etməyə, problemləri aşkarlamağa, effektiv idarəetməni həyata keçirməyə imkan verir. Hal-hazırda bu sistemdən enerji sektorunda istifadənin miqyası genşlənir [78, s.3-10, 168, s.79-84].

Enerji infrastrukturuun rəqəmsallaşdırılması səmərəliliyi artırmaqla yanaşı, təhlükəsizlik məsələlərini də aktuallaşdırır, çünki kompüterlərdən və rəqəmsal proqramlardan istifadə enerji sistemini həm də kiber hücumların obyektinə çevirir, bu da kibertəhlükəsizliyi təmin etmək məqsədilə sistemli tədbirlərin görülməsini diqtə edir.

Enerji sektorunun təhlükəsizliyinin təmin olunması sahəsində siyasət həm ölkədaxili imkanlar çərçivəsində, həm xarici tərəfdaşlarla əməkdaşlıq şəraitində, həm də beynəlxalq təcrübə nəzərə alınmaqla həyata keçirilir [2, s.44-47, 99, s.122-124, 110, s.109-112]. Ümumiyyətlə, enerji sektorunu kibertəhlükələrdən qorumanın strateji əhəmiyyətini nəzərə alaraq, bu istiqamətində atılan addımları milli təhlükəsizlik siyasətinin tərkib hissəsi kimi qiymətləndirmək lazımdır.

Beynəlxalq bazarların qloballaşdığı, transsərhəd əməkdaşlığın inkişaf etdiyi bir şəraitində xarici ölkələrlə enerji sahəsində əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir, bu səbəbdən də neft-qaz ixracı Azərbaycanın enerji təhlükəsizliyi siyasətinin prioritetləri sırasında qalmaqda davam edir.

Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi neft strategiyasının əsas istiqamətlərindən biri respublikada hasil olunan neft və təbii qazın dünya bazarlarına təhlükəsiz, müxtəlif

marşrutlarla, milli maraqlara uyğun şərtlərlə və xarici tərəfdaşların da maraqlarını nəzərə almaqla çıxarılmasından ibarətdir. Neft-qaz ixracının əhəmiyyətini şərtləndirən əsas amil büdcə gəlirlərinin əsas hissəsinin məhz bu sahədən əldə edilməsi ilə bağlıdır, yəni uğurlu ixrac siyasəti respublikada dayanıqlı və inklüziv inkişafın, rifahın və sabitliyin qarantlarından biridir.

Neft-qaz ixracının artırılması "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda [38] ölkədə iqtisadi artımın təmin olunması yollarından bir kimi müəyyənləşdirilmişdir.

İxrac marşrutlarının diversifikasiyası Azərbaycanın nail olduğu ən böyük uğurlarından biridir, çünki bu, sadəcə iqtisadi əhəmiyyətə malik məsələ deyil, milli təhlükəsizlik məsələsidir. Alternativ marşrutların mövcudluğu ixrac siyasətində respublikanın müstəqilliyini, neft-qaz tranzitini həyata keçirən ölkələrdən hər-hansı birinin inhisarçı mövqe əldə etmək və bunun ardınca Azərbaycana təsir və təzyiq etmək imkanının neytrallaşdırılmasını təmin edir.

Ümumiyyətlə, ixrac marşrutlarını müəyyənləşdirmək məsələsi ətrafında aparılan müzakirələr son dərəcə gərgin və ziddiyyətli olmuş və daha çox geosiyasi əhəmiyyət kəsb etmişdir. Cənubi Qafqzda təsir rıçaqlarını qoruyub saxlamağa çalışan Rusiya Qərb şirkətlərinin regiona daxil olmasının qarşısını hər vasitə ilə almağa çalışırdı [155, s.195-196, 171, s.158-159, 188, s.309]. Müstəqillik yoluda kövrək addımlarını atan Azərbaycan iri güclərin geosiyasi qarşıdurmasının orbitinə düşsə də, Ümummilli lider Heydər Əliyevin balanslaşdırılmış siyasəti nəticəsində məsələni öz xeyrinə həll edə bilmiş, enerji sektorunda Qərb ölkələri ilə genişmiqyaslı əməkdaşlıq əlaqələri quraraq, əsas ixrac marşrutu kimi, respublikanın milli təhlükəsizlik və geosiyasi maraq-

larına cavab verən və Azərbaycan-Gürcüstan-Türkiyə ərazisindən keçən Qərb marşrutunun seçilməsini prioritet hədəf olaraq müəyyənləşdirmiş və son nəticədə öz məqsədinə nail olmuşdur.

Hal-hazırda Azərbaycanın ixrac-boru kəmərləri şəbəkəsi Bakı-Supsa, Bakı-Novorossiysk, Heydər Əliyev adına BTC neft və BTƏ qaz kəmərindən ibarətdir və xarici bazarlara çıxarılan neft və təbii qazın əsas hissəsi sonuncu iki kəmər vasitəsilə, yəni Qərb istiqamətində nəql edilir.

**Cədvəl 2.4.1**

**2014-2024-cü illərdə BTC kəməri ilə neft, BTƏ kəməri ilə təbii qaz ixracı**

| İllər | Neft ixracı | | | Təbii qaz ixracı | | |
|---|---|---|---|---|---|---|
| | Bütün istiqamətlər üzrə (mln. ton) | BTC boru kəməri ilə | | Bütün istiqamətlər üzrə (mlrd. $m^3$) | BTƏ boru kəməri ilə | |
| | | İxrac (mln. ton) | Ümumi ixraca nisbətən [%-lə] | | İxrac (mlrd. $m^3$) | Ümumi ixraca nisbətən [%-lə] |
| 2014 | 35,0 | 28,8 | 82,2 | 8,0 | 6,5 | 81,2 |
| 2015 | 35,3 | 29,2 | 82,7 | 8,1 | 6,6 | 81,4 |
| 2016 | 34,9 | 29,3 | 83,9 | 8,0 | 7,0 | 87,5 |
| 2017 | 32,8 | 27,3 | 82,2 | 8,8 | 7,1 | 80,6 |
| 2018 | 32,6 | 27,4 | 84,0 | 9,9 | 8,3 | 83,8 |
| 2019 | 31,2 | 26,6 | 85,2 | 11,8 | 10,3 | 87,2 |
| 2020 | 28,3 | 23,6 | 83,3 | 13,8 | 12,2 | 88,4 |
| 2021 | 28,0 | 22,8 | 81,4 | 19,0 | 17,7 | 93,1 |
| 2022 | 26,6 | 23,7 | 89,0 | 22,6 | 21,2 | 93,8 |
| 2023 | 26,0 | 25,1 | 96,5 | 24,9 | 22,8 | 91,5 |
| 2024 | 24,4 | 24,4 | 100 | 25,3 | 22,9 | 90,5 |

*Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, Azərbaycan Respublikası Energetika Nazirliyi və SOCAR-ın statistik materialları əsasında hazırlanmışdır.*

Cədvəldən göründüyü kimi, 2014-2024-cü illərdə Azərbaycandan neftin orta hesabla 86,4%-i BTC, təbii qazın isə 87,1%-i BTƏ boru kəməri vasitəsilə ixrac edilmişdir.

Azərbaycan Gürcüstanın, Türkiyənin, İtaliyanın, İsrailin və bir sıra digər ölkənin enerji təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rol oynayır və eyni zamanda ixrac coğrafiyasını daha da genişləndirməkdə maraqlıdır. Bakı, təşəbbüskarlarından və fəal iştirakçılarından olduğu TANAP və TAP layihələrinin reallaşdırılmasını enerji sahəsində Azərbaycan-Türkiyə və Azərbaycan-Avropa əməkdaşlığının inkişafı baxımından yüksək qiymətləndirir.

Azərbaycan təbii qazı, 2018-ci ildə istifadəyə verilən və BTƏ kəmərinin davamı olan TANAP vasitəsilə Türkiyənin şərq sərhəddindən qərb sərhəddinə, 2020-ci ildə istismara verilən və TANAP-ın davamı olan TAP vasitəsilə isə Türkiyənin qərb sərhəddindən İtaliyaya çatdırılır. Qeyd olunan bu iki transsərhəd layihənin həyata keçirilməsi cənubi Avropanın enerji xəritəsini, regionun enerji bazarında aktorların mövqeyini nəzərəçarpacaq dərəcədə dəyişdirmişdir.

Bu layihələr həm də təhlükəsizliyə və sülhə xidmət edir. 2019-cu il noyabrın 30-da Ədirnə vilayətinin İpsala qəsəbəsində TANAP-ın Avropa ilə birləşən hissəsinin açılış mərasimində iştirak edən Prezident İlham Əliyev enerji təhlükəsizliyi məsələsinin dünyada gündəliyi zəbt etdiyini bildirmiş, TANAP, "Cənub Qaz Dəhlizi"ni enerji təhlükəsizliyi layihəsi kimi qiymətləndirmiş və qeyd etmişdir ki, *"...burada çox gözəl əməkdaşlıq formatı yaradılıb. İstehsalçı ölkə olan Azərbaycan, tranzit ölkələri və istehlakçı ölkələr birlikdə çalışır. Bizim mənafeyimiz də birdir, gəlirimiz də ədalətli şəkildə bölünür... bütün bu layihələr bölgədəki sabitliyi*

*möhkəmləndirir"*. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan həyata keçirilən bu layihələrdən Azərbaycan, Gürcüstan, Türkiyə ilə yanaşı Bolqarıstan, Yunanıstan, Makedoniya, Albaniya, Serbiya, Bosniya və Herseqovina marşrutu üzərindəki ölkələrin də faydalandığını vurğulayaraq, bildirmişdir ki, *"...bütün bu addımları atarkən bunun bir regional layihə, bir sülh layihəsi olduğunu da xüsusilə vurğulamaq lazımdır... Bu, bir həmrəylikdir və bu həmrəyliyin adı da sülhdür"* [92, s.160-162].

Ətraf mühitin mühafizəsi və ekoloji dayanıqlığın təmin olunması da Azərbaycanın enerji təhlükəsizliyi siyasətinin prioritetlərindən biri olaraq müəyyənləşdirilmişdir. Məlumdur ki, neft-qaz hasilatı və emalı Azərbaycana iqtisadi və siyasi dividendlərlə yanaşı, müəyyən ekoloji problemlər də gətirmiş və onların həlli gündəlikdə duran ən aktual məsələlərdən birinə çevrilmişdir. Tarixən neft hasilatının intensiv şəkildə həyata keçirildiyi Abşeron yarımadasında torpaqların neftlə çirklənməsi, aradan qaldırılması böyük vəsait və uzun müddət tələb edən ciddi problemlər yaratmışdır.

Ümumilikdə 222 min hektar sahəsi olan Abşeron yarımadasında çikləndirilmiş torpaqların sahəsi 33,3 min hektara, neftlə çirkləndirilmiş torpaqların sahəsi isə 10 min hektara bərabər olmuşdur [144, s.128].

Müasir dövrdə dünyada hər il 20-30 mln. ton karbohidrogen birbaşa, 50-90 mln. ton isə neft məhsullarının yandırılması zamanı atmosferdən torpağa qarışır. Torpağın üst qatına düşən xam neft məhsuldar təbəqəni, relyefdən aslı olaraq, 5-40 sm. dərinliyində çirkləndirir [172, s.85].

Respublikada ekologiya sahəsində mövcud olan problemlərin həllinə nail olmaq məqsədilə davamlı və sistemli fəaliyyət həyata keçirilir, 1999-cu ildə qəbul edilən "Ekoloji təhlükəsizlik haq-

qında" Qanun [62] və "Ətraf mühitin mühafizəsi haqqında" Qanun [97] bu fəaliyyətin ümumi hüquqi çərçivəsini müəyyənləşdirir.

Neftlə çirkləndirilmiş torpaqlar mexaniki rekultivasiya, bioloji rekultivasiya və fitomeliorasiya yolu ilə təmizlənir. 2006-cı ildən başlayaraq, Abşeron yarımadasında neftlə çirklənmiş 7 min hektardan çox sahənin ekoloji bərpası prosesi həyata keçirilir [144, s.127-128].

Azərbaycanda atmosfer havasını çirkləndirən maddələrin əsas hissəsini qazaoxşar və maye maddələr təşkil edir. 2015-ci ildə stasionar mənbələrdən atmosferə atılan 178,0 min ton çirkləndirici maddənin 6,6 min tonu bərk maddələr, 171,4 min tonu qazaoxşar və maye maddələrdən ibarət idi. 2020-cı ildə bu rəqəmlər, müvafiq olaraq, 146,6 min, 3,8 min və 142,9 min tona, 2021-ci ildə 156,7 min, 4,1 min və 152,6 min tona, 2022-ci ildə 158,4 min, 3,9 min və 154,5 min tona, 2023-cü ildə isə 144,4 min, 3,7 min və 140,7 min tona bərabər olmuşdur [17, s.329]. Statistik rəqəmlərdən göründüyü kimi, atmosferə atılan çirkləndirici maddələrin miqdarı 2015-ci il ilə müqayisədə 33,6 min ton və ya 18,8% azalmışdır, bu da əsasən müvafiq dövlət siyasətinin həyata keçirilməsinin və müasir texnologiyaların istehsal prosesinə tətbiqinin nəticəsində baş vermişdir.

Atmosfer havasının çirkləndirilməsində mədənçıxarma sənayesi, emal sənayesi, elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi sahəsi əsas rol oynayır. 2023-cü ildə respublikada atmosferə atılmış 144,4 min ton çirkləndirici maddənin 56,4%-i mədənçıxarma sənayesinin, 41,3 min tonu emal sənayesinin, 35,0 min tonu isə elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi sahəsinin payına düşürdü [11, s.134].

Azərbaycan hökuməti ətraf mühiti qorumaq və təbii ehtiyatlardan səmərəli istifadə etmək məqsədilə həyata keçirilən

layihə və tədbirlərin maliyyələşdirilməsində əsas iştirakçıdır və ayrılan maliyyə vəsaitlərinin həcmi ildən ilə artır. Bu məqsədlə əsas kapitala yönəldilən vəsait 2015-ci ildə 84,8 mln., 2020-ci ildə 170,2 mln., 2021-ci ildə 71,3 mln., 2022-ci ildə 160,5 mln., 2023-cü ildə isə 594,9 mln. manata bərabər olmuşdur [17, s.328]. 2021-ci ildə nəzərəçarpacaq dərəcədə az vəsaitin ayrılması əvvəlki ildə baş vermiş "COVİD-19" və Vətən müharibəsinin təsirləri ilə bağlı olmuşdur. Ümumilikdə isə, 2015-ci il ilə müqayisədə 2023-cü ildə ətraf mühiti qorumaq və təbii ehtiyatlardan səmərəli istifadə etmək üçün 510,1 mln. manat və ya təxmiən 7 dəfə çox vəsait əsas kapitala yönəldilmişdir. Maliyyə təminatında artım öz növbəsində ekoloji mühitin daha da yaxşılaşdırılması istiqamətində fəaliyyəti stimullaşdıran əsas amillərdəndir.

Bütün qeyd olunanlar əsasında belə bir nəticə hasil etmək olar ki, Azərbaycanın enerji təhlükəsizliyi siyasətinin mərkəzində ölkənin milli maraqları və beynəlxalq öhdəlikləri durur. Keyfiyyətli enerji təminatı olmadan iqtisadiyyatın dayanıqlı inkişafını təmin etmək, əhalinin rifahını yüksəltmək mümkün deyildir və bu səbəbdən də respublikada müasir texnologiyaları tətbiq etmək yolu ilə enerji səmərəliliyinin artırılması xüsusi diqqət yetirilən sahələrdəndir. Eyni zamanda, Azərbaycan neft-qaz ixrac etdiyi coğrafiyanın genişləndirilməsinə də böyük əhəmiyyət verir. İxrac siyasəti tərəfdaş ölkələrin enerji təhlükəsizliyinin və regional sülhün təmin olunmasına töhfə verməklə yanaşı, respublikanın özünün beynəlxalq nüfuzunun artmasına, mövqelərinin güclənməsinə və milli təhlükəsizliyinin möhkəmlənməsinə xidmət edir. Enerji təhlükəsizliyi siyasətinin vacib elementlərindən biri olan ətraf mühitin mühafizəsi də Azərbaycanda dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir və əldə olunan müsbət nəticələr ilə seçilir.

# III FƏSİL

## AZƏRBAYCAN RESPUBLİKASINDA “YAŞIL ENERJİ”YƏ KEÇİDİN MÜASİR VƏZİYYƏTİ VƏ PERSPEKTİVLƏRİ

### *3.1. Bərpa olunan enerji sahəsində Azərbaycanın dövlət siyasəti*

Siyasi, sosial-iqtisadi və mədəni-humanitar münasibətlərin inklüziv xarakter aldığı, proseslərin sürətləndiyi və intensivləşdiyi müasir dövrdə iqtisadi inkişaf, sosial rifah və ekoloji təhlükəsizlik məsələlərini bir-birindən ayırmaq mümkün deyildir. İstənilən sahədə meydana gələn mənfi və ya müsbət dəyişiklik nəticəsində zəncirvari reaksiya baş verir və tez bir zamanda digər sahələr də onun təsirinə məruz qalır. Enerji sektoru həyat və fəaliyyətin bütün sahələri ilə sıx əlaqəli olduğu üçün bütövlükdə dövlət və cəmiyyətin vəziyyəti onun inkişaf səviyyəsindən bilavasitə aslıdır. Son onilliklərdə dünyada elektrik enerjisi istehsalında BOEM-dən istifadə məsələsinin aktuallaşması da nəticə etibarı ilə sosial-iqtisadi inkişafın, enerji təhlükəsizliyinin və ekoloji tarazlığın daha etibarlı şəkildə təmin olunması maraqlarından irəli gəlir.

“Yaşıl enerji” sektorunun inkişaf etdirilməsi Azərbaycanda həm dövlət siyasətinin tərkib hissəsi, həm öhdəlik, həm də

enerji təhlükəsizliyi mənbələrini şaxələndirmək vasitəsi kimi qiymətləndirilir. 2012-ci il fevralın 4-də Münhen Təhlükəsizlik Konfransında çıxışı zamanı Prezident İlham Əliyev Azərbaycanın nefti, təbii qazı və bazarlarının olmasına baxmayaraq, respublikada su, günəş və külək enerjisinə də sərmayə yatırıldığını diqqətə çatdırmış və bunun alternativ mənbələrə ehtiyacdan deyil, ətraf mühiti qorumaqla bağlı və *"keçmiş və gələcək nəsillərimiz qarşısında"* götürülən öhdəliklərdən irəli gəldiyini bildirmişdir [88, s.312]. Həqiqətən də, mövcud reallıqlarda özünün enerji təhlükəsizliyini təmin etmək üçün Azərbaycannın BOEM-dən istifadəyə ehtiyac yoxdur. Ölkə enerjiyə olan tələbatını neft və təbii qaz ehtiyatları hesabına gələcək onilliklər ərzində də tam ödəmək, neft-qaz hasilatı və emalında müsir texnologiyaları tətbiq etməklə yüksək ekoloji standartlara nail olmaq qabiliyyətindədir. Buna baxmayaraq, dünyada təşəbbüskar və götürdüyü öhdəliklərin yerinə yetirilməsinə məsuliyyətlə yanaşan ölkə imici qazanmış Azərbaycan məsələyə daha geniş yanaşır və dayanıqlı inkişafın təmin olunması və ətraf mühitin sağlamlaşdırılması yollarının problemlərin qlobal səviyyədə həllindən keçdiyni nəzərə alaraq, BOEM-dən istifadənin miqyasını ildən-ilə genişləndirir. Hal-hazırda respublikda bu sahədə qarşıya qoyulan əsas məqsəd elektrik enrjisi istehsalında BOEM-in payını, 2030-cu ilədək olan dövrdə 30%-ə çatdırmaqdan ibarətdir və bu hədəfə nail olmaq üçün dövlət siyasətinin təkmilləşdirilməsi və müvafiq infrastrukturun yaradılması istiqamətində işlər davam etdirilir.

Elektrik enerjisi istehsalında ənənəvi enerji mənbələri ilə yanaşı, BOEM-dən də istifadə etməklə respublikanın enerji gücünü artırmaq, enerji səmərəliliyinin səviyyəsini yüksəltmək və

nəticədə ölkənin enerji təhlükəsizliyini daha da möhkəmlətmək Azərbaycanın dövlət siyasətinin əsas məqsədləri sırasındadır. 2004-cü ildə Azərbaycan Respublikasında alternativ və BOEM-dən istifadə olunması üzrə Dövlət Proqramının [25] qəbul edilməsi də, bu məqsəddən irəli gəlmişdir. Akademik Urxan Ələkbərov qeyd etdiyi kimi, bu proqram Azərbaycanın gələcək inkişafının əsasını təşkil edən amillərdən biri idi [77].

Dövlət Proqramında külək, günəş, biokütlə, geotermal və hidroenergetika mənbələrinin enerji potensialı yüksək qiymətləndirilmiş və bu potensialdan istifadənin səmərəliliyini yüksəltmək tədbirləri müəyyənləşdirilmişdir. 2004-2013-cü illərdə həyata keçirilməli olan tədbirlər sırasında qanunvericilik və hüquqi-normativ bazanın təkmilləşdirilməsi, Quba, Qusar, Çiçəkli, Zeyxur, Nügədi, Balakən və Çinarlı KSES-lərin özəlləşdirilməsi və Varvara SES-in yenidən qurulması, Vayxır SES-in inşası, su, külək, günəş və biokütlə enerjisi potensialının öyrənilməsi və bu mənbələrdən qidalanan yeni elektrik stansiyalarının inşası və s. nəzərdə tutulmuşdur. Bununla yanaşı, nəzərdən keçirilən sahədə beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi, stimullaşdırıcı addımların atılması, mütəxəssis hazırlığı, enerji istehlakçılarının maarifləndirilməsi, elmi-tədqiqat işlərinin aparılması, kənd təsərrüfatı məhsulları yetişdirilən istixanalarda geotermal su mənbələrindən istifadə olunması konkret icra müddəti olmayan, yəni mütəmadi şəkildə yerinə yetirilməli olan tədbirlər kimi müəyyənləşdirilmişdir.

Azərbaycanda sovet hakimiyyəti illərində inşa edilmiş KSES-lərdə avadanlıqların köhnəlməsi istehsal prosesinin pozulmasına səbəb olmuş və yenidənqurma işləri həyata keçirmədən onların səmərəli fəaliyyətini təmin etmək mümkün deyildi. Bu

stansiyaların özəlləşdirilməsi iqtisadi baxımdan ən əlverişli variant idi.

KSES-lərin özəlləşdirilməsi prosesinə Dövlət Proqramının qəbulundan üç il əvvəl, 2001-ci ildə başlanılmışdı. Həmin ildə Prezident Heydər Əliyevin Sərəncamı ilə 9 KSES - Quba, Qusar, Şəki, Çiçəkli, Muğan, Zeyxur, Nügədi, Balakən və Çinarlı- özəlləşdirməyə çıxarılmışdı [114]. Bu stansiyalardan yeddisinin özəlləşdirilməsi məsələsi, artıq qeyd edildiyi kimi, Dövlət Proqramında da öz əksini tapmışdır.

2010-cu il sentyabrın 15-dək Çinarlı KSES istisna olmaqla, yerdə qalan stansiyalar artıq özəlləşdirilmişdir [9].

Yeni inşa edilər Vayxır SES 2006-cı ildə istifadəyə verilmişdir [149, s.111]. 1954-1957-ci illərdə Yevlax rayonu ərazisində inşa edilmiş Varvara SES-də yenidənqurma işlərini 2005-2007-ci illərdə həyata keçirmək nəzərdə tutulsa da, bu proses 2017-ci ildə başa çatmışdır [65, s.2-3].

Respublikada BOEM-in potensialını və ondan istifadənin səmərəliliyini müəyyənləşdirməyə imkan verən laboratoriyalardan istifadə olunur [108, s.335]. Təbii-iqlim şəraitinin rəngarəngliyi ilə seçilən Aərbaycanın bölgələrinin çoxunda su, günəş və külək enerjisi mənbələri paralel olaraq mövcud olsa da, konkret ərazidə onlardan istifadənin iqtisadi səmərəlilik əmsalı bir-birindən fərqlənir. Məhz belə laboratoriyalar vasitəsilə ayrı-ayrı bölgələrdə BOEM-in hansı növündən istifadənin daha məqsədəuyğun olduğunu müəyyənləşdirmək mümkündür.

2009-cu ildə, respublikada BOEM-dən istifadə imkanlarının öyrənilməsi məqsədilə Prezidentin Ehtiyat Fondundan 2 mln. manat ayrılmışdır. Bu məbləğin 1 mln. manatı günəş, külək, biokütlə və geotermal su mənbələri hesabına elektrik ener-

jisi istehsalı imkanlarının öyrənilməsi və bu sahədə zəruri tədbirlərin həyata keçirilməsi, yerdə qalanı isə külək enerjisi ehtiyatlarının, dağ çaylarının enerji potensialının müəyyənləşdirilməsi və KSES-lərin inşası istiqamətində tədbirlərin görülməsi üçün nəzərdə tutulmuşdu [26, s.1].

Əldə olunan nəticələrin bərpa olunan enerji sektorunu inkişaf etdirmək baxımından əhəmiyyəti böyükdür və eyni zamanda qeyd etmək lazımdır ki, Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin bir qismi öz həllini tapmamışdır. Məsələn, BOEM-dən istifadə üzrə vahid əlaqələndirmə elmi-metodik mərkəzin və məlumat bazasının yaradılması, bəzi binaları və kənd təsərrüfatı məhsulu istehsal edilən istixanaların geotermal su mənbələrindən istifadə etməklə qızdırılması, biokütlədən istifadə etməklə elektrik enerjisi istehsalı planlaşdırılsa da, bu sahələrdə konkret bir nəticə ortaya qoyulmamışdır.

Obyektiv səbəblərdən, xüsusilə də yeni olan bu sahədə təcrübənin azlığından irəli gələn problemlərin mövcudluğu bu sektorda səmərəli idarəetmənin təşkili məsələsini meydana gətirmişdir. Bu sahədə islahatlar 2009-cu ildə başlamış, idarəetmənin təkmilləşdirilməsi və optimallaşdırılması istiqamətində mərhələlərlə davam etmişdir.

Qeyd olunan il iyulun 16-da Sənaye və Energetika Nazirliyinin Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi təsis edilmişdir [28, s.2]. Tədqiq edilən sahənin potensialından istifadə məsələsinə strateji baxımdan yanaşan Prezident İlham Əliyev 29 dekabr 2011-ci il tarixli Sərəncamı [166] ilə, Dövlət Agentliyi qarşısında, 2012-2020-ci illərdə respublikada alternativ və bərpa olunan enerji mənbələrindən istifadə ilə bağlı Dövlət Strategiyasını, müvafiq isra orqanları ilə birlikdə

və 6 ay müddətində hazırlayıb təqdim etmək tapşırığı qoymuşdu. Bu məqsədlə Prezidentin ehtiyat Fondundan 1 mln. manat maliyyə vəsaiti də ayrılmışdı. Buna baxmayaraq, qeyd olunan Strategiya nəzərdə tutulan müddətdə təqdim olunmamışdır.

2012-ci ilin iyunun 1-də Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi ləğv edilmiş və onun bazasında Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Şirkəti yardılmışdır [28, s.1]. Dövlət Şirkəti təxminən yeddi ay fəaliyyət göstərmiş və 2013-cü il fevralın 1-də Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi yaradıldıqdan sonra, bu Şirkət "Azalternativenerji" MMC formasında yenidən təşkil edilərək, yeni təsis edilən Dövlət Agentliyinin tabeliyinə verilmişdir [4, s.4, 162, s.173]. 2019-cu il yanvarın 14-də, respublikada dövlət idarəçiliyinin təkmilləşdirilməsi və optimallaşdırılması, büdcə vəsaitlərindən səmərəli istifadə edilməsi məqsədilə həyata keçirilən tədbirlər çərçivəsində Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi ləğv edilmişdir [27, s.3]. Nəhayət, 2020-ci il sentyabr ayının 22-də Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında BOEMDA yaradılmışdır [23]. Bu Agentliyin fəaliyyət dairəsinə BOEM və onlardan istifadə sahəsində dövlət siyasətinin formalaşdırılmasında iştirak etmək, qeyd olunan mənbələrin potensialından səmərəli istifadə edilməsi, bu sahədə fəaliyyətin təşkili və tənzimlənməsi, investisiya cəlbediciliyinin artırılması məqsədilə tədbirlər həyata keçirmək daxildir [31, s.4].

İnstitusional islahatlarla yanaşı, dövlət BOEM-dən istifadəni genişləndirmək və bu sahəyə özəl mənbələrdən investisiya cəlb etmək məqsədilə stimullaşdırıcı tədbirləri də davamlı ola-

raq həyata keçirir. Bu baxımdan Prezident İlham Əliyevin "Bərpa olunan enerji mənbələrindən istifadə sahəsində layihələrin həyata keçirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 5 dekabr 2019-cu il tarixli Sərəncamı [50] xüsusi əhəmiyyət kəsb edir. Sərəncamda, BOEM üzrə elektrik stansiyalarının tikintisi üçün torpaq sahəsi və su obyektlərinin ayrılması, bu sahəyə sərmayə yatıran investorlar qarşısında götürülən öhdəliklərin yerinə yetirilməsinə dövlət zəmanəti verilməsi, mövcud təcrübədən bəhrələnmək məqsədilə beynəlxalq məsləhətçilərin cəlb edilməsi, tikiləcək elektrik stansiyalarının respublikanın elektrik şəbəkəsinə qoşulması və istehsal ediləcək elektrik enerjisinin satınalınması üzrə müqavilələrin imzalanması və s. tədbirlərin reallaşdırılması nəzərdə tutulur.

Şübhəsiz ki, qeyd olunan Sərəncam Azərbaycanda sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması, xarici investisiyaların respublikaya cəlb edilməsinin stimullaşdırılması və dövlət-özəl münasibətlərinin inkişaf etdirilməsi istiqamətində dövlətin həyata keçirdiyi strateji kursun tərkib hssələrindən biri kimi qiymətləndirilməlidir. Xarici investorlarla münasibətlərin hüquqi-normativ bazasının təkmilləşdirilməsinin, xüsusilə də onların qarşısında götürülən öhdəliklərin icrasına dövlət zəmanətinin verilməsinin müsbət nəticəsi özünü Azərbaycanda bərpa olunan enerji sahəsində ondan çox xarici şirkətin fəaliyyətində göstərir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarındakı BOEM böyük potensiala malikdir. Ermənistanın işğalı dövründə, bu ərazilərdə mövcud olmuş iqtisadi infrastruktur, sosial obyektlər və mədəniyyət ocaqları vəhşicəsinə dağıdılmış, təbii ehtiyatlar talanmış və ətraf mühitə ciddi ziyan dəymişdir. 2020-ci il Vətən müharibəsində Azərbaycanın Ermənistan üzərində tarixi qələ-

bəsi və 2023-cü ilin sentyabr ayında həyata keçirilən antiterror əməliyyatı nəticəsində respublikada erməni separatizminə və terroruna son qoyulması təkcə hərbi-siyasi deyil, həm də sosial-iqtisadi və mədəni-humanitar baxımdan böyük əhəmiyyətə malikdir. İşğaldan azad edilmiş ərazilərin minadan təmizlənməsi, bərpası, sosial-iqtisadi infrastrukturun və iş yerlərinin yaradılması və bu əraziləri tərk etməyə məcbur olmuş əhalinin öz yurdlarına qaytarılması qarşıda duran təxirəsalınmaz məsələlərdəndir.

2021-ci ildə qəbul edilmiş və 2030-cu ilədək olan dövr üçün Azərbaycanın sosial-iqtisadi inkişafı ilə bağlı müəyyənləşdirilən beş milli prioritetdən biri məhz işğaldan azad edilmiş ərazilərə böyük qayıdışın təmin olunmasıdır [43, s.1, s.5]. Şübhəsiz ki, bu istiqamətdə qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinin ən vacib şərtlərindən biri energetika sisteminin yaradılmasıdır və bu sistemi "yaşıl enerji" hesabına inkişaf etdirmək nəzərdə tutulmuşdur.

2021-ci il mayın 3-də Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması və bununla əlaqədar konsepsiya və baş plan hazırlamaq məqsədilə 1391040 dollar məbləğində vəsaitin ayrılması barədə Sərəncam [33] imzalamışdır. Bunun ardınca Nazirlər Kabinetində bu ərazilərdə "yaşıl texnologiyalar"ın tətbiqi və "yaşıl enerji" zonasının yaradılması üzrə Tədbirlər Planı hazırlanmış və 2022-ci il iyunun 21-də təsdiq edilmişdir. Tədbirlər Planında 2022-2026-cı illərdə enerji təchizatı infrastrukturunun yaradılması (elektrik enerjisi və təbii qaz təchizatı üzrə şəbəkələr qurmaq, Cəbrayıl Enerji Qovşağı layihəsini rellaşdırmaq və s.), BOEM-dən istifadə etməklə elektrik enerjisinin istehalı (Cəbrayıl rayonunda GES, "Xudafərin" və "Qız Qalası" SES-ləri, Laçın-Kəlbəcər KES-i

tikmək, KSS-ləri yenidən qurmaq və bu prosesə özəl investisiyaları cəlb etmək və s), enerji səmərəliliyinin təmin edilməsi, "yaşıl texnologiyalar"ın tətbiqi, dövlət-özəl tərəfdaşlığının inkişaf etdirilməsi, tarif tənzimlənməsi sahəsində tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur [34, 162, s.17]. Tədbirlər planının qəbul edilməsindən keçən üç il ərzində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında energetika sisteminin qurulması sahəsində bir sıra layihə artıq həyata keçirilmiş və hal-hazırda bu istiqamətdə işlər davam etdirilir.

2022-ci il mayın 26-da, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Cəbrayıl Enerji Qovşağının təməli qoyulmuş [44, s.3], təxminən bir il sonra, 2023-cü il mayın 4-də ölkə başçısı tərəfindən 330 kV-luq Cəbrayıl qovşaq yarımstansiyası istifadəyə verilmişdir [141, s.7]. Bundan başqa, 2024-cü il noyabrın 12-də Cəbrayıl rayonunda Şəfəq GES-in təməli qoyulmuşdur [79, s.14].

Son bir neçə ildə Laçın rayonunda Zabux, Qarıqışlaq, Aşağı Malıbəyli, Mirik, Zəngilan rayonunda Sayıflı, Zəngilan, Sarıqışlaq, Kəlbəcər rayonunda Yuxarı Vəng və s. KSES istifadəyə verilmişdir. Araz çayı üzərində Xudafərin və Qız Qalası hidroqovşağı və SES-lərin tikintisi İranla birlikdə davam etdirilir.

2022-ci ildə qəbul edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda [35, s.11-14] da "yaşıl enerji"dən istifadə və ekoloji təhlükəsizlik məsələləri diqqət mərkəzində saxlanılır. Proqramda nəzərdə tutulan tədbirlər 4 hədəf göstəricisinə (infrastruktur, sosial inkişaf, iqtisadiyyatın yenidən qurulması və ətraf mühitin tarazlı inkişafı) və 2 əsas məqsədə (əhalinin dayanıqlı məskunlaşması və ərazilərin iqtisadi fəaliyyətə reinteqrasi-

yası) uyğun olaraq müəyyənləşdirilmişdir. Hədəf və məqsədlərə nail olmaq üçün yerinə yetirilməli olan vəzifələr sırasında "ağıllı kənd" və "ağıllı şəhər" konsepsiyaları əsasında yeni yaşayış məskənlərinin inşası və "yaşıl texnologiya"lardan istifadə etməklə "yaşıl enerji" zonasının yaradılması da yer almışdr. Başqa sözlə, işğaldan azad edilmiş ərazilərdə elektrik enerjisinə tələbatın əsasən BOEM-dən alınan enerji hesabına ödənilməsini təmin etmək dövlət siyasətinin əsas vektorlarından birini təşkil edir.

2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması da Azərbaycanda BOEM-dən istifadəyə xüsusi əhəmiyyət verildiyini sübut edir. Prezident İlham Əliyevin 2023-cü il dekabrın 25-də bu barədə imzaladığı Sərəncamda [108, s.15] da qeyd olunur ki, *"Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir"*. İşğaldan azad edilmiş ərazilərlə yanaşı, Naxçıvan MR da "yaşıl enerji" zonası elan olunmuşdur.

Azərbaycanda dövlət "yaşıl enerji" sektorunda tətbiq edilən qurğu və avadanlıqların müəyyən hissəsinin respublikada istehsalının təşkili prosesində də iştirak edir. 2012-ci il aprelin 24-də Sumqayıtda fəaliyyətə başlayan, günəş modulları istehsalı üzrə ixtisaslaşan və LED lampaların istehsalını planlaşdıran "Azgüntex" zavodu Alternativ və Bərpa Olunan enerji Mənbələri üzrə Dövlət Agentliyi tərəfindən, yəni dövlət vəsaiti hesabına inşa edilmişdir. Zavodda istehsal olunan və gücü minimum 42, maksimum 250 vat olan günəş panelləri yaşayış binalarının, müxtəlif obyektlərin, küçə və meydanların işıqlandırılması üçün nəzərdə tutulmuşdur [150, s.1]. Suraxanı və Pirallahı GES-də "Azgüntex" zavodunun istehsalı olan panellərdən istifadə olunmuşdur [117, s.86]. LED lampalar isə elektrik enerjisi-

nə qənaət və istifadəsinin uzunmüddətliliyi baxımından təkcə Azərbaycanda deyil, bütün dünyada diqqət mərkəzindədir.

2021-ci il dekabrın 18-də Gəncədə "Zəfəroğlu elektrik" led elektrik lampa istehsalı müəssisəsi fəaliyyətə başlamışdır. Bu müəssisəyə qoyulan 3 mln. manat investisiyanın 400 min manatı İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondu tərəfindən ayrılmışdır [163].

İstənilən sahədə əldə edilən nailiyyətləri nümayiş etdirmək və başqalarının təcrübəsini öyrənmək baxımından sərgilər ən əlverişli platformadır. Azərbaycan "yaşıl keçid" prosesində fəal iştirak edən ölkə olaraq, bu sahə üzrə sərgilərin keçirilməsinin təşəbbüskarı, təşkilatçısı və iştirakçısı kimi çıxış edir.

2010-cu ilin sentyabr ayında Bakıda "Azərbaycan yaşıl dünya naminə" devizi altında beynəlxalq ekologiya sərgisi keçirilmişdir. Qeyd emək lazımdır ki, Prezident İlham Əliyev tərəfindən 2010-cu il Azərbaycanda "Ekologiya ili" elan edilmiş və həmin ildə, təxminən 30 yerli və xarici şirkətin iştirakı ilə ekologiya sərgisinin təşkil edilməsində əsas məqsəd ətraf mühitin mühafizəsi sahəsində əldə olunan nailiyyətləri nümayiş etdirmək və təcrübə mübadiləsi aparmaq olmuşdur [87, s.190-191].

2011-ci ildən başlayaraq Bakıda Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi keçirilir. Yerli və xarici şirkətlərin iştirak etdiyi bu sərgidə elektroenergetika sahəsində istifadə olunan cihaz və qurğular, yeni texnologiyalar nümayiş etdirilir, "yaşıl enerji"nin mövcud vəziyyəti və perspektivləri barədə müzakirələr aparılır. 2025-ci il iyunun 1-dən 5-dək Bakı Ekspo Mərkəzində 13-cü Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi keçirilmişdir.

Qeyd olunanlara əsaslanaraq əldə edilən yekun nəticə ondan ibarətdir ki, Azərbaycanda BOEM-dən istifadənin genişlən-

dirilməsi artıq dövlət enerji siyasətinin prioritetləri sırasındadır. XXI əsrin ilk illərində respublikada formalaşmağa başlayan "yaşıl enerji" siyasəti, sonrakı dövrdə həyata keçirilən islahatlar nəticəsində daha da inkişaf etmişdir. Bu sahədə Dövlət Proqramının həyata keçirilməsi və idarəetmənin optimallaşdırılması respublikada BOEM əsasında fəaliyyət göstərən elektrik stansiyaları şəbəkəsinin yaranmasına gətirib çıxarmışdır. Dövlət işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonası yaratmaq məqsədilə həyata keçirilən tədbirlərin əsas təşkilatçısı və fəal iştirakçısı qismində də çıxış edir. Bundan başqa, günəş panelləri istehsalı xətti dövlətin bilavasitə iştirakı ilə yaradılmış və "yaşıl enerji" sektorunda innovasiyaların tətbiqini stimullaşdırmaq baxımından böyük əhəmiyyət kəsb edir. Ümumilikdə isə, bərpa olunan enerji sahəsində Azərbaycanda reallaşdırılan dövlət siyasəti respublikanın enerji təhlükəsizliyinin ekoloji təmiz enerji hesabına daha da möhkəmləndirilməsinə xidmət edir.

## *3.2. Azərbaycanın beynəlxalq "yaşıl enerji" siyasətinin əsas istiqamətləri*

Dünya birliyinə inteqrasiya olunmaq, beynəlxalq münasibətlər sisteminin aktorları ilə ikitərəfli və çoxtərəfli qarşılıqlı faydalı əlaqələri inkişaf etdirmək, dünyada Azərbaycanın milli maraqlarını təmin etmək və mövqelərini gücləndirmək müstəqillik illərində respublikada formalaşmış xarici siyasət kursunun əsas məzmununu təşkil edir. Qlobal problemə çevrilmiş iqlim dəyişikliklərinin qarşısını almaq, dünyada "yaşıl keçid"i təşviq etmək və stimullaşdırmaq məqsədilə, beynəlxalq aləmlə əlaqələndirilmiş fəaliyyətin həyata keçirilməsi respublikanın

xarici siyasətinin prioritetləri sırasındadır. Azərbaycan dünyanı istixana effekti yaradan qazların təsirindən xilas etmək, bərpa olunan enerji mənbələrindən istifadəni genişləndirmək üçün müxtəlif təşəbbüslərlə çıxış etmiş, Bakı şəhəri isə "yaşıl gündəliyin" müzakirə olunduğu əsas mərkəzlərdən birinə çevrilmişdir.

Beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsində ölkənin investisiya cəlbediciliyini artırmaq vacib rol oynayır. Azərbaycanda əlverişli investisiya mühitinin yaradılması və respublikanın üzərinə götürdüyü beynəlxalq öhdəlikləri məsuliyyətlə yerinə yetirməsi dünyada ona olan etimadın və ölkənin "yaşıl enerji" sektoruna sərmayə qoyuluşunun artmasına səbəb olmuşdur. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, *"Xarici investorlar yaxşı bilirlər ki, bizim sözümüz imzamız qədər qiymətli və dəyərlidir"* [95, s.15].

Azərbaycanın "yaşıl enerji" siyasətində beynəlxalq təşkilatlarla əməkdaşlıq xüsusi yer tutur və onun BMT çərçivəsində həyata keçirdiyi fəaliyyəti ilk növbədə qeyd etmək lazımdır. Belə ki, bu universal təşkilat istər iqlim dəyişikliklərinə qarşı mübarizə və onun fəsadlarının aradan qaldırılması, istərsə də "yaşıl enerji"yə keçidin təşviq edilməsi sahəsində ciddi addımlar atır və Azərbaycan öz növbəsində onun təşəbbüs və proqramlarında iştirak etməklə qlobal "yaşıl keçid" prosesinə öz töhfəsini verir.

1992-ci il mayın 9-da BMT-nin Rio-de-Jeneyro şəhərində keçirilən ətraf mühit və inkişaf üzrə konfransında "İqlim dəyişiklikləri üzrə çərçivə Konvensiyası" [249] imzalanmış və 1995-ci il yanvarın 10-da Milli Məclis onu təsdiq etmişdir.

Konvensiyada ətraf mühiti antropogen təsirlərdən qorumaq, istixana effekti yaradan qazların atmosferdə konsentra-

siyasının qarşısını almaq, ekosistemin iqlim dəyişikliklərinə adaptasiyasına nail olmaq, bu dəyşikliklərin səbəblərini aradan qaldırmaq, ona qarşı mübarizədə inkişaf etmiş ölkələrin rolunu artırmaq, inkişaf etməkdə olan ölkələrə bu sahədə yardım göstərmək və s. qarşıya qoyulan məqsədlər kimi müəyyənləşdirilmişdir. Eyni zamanda, sənədin əsas müddəalarının hər bir ölkənin milli inkişaf proqramlarına inteqrasiya edilməsi, ölkə səviyyəsində bununla bağlı siyasət və tədbirlər planlaşdırılan zaman yerli xüsusiyyətlərin nəzərə alınması şərti irəli sürülür.

1997-ci il dekabrın 11-də BMT-nin "İqlim dəyişiklikləri üzrə çərçivə Konvensiyası"nın Kioto Protokolu qəbul edildi. Sənədə əsasən, Avropa ölkələri, ABŞ, Kanada, Yaponiya, Avstraliya və Yeni Zelandiya 2008-ci ildən 2012-ci ilə qədər olan dövrdə istixana qazı tullantılarının miqdarını, 1990-cı il səviyyəsi ilə müqayisədə təxminən 5% azaltmaq barədə öhdəlik götürmüşdülər. 2001-ci ildə ABŞ Senatının Protokolu ratifikasiya etməkdən imtina etməsi, 2012-ci ildə Kanadanın Protokoldan tamamilə çıxması bu öhdəliyin yerinə yetirilməsini qeyri-mümkün etmişdir [175, s.191-196]. Azərbaycan bu Protokola 2000-ci il iyulun 18-də qoşulmuşdur.

BMT-nin "İqlim dəyişiklikləri üzrə çərçivə Konvensiyası"nın, 2015-ci ildə Parisdə keçirilmiş Tərəflər Konfransında Kioto Protokolu Paris Sazişi ilə əvəz olundu. Sazişdə dünya üzrə orta temperatur artımını 1,5$^{0}$C səviyyəsində saxlamaq, 2050-ci ilədək sıfır karbon emissiyasına nail olmaq, iqlim dəyişikliklərinin nəticələrini yumşaltmaq və s. hədəf olaraq müəyyənləşdirilmişdir [175, s.196-202].

2016-cı il oktyabrın 28-də Paris Sazişi Milli Məclis tərəfindən təsdiq edilmişdir. BMT-nin "İqlim dəyişiklikləri üzrə çər-

çivə Konvensiyası"nın Tərəfləri Konfransının 29-cu sessiyasının (COP29) Bakıda keçirilməsi isə Azərbaycanın "yaşıl enerji" siyasətinin böyük uğurlarından biridir.

BOEM-dən istifadə ilə bağlı məsələlər BMT-nin bəzi ixtisaslaşmış qurumlarının fəaliyyətində də bu və ya digər dərəcədə diqqət mərkəzində saxlanılır və Azərbaycan bu qurumlarla əməkdaşlıqdan kənarda qalmamışdır.

Respublika 1992-ci ildə BMT-nin İnkişaf Proqramına qoşulmuşdur və onun bu Proqramla energetika sahəsindəki əməkdaşlığı əsasən karbon emissiyasının azaldılması, enerji səmərəliliyinin yüksəldilməsi, milli inkişaf proqramlarını BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğunlaşdırılması və s. sahələri əhatə edir.

2015-2020-ci illərdə respublikada BMT-nin İnkişaf Proqramı tərəfindən binalarda və nəqliyyatda enerji sərfiyyatının azaldılmasına və kənd icmalarının təmiz enerji ilə təchiz edilməsinə nail olmaq məqsədi daşıyan "Milli Fəaliyyət planları" layihəsi həyata keçirilmişdir. Layihə çərçivəsində SOCAR-ın binalarında 10 min $m^2$ sahədə havalandırma və isitmə sistemlrinin müasir texnologiyalardan istifadə etməklə yenidən qurulması nəticəsində karbon emissiyasını hər il 200 tonadək, enerji istehlakını isə 30-35% azaltmaq mümkün olmuşdur. Bundan başqa, Eko-sürücülük simulyatoru vasitəsilə keçirilən təlimlərə cəlb olunmuş 684 nəfər sürücü və mühəndis-texniki işçinin yeni qaydalarla işləməsi ildə təxminən 1 mln. litr yanacağa qənaət etməyə imkan verir. Nəhayət, icmaları təmiz enerji ilə təzhiz etmək məqsədinə uyğun olaraq, "Siyəzənneft"in Zağlı-Zeyvə sahəsindəki neft quyularından toplanan və emal edilərək təmizlənən səmt qazı yaxınlıqdakı 15 kənddə 1250 abonentin təbii qazla təminatı üçün kifayət edir [23, 52, 147]. Bu layihə, bir

tərəfdən, enerji səmərəliliyi və ekoloji tarazlığın təmin olunması üçün "yaşıl keçid"in nə dərəcədə zəruri və mümkün olduğunu, digər tərəfdən isə, beynəlxalq təşkilatlarla əməkdaşlığın əhəmiyyətini əyani şəkildə göstərir.

BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının Davamlı Enerji Komitəsi hamının təmiz enerjiyə çıxışının təmin edilməsi, atmosferə atılan istixana qazlarının miqdarının və karbon emissiyasının azaldılması istiqamətində proqramlar həyata keçirir, hökumətlərlə enerji sənayesi təmsilçiləri arasında siyasi dialoqu və əməkdaşlığı təşviq edir. Komitənin 6 ekspert qrupundan biri bərpa olunan enerji məsələləri ilə məşğul olur [248]. Azərbaycan 1993-cü ildən bu Komitənin üzvüdür və respublika təmsilçiləri onun tədbirlərində, enerji məsələləri, "yaşıl enerji"nin təşviqi və maliyyələşdirilməsi ilə bağlı müzakirələrdə mütəmadi olaraq iştirak edirlər. Komitənin "Davamlı inkişaf üçün Energetika" mövzusunda VII Beynəlxalq Forumu 2016-cı il oktyabrın 18-21-də Bakıda keçirilmişdir [23]. Tərəfdaşları milli enerji siyasəti barədə məlumatlandırmaq, BOEM-dən istifadə sahəsində beynəlxalq təcrübəni öyrənmək, birgə layihələr planlaşdırmaq və s. baxımdan belə tədbirlərin əhəmiyyəti böyükdür.

Azərbaycanın əməkdaşlıq etdiyi beynəlxalq qurumlardan biri də Beynəlxalq Bərpa Olunan Enerji Agentliyidir. Bu Agentlik beynəlxalq səviyyədə "yaşıl enerji"yə keçidi dəstəkləyir, ölkələrə BOEM-dən istifadə ilə bağlı siyasət, innovasiyalar, texnologiyalar, maliyyə və investisiyalar barədə informasiya yardımı göstərir və BOEM-dən alınan enerjinin tətbiq dairəsini genişləndirmək məqsədilə tədbirlər həyata keçirir [227].

Azərbaycan 2009-cu ildən bu Agentliyin üzvü olsa da, Milli Məclis onun Nizamnaməsini 2014-cü il mayın 2-də təsdiq

etmişdir [48]. Məhz Nizamnamənin təsdiqindən sonra Azərbaycan təşkilatın tamhüquqlu üzvü olmuş və tərəflər arasında əməkdaşlıq yüksələn xətlə inkişaf etməyə başlamışdır.

2019-cu il noyabrın 28-də Bakıda “Azərbaycanda bərpa olunan enerjiyə hazırlığın qiymətləndirilməsi” layihəsinin yekun hesabatı ilə bağlı keçirilən tədbirin təşkilatçısı məhz qeyd edilən Agentlik olmuşdur. 2023-cü ilin yanvar ayında Azərbaycan 2023-2024-cü illər üçün, 4 regional qrupdan 21 üzvün seçildiyi Beynəlxalq Bərpa Olunan Enerji Agentliyi Şurasına üzv seçilmişdir. ABŞ, Almaniya, Kanada, İtaliya, İspaniya və Portuqaliya kimi ölkələrlə yanaşı, Azərbaycanın da eyni qrupdan Şuraya seçilməsi [23] həm də respublikanın beynəlxalq nüfuzundan xəbər verir. Ümumilikdə, Azərbaycanın Agentlik ilə əməkdaşlığı davamlı inkişafı, enerji təhlükəsizliyini və sosial-iqtisadi dayanıqlılığı təmin etmək məqsədilə BOEM-dən istifadənin səmərəliliyini daha da artırmaq üçün əlavə imkanlar yaradır.

Azərbaycan ekologiya və “yaşıl energetika” sahəsində TDT çərçivəsində məqsədyönlü fəaliyyət həyata keçirir. 2030-cu ilədək olan dövrdə, ümumi enerji balansında bərpa olunan enerjinin xüsusi çəkisini Özbəkstanda 40%-ə, Azərbaycanda 30%-ə, Qazaxstanda isə 15%-ə çatdırmaq planlaşdırılır. Qırğızstanda istehsal olunan elektrik enerjisinin 85%-i SES-lərdə istehsal edilir və ölkə bu sahəni daha da inkişaf etdirmək məqsədilə tədbirlər reallaşdırır [247, s.22-23]. “Yaşıl keçid”lə bağlı qarşıya qoyulan hədəflərin oxşarlığı qeyd olunan ölkələr arasında əməkdaşlığı dərinləşdirmək üçün imkan və stimul yaradır.

2021-ci ildə təşkilatın İstanbul Sammitində qəbul edilmiş “Türk Dünyası 2040 Vizyonu” sənədində BOEM-dən istifadə ilə bağlı hədəflər də müəyyənləşdirilmişdir: birgə investisiya layi-

hələri həyata keçirmək, ev təsərrüfatlarının və icmaların əlverişli qiymətlərlə "yaşıl enerji"yə çıxışını təmin etmək, inteqrasiya olunmuş enerji bazarı yaratmaqla, üzv dövlətlər arasında enerji əməkdaşlığını institusionallaşdırmaq və s. Bundan başqa, 2022-ci il sentyabrın 28-də Almatıda "TDT-nin enerji əməkdaşlığı üzrə Proqramı (2023-2027) və onun icrası üçün Tədbirlər Planı" qəbul edilmiş və sonrakı illərdə Proqramın icrası ilə bağlı addımlar atılmışdır [167, s.140-146]. Bütün bunlar, "yaşıl enerji"yə keçid məqsədilə TDT çrçivəsində işbirliyini dərinləşdirmək, müvafiq mexanizmlər hazırlamaq və birgə layihələr həyata keçirmək üçün imkanları genşləndirir.

TDT-nin 2024-cü il iyulun 6-da Şuşada keçirilən qeyri-rəsmi Zirvə görüşünün yekununda qəbul edilmiş Qarabağ Bəyannaməsində [159, s.1, s.5] də "yaşıl enerji" sahəsində əməkdaşlıq məsələlərinə geniş yer verilmişdir. İqlim dəyişikliklərinə birgə fəaliyyətlə cavab verməyin zəruriliyinin vurgulandığı Bəyannamədə təmiz enerji mənbələrinin inteqrasiyası, "ağllı şəhər və kəndlər" konsepsiyasının reallaşdırılması, Azərbaycan, Qazaxstan və Özbəkstan arasında "yaşıl dəhliz"in və bərpa olunan enerji potensialından istifadə sahəsində təşkilat üzvləri ilə üçüncü ölkələr arasında əlaqələrin inkişaf etdirilməsi və s. ilə bağlı məsələlər də yer almışdır. Təşkilat üzvlərinin TDT-nin İqlim və Yaşıl Rəqəmsal Platformasını və TDT-nin İqlimə Davamlı Kəndlər Forumunu yatmaq barədə irəli sürdükləri təşəbbüs yüksək qiymətləndirilməlidir.

Enerji sahəsində Azərbaycan ilə Aİ arasında münasibətlər strateji xarakter daşıyır. 2006-cı il noyabrın 7-də Brüsseldə imzalanmış "Avropa İttifaqı və Azərbaycan Respublikası arasında enerji sahəsində strateji tərəfdaşlıq haqqında Anlaşma

Memorandumu" tərəflər arasında enerji dialoqunu inkişaf etdirməyi, müxtəlif enerji mənbələrindən, o cümlədən BOEM-dən istifadı sahəsində əməkdaşlığı genişləndirməyi nəzərdə tuturdu [32, s.339]. Strateji tərəfdaşlığın davamı olaraq, 2008-ci il dekabrın 29-da Avropa Komissiyası Azərbaycanda 2010-2019-cu illərdə "Energetika sahəsində islahatlara dəstək Proqramı"nı həyata keçirmək məqsədilə 13 mln. avro qrant ayırmışdı [68]. Bu məbləgin 5,45 mln. avrosu Proqramın reallaşdırılması üzrə layihənin, 1 mln. avrosu alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin və enerjidən səmərəli istifadənin genişlənməsinə dəstək layihəsinin, 5,0 mln. avrosu isə bu sahədə pilot investisiya layihələrinin həyata keçirilməsi üçün nəzərdə tutulmuşdu [6]. Proqramın icrasına gəldikdə isə, energetika sektorunda qanunvericilik, institusional islahatlar və respublikada bərpa olunan enerji mənbələrindən istifadə imkanlarının öyrənilməsi sahəsində addımlar atılmışdır.

Proqram çərçivəsində Qaradağ rayonunun Sahil qəsəbəsində 1,2 MVt gücündə GES-in pilot layihəsi həyata keçirilmişdir [23].

1974-cü ildə yaradılmış BEA əsasən qlobal neft təchizatı məsələləri ilə məşğul olsa da, digər enerji mənbələrindən istifadə ilə bağlı bəzi proqramlar da həyata keçirir. Azərbaycan BEA-nın üzvü deyildir, lakin Agentliyin həyata keçirdiyi və Avropa İttifaqının maliyyələşdirdiyi "EU4Energy" proqramında iştirak edir. Şərq Tərəfdaşlığı və Mərkəzi Asiya ölkələrinin cəlb olunduğu bu proqram enerji sektoru barədə toplanmış məlumatlar əsasında bu ölkələrin enerji siyasətinin hazırlanmasına yardım etmək məqsədi daşıyır [238]. BEA-nın fəaliyyətində "yaşıl enerji" sektoru ilə bağlı məsələlərin müzakirəsinə də müəyyən yer verilir.

2017-ci il noyabr ayının 15-16-da Minskdə "EU4Energy" proqramı çərçivəsində "Bərpa olunan müxtəlif enerji mənbələrinin şəbəkəyə inteqrasiyası" mövzusunda keçirilən və Azərbaycan təmsilçilərinin də iştirak etdiyi Forumda BOEM-dən istifadə imkanları müzakirə olunmuş, "yaşıl enerji" sektorunu inkişaf etdirmək barədə fikir mübadiləsi aparılmışdır [185, s.5].

Enerji səmərəliliyini artırmaq sahəsində Azərbaycanın Beynəlxalq Enerji Xartiyası ilə əməkdaşlığı 30 ildən çoxdur davam edir. 1994-cü ilin dekabrında Avropa Enerji Xartiyasını imzalayan ölkələr sırasında Azərbaycan da yer almışdı. 2015-ci ildə isə bu Xartiyanın əsasında Beynəlxalq Enerji Xartiyası [226] imzalanmışdır. Azərbaycan sonuncu sənədi 2018-ci il martın 15-də təsdiq etmişdir.

Beynəlxalq Enerji Xartiyası onu imzalayan ölkələr arasında enerji sahəsində əməkdaşlığın möhkəmləndirilməsi məqsədi daşıyan, hüquqi məsuliyyət doğurmayan bəyanat kimi qiymətləndirilir. BOEM-in mənimsənilməsi Xartiyada enerji səmərəliliyinə nail olmaq və ətraf mühiti qorumaq yollarından biri kimi müəyyənləşdirilmişdir.

2020-ci il oktyabrın 28-də "Enerji istehsalı, nəqliyyat, istilik və soyutma sahələrndə bərpa olunan enerji mənbələrinə keçid: müasir çağrışlar və meyllər" mövzusunda Bakı Beynəlxalq Enerji Xartiyası Forumu keçirilmişdir. Tədbirdə BOEM-ə əsaslanan dayanıqlı enerji sektorunu inkişaf etdirmək yolları müzakirə olunmuşdur [46, s.7]. 2025-ci ilin iyun ayında keçirilmiş Bakı Enerji Həftəsi çərçivəsində SOCAR və Beynəlxalq Enerji Xartiyası rəhbərləri arasında keçirilən görüşdə külək, günəş enerjisi və "yaşıl hidrogen" üzrə layihələr reallaşdırmaq perspektivləri müzakirə olunmuşdur [191].

Enerji səmərəliliyi sahəsində Azərbaycan böyük uğurlara imza atmışdır. 2018-ci ilə qədər olan dövrdə respublika enerji səmərəliliyi göstəricilərinə görə nəinki keçmiş sovet respublikalarının hamısını, hətta ABŞ, Kanada, Yaponiya və Avropa İttifaqı ölkələrini geridə qoymağa nail olmuşdur [74, s.135-136].

Azərbaycan "yaşıl enerji" gündəliyi çərçivəsində təkcə beynəlxalq təşkilatlarla deyil, ayrı-ayrı ölkələrlə əməkdaşlıq münasibətlərini də inkişaf etdirir, "yaşıl dəhlizlər"in yaradılması istiqamətində fəaliyyətini genişləndirir.

BOEM-dən elektrik enerjisi istehsalı, ötürülməsi və təchizatı, yaşıl hidrogen istehsalı, nəqli və ticarəti sahəsində Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında dördtərəfli əməkdaşlıq formatı təşəkkül tapmışdır. 2022-ci il dekabrın 17-də Buxarestdə bu ölkələr arasında yaşıl enerjinin inkişafı və ötü-rülməsi sahəsində strateji əməkdaşlıq haqqında Saziş [24] imzalanmışdır. Sazişə əsasən, 1000 MVt gücündə "Qara dəniz yaşıl kabel" layihəsini həyata keçirmək nəzərdə tutulur. Gürcüstan və Qara dəniz vasitəsilə Azərbaycandan Rumınyaya "yaşıl enerji" ötürəcək bu kabelin uzunluğu 1195 km.-ə (1100 km. sualtı, 95 km. Yerüstü) bərabər olacaq. Layihəni 2029-cu ildə yekunlaşdırmaq planlaşdırılır [160, s.17]. "Qara dəniz yaşıl kabel" xətti "yaşıl enerji"ni Mərkəzi Asiya respublikaları ilə Avropa arasında da ötürmək, Azərbaycanın isə tranzit imkanlarını genişləndirmək üçün böyük prspektivlər vəd edir və Azərbaycan, Qazaxstan və Özbəkistan arasında "Xəzər Yaşıl Enerji Dəhlizi" yaratmaq ideyasının irəli sürülməsi bu baxımdan böyük əhəmiyyətə malikdir.

2024-cü il may ayının 1-də Daşkənddə Azərbaycan, Qazaxstan və Özbəkistan arasında enerji sistemlərinin birləşdirilməsi barədə Əməkdaşlıq Memorandumu imzalanmışdır [23].

2024-cü il noyabrın 13-də isə Bakıda bu üç ölkənin hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş imzalanmışdır. Azərbaycan Prezidenti İlham Əliyev bu təşəbbüsün *"Mərkəzi Asiyanı, Qafqazı, Avropanı, Xəzər və Qara dənizləri vahid enerji dəhlizi ilə"* birləşdirəcəyini, Qazaxstan Prezidenti Kasım-Jomart Tokayev *"Orta dəhlizin iqtisadiyyatlarımızı birləşdirən "yaşıl körpü" qismində inkişafına töhfə"* verəcəyini, Özbəkstan Prezidenti Şavkat Mirziyoyev isə *"Paris Sazişi çərçivəsində iqlimin qorunması üzrə birgə səyləri və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmağı"* dəstəkləyəcəyini bildirmişdir. Layihənin həyata keçirilməsində Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti də iştirak edir. Bununla əlaqədar olaraq, Azərbaycan, Qazaxstan, Özbəkistan və Səudiyyə Ərəbistanı Energetika nazirlikləri arasında İcra Proqramı imzalanmışdır [20, s.3]. Hal-hazırda "Xəzər Yaşıl Enerji Dəhlizi" layihəsinin texniki-iqtisadi əsaslandırılması həyata keçirilir və bu mərhələdə AİB və Asiya İnfrastruktur İnvestisiya Bankı da bu prosesə cəlb edilmişdir [19, s.4].

Azərbaycan Respublikası Energetika Nazirliyi Türkiyə Respublikasının Energetika və Təbii Sərvətlər Nazirliyi, Misir Ərəb Respublikasının Elektrik və Bərpa Olunan Enerji Nazirliyi, Yunanıstan Respublikası İnkişaf Nazirliyi ilə də "yaşıl enerji" sahəsində əməkdaşlıq edir [23]. Araz çayı üzərində "Xudafərin" və "Qız Qalası" hidroqovşaqları və SES-lərin tikintisini isə Azərbaycan və İran birlikdə həyata keçirirlər.

Respublikada onilliklər ərzində toplanmış təcrübə SES-lərin yerli mütəxəssislər tərəfindən planlaşdırılmasına və tikintisinə imkan verir. GES və KES-lərin inşası isə ölkə energetikasında yeni istiqamət olduğu üçün bu sahədə əsasən xarici ölkələrin ixtisaslaşmış şirkətlərinin xidmətindən istifadə olunur.

"Yaşıl enerji" sahəsində Azərbaycanın əməkdaşlıq etdiyi xarici ölkə şirkətləri arasında BƏƏ-nin "Abu Dhabi Future Energy Company – Masdar" və Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti xüsusi yer tutur.

2006-cı ildə fəaliyyətə başlayan və BƏƏ-nin energetika sahəsinə aid olan üç iri şirkəti – "Mubadala", ADNOC və TAQA – özündə birləşdirən "Masdar" günəş, külək, tullantılar və geotermal enerji mənbələrindən istifadə etməklə elektrik enerjisi, "yaşıl hidrogen" istehsalı və enerjinin saxlanması üzrə layihələr həyata keçirir. Dünyanın altı qitəsini əhatə edən 40-dan çox ölkəsində bu şirkət tərəfindən realladırılan layihələrin ümumi gücü 51 GVt-a bərabərdir. Şirkət beynəlxalq "Moody's" indeksi üzrə A1, "Fitch Ratngs" indeksi üzrə AA uzunmüddətli kredit reytinqinə malikdir [230]. Belə yüksək göstəricilərə malik olan şirkətin imkanlarından istifadə olunması Azərbaycanda "yaşıl enerji" sektorunun dayanıqlılığının təmin edilməsinə yalnız müsbət təsir göstərə bilər.

"Masdar" şirkəti Azərbaycanda 3-ü günəş (Qaradağ, Neftçala və Biləsuvar layihələri), 1-i külək [Abşeron-Qaradağ layihəsi) enerjisi üzrə olmaqla, 4 layihə həyata keçirir.

2020-ci ilin yanvar ayında Energetika Nazirliyi ilə "Masdar" şirkəti arasında, gücü 230 MVt olan Qaradağ GES-in tikintisi üzrə İcra Müqaviləsi imzalanmışdır [230]. Bu, BƏƏ şirkətinin respublikada reallaşdırdığı ilk layihə olmaqla yanaşı, Azərbaycanda da günəş enerjisindən istifadə sahəsində, xarsi investisiyanın cəlb edilməsi ilə atılan ilk addımdır.

2021-ci il aprel ayının 6-da Energetika Nazirliyi, "Azərenerji" ASC və "Masdar" şirkəti arasında Qaradağ GES layihəsi üzrə investisiya, enerji alqı-satqısı və ötürücü şəbəkəyə qoşul-

maq haqqında müqavilələr imzalanmışdır. Təməli 2022-ci il martın 15-də qoyulan stansiya 2023-cü il oktyabrın 26-da istismara verilmişdir. Ümumilikdə 262 mln. dollar xarici investisiya qoyuluşu hesabına başa gələn və 550 hektar ərazini əhatə edən bu obyektdə, Çindən idxal edilən 570 min ədəd günəş paneli quraşdırılmışdır [53, s.1]. Burada ildə istehsal ediləcək 500 mln. kVt.saat elektrik enerjisi 110 min ev təsərrüfatının enerjiyə olan tələbatını ödəməyə imkan verəcək [230].

Miqyasına görə MDB məkanında bərabəri olmayan Qaradağ GES-in istismara verilməsi ikitərəfli əməkdaşlığın yeni mərhələsinin başlanğıcını qoymuşdur. Məhz bu stansiyanın açılış mərasiminin keçirildiyi gün Bakıda Azərbaycan hökuməti ilə "Masdar" şirkəti arasında Neftçala rayonu Bankə qəsəbəsində, Biləsuvar rayonunda GES layihələri üzrə, Abşeron və Qaradağ rayonlarında quruda külək enerjisi layihəsi üzrə İnvestisiya müqavilələri imzalanmışdır [13, s.4]. 2024-cü il iyunun 4-də isə Energetika Nazirliyi ilə "Masdar" şirkəti arasında, yuxarıda qeyd olunan üç layihə üzrə "İnvestisiya müqaviləsinə Əlavə", enerji alqı-satqısı, ötürücü şəbəkəyə qoşulma və torpaq icarəsi haqqında müqavilələr imzalanmışdır [125, s.13].

Layihələrin maliyyələşdirilməsi müxtəlif mənbələr hesabına həyata keçirilir. Neftçala GES layihəsinin dəyəri 280 mln. dollar, Biləsuvar GES layihəsinin dəyəri isə 380 mln. dollar təşkil edir. AYİB birinci layihəyə 80 mln. dollar, ikinci layihəyə 100 mln. dollar uzunmüddətli kredit ayırmışdır [134, s.10]. Bundan başqa, stansiyaların tikintisini həyata keçirən "Masdar" şirkəti ilə AİB arasında imzalanmış və məbləği 160 mln. dollar olan kredit müqavilələrinə əsasən Neftçala GES layihəsinə ayrılan vəsait 33,5 mln. dollara, Biləsuvar GES layihəsinə ayrılan vəsait

48 mln. dollara, Asiya Özəl İnfrastruktur Fondundan isə birinciyə ayrılan vəsait 32 mln. dollara, ikinciyə ayrılan vəsait 46 mln. dollara bərabərdir. Maliyyələşdirmənin yerdə qalan hissəsi isə "Masdar" şirkəti və SOCAR-ın "SOCAR Green" törəmə şirkəti hesabına həyata keçirilir [193].

"Masdar" şirkətinin Azərbaycandakı 4-cü layihəsi, 240 MVt gücündə yerüstü Abşeron-Qaradağ KES üzrə müqavilələr imzalansa da, tikinti işlərinə başlanılmamışdır. Şirkətin MDB üzrə departamentinin rəhbəri Məryəm Rəşid Əl-Mazrui layihə üzrə maliyyələşmənin tezliklə həll olunacağını və bundan sonra ya 2025-ci ilin sonu, ya da 2026-cı ilin əvvəllərində tikinti işlərinə start veriləcəyini bildirmişdir [124].

Qeyd etmək lazımdır ki, Qaradağ GES istisna olmaqla, "Masdar" şirkətinin digər üç layihəsini müqavilələrdə nəzərdə tutulan vaxtda yerinə yetirmək mümkün olmamışdır. Gecikmələr maliyyə mənbələri axtarışı səbəbindən daha çox baş verir. Qaradağ GES layihəsi şirkətin öz vəsaitləri hesabına maliyyələşdirildiyi üçün tikinti mərhələləri də müqavilə şərtlərinə uyğun olaraq aparılmışdır.

Azərbaycanda BOEM-dən istifadə üzrə iri layihələr həyata keçirən xarici şirkətlərdən biri də Səudiyyə Ərəbistanının "ACWA Power" şirkətidir.

Şirkət elektrik stansiyalarının tikintisi və dəniz suyunun duzsuzlaşdırılması sahəsində böyük təcrübəyə malikdir. Dünyanın 14 ölkəsində, o cümlədən Azərbaycanda, 46,8%-i bərpa olunan enerji sahəsinə aid olmaqla, müxtəlif layihələr həyata keçirən şirkətin investisiya portfelinin dəyəri 107,5 mlrd. dollara bərabərdir [192].

"ACWA Power" şirkətinin Azərbaycanla əməkdaşlığı 2019-cu ildən başlamışdır. Həmin ilin mart ayının 17-də Ener-

getika Nazirliyi ilə bu şirkət arasında əməkdaşlıq haqqında Anlaşma Memarandumu imzalanmış [145, s.2] və bundan sonra konkret layihələr ətrafında danışıqlar aparılmışdır.

2020-ci il dekabrın 29-da Energetika Nazirliyi ilə "ACWA Power" şirkəti arasında, gücü 240 MVt olacaq KES layihəsi üzrə müqavilələr imzalanmışdır [23]. Xızı və Abşeron rayonları ərazisində tikiləcək bu stansiyada hər birinin gücü 6,5 MVt-a bərabər olan 37 külək turbininin quraşdırılması planlaşdırılır. Turbinlərdən ümumi gücü 162,5 MVt olan 25-i Xızı rayonunun Sitalçay kəndi, ümumi gücü 78 MVt olan 12-si isə Abşeron rayonunun Çaylı kəndi ərazisində quraşdırılacaq. Müqavilə müddəti 25 il, investisiya dəyəri isə 337,9 mln. dollar olan bu layihə tamamilə Səudiyyə Ərəbistanı şirkətinin sərmayəsi hesabına reallaşdırılacaq [192]. 2022-ci il yanvarın 13-də Xızı-Abşeron KES-in təməlqoyma mərasimində iştirak edən Səudiyyə Ərəbistanının energetika naziri Əbdül Əziz bin Salman Əl-Səudun bildirdiyinə görə, "ACWA Power" şirkəti xaricdə ən böyük sərmayəni məhz bu layihəyə yatırmışdır [8, s.8].

Stansiyada ilk külək trubini 2023-cü il noyabrın 23-də Çaylı kəndi ərazisində quraşdırılmışdır. Ümumilikdə stansiyanın Abşeron rayonu ərazisindəki hissəsinin 2025-ci ilin 3-cü rübündə, Xızı rayonu ərazisindəki hissəsinin isə 4-cü rübündə istismara verilməsi planlaşdırılır. Tam istifadəyə verildikdən sonra stansiyanın illik istehsalı 907 GVt.s təşkil edəcək, bu da 300 mindən çox ev təsərrüfatını elektrik enerjisi ilə təchiz etmək üçün kifayətdir [192].

"ACWA Power" şirkətinin Azərbaycanda fəaliyyəti Xızı-Abşeron KES-in tikintisi lə məhdudlaşmır. 2023-cü il fevralın 4-də Energetika Nazirliyi ilə "ACWA Power" şirkəti arasında "Dəniz-

də 1,5 QVt-dək külək layihəsinin həyata keçirilməsinə dair İcra Müqaviləsi", "Quruda 1 QVt külək stansiyasının yaradılmasına dair Anlaşma Memorandumu" və "Azərbaycan Respublikasında enerji saxlanc sistemlərinin inkişaf etdirilməsinə dair Anlaşma Memorandumu" imzalanmışdır [67, s.7]. Əməkdaşlığı davam etdirən tərəflər 2024-cü il mayın 3-də, Azərbaycan və Səudiyyə Ərəbistanı Energetika nazirlikləri arasında yaradılmış Birgə Texniki Komitənin Bakıda keçirilən 3-cü iclası çərçivəsində daha iki maqavilə – 200 MVt gücündə Batareya Enerji Saxlanc Sistemi layihəsi üzrə İcra Müqaviləsi və quruda 200 MVt gücündə külək enerji layihəsi üzrə Çərçivə Müqaviləsi – imzalayiblar [41, s.12].

Nəzərə almaq lazımdır ki, enerji saxlanc sistemlərinin mövcudluğu "yaşıl enerji" sektorunu inkişaf etdirmək baxımından böyük əhəmiyyətə malikdir. Azərbaycanda belə sistemlərin yaradılması təşəkkül mərhələsindədir və bu sahədə ilk layihə məhz "ACWA Power" şirkəti tərəfindən icra olunur.

Ümumiyyətlə, "ACWA Power" şirkətinin respublikada fəaliyyətinin getdikcə genişlənməsinə müsbət təsir göstərən amillərdən biri Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında yüksək səviyyəli siyasi münasibətlərin mövcudluğudur. Xızı-Abşeron KES-in təməlqoyma mərasimi ilə bağlı keçrilən tədbirdə Prezident İlham Əliyev də iki ölkə arasındakı əlaqələrin dostluq və qardaşlıq xarakteri daşıdığını qeyd etmişdir [95, s.13-15]. Bu səbəbdən də Energetika Nazirliyi ilə "ACWA Power" şirkəti arasındakı əməkdaşlıq münasibətlərini yalnız iqtisadi və kommersiya maraqları çərçivəsində deyil, həm də ölkələrarası siyasi əlaqələr kontekstində qiymətləndirmək lazımdır.

"Masdar" və "ACWA Power" şirkətləri ilə yanaşı, Belçikanın "Soltech" şirkəti də Azərbaycanda "yaşıl enerji"yə keçid

prosesinə öz töhfəsini vermişdir. Naxçıvan MR Babək rayonu Xal-Xal kəndi yaxınlığında 2015-ci il dekabrın 1-də istismara verilən və gücü 20 MVt olan GES bu şirkət tərəfindən tikilmişdir. İldə 30 mln. kVt.saat elektrik enerjisi istehsal edən bu stansiyada 78684 ədəd günəş paneli quraşdırılmışdır [133, s.4]. Bundan başqa, Cəbrayıl rayonunda gücü 240 MVt, layihə dəyəri 200 mln. dollar olan Şəfəq GES layihəsini “BP”-yə məxsus “Lightsourse” şirkəti həyata keçirir [143, s.10]. Abşeronda külək axınının sürətini müəyyənləşdirməyə imkan verən, 30 və 40 metr hündürlüyündə iki qüllə Yaponiyanın “Tomen” şirkətinin iştirakı ilə inşa edilmişdir [25].

Azərbaycanın “yaşıl enerji” sektoruna investisiya yatırmağa maraq göstərən şirkətlər sırasında İspaniyanın “Elecnor”, Fransanın “Total Eren”, “Lucia Quadran”, Çinin “China Gezhouba Group Overseas İnvestment”, “China Datang Overseas İnvestment”, “Power China Resources Limited”, “China Energy Overseas İnvestment Co Ltd”, Böyük Britaniyanın “British Petroleum”, Yaponiyanın “Mitsui”, “Komaihaltec”, Norveçin “Equinor”, Avstraliyanın “Fortescue Future İndustries” şirkəti də yer alır. Bu şirkətlər ilə müxtəlif layihələr üzrə Anlaşma memorandumları imzalanmışdır.

Yuxarıda qeyd olunanlardan belə nəticə çıxarmaq olar ki, Azərbaycanın beynəlxalq “yaşıl enerji” siyasəti müasir qlobal meyllərə və respublikanın milli maraqlarına uyğun olaraq həyata keçirilir və əsasən üç istiqamətdə inkişaf edir. Birinci istiqamət beynəlxalq təşkilatlarla əməkdaşlıq əsasında dünyada “yaşıl enerji”yə keçid prosesinə töhfə vermək, ikinci istiqamət tərəfdaş ölkələrlə birlikdə regional “yaşıl enerji” dəhlizlərinin yaradılmasına nail olmaq, üçüncü istiqamət isə, xarici şirkətlə-

rin iştirakı ilə Azərbaycan energetika sistemində bərpa olunan enerji sektorunun payını artırmaqdan ibarətdir. Bu istiqamətlərin bir biri ilə sinerji təşkil etməsi, bir tərəfdən, respublikanın "yaşıl enerji" məqsədlərinə nail olunmasına müsbət təsir göstərir, digər tərəfdən isə, iqlim dəyişikliyinə qarşı qlobal səviyyədə aparılan mübarizəyə yardım edir. Bütün bunlar son nəticədə Azərbaycanın beynəlxalq və regional mövqelərinin möhkəmlənməsini şərtləndirir.

### *3.3. COP 29: qloballaşan dünyada "yaşıl" gələcəyin təmin olunmasında Azərbaycanın iştirakı*

Müasir dövrdə Azərbaycan dünyada sadəcə öz sərhədləri daxilində mövcud olan ölkə və ya coğrafi məkan kimi qəbul olunmur, o, həm də Qərb və Şərq sivilizasiyalarını uzlaşdıran, enerji və ticarət dəhlizləri, nəqliyyat-kommunikasiya şəbəkələri formalaşdıran, inklüziv inkişafın, mədəni müxtəlifliyin və multikulturalizmin təbliğ olunduğu, bəşəriyyəti narahat edən problemlərin həllinin axtarıldığı platforma rolunu oynayan, Cənubi Qafqaz regionunda hadisələrin istiqamətini və məzmununu müəyyənləşdirən, qlobal proseslərə müəyyən təsir göstərmək imkanına malik olan nüfuzlu dövlət statusuna malikdir. BMT-nin "İqlim dəyişikliyi üzrə çərçivə Konvensiyası"nın Tərəfləri Konfransının 29 sessiyasının, yəni COP29-un Azərbaycanda keçirilməsi də bu statusun beynəlxalq birlik tərəfindən bir daha tanınması və təsdiqi kimi qiymətləndirilməlidir.

Qaydalara əsasən, COP-a evsahibliyi edəcək dövlət "İqlim dəyişikliyi üzrə çərçivə Konvensiyası"nı təsdiq etmiş ölkələrin daxil olduğu beş regional qrup (Afrika ölkələri qrupu, Asiya

ölkələri qrupu, Latın Amerikası və Karib dənizi hövzəsi ölkələri qrupu, Mərkəzi və Şərqi Avropa ölkələri qrupu, Qərbi Avropa və digər ölkələr qrupu) üzrə rotasiya qaydasında və səsvermə yolu ilə müəyyənləşdirilir. Namizəd ölkənin müəyyənləşdirilməsi isə qrupdaxili konsensusa əsaslanır.

Azərbaycan Mərkəzi və Şərqi Avropa ölkələri qrupunda yer alır və 2024-cü ildə COP-a evsahibliyi etmək növbəsi məhz bu qrupa çatmışdı, namizədliyini irəli sürən ölkələrin sayı isə üçə bərabər idi: Azərbaycan, Bolqarıstan və Ermənistan. İlk baxışda Bolqarıstan daha şanslı görünürdü, çünki Azərbaycan və Ermənistanın müharibə vəziyyətində olması onların öz aralarında kompromisə gəlmək imkanını çətinləşdirən amil idi. Buna baxmayaraq, həyata keçirilən diplomatik təmaslar proseslərin müsbət istiqamətdə inkişafına gətirib çıxarmışdır.

2023-cü il dekabrın 7-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası baş nazirinin Aparatı tərəfindən, ölkələr arasında münasibətləri normallaşdırmaq maraqlarından irəli gələrək, Ermənistanın öz namizədliyini Azərbaycanın xeyrinə geri götürdüyü, humanizm prinsiplərindən çıxış edərək, Azərbaycanın 32 nəfər erməni, Ermənistanın isə 2 nəfər azərbaycanlı hərbçini əsirlikdən azad etdiyi barədə birgə açıqlama yayılmışdı [116, s.1]. Dekabrın 11-də isə, Dubayda təşkil olunmuş COP28 çərçivəsində keçirilən plenar iclasda COP29-un Azərbaycanda keçirilməsi barədə son qərar qəbul edilmişdir.

Prezident İlham Əliyev COP29-un Bakıda keçirilməsi haqqında qəbul edilən qərarı Azərbaycanın növbəti uğuru, dünyada ona göstərilən böyük etimad və hörmətin ifadəsi kimi qiymətləndirmiş və bu tədbiri yüksək səviyyədə təşkil etməklə, ölkə gün-

dəliyinin “yaşıl enerji” ilə bağlı olduğunu, “yaşıl enerji” istehsalı və ixracının respublikanın enerji siyasətinin prioriteti kimi müəyyənləşdirildiyini bütün dünyaya göstərəcəklərini qeyd etmişdi [7, s.2]. Akademik Urxan Ələkbərovun vurğuladığı kimi, *“COP29-un Bakıda keçirilməsinə qərar verilməsi ölkəmizin bu statusunun qlobal miqyasda tanınmasının, siyasi və iqtisadi nüfuzunun, alternativ enerji istehsalı sahəsində zəngin potensiala malik olmasının göstəricisidir”* [73, s.5].

Qərarın qəbul edilməsindən sonra Tərəflər Konfransına hazırlıq işlərinə start verilməsi, Təşkilat Komitəsinin yaradılması, 2024-cü ilin Azərbaycanda “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi, noyabrın 11-dən 22-dək davam edən COP29-un yüksək səviyyədə təşkili, bu tədbir çərçivəsində aparılan müzakirələr və qəbul edilən qərarlar ölkə başçısının fikirlərinin praktikada təsdiqi idi.

Keçmiş SSRİ məkanında ilk dəfə keçirilən, 196 ölkənin təmsil olunduğu, 80 prezident, vitse-prezident və baş nazirin, 72 min nümayəndənin iştirak etdiyi COP29 geniş gündəliyə malik idi və şübhəsiz ki, qlobal istiləşmənin qarşısının alınması, istixana qazı emissiyalarının azaldılması və iqlim dəyişikliklərinə uyğunlaşma ilə bağlı məsələlər müzakirələrin ana xəttini təşkil edirdi.

Müasir dövrdə qlobal istiləşmə və istixana effekti yaradan qazların emissiyası bəşəriyyəti ciddi təhlükələrlə üz-üzə qoymuşdur və zəruri preventiv addımların atılmaması isə mövcud problemlərin daha da dərinləşməsi üçün şərait yaradır. Karbon emissiyasını azaltmaq barədə COP28-də irəli sürülən təşəbbüslər dünyada müsbət dəyişikiklərə səbəb olmamışdır. COP29-un liderlər sammitinin açılış mərasimində BMT-nin baş katibi A.

Guterreşin çıxışı da bunu sübut edir. Baş katib qeyd etmşdir ki, dünyada karbon emissiyası nəinki azalmamış, əksinə artmaqda davam edir, qlobal istiləşmənin 2,5⁰C-yə yaxınlaşması təbii fəlakətlər, dağıntılar və insan facilərinin baş verməsində əsas rol oynayır və iqlimlə bağlı proseslərin neqativ istiqamətdə cərəyan etdiyini nəzərə alaraq, ölkələri sıfır karbon emissiyasına yaxınlaşmaq üçün COP 28-də götürdükləri öhdəlikləri, iqlimə uyğunlaşma tədbirlərini təşviq etmək barədə verdikləri sözü yerinə yetirməyə çağırmışdır. Vəziyyəti müsbət məcraya yönəltmək üçün, onun qeyd etdiyi kimi, birincisi, qlobal temperaturun 1,5⁰C-yə qədər azaldılmasına və enerji səmərəliliyinin ikiqat artırılmasına, ikincisi, iqlim dəyişikliklərinə insanların adaptasiyasına və bunun üçün zəruri olan maliyyə bazasının formalaşdırılmasına, üçüncüsü isə, inkişaf etməkdə olan ölkələrə ayrılan yardımların artırılmasına nail olmaq lazımdır, çünki onlar ətraf mühitin çirkləndirilməsində nisbətən az rol oynasalar da, bundan daha çox ziyan çəkirlər, yəni ekoloji problemləri *"varlılar yaradır, yoxsullar isə onun haqqını ödəyirlər"* [61, s.5].

İqlim dəyişikliklərinə münasibətdə Azərbaycanın mövqeyi qlobal səviyyədə "yaşıl gündəliyi" təşviq etməkdən ibarətdir. Prezident İlham Əliyev bu barədə bütün dünyaya bəyan etmişdir: *"... biz "yaşıl keçid"in güclü carçısı olacağıq və bunu edirik..."* [61, s.4]. İstər daxili, istərsə də xarici siyasətində məqsədyönlülüyü ilə seçilən Azərbaycan mövcud problemlərin həllinə nail olmaq üçün COP29 platformasında da nəticəyə hesablanmış fəaliyyət nümayiş etdirmişdir.

Bakıda on minlərlə nümayəndənin iştirakı ilə aparılan müzakirələrin ağırlıq mərkəzi iqlim dəyişikliklərinə qarşı mübarizə və "yaşıl enerji"yə keçid məsələləri üzərinə düşürdü.

COP29-un sədri olaraq, Azərbaycan konfransın gündəliyinin hazırlanmasında, müzakirəsində, qərarların qəbulunda fəallıq göstərmiş, təşəbbüskarlıq nümayiş etdirmiş və Prezident İlham Əliyev tərəfindən müəyyənləşdirilən "yaşıl enerji" strategiyasının həyata keçirilməsi istiqamətində uğurlu addımlar atmışdır.

Azərbaycan 2050-ci ilə qədər istixana qazı emissiyalarını 40% azaltmağı, elktrik enerjisi istehsalında bərpa olunan enerjinin qoyuluş gücü üzrə payını isə 30%-ə çatdırmağı planlaşdırır [194] və neft-qaz ölkəsi olmasına baxmayaraq, özünün enerji sistemini BOEM hesabına davamlı şəkildə şaxələndirir, qlobal səviyyədə "yaşıl enerji"yə keçidi təşviq etmək məqsədilə təşəbbüslərlə çıxış edir. Sədr ölkə olaraq, COP29 üçün müəyyənləşdirdiyi ambisiyaları artırmaq və fəaliyyətə imkan yaratmaq hədəfləri də iqlim dəyişiklikləri ilə bağlı qlobal çağrışlara cavab vermək kontekstində qiymətləndirilməlidir.

Tərəflər Konfransının 29-cu sessiyasına sədrlik edən Azərbaycan 14 qlobal təşəbbüsdən ibarət, həqiqətən də ambisiyalı bir gündəlik müəyyənləşdirmişdir və bu təşəbbüslərin bir hissəsi COP tarixində ilk dəfə irəli sürülmüşdür.

1) COP Atəşkəs çağırışı. Məlumdur ki, Azərbaycan mövcud problem və münaqişələrin həmişə beynəlxalq hüquq normaları əsasında və dinc vasitələrlə həllinə tərəfdar çıxmışdır. Azərbaycan xalqının və dövlətinin məhz sülhsevər təbiətindən irəli gələrək, COP29 Sədrliyi münaqişələrin istixana qazı emissiyalarını artırdığını, ətraf mühiti çirkləndirdiyini və ekosistemi dağıtdığını nəzərə alaraq, Tərəflər Konfransı dövründə hamını barşığa dəvət etmişdir. "COP29 Sədrliyinin COP naminə Birgə Atəşkəs Çağırışı" 136 ölkə və 1190 qeyri-dövlət aktoru tərəfindən dəstəklənmişdir [228].

2) İqlim Maliyyəsi üzrə Fəaliyyət Fondu. Bu Fond [242] iqlim dəyişikliklərinin qarşısını almaq üçün həyata keçirilən tədbirləri maliyyələşdirmək, "yaşıl enerji"yə keçidi təşviq etmək, yeni iş yerləri yaratmaq, kiçik ada dövlətlərinə və az inkişaf etmiş ölkələrə yardım göstərmək məqsədilə yaradılır. Əsasən qalıq yanacaq növləri hasil edən dövlət və şirkətlərin qrantları hesabına formalaşdırılması nəzərdə tutulan bu Fond ən azı 10 ölkə səhmdar qismində cəlb etdikdən və 1 mlrd. dollar məbləğində ilkin vəsait toplandıqdan sonra fəaliyyətə başlayacaq. İştirakçı tərəflərə Fondun səhmdarı statusu veriləcək. Fond öz fəaliyyətində investisiyalar, "yaşıl" istiqrazlar və s. maliyyə alətlərindən istifadə edə bilər. Onun gəlirlərinin 20%-i təbii fəlakətlərlə üzləşən ada dövlətlərinə və zəif inkişaf etmiş ölkələrə çevik yardım göstərmk üçün nəzərdə tutulur.

3) "Yaşıl enerji" üzrə zona və dəhlizlər. COP28-də 2030-cu ilədək dünyada bərpa olunan enerji üzrə qoyuluş gücünü 3 dəfə artıraraq 11 min QVt-a, qlobal enerji səmərəliliyinin orta illik artım tempini 2%-dən 4%-ə çatdırmaq öhdəliyi götürülmüşdür. "COP29 "yaşıl enerji" üzrə zona və dəhlizlər Öhdəliyi"ndə [211] iqlim dəyişikliklərinə qarşı mübarizə aparmaq, iqtisadi inkişafa və enerji təhlükəsizliyinə nail olmaq və yerli icmaların həyat keyfiyyətini yaxşılaşdırmaq üçün "yaşıl zona"ların, elektrik enerjisini qarşılıqlı ötürmək üçün kompleks yanaşma əsasında "yaşıl enerji" dəhlizlərinin yaradılmasını təşviq etmək öhdəliyi yer almışdr.

"Yaşıl enerji" üzrə zona və dəhlizlərin yaradılması Azərbaycanın enerji siyasətinin əsas istiqamətlərindən birinə çevrilmişdir. COP29-da bu barədə təşəbbüs irəli sürülənədək respublikada işğaldan azad edilmiş ərazilər və Naxçıvan MR "yaşıl

enerji" zonası elan edilmişdir. Bundan başqa, Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında "Qara dəniz yaşıl kabel" xəttinin çəkilməsi və Azərbaycan, Qazaxstan və Özbəkistan arasında "Xəzər Yaşıl Enerji Dəhlizi" yaratmaq ideyasının reallaşdırılması sahəsində zəruri addımlar atılır.

4) Enerjinin saxlanması və şəbəkələri. Təsdiq edilmiş "Qlobal Enerji Saxlancı və Şəbəkələri üzrə COP29 Öhdəliyi"nə [210] əsasən, 2030-cu ilədək dünyada enerji saxlama potensialını, 2022-ci il ilə müqayisədə 6 dəfə artıraraq 1500 GVt-a çatdırmaq nəzərdə tutulur. Bununla yanaşı, 2030-cu ilədək 25 mln. km. uzunluğunda, 2040-cı ilədək isə daha 65 mln. km. Uzunluğunda şəbəkəni əlavə etmək və ya yenidən qurmaq öhdəliyi götürülmüşdür.

"Yaşıl enerji" sektorunun inkişafı Azərbaycanda da enerji saxlanc sistemlərinin yaradılmasına ehtiyac yaratmışdır. 2023-cü ildə Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti arasında "Azərbaycan Respublikasında enerji saxlanc sistemlərinin inkişaf etdirilməsinə dair Anlaşma Memorandumu" imzalanmışdır [67, s.7].

5) İqlim maliyyəsi, investisiya və ticarət üzrə Bakı Təşəbbüsü. Bu Təşəbbüs [241] könüllü fəaliyyətə əsaslanır, Netto Sıfır üçün Qlazqo Maliyyə Alyansı, İqlim Fəaliyyəti üzrə Maliyyə Nazirləri Koalisiyası və İqlim üzrə Ticarət Nazirləri Koalisiyası ilə sinerji yaradır və dayanıqlı inkişaf prinsiplərinə uyğun olaraq, milli səviyyədə qəbul edilmiş uyğunlaşma planlarını və üzunmüddətli aşağı emissiyalı inkişaf strategiyalarını əlaqələndirmək məqsədi daşıyır. Bakı Təşəbbüsü çərçivəsində dialoq 5 istiqamətdə – iqlim maliyyəsi, birbaşa xarici iqlim investisiyalarının cəlb edilməsi, KOB-ların "yaşıl keçid" koalisiyası, bilik

mübadiləsi, iqlim maliyyəsi, investisiya və ticarət üzrə dialoq konfransı – aparılır.

6) Hidrogen Bəyannaməsi. COP29 sədrliyinin timsalında Azərbaycan istixana qazları emissiyalarını azaltmaq və "sıfır emissiya" məqsədinə nail olmaq üçün səyləri birləşdirməyə çağırmışdır. Bu baxımdan, "COP29 Hidrogen Bəyannaməsi"nin [212] qəbul edilməsi məntiqi bir addımdır. Bəyannamədə də qeyd olunduğu kimi, hazırda dünyada bərpa olunan mənbələrdən 1 mln. tondan az sıfır emissiyalı və ya aşağı karbonlu hidrogen əldə edildiyi halda, qalıq yanacaq növlərindən 96 mln. ton hidrogen istehsal olunur və nəticədə ildə 92 mln. ton karbon-dioksid atmosferə atılır. Bunun qarşısını almaq üçün "yaşıl" hidrogen istehsalını və tətbiqini genişləndirmək və qalıq yanacaq növlərindən hidrogen istehsalı prosesinin karbonsuzlaşdırılmasını sürətləndirmək hədəf olaraq müəyyənləşdirilmişdir. "COP29 Hidrogen Bəyannaməsi"ni 62 ölkə 47 qeyri-dövlət aktoru imzalamışdır.

7) Üzvi tullantılarda metanın azaldılması. Qalıq enerji mənbələrindən istifadə, kənd təsərrüfatı istehsalı və tullantıların emalı zamanı ayrılan metan qazı qlobal iqlimə mənfi təsir göstərən amillərdəndir və bu səbəbdən də, qlobal istiləşməni 1,5$^0$C səviyyəsində saxlamaq üçün metan emissiyalarının azaldılması əsas şərtlərdən biridir. "Üzvi tullantılardan metan qazının azaldılması üzrə COP29 Bəyannaməsi"ndə [208] qeyd olunur ki, 2030-cu ilə qədər metan emissiyalarının, 2020-ci il ilə müqayisədə 30% azaldılması 2050-ci ilədək qlobal istiləşməni minimum 0,2$^0$C azaltmağa imkan verəcək, bu isə hər il 225 min vaxtsız ölümün, 775 min astma xəstəliyinə tutulmanın, isti hava səbəbindən 73 mlrd. saat iş vaxtının itirilməsinin və kənd təsərrüfatında xeyli məhsul itkisinin qarşısını almaq deməkdir.

Bunu nəzərə alaraq, Bəyannaməni imzalayan 65 ölkə üzvi tullantılardan yaranan metan qazının azaldılması yollarını müəyyənləşdirmək barədə öhdəlik götürmüşlər.

8) "Yaşıl" Rəqəmsal Fəaliyyət Bəyannaməsi. Müasir dövrdə İqlim dəyişikliklərinə qarşı mübarizənin rəqəmsallaşmanın inkişaf meyllərinə uyğunlaşdırılması ciddi əhəmiyyət kəsb edir. Rəqəmsal texnologiyalardan istifadə, bir tərəfdən, iqlim dəyişikliklərinin monitorinqini aparmağa və alınmış nəticələr əsasında daha effektli tədbirlər görməyə imkan verir, digər tərəfdən isə, elektrik enerjisi istehsalı prosesini sürətləndirməklə, karbon emissiyalarının artmasına şərait yaradır. Bu reallıqları nəzərə alaraq, Azərbaycan COP tarixində ilk dəfə olaraq "Yaşıl" Rəqəmsal Fəaliyyət təşəbbüsü ilə çıxış etmiş və bu təşəbbüs çərçivəsində aparılmış müzakirələrin sonunda "COP29-da Yaşıl Rəqəmsal Fəaliyyət Bəyannaməsi" [206] qəbul edilmişdir. Sənəddə iqlim dəyişikliklərinə qarşı mübarizədə rəqəmsal texnologiya və alətlərdən istifadə etmək, dayanıqlı rəqəmsal infrastruktur yaratmaq, rəqəmsallaşmanın iqlimə təsirini yumşaltmaq, rəqəmsal inklüzivlik və savadlılığı təşviq etmək, qərarları məlumatlar əsasında qəbul etmək, davamlı innovasiyaları dəstəkləmək, davamlı istehlakçı təcrübələrini təşviq etmək və qabaqcıl təcrübəni bölüşmək üzrə öhdəliklər müəyyənləşdirilmişdir. Qlobal səviyyədə "yaşıl" transformasiya üçün çərçivə sənədi ola biləcək bu Bəyannaməni 82 dövlət və 1766 qeyri-dövlət aktoru imzalamışdır.

9) Fermerlər üçün Bakı Ahəngdar İqlim Təşəbbüsü. Bu Təşəbbüs [196] bilik və təcrübə mübadiləsi əsasında əməkdaşlığı təşviq etmək, aqrar-sənaye sahəsinə həm dövlət, həm də özəl sektordan investisiya qoyuluşunu stimullaşdırmaq, müvafiq maliyyə qurumları ilə əməkdaşlığı genişləndirərək, sinerji

yaratmaq, fermerlərin, xüsusilə də qadın və gənc fermerlərin səlahiyyətlərini genişləndirmək və iqlimə davamlı kəndlərin inkişafına yardım göstərmək üçün tərəfdarları bir araya gətirmək məqsədi daşıyır.

10) İqlim Fəaliyyəti naminə Su Bəyannaməsi. Quraqlıq, su qıtlığı və daşqınlar iqlim dəyişikliklərinin doğurduğu ən təhlükəli fəsadlardandır və su ilə bağlı problemlərin dərinləşməsinin qarşısını yalnız birgə səylərlə almağın mümkünlüyünü nəzərə alaraq, Azərbaycan bu sahədə də təşəbbüslə çıxış etmiş və buna cavab olaraq, 69 dövlət və 24 qeyri-dövlət aktoru tərəfindən "İqlim Fəaliyyəti naminə Su Bəyannaməsi" [209] qəbul edilmişdir. Dünyada 2,2 mlrd. nəfərin içməli su mənbələrinə çıxışının olmadığı, dünya əhalisinin yarısının su çatışmazlığından əziyyət çəkdiyi, 3,5 mlrd. nəfərin təhlükəsiz kanalizasiya sistemindən məhrum olduğu, buzlaqların sürətlə əridiyi, təbii fəlakətlərin doğurduğu ziyan və itkilərin 90-95%-nin su ilə bağlı olduğu müasir dövrdə su problemini həll etmək üçün, Bəyannaməni imzalayan ölkələr 2030-cu ilədək bütün səviyyələrdə ölkələrarası dialoqa yardım etmək, su hövzələrində və su ilə bağlı ekosistemdə baş verən dəyişikliklərin səbəbləri və nəticələri barədə elmi məlumatlar əldə etmək və su resursları ilə bağlı iqlim fəaliyyətini genişləndirmək barədə öhdəlik götürmüşlər.

11) Dayanıqlı və sağlam şəhərlər üçün Çoxsahəli Fəaliyyət Yolları. İqlim dəşişikliklərinin şəhərlərə mənfi təsirini azaltmaqla bağlı olan bu təşəbbus 54 dövlət, 43 qeyri-dövlət aktoru və 57-si Azərbaycana aid olmaqla, 96 şəhər və region tərəfindən "Dayanıqlı və sağlam şəhərlər üçün çoxsahəli fəaliyyət yolları haqqında COP29 Bəyannamə"sinin [207] qəbul edilməsi ilə nəticələnmişdir. Bəyannamə, dünya əhalisinin yarıdan çoxunun

yaşadığı, qlobal UDM-in 70%-nin istehsal edildiyi, istixana qazı emissiyalarının 80%-nin formalaşdığı şəhərlərdə iqlim problemlərini həll etmək üçün çoxtərəfli əməkdaşlığı təşviq edir.

12) Turizm üzrə Təkmilləşdirilmiş İqlim Fəaliyyəti. Azərbaycanın səyi nəticəsində turizm mövzusu da ilk dəfə COP gündəliyinə daxil edilmişdir. Turizm sektorunun milli və qlobal iqlim siyasətinə inteqrasiya ediməsinin əsas məqsəd kimi müəyyənləşdirildiyi "Turizm sektorunda təkmilləşdirilmiş iqlim fəaliyyəti üzrə COP29 Bəyannaməsi"nə [205] 70 ölkə və 9 qeyri-dövlət aktoru qoşulmuşdur.

13) İqlim dayanıqlılığı üçün insan inkişafı üzrə Bakı Təşəbbüsü. Bu Təşəbbüs insan inkişafı, xüsusilə də uşaqların və gənclərin sağlamlığı, təhsili və fəaliyyəti ilə bağlı məsələləri əhatə edir. Bu sahədə aparılan müzakirələr nəticəsində "İqlim dayanıqlılığı üçün insan inkişafına dair Bakı Təşəbbüsü" [197] qəbul edilmiş, iqlim fəaliyyətinin insan inkişafı ilə uyğunlaşdırılması, sosial dialoq, tərəfdaşlıq və əməkdaşlığın gücləndirilməsi, tələbə səriştələrinin qiymətləndirilməsi, iqlimə davamlı və aşağı karbon emissiyasını təmin edən təhsil sistemlərinin yaradılması, ekoloji təmiz bacarıq və peşə standartlarının genişləndirilməsi, inteqrasiya edilmiş iqlim və sağlamlıq nəzarəti və erkən xəbərdarlıq sistemlərinin təşviq edilməsi və s. insan inkişafına dair Bakı Rəhbər Prinsipləri kimi müəyyənləşdirilmişdir.

14) Bakı Qlobal İqlim Şəffaflığı Platforması. Azərbaycanın bu təşəbbüsü əsasında, tərəflər arasında qarşılıqlı inam yaratmaq, inkişaf etməkdə olan ölkələrə İkiillik Şəffaflıq hesabatlarının hazırlanmasında yardım etmək, Genişləndirilmiş Şəffaflıq Sisteminin tam həyata keçirilməsini təşviq etmək, kollektiv səylərin ardıcıllığını təmin etmək və effektivliyini artırmaq məqsədilə Bakı Qlobal İqlim Şəffaflığı Platforması [195] yaradılmışdır.

Qeyd olunan təşəbbüsləri həyata keçirməklə yanaşı, COP29-da bir sıra aktual məsələlər üzrə qərarların qəbul edilməsinə də nail olunmuşdur. Kiçik ada dövlətlərinin və inkişaf etməkdə olan ölkələrin problemlərinin müzakirəyə çıxarılması həm siyasi, həm sosial-iqtisadi, həm də humanitar baxımdan son dərəcə əhəmiyyətlidir.

Məhdud maliyyə imkanlarına malik olan kiçik ada dövlətləri iqlim dəyişikliklərinin mənfi təsirlərinə daha çox məruz qalırlar. Sakit okean və Karib dənizi hövzəsində Fransa və Hollandiyanın nəzarəti altında olan adalarda yürüdülən müstəmləkə siyasəti ciddi ekoloji problemlər doğurmuşdur. Məsələn, 1966-1996-cı illərdə Fransa Polineziyasında həyata keçirilən 193 nüvə sınağı nəticəsində radiasiyanın səviyyəsi artaraq, 4900%-dən çox olmuşdur. Fransa Əlcəzairdə də 17 nüvə sınağı keçirmişdir. Prezident İlham Əliyev *"inkişaf etmiş bütün ölkələrə, xüsusən də müstəmləkə keçmişi olan ölkələrə müraciət"* edərək, onları, iqlim dəyişikliklərinin fəsadlarını aradan qaldırmaq üçün kiçik ada dövlətlərinə maddi və texniki yardım göstərməyə çağırmışdır [18, s.2]. Nəzərə almaq lazımdır ki, radiasiya çirklənməsinə məruz qalan ərazilərin bərpası onilliklər və böyük vəsait tələb edir.

Qlobal iqlim dəyişiklikləri nəticəsində zəif inkişaf etmiş ölkələrin üzləşdiyi itki və ziyanın aradan qaldırılmasına yardım göstərmək məsələsi təxminən 30 ildir müzakirə olunur. COP28-də bu məqsədlə İtki və Zərər Fondunun yaradılması barədə razılıq əldə olunmuş və bu Fond üçün 792 mln. dollar toplamaq vəd edilmişdir. 2024-cü ilin may ayına qədər Fonda, 100 mln. dolları BƏƏ tərəfindən olmaqla, 662 mln. dollar girov qoyulmuşdur [55, s.15]. Son illərdə Azərbaycan inkişaf etməkdə olan 80-dən çox dövlətə, o cümlədən 20 kiçik ada dövlətinə maliyyə və humanitar yardım gös-

tərmiş, BMT-nin həyata keçirdiyi birgə layihələr çərçivəsində kiçik ada dövlətlərinə 10 mln. dollar ayırmışdır [18, s.2]. İtki və Zərər Fondunun tam fəaliyyətə başlaması haqqında son qərarın COP29-da qəbul edilməsində [59, s.3] də Azərbaycanın rolu böyükdür.

Yeni Kollektiv Kəmiyyət Məqsədinin qəbul edilməsi COP29-da əldə edilən növbəti uğurdur. Bu Məqsəd iki hədəfdən ibarətdir. Birinci hədəf iqlim fəaliyyətinin maliyyələşdirilməsinə yardım məqsədilə inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələr üçün hər il ayırdıqları 100 mlrd. dollara bərabər məbləği 2035-ci ilədək 300 mlrd. dollara çatdırmağı nəzərdə tutur [59, s.3]. COP29 sədrliyinin yekun Bəyanatında sonuncu məbləğ 250 mlrd. dollar göstərilmişdir [58, s.1]. BMT-nin müvafiq qurumlarının, demək olar ki, hamısının yaydıqları məlumatlarda isə hədəfin 300 mlrd. dollar olduğu qeyd edilir.

İkinci hədəf bütün dövlətlər və özəl qurumlar tərəfindən iqlimlə bağlı maliyyələşdirməni 2035-ci ilədək ildə ən azı 1,3 trln. dollara çatdırmaqdır [58, s.1]. Bu hədəf formal xarakter daşıyır və bu məbləğin konkret olaraq hansı mənbələrdən və hansı mexanizm əsasında əldə olunacağı qeyri-müəyyən olaraq qalır. Dünyada geosiyasi qütbləşmənin dərinləşməsi, inkişaf etmiş ölkələrin öz üzərinə öhdəlik götürməkdən imtina etməsi, Çinin özünü proseslərdən kənarda saxlaması və s. amillər konsensus əldə edilməsinə mane olur.

Ümumiyyətlə, müasir dövrdə qlobal iqlim dəyişikliklərinə qarşı kompleks mübarizəni təşkil etmək üçün hər il 8 trln. dollar məbləğində vəsaitə ehtiyac vardır və o da məlumdur ki, bu vəsaiti toplamaq mümkün deyildir. Bu səbəbdən də, zəruri addımları atmaq üçün COP29-da ən azı 1,3 trln. dollar toplamaq (49%-i özəl mənbələrdən olmaqla) barədə razılığın əldə

edilməsi hədəflənmişdi, lakin nəzərə alnsa ki, dövlətlərin 73%-də iqlim xərclərini qiymətləndirmək üçün mexanizm mövcud deyildir, 41%-də özəl mənbələrdən cəlb edilən vəsaitlər barədə hesabatlılıq yoxdur [115, s.12], onda bu hədəfə nail olmağın da hələlik reallıqdan uzaq olduğu qənaətinə gəlmək olar. Eyni zamanda, bu məsələ gündəlikdən də çıxarılmamışdır.

Paris Sazişinin karbon bazarları yaratmaq barədə 6-cı maddəsi əvvəlki COP-larda müzakirə obyekti olsa da, fikir ayrılığı səbəbindən onu təsdiq etmək mümkün olmamışdır. Qlobal əhəmiyyətə malik bu məsələ Bakıda öz müsbət həllini tapmış və COP29-da həmin maddə tam təsdiq olunmuşdur [59, s.3]. Karbon bazarı ölkələr üçün karbon emissiyaları üzrə kvotaların müəyyənləşdirilməsinə əsaslanır və şəffaf karbon bazarlarının yaradılması iqlim fəaliyyətinə çəkilən xərcləri yüz milyardlarla dollar azaltmaq mənasını verir.

İkiillik Şəffaflıq Hesabatlarını hazırlamaq sahəsində inkişaf etməkdə olan ölkələrə maliyyə və texniki yardımın göstərilməsi barədə qərarın qəbul edilməsi də COP29-un nailiyyətləri sırasındadır. İqlim fəaliyyətində şəffaflığı təmin etmək üçün COP29 sədrliyinin təşəbbüsü ilə Bakı Qlobal İqlim Platforması yaradılmışdır [59, s.3]. İkiillik Şəffaflıq Hesabatlarının hazırlanması Paris Sazişinin 13-cü maddəsində nəzərdə tutulmuşdur və hesabatlılığın artırılması şəffaf karbon bazarlarının yaradılmasına da müsbət təsir göstərə bilər.

COP29 Azərbaycan və Mərkəzi Asiya respublikaları arasında iqlim fəaliyyəti və "yaşıl enerji"yə keçid sahəsində əməkdaşlığı və inteqrasiyanı genişləndirməyə və dərinləşdirməyə xidmət edən məhsuldar bir platforma rolunu oynamışdır. Tədbir çərçivəsində Azərbaycan, Qazaxstan və Özbəkstan arasında

"yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji əməkdaşlıq barədə hökumətlərarası Sazişin [20, s.3], Azərbaycan, Qazaxstan, Qırğızstan və Özbəkstanın ətraf mühit nazirləri, AİB və Yaşıl İqlim Fondu nümayəndələri tərəfindən iqlim dəyişikliyi, buzlaqlar və transsərhəd əməkdaşlıq üzrə tərəfdaşlıq barədə Birgə Bəyannamənin, TDT-yə üzv ölkələrin müvafiq qurumlarının təmsilçiləri tərəfindən iqlim, innovasiya, "yaşıl iqtisadiyyat" və ticarət sahəsində TDT Tərəfdaşlığının yaradılması barədə Bakı Nazirlər Bəyanatının, ekologiya sahəsində birgə fəaliyyət haqqında Nazirlər Bəyannaməsinin, iqlim, innovasiya və ticarət üzrə CAREC Tərəfdaşlığına dair Bakı Bəyannaməsinin imzalanması [57, s.8, s.10], Beynəlxalq Bərpa Olunan Enerji Agentliyi və Azərbaycan tərəfindən "Mərkəzi Asiyada Sürətləndirilmiş Bərpa Olunan Enerji Tərəfdaşlığı" proqramının irəli sürülməsi [56, s.8] əməkdaşlığın əhatə dairəsinin genişliyini göstərir.

COP29-da uşaqlar və gənclər də diqqətdən kənarda qalmamışdır. Azərbaycan tədbirin ilk günündə "Uşaqlar, gənclər və iqlim fəaliyyəti Bəyannaməsi"ni imzalamış və bununla da uşaqları və gəncləri iqlim dəyişikliklərinin təsirlərindən qorumaq öhdəliyi götürmüşdür [14, s.8].

İqlim dəyişiklikləri ilə bağlı problemlərin qlobal xarakter almasına və getdikcə dərinləşməsinə baxmayaraq, onların qarşısını almaq üçün bəşəri həmrəyliyə hələ də tam nail olunmamışdır. Dünyada bəzi qüvvələr siyasi və korporotiv maraqları önə çəkərək, "yaşıl gündəliy"in həyata keçirilməsi istiqamətində görülən işlərə ikili standartlardan yanaşır, riyakarlıq nümayiş etdirərək, həqiqəti danmağa çalışırlar.

Anti-Azərbaycan isterikasına qapılan qüvvələr COP29-la bağlı həyata keçirlən siyasətin və tədbirlərin əsl mahiyyətini kə-

nara qoyaraq, yalan və saxta dəlillər əsasında respublikaya qarşı qarayaxma kampaniyasına start vermiş və bu mötəbər tədbirin boykot olunmasına cəhdlər etmişdilər. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, *"ikili standartlar, digər ölkələrə dərslər vermək adəti və siyasi riyakarlıq bəzi Qərb ölkələrindəki bir sıra siyasətçilər, dövlət nəzarətində olan QHT-lər, yalan xəbər mediası üçün fəaliyyət metoduna çevrilib"* [61, s.4]. 2024-cü il noyabrın 20-də, bəşəriyyəti narahat edən problemlərin Bakıda müzakirə olunduğu bir zamanda Lüksemburq Deputatlar Palatasının, Azərbaycanda insan haqları və demokratiyanın vəziyyəti ilə bağlı əsassız iddiaların yer aldığı və ölkədaxili siyasi sabitliyi pozmağa hesablanmış qətnamə qəbul etməsi [122, s.6] İlham Əliyevin fikirlərinin əyani sübutudur. Ümumilikdə, COP29-un yüksək səviyyədə təşkili, geniş təmsilçilik, aktual məsələlərə həsr olunmuş məzmunlu müzakirələr, qəbul edilən əhəmiyyətli qərarlar anti-Azərbaycan qüvvələrə ən tutarlı cavabdır. Montenegronun ekologiya üzrə səfiri Daniel Qariçin qeyd etdiyi kimi, *"əvvəlki COP təşkilatçılarının bacarmadıqları nailiyyətlərə görə Azərbaycanı təbrik etmək lazımdır"* [98, s.8].

Tərəflər Konfransının 29-cu sessiyası başa çatsa da, əldə olunan razılaşmaların və qəbul edilən qərarların praktikada həyata keçirilməsi istiqamətində işlər davam etdirilir. Bu sahədə COP Sədrlikləri Üçlüyünün fəaliyyətini xüsusi qeyd etmək lazımdır. BƏƏ-də keçirilmiş COP28-in, Azərbaycanda keçirilmiş COP29-un və Braziliyada keçiriləcək COP30-un sədrliklərindən ibarət olan bu Üçlüyün formalaşdırılmasına COP28-də start verilmiş, COP29-dakı fəaliyyəti isə onun səmərəli format olduğunu göstərmişdir. COP Sədrlikləri Üçlüyünü yaratmaqda məqsəd COP-un fəaliyyətində davamlılığı, sədrliklər arasında

əlaqəni, "yaşıl enerji"yə keçidi və qəbul edilmiş qərarların həyata keçirilməsini təmin etməkdir. COP30-a hazırlıq prosesində Braziliyaya yardım etmək məqsədilə COP29 sədrliyi "Bakıdan Belemə qədər Yol Xəritəsi" təşəbbüsü ilə çıxış etmişdir.

Azərbaycanın enerji təhlükəsizliynin təmin olunmasında "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin Bakıda keçirilən iclaslarının əhəmiyyətini xüsusi vurğulamaq lazımdır. COP29-dan sonra bu formatda növbəti görüş, yəni "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının 11-ci, "Yaşıl Enerji" Məşvərət Şurasının 3-cü iclası 2025-ci il aprelin 4-də keçirilmişdir. Avropa İttifaqı tərəfindən dəstəklənən, 24 ölkə, 7 beynəlxalq maliyyə təşkilatı və enerji sektoru ilə bağlı olan 42 şirkətin iştirak etdiyi bu tədbir çərçivəsində qlobal səviyyədə metan emissiyalarının azaldılması, yeni enerji saxlama güclərinin yaradılması, elektrik enerjisi şəbəkəsinin genişləndirilməsi, bərpa olunan enerjidən istifadəni artırmaq yolu ilə təmiz keçidi sürətləndirmək və təbii qaza qənaət etmək və s. aktual məsələlər müzakirə olunmuşdur.

Karbohidrogen ehtiyatlarından və "yaşıl enerji"dən istifadə sahəsində ümumi yanaşmanın formalaşdırılması nazirlərin görüşlərində diqqət mərkəzində olmuşdur. Bu məsələnin ən optimal yolunu isə, tədbirdə çıxış edən Prezident İlham Əliyev göstərmişdir: *"Ümid edirik ki, Avropada çox geniş yaşıl gündəliyə baxmayaraq, faydalı qazıntı hasilatçıları və ənənəvi yanacaq enerji təhlükəsizliyinin mühüm meyarı kimi yaddan çıxmayacaq və ayrı-seçkiliyə məruz qalmayacaq. Əslində, bu, bizim COP29-dakı mesajımız idi. Azərbaycan qlobal beynəlxalq tədbirə ev sahibliyi etdiyi zaman qeyd olundu ki, faydalı qazıntıları zəngin olan ölkələrlə sərvətləri olmayan ölkələr arasında ayrı-seçkilik və ayrıcı xətlər olmamalıdır. Əksinə,*

*faydalı qazıntıları zəngin olan və bərpa olunan enerjiyə sərmayə qoyan ölkələr alqışlanmalıdır, onlara hücum çəkilməli deyil"* [12, s. 2].

2025-ci il iyunun 16-dan 27-dək davam edən Bonn İqlim Konfransında COP29 sədrliyi iqlim fəaliyyəti ilə bağlı bəzi mürəkkəb məsələlər, xüsusilə də Qlobal Uyğunlaşma indikatorlarının müəyyənləşdirilməsi üzrə fikir ayrılıqlarının aradan qaldırılmasında körpü rolunu oynamışdır [107]. Bu da dünyada "yaşıl" gələcəyin təmin olunmasında Azərbaycanın artıq əsas rollardan birinə sahib olduğunu sübut edir.

Qlobal iqlim dəyişikliklərinə qarşı mübarizə ilə bağlı məsələlərin müzakirəsi, 2025-ci il noyabrın 10-dan 21-dək Braziliyanın Belem şəhərində keçirilmiş COP30-da davam etdirilmişdir. Qeyd etmək lazımdır ki, COP30 Bakıda keçirilən COP29-la müqayisədə zəif təşkil edilmiş və təhlükəsizlik baxımından bir sıra nöqsanla yadda qalmışdır.

COP30-un gündəliyində iqlim dəyişiklikləri üzrə əvvəlki konfranslarda, o cümlədən COP29-da qəbul edilmiş qərarların həyata keçirilmə mexanizmlərinin müəyyənləşdirilməsi ilə bağlı məsələlər əhəmiyyətli yer tuturdu. Buna baxmayaraq, qlobal istiləşmənin qarşısını almaq kimi son dərəcə aktual məsələyə münasibətdə dünya ölkələri arasında mövcud olan fikir ayrılığı bu tədbirdə də özünü göstərmiş, konkret və substantiv qərarların qəbuluna mane olmuşdur. COP30-da 2035-ci ilədək iqlim dəyişikliklərinə qarşı mübarizə ilə bağlı tədbirləri maliyyələşdirmək məqsədilə hər il 1,3 trln. dollar səfərbər etmək, iqlim dəyişikliklərinə ölkələrin uyğunlaşmasına yardım etmək üçün adaptasiya maliyyələşməsini 2029-cu ilədək iki dəfə, 2035-ci ilədək isə üç dəfə artırmaq, İtki və Zərər Fondunun əməliyyat mərhələlərini müəyyənləşdirmək barədə öhdəliklər qəbul edilmiş,

ambisiya və fəaliyyətin səmərəliliyini yüksəltmək üçün Qlobal akseleratorun yaradılması və 1,5°C məqsədi üzrə Belem missiyasının reallaşdırılması barədə yeni təşəbbüs irəli sürülmüşdür [198]. Qeyd olunan öhdəlik və təşəbbüsün yerinə yetirilməsinin məcburi xarakter daşımadığı nəzərə alınmalıdır.

Nəticə olaraq qeyd etmək olar ki, Paris Sazişinin həyata keçirilməsində tarixi bir mərhələ olan COP29 dayanıqlı inkişafa nail olmaq üçün qlobal istiləşmənin qarşısını almağın, iqlim dəyişikliklərinə uyğunlaşmanın və "yaşıl enerji"yə keçidin son dərəcə vacib olduğunu bir daha sübut etmişdir. COP29 sədrliyinin timsalında Azərbaycan tərəfindən irəli sürülən və bir-birini tamamlayan təşəbbüslər bir məqsədə, dünyada dayanıqlı, təhlükəsiz və "yaşıl" gələcəyin təmin olunmasına xidmət edir. Enerji zonaları və dəhlizləri, enerji saxlanc sistemləri və şəbəkələri, "yaşıl hidrogen" və "yaşıl" rəqəmsal fəaliyyət haqqında irəli sürülən təşəbbüslər BOEM-dən istifadəni təşviq etmək və bu sahədə müvafiq mexanizmləri yaratmaq baxımından xüsusi əhəmiyyət kəsb edir. İtki və Zərər Fondunun fəaliyyətinə start verilməsi, Yeni Kollektiv Kəmiyyət Məqsədinin irəli sürülməsi, karbon bazarları haqqında qərarın qəbul ediməsi qlobal iqlim dəyişikiklərinə qarşı mübarizə imkanlarını xeyli genişləndirmişdir. COP29-da əldə olunan uğurlu nəticələr həm də Braziliyanın Belem şəhərində keçiriləcək COP30 üçün münbit zəmin yaratmışdır.

## *3.4. Azərbaycanda "yaşıl iqtisadiyyat"a keçidin siyasi, sosial-iqtisadi, ekoloji aspektləri və perspektivləri*

Son onilliklərdə "yaşıl enerji"yə, "yaşıl iqtisadiyyat"a keçid strategiyası istər qlobal, istərsə də ölkələr səviyyəsində geniş müzakirə olunur, bir çox hallarda dayanıqlı və davamlı

inkişafın əsas şərtlərindən biri kimi qəbul edilir. “Yaşıl iqtisadiyyat”a keçid, neft-qaz sənayesindən əldə olunan gəirlərin bir hissəsini “yaşıl enerji” sektorunun inkişafına yönəltməklə, enerji mənbələrinin diversifikasiyasını təmin etmək Azərbaycanın enerji siyasətinin prioritetlərindən birini təşkil edir. Bununla yanaşı, “yaşıl transformasiya” yalnız BOEM hesabına elektrik enerjisi istehsalını daha da artırmaq mənasını vermir, kifayət qədər mürəkkəb proses olub, siyasi, sosal-iqtisadi və ekoloji aspektlərə malikdir.

Qeyd etmək lazımdır ki, “yaşıl iqtisadiyyat”a keçid konsepsiyası dünyada birmənalı qiymətləndirilmir. Bu keçid qlobal istiləşmənin və ətraf mühitin çirkləndirilməsinin qarşısını almaq zərurəti ilə daha çox əsaslandırılsa da, onun siyasi məzmuna malik olması barədə iddialar da dövriyyədədir. Belə ki, ətraf mühitin çirkləndirilməsində antropoloji faktorun böyük rol oynadığı aksiomatik olaraq qəbul edilməlidir. Qobal istiləşmənin səbəblərinə gəldikdə isə, bu məsələdə fikir ayrılığı mövcuddur. Bu fenomenin kökündə əsasən insan fəaliyyətinin dayandığı barədə fikir daha geniş yayılsa da, bunun əksini iddia edənlər də az deyildir.

L.K.Qorşkov müasir dövrdə müşahidə olunan iştiləşməni günəş aktivliyinin dövri olaraq dəyişməsi ilə əlaqələndirir və XXI əsrin 30-cu illərindən başlayaraq, 50-ci illərinə doğru qlobal istiləşmənin qlobal soyuqlaşma ilə əvəz olunacağını qeyd edir [177, s.7-14]. Qlobal istiləşməyə antropogen, kosmogen və Yer planetinin iqlim sistemi ilə bağlı olan amillərin təsirini müqayisəli təhlil edən S.A.Yazev, K.Q.Levi və N.V.Zadonianın gəldikləri son nəticə ondan ibarətdir ki, günəş sistemindəki dalğalanmaların nəticəsi olan bu prosesdə insanın rolu azdır [190, s.200-211].

Qlobal istiləşmənin təbii amillərlə bağlı olduğu fikrini bölüşən V.Fyodorov iddia edir ki, "yaşıl keçid" konsepsiyası, mineral yanacaq ehtiyatları məhdud olan Avropa ölkələrinin bu ehtiyatlarla zəngin olan Rusiyaya qarşı siyasətinin bir hissəsidir, yəni BOEM-dən istifadəni genişləndirmək ideyasını təşviq etməkdə Qərb ölkələrinin əsas məqsədi qlobal istiləşmənin qarşısını almaq deyil, Rusiyaya məxsus qalıq yanacaq ehtiyatlarından istifadəni məhdudlaşdırmaqla, bu ölkənin iqtisadi inkişafına mane olmaqdır [187, s.79]. Belə iddialar, şübhəsiz ki, "yaşıl enerji" məsələsinin enerji amili ilə yanaşı, həm də siyasi spekulyasiya obyektinə çevrildiyini göstərir.

Almaniya, Böyük Britaniya, Fransa, İspaniya, İtliya və Polşada keçirilən rəy sorgusunun nəticələrinə görə avropalıların təxminən 80%-i enerji təchizatı məsələsində nə Rusiyaya, nə də ABŞ-yə etibar etmir, 77%-i isə öz ölkələrində BOEM-ə sərmayə qoyuluşunun artırılmasını məqbul hesab edir [216].

D.Tramp prezident seçildikdən sonra ABŞ-nin "yaşıl enerji" siyasətində də geriyə doğru addım atılmışdır. Məşhur "qaz, bala, qaz" ifadəsinin müəllifi olan Ağ ev sahibi neft qiymətlərini aşağı səviyyədə saxlamaq məqsədilə hasilatı artırmağa çağırır. O, Paris Sazişindən ABŞ-nin çıxması barədə qərar qəbul etmişdir. 2025-ci il iyunun 25-29-da Şotlandiyaya səfəri zamanı onun külək enerjisi əleyhinə söylədiyi fikirləri və "Euronews" xəbər kanalının ona cavablarını [246] "yaşıl enerji" məsələsi ətrafında cərəyan edən siyasi proseslərin müntəxabatı kimi qiymətləndirmək olar.

ABŞ prezidenti külək enerjisi və turbinləri barədə: *"eybəcər, bahalı və vəhşi təbiət üçün zərərli"*dir, *"8 il ərzində paslanır və çürüyür"*, hazırlanmasında xüsusi liflərdən istifadə edildiyi

üçün torpağa basdırılması məqbul deyil, *"enerjinin ən pis formasıdır, ən bahalı enerji növüdür"*, hamısı Çində istehsal olunur, quşlar və balinalar da daxil olmaqla, vəhşi heyvanları məhv edir, *"bütün bunlar fırıldaqdır"*, *"Almaniya bunu sınaqdan keçirdi və külək işləmir"*. D.Tramp həm də Böyük Britaniyanın baş naziri K.Starmeri Şimal dənizində neft-qaz hasilatını dəstəkləməyə çağırmışdır.

"Euronews"un cavabı: külək enerjisi ən ucuz qalıq yanacaq alternativindən 53% ucuzdur, 2010-cu ildən bəri, texnoloji inkişaf nəticəsində quruda kulək enerjisinin alınmasına çəkilən xərclər 56% azalmışdır, külək turbinlərinin istismar müddəti 20-25 il, yaxşı qulluq göstərildiyi halda 30 il və daha çoxdur, turbinlərin kütləsinin 80-95%-ni təkrar emal etmək mümkündür, dünyada külək turbinləri istehsalının 60%-i Çinin, 19%-i Avropanın payına düşür, 2024-cü ildə Avropada istifadəyə verilən turbinlərin 90%-i yerli istehsaldır, Çin istehsalının əhəmiyyətli dərəcədə ucuz olması ona maraq yaradır, ABŞ Milli Okean və Atmosfer Administrasiyasının qənaətinə görə, külək turbinləri ilə balina ölümləri arasında əlaqə sübut edilməmişdir, pişiklər, elektrik xətləri, binalar, iqlim dəyişikliyi və s. səbəblərlə müqayisədə külək turbinləri daha az quş ölümünə səbəb olur, Almaniyada elektrik enerjisi istehsalının 28%-ni külək enerjisi, ümumilikdə ölkənin enerji balansının 60%-ni BOEM təşkil edir.

Yuxarıda qeyd olunanlar enerji məsələsinin Rusiya-Aİ, ABŞ-Aİ, ABŞ-Çin geosiyasi qarşıdurmasının tərkib hissəsinə çevrildiyini bir daha sübut edir. Qlobal xarakter daşıyan bu qarşıdurmanın təsirləri, şübhəsiz ki, Azərbaycandan da yan keçmir. Məlumdur ki, COP29 ərəfəsində və onun keçirildiyi dövrdə Qərb ölkələrində bəzi dairələr respublikanı məhz neft-

qaz ölkəsi olduğu üçün əsassız şəkildə ittiham etmiş və özlərinin qeyri-konstruktiv siyasi maraqlarından irəli gələn mövqe ortaya qoymuşdular. COP29-un Liderlər Sammitinin açılış mərasimində Prezident İlham Əliyevin söylədiyi fikir bu ittihamlara ən dəqiq cavabdır: *"Neftimizin olmasında bizi ittiham etmək bir növ Bakıda il ərzində 250-dən artıq günəşli günün olmasında bizi suçlamağa bənzəyir"* [61, s.4].

Azərbaycan enerji məsələsi ilə bağlı, həm hasilat sənayesinə, həm də "yaşıl enerji"yə üstünlük verən ölkələr üçün nümunə ola biləcək real və perspektivli siyasət ortaya qoymuşdur. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, *"Hər bir təbii sərvət – istər neft, qaz, külək, günəş, qızıl, gümüş və mis – bunların hamısı təbii sərvətlərdir. Ölkələr onların olmasına görə günahlandırılmalı və bazarda onlara tələbatın olması səbəbindən onları bazara çıxardıqlarına görə suçlanmalı deyillər. İnsanlara onlar lazımdır. Bir sözlə, mesajım belədir. COP 29-un sədri kimi, əlbəttə, biz "yaşıl keçidin" güclü carçısı olacağıq və bunu edirik, lakin eyni zamanda biz realist olmalıyıq"* [61, s.4]. Həqiqətən də, hazırkı reallıqlarda BOEM dünyada neft və təbii qazın dominantlığına son qoymaq iqtidarında deyildir və bu məsələ ilə bağlı siyasi spekulyasiyalara rəvac vermək də nəticə əldə etmək baxımından mənasızdır. Eyni zamanda, nəzərə almaq lazımdır ki, neft və təbii qaz tükənən sərvətdir və bu, BOEM-dən istifadə məsələsini aktuallaşdıran amildir. Azərbaycan məhz bu gerçəklikdən çıxış edərək, bir tərəfdən, mövcud ekoloji standartlar çərçivəsində özünün neft-qaz sənayesini inkişaf etdirir və gəlir əldə edir, digər tərəfdən isə, bu gəlir hesabına gələcəyin enerjisinin, yəni "yaşıl enerji" sektorunun inkişafına sərmayə yatırır və əhəmiyyətli layihələr həyata keçirir. Həm iqtisadi, həm də siyasi məzmuna malik

olan bu strategiya respublikada "yaşıl transformasiya"nı ardıcıl və mərhələli şəkildə həyata keçirməyi özündə ehtiva etməklə yanaşı, dünyada kökündə enerji məsələsinin dayandığı siyasi qarşıdurmaların həlli üçün səmərəli bir modeldir.

"Yaşıl enerji" sahəsində xarici ölkələrin ixtisaslaşmış nüfuzlu şirkətlərinin Azərbaycana sərmayə yatırması və burada layihələr həyata keçirməsi kommersiya maraqları ilə yanaşı, siyasi amillərdən də qaynaqlanır. Bir tərəfdən, siyasi sabitlik və əlverişli biznes mühiti xarici sərmayədarlar üçün Azərbaycanın cəlbediciliyini artırır, digər tərəfdən isə, xarici şirkətlərlə əməkdaşlıq ölkənin beynəlxalq siyasi əlaqələrinin inkişafına xidmət edir və respublikaya əlavə siyasi dividendlər qazandırır. Qurumlar və ya şirkətlər arasında təşəkkül tapan işgüzar münasibətlər son nəticədə ölkələrarası münasibətlərin dərinləşməsinə gətirib çıxarır.

Azərbaycan-Gürcüstan-Rumıniya-Macarıstan və Azərbaycan-Qazaxstan-Özbəkstan arasında "yaşıl enerji" dəhlizlərinin yaradılması istiqamətində görülən işlər Xəzər-Qara dəniz regionunda siyasi inteqrasiyanı stimullaşdırır, sülhün və sabitliyin təmin olunmasına töhfə verir.

Azərbaycan ilə BƏƏ, Səudiyyə Ərəbistanı və digər ölkələr arasında, inkişaf dinamikasına malik qarşılıqlı siyasi əlaqələrin mövcudluğu həmin ölkələrin şirkətlərinin buradakı fəaliyyətini şərtləndirən amillərdəndir. Məsələn, Prezident İlham Əliyev Xızı-Abşeron KES layihəsinin Azərbaycanla dostluq və qardaşlıq əlaqələrinə malik olan Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti tərəfindən həyata keçirilməsini yüksək qiymətləndirmiş, ölkələr arasında əməkdaşlığın bir çox sahələrdə uğurla inkişaf etdiyini, erməni işğalı dövründə Səudiyyə

Ərəbistanının Azərbaycana siyasi dəstək verdiyini və Ermənistan ilə diplomatik əlaqələr qurmadığını bildirmişdir: *"Bizim siyasi əlaqələrimiz çox yüksək səviyyədədir. Eyni zamanda, iqtisadiyyatın müxtəlif sahələrində fəal əməkdaşlıq edirik"* [95, s.13-14]. Ölkə başçısı Qaradağ GES-in "Masdar" şirkəti tərəfindən inşa edilməsinin Azərbaycanla BƏƏ arasında əlaqələrə müsbət təsir göstərdiyini qeyd etmişdir: *"Bizim böyük planlarımız var və əminəm ki, Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri uğurla inkişaf etməkdə davam edəcək"* [53, s.2].

"Yaşıl iqtisadiyyat"a keçidin sosial-iqtisadi aspektlərinə gəldikdə, ilk növbədə iqtisadiyyatın və əhalinin elektrik enerjisinə tələbatının daha dolğun şəkildə ödənilməsi üçün əlavə imkanların yaranmasını qeyd etmək lazımdır.

Xarici sərmayələrin cəlb edilməsi iqtisadi inkişafının əsas şərtlərindən biridir. Bu baxımdan, respublikada "yaşıl enerji" layihələrinin həyata keçirilməsində xarici şirkətlərlə yanaşı, beynəlxalq maliyyə strukturlarının iştirakı müsbət haldır. Məsələn, Neftçala və Biləsuvar GES-in tikintisinə AYİB 180 mln. dollar [134, s.10], AİB 160 mln. dollar vəsait ayırmışdır [193], bu da Azərbaycanda iqtisadiyyatın və biznes mühitinin inkişafına müsbət təsir göstərən amillərdəndir.

Məlumdur ki, hal-hazırda Azərbaycanın ixrac gəlirlərinin əsas hissəsi neft-qaz satışından əldə olunur. Respublikanın elektrik enerjisi balansında "yaşıl enerji"nin xüsusi çəkisinin davamlı olaraq artması daha çox neft və təbii qaza qənaət etmək üçün şərait yaradır. Qənaət olunmuş məhsulların ixracata yönəldilməsi isə öz növbəsində valyuta daxilolmalarının artması və ölkənin maliyyə sabitliyinin möhkəmləndirilməsi mənasını verir. Məsələn, ildə 500 mln. kVt.s elektrik enerjisi istehsal etmək gü-

cündə olan Qaradağ GES-in istismara verilməsi hər il 119 mln. $m^3$ təbii qaza qənaət etməyə imkan verəcək [53, s.1].

Yeni iş yerlərinin yaradılması Azərbaycanda həyata keçirilən sosial-iqtisadi siyasətin əsas prioritetlərindən biridir və BOEM-dən istifadənin genişlənməsi bu baxımdan da diqqəti cəlb edir. Ölkədə bu sahədə reallaşdırılan hər bir layihə, miqyasından aslı olaraq, onlarla, yüzlərlə yeni iş yeri deməkdir. Məsələn, 2006-cı ildə Naxçıvanda Heydər Əliyev Su Anbarında inşa edilmiş KSES-də tikinti-quraşdırma işlərinə türkiyəli mütəxəssislərlə yanaşı, azərbaycanlı mütəxəssislər də cəlb olunmuşdu. Stansiya istifadəyə verildikdən sonra burada 17 nəfər daimi iş ilə təmin edilmişdir [108, s.152].

BOEM-ə diqqətin artması yeni istehsal sahələrinin meydana gəlməsini də stimullaşdırır. Azərbaycanda artıq 42-250 vat gücündə günəş panelləri istehsalı sahəsi təşəkkül tapmışdır [150, s.1] Bundan başqa, respublikada günəş panelləri vasitəsilə qidalanan səyyar günəş generatorları və qaz-qaynaq işləri aparmağa imkan verən hidrogen generatorları istehsal olunur [108, s.335].

"Yaşıl iqtisadiyyat"a keçid müasir texnologiyalar olmadan mümkün deyildir və respublikada həyata keçirilən layihələr həm də bu texnologiyaların ölkəyə idxalını stimullaşdırır. Hər bir layihənin reallaşdırılması prosesində yerli məhsullarla yanaşı, dünyanın nüfuzlu şirkətlərinin texnika və ava-danlıqlarından da istifadə olunur, bu da son nəticədə respublikanın sosial-iqtisadi həyatının texnoloji standartlarının yüksəlməsinə gətirib çıxarır.

"Yaşıl enerji" sektorunda yeni tikilən və ya təmir-bərpa işləri aparılan müəssisələrdə Çin, Türkiyə, Aİ ölkələri, ABŞ və s. ölkələrdən alınan qurğu və avadanlıqlardan da istifadə edilir.

Məsələn, Naxçıvanda Heydər Əliyev Su Anbarında tikilən KSES-də quraşdırılan avadanlıqlar Almaniyanın "Simens" şirkətinin istehsalıdır, turbinlər isə Fransada istehsal edilmişdir [108, s.152]. Zəngilan rayonunun Ağalı kəndində Həkəri çayı üzərində tikilmiş SES-də Almaniyanın "Rehart GmbH" şirkəti tərəfindən istehsal edilən və təzyiqsiz sudan elektrik enerjisi əldə etməyə imkan verən Arximed turbinləri quraşdırılmışdır [96, s.67].

SES-lərin iqtisadi səmərəliliyi onların su anbarlarının üzərində inşa edilməsi ilə də ölçülür, çünki bu anbarlardan qidalanan suvarma sisteməri kənd təsərrüfatı məhsulları istehsalını artırmaq üçün müstəsna əhəmiyyətə malikdir. Məsələn, Naxçıvanda tikilən Heydər Əliyev Su Anbarı Babək rayonunda min hektarlarla torpağın suvarılmasına və əkinçiliyin inkişafına şərait yradır [108, s.152]. Qubustanda həyata keçirilən "Ağıllı şəbəkə" pilot layihəsi çərçivəsində 11 su anbarının tikintisi nəzərdə tutulur. Burada tikiləcək GES-lərdən alınan elektrik enerjisindən istifadə etməklə, su borular vasitəsilə bu anbarlardan əkin yerlərinə çatdırılacaq və nəticədə, rayonda suvarılan torpaqların sahəsi 10 dəfə artaraq, 5 min hektardan 50 min hektara çatdırılacaq [108, s.335].

BOEM-dən istifadə ekoloji problemlərin həllində, ekosistemin dayanıqlığının təmin olunmasında və ətraf mühitin sağlamlaşdırılmasında əhəmiyyətli rol oynayır. "Yaşıl enerji" sektorunda hər bir yeni obyektin istifadəyə verilməsi yüz minlərlə ton istixana qazının atmosferə atılmasının qarşısını alır.

Qaradağ GES-in fəaliyyətə başlaması karbon emissiyasını ildə 200 min ton azaltmaq deməkdir [53, s.1]. İnşa mərhələsində olan Neftçala və Biləsuvar GES istismara verildikdən sonra karbon emissiyası ildə 725 min ton azalacaq [193]. Bunun 314 min

tonu Neftçala GES-in payına düşəcək [134, s.10]. Xızı-Abşeron KES-in istifadəyə verilməsi isə karbon emissiyasını daha 400 min ton azaldacaq [192].

Ümumilikdə, enerji istehsalı və təchizatı zəncirində "yaşıl enerji"nin rolunun artması insan sağlamlığının qorunması, flora və faunanın mühafizəsi üçün xüsusi əhəmiyyət kəsb edir.

İşğaldan azad edilmiş ərazilərin və Naxçıvan MR-in "yaşıl enerji" zonası elan edilməsi respublikada ekoloji tarazlığın qorunub saxlanması və bu ərazilərdə sosial-iqtisadi inkişaf baxımından müsbət haldır.

"Yaşıl enerji"nin ucuz, ekoloji cəhətdən təmiz və tükənməz olması ona uğurlu gələcək vəd edir. Azərbaycanda "yaşıl iqtisadiyyat"a keçidin perspektivləri barədə aşağıdakıları qeyd etmək olar:

- enerji təhlükəsizliyinin daha da möhkəmləndirilməsinə və onun dayanıqlı inkişafına yardım edəcək;
- yeni istehsal sahələrinin meydana gəlməsi üçün şərait yaranacaq;
- əmək bazarının inkişafına və əhalinin rifah səviyyəsinin yüksəlməsinə müsbət təsir göstərəcək;
- daha çox xarici investisiya qoyuluşunu və müasir texnologiyaların idxalını stimullaşdıracaq;
- mövcud olan zəngin "yaşıl enerji" potensialından daha geniş miqyasda istifadə olunması elektrik enerjisi istehsalını və ixracını artırmağa imkan verəcək, bu da qlobal enerji bazarında respublikanın mövqeyini daha da gücləndirəcək;
- yeni su anbarlarının tikintisnə, daha çox əkin sahəsinin suvarılmasına və nəticədə aqrar sektorun inkişafına töhfə verəcək;

– sahə ilə bağlı daha çox elmi tədqiqatın aparılması və kadr potensialının gücləndirilməsi zərurəti yaradacaq.

Yuxarıda qeyd olunanlar əsasında əldə edilən nəticə ondan ibarətdir ki, "yaşıl iqtisadiyyat"a keçid Aərbaycanın dayanıqlı inkişafının təmin edilməsində vacib rol oynayır və enerji resurslarından daha səmərəli istifadə olunmasını şərtləndirir. Enerji məsələsinin kifayət qədər siyasiləşdiyi müasir dövrdə Azərbaycan "yaşıl enerji"nin perspektivlərinə müsbət yanaşır və qlobal inkişafın hələlik neft və təbii qazdan əhəmiyyətili dərəcədə aslılı olduğunu da təsdiq edir. Respublikada reallaşdırılan "yaşıl iqtisadiyyat"a keçid strategiyası ölkənin enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə, bynəlxalq əlaqələrinin genişlənməsinə, siyasi və sosial-iqtisadi inkişafında inklüzivliyin və dayanıqlığın təmin olunmasına, müasir texnologiyalara çıxışına, üzləşdiyi ekoloji problemlərin aradan qaldırılmasına yardım edir, yaxın və uzaq perspektivdə qarşıda duran hədəflərə nail olmaq və qlobal çağrışlara adekvat cavab vermək üçün münbit zəmin yaradır.

# NƏTİCƏ

Müasir dövrdə enerji təhlükəsizliyi siyasətinə konseptual baxımdan vahid yanaşma mövcud olmasa da, onun milli təhlükəsizliyin əsas elementlərindən birinə çevrildiyi birmənalı olaraq qəbul edilir. Hal-hazırda ölkələrin enerji təhlükəsizliyinin təmin olunmasında mineral enerji resurslarından, xüsusilə də neft və təbii qazdan aslılıq davam edir. Dünyada neft-qaz ehtiyatlarının regionlar üzrə qeyri-bərabər yerləşməsi, iqtisadiyyatların və əhalinin elektrik enerjisinə tələbatının davamlı olaraq artması fonunda bu ehtiyatların getdikcə tükənməsi, bir tərəfdən, enerji mənbələrinə və ixrac marşrutlarına nəzarət uğrunda mübarizənin kəskinləşməsinə, digər tərəfdən isə, BOEM-ə diqqətin artmasına səbəb olmuşdur. Bununla yanaşı, qalıq yanacaq növlərindən istifadə zamanı ətraf mühitə atılan tullantılar ekoloji dayanıqlığın pozulmasında az rol oynamır. Bütün bunları nəzərə aldıqda aydın olur ki, ümumilikdə enerji təhlükəsizliyinin təmin olunması həm siyasi, həm iqtisadi, həm sosial, həm də ekoloji amillərdən aslı olub, milli və beynəlxalq parametrlərə malikdir.

Müstəqillik illərində enerji təhlükəsizliyini təmin etmək Azərbaycan dövlətinin qarşısında duran əsas vəzifələrdən və milli təhlükəsizlik siyasətinin prioritetlərindən birinə çevrilmişdir. Zəngin neft-qaz ehtiyatlarının mövcudluğu respublikanın enerji tələbatını daxili imkanlar hesabına ödəməyə imkan verir. Azərbaycanın enerji təhlükəsizliyi siyasətinin təməlində 1994-cü ildə imzalanan, ölkə xaricindən və daxildən qaynaqlanan maneələri siyasi ustalıqla dəf edən ümummilli lider Heydər Əliyevin

neft strategiyasının ən parlaq səhifəsi olan "Əsrin müqaviləsi" dayanır. Məhz bu müqavilənin imzalanmasından sonra respublikanın enerji sektoruna daxili və xarici investisiya axını güclənmiş, enerji sahəsində beynəlxalq əməkdaşlıq genişlənmiş, neft-qaz hasilatı, istehlakı və ixracında müsbət dinamikaya nail olunmuş, paralel olaraq "yaşıl enerji"yə keçid istiqamətində əhəmiyyətli addımlar atılmış, yanacaq-energetika kompleksində müvafiq infrastruktur yaradılmış, elektrik enerjisi generasiyası və enerji səmərəliliyi artmışdır.

Respublikada enerji təhlükəsizliyi sahəsində dövlət siyasəti bir-biri ilə məntiqi və qarşılıqlı əlaqədə olan komponentlər əsasında formalaşır və onların arasında müxtəlif vaxtlarda qəbul edilən qanunvericilik aktları diqqəti ilk növbədə cəlb edir. "Enerji resurslarından istifadə haqqında" Qanun, "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Qanun, "Energetika haqqında" Qanun, "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Qanun, "Elektroenergetika haqqında" Qanun, "Qaz təchizatı haqqında" Qanun dövlət siyasətinin hüquqi-normativ bazasını təşkil edir.

"Azərbaycan Respublikasının yanacaq-enerji kompleksinin inkişafı (2005-2015) üzrə Dövlət Proqramı" və "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı"nın həyata keçirilməsi respublikanın enerji təhlükəsizliyini praktiki addımlarla möhkəmləndirmişdir. Bundan başqa, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" və "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük

qayıdışa dair I Dövlət Proqramı”nda da enerji təhlükəsizlyi və “yaşıl keçid” ilə bağlı konkret tədbirlər nəzərdə tutulmuşdur.

Azərbaycanın enerji təhlükəsizliyi siyasətinin vacib komponentlərindən biri də onun institusional dayaqlarıdır. Yanacaq-energetika sektorunda dövlət siyasəti və tənzimlənməsini həyata keçirən Energetika Nazirliyi ilə yanaşı, konkret məqsədlər üzrə yaradılmış DNF, Enerji Effektivliyi Fondu, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası enerji siyasəti ilə bağlı hədəflərə çatmaq üçün əhəmiyyətli addımlar atırlar.

Həyata keçirilən enerji siyasətinin uğurlu olması özünü yalnız ölkə daxilində elektrik enerjisinə olan tələbatın dolğun şəkildə ödənilməsində deyil, həm də qlobal enerji bazarında respublikanın öz yerini tutması və etibarlı tərəfdaş imici qazanmasında, BMT-nin “Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəliyi”nin reallaşdırılması prosesində əldə etdiyi müsbət nəticələrdə göstərir. DETİ, QEAEİ və Səmərəli Enerji Keçidinin Təşviqi İndeksi üzrə beynəlxalq reytinq cədvəllərində Azərbaycanın mövqelərinin ildən-ilə yaxşılaşması onun enerji təhlükəsizliyinin getdikcə daha da möhkəmləndiyini sübut edir.

Müasir texnologiyaların tətbiqi və rəqəmsallaşma da Azərbaycanın enerji təhlükəsizliyi siyasətində xüsusi diqqət yetirilən sahələrdəndir. Bu istiqamətdə həyata keçirilən tədbirlər enerji səmərəliliyini əhəmiyyətli dərəcədə artırmağa imkan vermiş, SCADA sisteminin tətbiqi enerji sektorunda idarəetmə və nəzarət mexanizminin təkmilləşdirilməsini təmin etmişdir.

Məlum faktdır ki, Azərbaycanın enerji təhlükəsizliyinin təmin olunmasında karbohidrogen ehtiyatlarından istifadə həlledici rol oynayır. Ölkənin, mövcudluğu təsdiq olunmuş ən azı 1 mlrd. ton neft və 2,6 trln. $m^3$ təbii qaz ehtiyatları bundan sonra

onilliklər ərzində onun daxili enerji tələbatını qarşılamaq və beynəlxalq öhdəliklərini yerinə yetirmək üçün kifayətdir. Respublikada neft məhsulları istehsal edən 14 müəssisə fəaliyyət göstərir. Neft-qaz hasilatı, emalı və istehlakı ətraf mühitin çirklənd irilməsində və ekoloji balansın pozulmasında əsas rollardan birini oynayır. Azərbaycanda bu problemi aradan qaldırmaq üçün fəaliyyət iki trend üzrə həyata keçirilir. Onlardan biri, neft-qaz sənayesində ekoloji standartlara cavab verən texnologiyaların tətbiqi, digəri isə, BOEM-dən istifadənin genişləndirilməsi ilə bağlıdır.

Azərbaycan BOEM (çaylar, günəş, külək, tullantılar) ilə zəngin bir ölkədir. Respublikada bu mənbələrin ümumi iqtisadi enerji potensialı 32 min MVt-dan, "yaşıl enerji" istehsal edən 76 stansiyanın ümumi qoyuluş gücü isə 1700 MVt-dan çoxdur, yəni mövcud potensialın cox az bir hissəsindən istifadə olunur. Ümumilikdə, 2024-cü ildə Azərbaycanda istehsal olunan elektrik enerjisinin 86,4%-i, qalıq yanacaq növlərindən, 13,6%-i isə BOEM-dən alınmışdır. Respublikada "yaşıl enerji" zonalarının yaradılması və işğaldan azad edilən ərazilərdə enerji mənbələrinin mənimsənilməsinin intensivləşməsi sonuncu rəqəmin davamlı olaraq artacağını və nəticədə "yaşıl keçid" prosesinin genişlənəcəyini proqnozlaşdırmağa imkan verir.

"Yaşıl keçid" prosesində qarşıya qoyulan əsas strateji hədəf 2030-cu ilədək ümumi enerji balansında BOEM-in payını 30%-ə çatdırmaqdan ibarətdir. Qeyd olunan hədəfə nail olmaq məqsədilə Naxçıvan MR, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları "yaşıl enerji" zonası elan edilmişdir. 2020-ci ildə Energetika Nazirliyi yanında yaradılan BOEMDA bu sahədə çevik və effektiv dövlət siyasətinin həyata keçirilməsini təmin edir.

“Yaşıl keçid”in müsbət perspektivləri bu sahənin investisiya cəlbediciliyini artırmışdır. Əsas daxili investisiya mənbəyi dövlət vəsaitləridir. Neft-qaz sənayesindən əldə olunan gəlirlərin müəyyən hissəsi məhz “yaşıl enerji” sektorunun inkişafına yönəldilir.

Azərbaycan “yaşıl keçid” sahəsində beynəlxalq təşkilatlar, xarici ölkələr və şirkətlər ilə əməkdaşlıq edir, “yaşıl enerji” sektoruna xarici investisiya qoyuluşu müsbət dinamikaya malikdir. BƏƏ-nin “Masdar” şirkəti və Səudiyyə Ərəbistanının “ACWA Power” şirkəti respublikada irimiqyaslı “yaşıl enerji” layihələri həyata keçirir. Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanın iştirakı ilə “Qara dəniz yaşıl kabel” layihəsini və Azərbaycan, Qazaxstan və Özbəkstanın iştirakı ilə “Xəzər yaşıl enerji dəhlizi” layihəsinin reallaşdırılması istiqamətində addımlar atılır. Hər iki layihə geosiyasi və geoiqtisadi əhəmiyyətə malikdir.

Ölkənin müsir tarixində xüsusi yer tutan COP29, neft-qaz ölkəsi olmasına baxmayaraq, Azərbaycanın qlobal səviyyədə “yaşıl gündəliyi” fəal təbliğ etdiyini, iqlim dəyişikliklərinə, bəzi dövlətlərin müstəmləkəçilik və ayrı-seçkilik siyasətinə qarşı mübarizənin ön sıralarında yer aldığını bütün dünyaya göstərdi.

Ümumilikdə Azərbaycanın enerji təhlükəsizliyi siyasəti milli maraqlara və inkişaf strategiyasına tam cavab verir, onun düzgünlüyü və səmərəliliyi əldə edilən müsbət nəticələrlə sübut olunmuşdur.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

*Azərbaycan dilində*


1. Abbasov, V.N. Azərbaycanda iqlim amillərinin dəyişmə xarakteri // - Bakı: "AzHvəM" EİB-nin elmi əsərlər toplusu, - 2019. cild XXXIX, - s. 232-236.
2. Abdullayev, V.H. Rəqəmsal texnologiyanın enerji sistemində inteqrasiyası // - Bakı: Energetikanın problemləri, - 2020. № 3, - s. 44-48.
3. Axundova, L.R. Enerji təhlükəsizliyinin təmin olunmasının Azərbaycan-Türkiyə modeli: / siyasi elmlər üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / - Bakı, 2025. - 27 s.
4. Alternativ və bərpa olunan enerji sahəsində əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı // Azərbaycan. – 2013, 3 fevral. - s. 4.
5. Aslanov, H.Q. Kürün aşağı axarının ekocoğrafi problemləri / H.Q. Aslanov. – Bakı: "Çaşıoğlu", - 2013. - 234 s.
6. "Avropa Komissiyasının Azərbaycan Respublikasına Energetika Sahəsində İslahatlara Dəstək Proqramı ilə bağlı ayırdığı 13,0 mln. avro məbləğində qrant vəsaitinin Proqramın məqsədlərinə istifadəsi üzrə Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı: [Elektron resurs] - URL: https://e-qanun.az/framework/18839#_ednref4
7. Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır // Azərbaycan. – 2023, 16 dekabr. - s. 1-2.

8. Azərbaycana yatırılan sərmayə "ACWA Power" şirkətinin Səudiyyə Ərəbistanı hüdudlarından kənarda qoyduğu ən iri sərmayədir // Azərbaycan. – 2022, 14 yanvar. - s. 8.
9. Azərbaycanda daha bir su elektrik stansiyası özəlləşdirilib: [Elektron resurs] / Trend. – 15 sentyabr, 2010. URL: https://az.trend.az/business/economy/1751076.html
10. "Azərbaycanda dayanıqlı enerjinin inkişaf etdirilməsinə dəstək" layihəsi bərpa olunan enerji mənbələrindən praktiki istifadəyə imkan yaradacaqdır // Azərbaycan. – 2015, 2 dekabr. - s. 5.
11. Azərbaycan energetikası. Statistik məcmuə 2024 / məcmuənin rəh. T. Budaqov – Bakı: "AZMEGA GROUP" MMC, - 2024. - 164
12. Azərbaycan enerji sahsində etibarlı tərəfdaşdır. // Azərbaycan. – 2025, 5 aprel. - s. 1-3.
13. Azərbaycan hökuməti ilə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında sənədlər imzalanıb // Azərbaycan. – 2023, 27 oktyabr. - s. 4.
14. Azərbaycan hökuməti Uşaqlar, Gənclər və İqlim fəaliyyəti Bəyannaməsini imzalayıb // Azərbaycan. – 2024, 12 noyabr. - s. 8.
15. Azərbaycanın xarici ticarəti 2024. Statistik məcmuə / məcmuənin rəh. T.Budaqov – Bakı: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, - 2024. - 211 s.
16. Azərbaycanın neft-qaz yataqları və perspektivli strukturları Xəzər dənizi akvatoriyası (Sorğu kitabı) / F.İsmayılov, Ə.Salmanov, B.Məhərrəmov [və b.] – Bakı: "MSV" MMC nəşriyyatı, - 2024. - 647 s.
17. Azərbaycanın statistik göstəriciləri. 2024. Statistik məcmuə / məcmuənin rəh. T.Budaqov – Bakı: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, - 2024. - 695 c.

18. Azərbaycan kiçik ada dövlətlərinə birmənalı dəstəyini nümayiş etdirir // Azərbaycan. – 2024, 14 noyabr. - s. 1-2.
19. Azərbaycan, Qazaxstan, Özbəkstan AİB və AİİB ilə "Xəzər Yaşıl Enerji Dəhlizi" üzrə əməkdaşlıq edəcəklər // Azərbaycan. – 2025, 6 aprel. - s. 4.
20. Azərbaycan, Qazaxstan və Özbəkstan münasibətlərinin tarixində əlamətdar hadisə. // Azərbaycan. – 2024, 14 noyabr. - s. 1, 3.
21. Azərbaycan Respublikası Dövlət Neft Fondu: [Elektron resurs] - URL: https://oilfund.az/
22. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi: [Elektron resurs] - URL: https://eco.gov.az/
23. Azərbaycan Respublikası Energetika Nazirliyi: [Elektron resurs] - URL: https://minenergy.gov.az/az/#
24. "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı: [Elektron resurs] - URL: https://e-qanun.az/framework/53431
25. Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı // - Bakı: Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, - 2004. № 10 (88), - s. 2831-2838.
26. Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrinin tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Azərbaycan. – 2009, 17 noyabr. - s. 1.
27. Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan

Respublikası Prezidentinin Fərmanı // Respublika. – 2019, 15 yanvar. - s. 4.
28. Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Şirkətinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı // Azərbaycan. – 2012, 2 iyun. - s. 1.
29. Azərbaycan Respublikasının Dövlət Neft Fondunun yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı // Bakı: Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, - 1999. № 12 (30), - s. 2848-2849.
30. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi: [Elektron resurs] - URL: https://www.stat.gov.az/
31. Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin Əsasnaməsi // Xalq qəzeti. – 2020, 23 sentyabr. - s. 4.
32. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri: 1991-2016 / red. F. Məmmədov, C. Vəliyev, A. Məmmədov - Bakı: Poliart MMC, - 2017. - 904 s.
33. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı: [Elektron resurs] - URL: https://e-qanun.az/framework/47397
34. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022-2026-cı illərdə "yaşıl enerji" zonasının yaradılması üzrə Tədbirlər Planı: [Elektron resurs] / 21 iyun, 2022. - URL: / https://nk.gov.az/
35. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı // Azərbaycan. – 2022, 17 noyabr. - s. 11-14.

36. "Azərbaycan Respublikasının yanacaq-enerji kompleksinin inkişafı (2005-2015-ci illər) üzrə Dövlət Proqramı"nın aidiyyəti bəndləri üzrə 2005-2015-ci illər ərzində görülmüş işlər barədə Yekun Hesabat: [Elektron resurs] - URL: https://minenergy.gov.az/uploads/Proqramlar/yanacaq-enerji/1.pdf
37. Azərbaycan Respublikasının yanacaq-enerji kompleksinin inkişafı (2005-2015) üzrə Dövlət Proqramı // Bakı: Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, - 2005. № 2 (92), - s. 362-375.
38. "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı: [Elektron resurs] - URL: https://e-qanun.az/framework/50013
39. Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyinin Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı // Azərbaycan. – 2009, 17 iyul. - s. 2.
40. Azərbaycan-Rusiya, 1992-2002: Sənədlər toplusu / tərt. ed. X. Xələfov – Bakı: "Cümə" QTSC, - 2002. - 590 s.
41. Azərbaycan və "ACWA Power" Batareya Enerji Saxlanc Sisteminə dair müqavilə imzalayıb // Azərbaycan. – 2024, 4 may. - s. 12.
42. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası // Bakı: Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, - 2012. № 12 (186), - s. 2545-2580.
43. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər // Azərbaycan. – 2021, 3 fevral. - s. 1, 5.
44. "Azərenerji" ASC-nin 330/110 kilovoltluq "Cəbrayıl" enerji qovşağının təməli qoyulub // Azərbaycan. – 2022, 27 may. - s. 3.

45. Baxşıyeva, Y. Cənubi Qafqaz ölkələrində su ehtiyatlarının inteqrasiyalı idarə edilməsi problemləri // Bakı: GEO Strategiya, - 2019. № 1 (49), - s. 60-64
46. Bakı Beynəlxalq Enerji Xartiyası Forumu // Respublika. – 2020, 29 oktyabr. - s. 7.
47. Bayramova, A. Maliyyənin yeni yaşıl dəhlizləri: yaşıl istiqrazların faydaları // Bakı: İqtisadi islahatlar, - 2022. №1 (2), - s. 56-61.
48. Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin Nizamnaməsinin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu Bakı: Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, - 2014. № 5 (203), - s. 1152-1165.
49. Bərpa olunan saf enerji mənbələri / R. Talışınski, N. Əliyev, L. Həsənova [və b.] - Bakı: "Ayna Mətbu Evi", - 2007. - 72 s.
lıyıq ki, son vaxtlaradək, yəni Azərbaycanın müstəqilliyi əldə olunan dövrədək xalqımız heç vaxt öz təbii sərvətlərinin sahibi olmamışdır. 1920-ci ilə qədər neftimiz həm xarici neft şirkətləri tərəfindən, həm də Azərbaycanın öz sahibkarları tərəfindən hasil edilsə də, Azərbaycanın, xüsusən Bakının inkişafı üçün böyük işlər görülsə də, xalq bu sərvətin sahibi deyildi.

1920-ci ildən başlayaraq, Azərbaycanın həyatında çox böyük dəyişikliklər baş vermişdir. Azərbaycan iqtisadiyyatı inkişaf etdirilmiş, respublikada nəhəng sənaye potensialı, elmi potensial yaradılmış, neft sənayemiz böyük tarixi yol keçmişdir. Ancaq yenə də Azərbaycan öz neftinin yeganə və tam sahibi olmamışdır. Bütün bu sərvətlərimiz özümüzə yox, sovet dövlətinə məxsus olmuşdur. İndi isə biz yeni bir mərhələdə yaşayırıq. Azərbaycan Respublikası müstəqil dövlətdir. Azərbaycan xalqı öz təbii sərvətlərinin sahibidir. Bu sərvətlərdən necə istifadə edilməsini xalqımızın özü sərbəst surətdə müəyyənləşdirir.

Neft yataqlarımızın müştərək işlənməsi haqqında Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici ölkələrin aparıcı neft şirkətləri arasında danışıqlar üç il ərzində məhz bu prinsiplər əsasında aparılmışdır. Şübhəsiz, danışıqlar hamar yolla getməmişdir. Burada çətinliklər də olmuşdur, enişlər və yoxuşlar da. Lakin danışıqlar, nəhayət, başa çatdırılmışdır. Xarici ölkələrin zəngin təcrübəli böyük neft şirkətlərinin Azərbaycan neftinə marağı təbii haldır və biz bunu məmnuniyyətlə qəbul etmişik. Elə özümüz də buna böyük maraq göstərmişik və göstəririk.

Keçmiş dövrlərdən fərqli olaraq, indi bu məsələlər barədə Azərbaycan Respublikası hər bir ölkə ilə, o cümlədən bu neft şirkətlərinin mənsub olduqları ölkələrlə, xarici dövlətlərin neft şirkətləri ilə müstəqil surətdə danışıqlar aparır və danışıqlarda

öz prinsiplərinin qəbul edilməsinə çalışır. Xəzərin Azərbaycana aid sektorundakı "Azəri" və "Çıraq" neft yataqlarının, "Günəşli" neft yatağının bir hissəsinin müştərək işlənməsi haqqında müqavilə Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici ölkələrin neft şirkətləri arasında danışıqlar nəticəsində, nəhayət, hazırlanıb başa çatdırılmışdır. Bu müqavilə mənə, Azərbaycan prezidentinə təqdim edilmişdir. Sizə məlum olduğu kimi, sentyabrın 14-də müqavilənin layihəsi təhlil edildikdən sonra mən onun Azərbaycan Dövlət Neft Şirkəti tərəfindən imzalanması haqqında fərman vermişəm. Xarici ölkələrin neft şirkətləri də layihənin imzalanması haqqında qərar qəbul etmişlər. Bu şirkətlərin mənsub olduqları ölkələrin dövlət rəhbərləri də xeyir-dua vermişlər. Bütün bunların nəticəsində indi biz buraya, müqavilənin imzalanması mərasiminə toplaşmışıq.

Açıq demək istəyirəm, müqavilədə Azərbaycan tərəfinin istək və arzularının heç də hamısı öz əksini tapmamışdır. Lakin biz başa düşürük ki, hər hansı bir müqavilə hər iki tərəfin mənafelərini təmin etməlidir. Qərb neft şirkətlərinin konsorsiumu öz mənafelərini təmin etməyə çalışmış, Azərbaycan Dövlət Neft Şirkəti isə Azərbaycan Respublikasının milli mənafelərini təmin etməyə səy göstərmişdir. Deyə bilərəm ki, görülən böyük və gərgin işin nəticəsində, tərəflərin məsələyə yüksək məsuliyyətlə yanaşması nəticəsində, nəhayət, hər iki tərəfin mənafelərinə cavab verən layihə hazırlanmışdır. Ona görə də mən bu gün imzalanacaq müqaviləni Azərbaycan Respublikasının indisi və gələcəyi üçün iqtisadi baxımdan mənfəətli hesab edirəm və onun imzalanmasına qərar vermişəm.

Biz belə bir addım atmaqla Azərbaycanın dünya üçün, dünya iqtisadiyyatı üçün açıq ölkə olduğunu nümayiş etdiririk.

Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, Azərbaycanın tam müstəqil dövlət olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdiririk. Biz müqaviləni imzalamaqla Azərbaycan Respublikası ilə dünyanın inkişaf etmiş dövlətləri, onların ən böyük şirkətləri arasında əlaqələr yaradır, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına, azad bazar iqtisadiyyatına qoşulması üçün əsas yaradırıq. Biz bu müqaviləni imzalamaqla dünyaya bir daha nümayiş etdiririk ki, müstəqil Azərbaycan Respublikası demokratik və hüquqi dövlətdir. Azərbaycanda demokratik prinsiplərin bərqərar olması və inkişaf etməsi üçün geniş meydan açılmışdır. Azərbaycan Respublikası bazar iqtisadiyyatı yolu ilə getmək əzmindədir. Bu müqavilənin imzalanması bazar iqtisadiyyatının Azərbaycanda həyata keçirilməsi üçün ilk böyük addımdır. Biz bu müqaviləni imzalamaqla xarici ölkələrdən Azərbaycana investisiya qoyulması üçün böyük yol açırıq, digər sahələrdə çalışan şirkətlərin də Azərbaycanda fəaliyyət göstərməsi üçün zəmin yaradırıq, müstəqil Azərbaycan Respublikasının iqtisadiyyatında və ictimai-siyasi həyatında hökm sürən sabitliyi dünyaya bir daha nümayiş etdiririk. Biz bu müqaviləni imzalamaqla müqavilədə iştirak edən şirkətlərin mənsub olduqları böyük ölkələrlə – Amerika Birləşmiş Ştatları, Rusiya, İngiltərə, Türkiyə, Norveç kimi dövlətlərlə dostluq əlaqələrinin, iqtisadi əməkdaşlığın və ümumiyyətlə, bütün sahələrdə əlaqələrin möhkəmlənəcəyinə ümid bəsləyirik.

Beləliklə, müqavilənin imzalanması üçün gözəl şərait yaranmışdır və biz bu gün böyük bir hadisənin şahidiyik. Müqavilənin imzalanması Azərbaycan Respublikasının həyatında, iqtisadiyyatında və xüsusən neft sənayesində yeni bir mərhələ

açır. Müqavilə 30 il müddətinə bağlanır. Deməli, qarşımızda uzun bir yol var və böyük işlər, böyük vəzifələr durur. Müqaviləni hazırlayanlar yaxşı bilirlər, lakin mən buraya toplaşanlara, bütün Azərbaycan xalqına bəyan etmək istəyirəm ki, bu müqavilənin bağlanması nə qədər çətin idisə, onun həyata keçirilməsi ondan da çətin olacaqdır. Müqavilənin hər iki tərəf üçün, o cümlədən Azərbaycan xalqı üçün, müstəqil Azərbaycan Respublikası üçün mənfəəti və müsbət nəticələri onun ardıcıl surətdə icrasından asılıdır. Müqavilə ikitərəfli hərəkət olan yola bənzəyir: gərək hər iki tərəf eyni sürətlə hərəkət etsin. Şübhəsiz ki, burada xarici neft şirkətlərinin üzərinə çox böyük vəzifələr düşür. Ümidvar olduğumu bildirmək istəyirəm ki, həmin şirkətlər və onların mənsub olduqları ölkələrin dövlət orqanları bu müqavilənin həyata keçirilməsi üçün vaxtında lazımi tədbirlər görəcəklər.

Azərbaycan Respublikasının üzərinə düşən vəzifələr daha çətin, daha ağırdır. Bilirsiniz ki, Azərbaycan iqtisadiyyatı ağır böhran içərisindədir. Neft sənayesində də böyük çətinliklər yaranmışdır. Məhz bu böhrandan çıxmaq, Azərbaycan iqtisadiyyatını inkişaf etdirmək, xalqımızın rifahını qısa müddətdə lazımi səviyyəyə qaldırmaq üçün hamı əl-ələ verib müqavilənin həyata keçirilməsinə çalışmalıdır. Ümidvaram ki, Azərbaycanın qəhrəman və təcrübəli neftçiləri, alimləri, mütəxəssisləri, iqtisadiyyatımızda bu sahə ilə məşğul olan şəxslər, bir sözlə, hamı bu vəzifəni ən böyük, ən şərəfli vəzifə kimi qəbul edib, onun həyata keçirilməsinə çalışacaqdır. Mən Azərbaycan prezidenti kimi, bu müqavilənin imzalanmasına qərar verərək öz məsuliyyətimi hiss edirəm, sizə söz verirəm ki, onun həyata keçirilməsi üçün əlimdən gələni əsirgəməyəcəyəm.

Bu gün bu təntənəli və möhtəşəm mərasimdə mən Azərbaycan neftçilərini, Azərbaycan xalqını, bütün Azərbaycan vətəndaşlarını bu əlamətdar tarixi hadisə münasibətilə təbrik edirəm. Azərbaycan Dövlət Neft Şirkətinin bu sahədə çalışan nümayəndə heyətinin əməyini, ümumiyyətlə, şirkətin bu sahədə gördüyü işləri qiymətləndirirəm və onları nail olduqları müvəffəqiyyətlər münasibətilə təbrik edirəm. Bu müqavilənin hazırlanıb başa çatdırılması üçün böyük işlər görmüş olan xarici ölkələrin neft şirkətləri konsorsiumunun rəhbərlərini, həmin şirkətlərin işçilərinin hamısını ürəkdən təbrik edir, onlara xoş arzularımı yetirir və əmin olduğumu bildirmək istəyirəm ki, əməkdaşlığımız uğurlu olacaqdır.

Xarici neft şirkətlərinin mənsub olduqları ölkələrin – ABŞ-ın, Rusiyanın, Böyük Britaniyanın, Türkiyənin, Norveçin dövlət və hökumət başçılarını bu hadisə münasibətilə ürəkdən təbrik edirəm.

Biz bu müqavilə əsasında sıx birləşir, böyük əməkdaşlığa başlayırıq və mən şübhə etmirəm ki, əməkdaşlığımız uğurlu olacaqdır, buna maneçilik törədən bütün qüvvələr dəf ediləcəkdir, müstəqil Azərbaycan Respublikası öz taleyinin, öz sərvətlərinin sahibi kimi, bu əməkdaşlıq sayəsində dünya birliyində, dünya iqtisadi birliyində öz layiqli yerini tutacaqdır.

Sizi, bu mərasimə toplaşanları, bütün bu məsələlərə müsbət maraq göstərənlərin hamısını bir daha ürəkdən təbrik edir, müqavilənin imzalanması uçun xeyir-dua verirəm. Xeyirli olsun, uğurlu olsun. Azərbaycan xalqının xoşbəxt gələcəyi naminə bu müqavilənin bu gün burada imzalanmasını ürəkdən təbrik edirəm. Sağ olun.

## BAKIDA COP29-un LİDERLƏR SAMMİTİNİN AÇILIŞ MƏRASİMİNDƏ PREZİDENT İLHAM ƏLİYEVİN ÇIXIŞI

12 noyabr 2024-cü il

– Hörmətli BMT-nin Baş katibi.

Hörmətli dövlət və hökumət başçıları.

Xanımlar və cənablar.

Mən sizin hamınızı Azərbaycanda salamlayıram.

Qonaqlarımızın çoxu Azərbaycana ilk dəfədir ki, səfər edir. Ümid edirəm ki, onların ölkəmizlə daha yaxından tanış olmaq, onun tarixini, ənənələrini və mədəniyyətini öyrənmək imkanı olacaqdır.

Mən COP29-a aparan yolda Azərbaycana verdiyi dəstəyə görə BMT-nin Baş katibi cənab Antonio Quterreşə və BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyinə təşəkkürümü bildirmək istərdim. Mən Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti, əziz qardaşım Əlahəzrət Şeyx Məhəmməd bin Zayed Əl Nəhyanı və onun bütün komandasını Dubayda COP28-də əldə olunmuş tarixi konsensus münasibətilə təbrik edirəm və Bakıda COP29 üçün hazırlıqlarda verdikləri dəstəyə görə minnətdaram.

Ötən ilin dekabrında təxminən 200 ölkənin yekdil qərarı ilə Azərbaycana COP29-a ev sahibliyi etmək şərəfi verildi. Biz bu qərarı ölkəmizə olan hörmətin əlaməti, beynəlxalq arenada oynadığımız fəal rolun dəyərləndirilməsi kimi görürük.

Azərbaycan Şimal ilə Cənub, Qərb ilə Şərqin qovuşduğu ölkədir və bu, təkcə coğrafiya ilə bağlı deyil. Biz müxtəlif beynəlxalq iştirakçılar arasında siyasi, mədəni, enerji, ticari və nəqliyyat

körpülərini sala bilərik. Azərbaycanın başladığı meqalayihələr artıq Avrasiyanın enerji və daşımalar yollarını dəyişib və məhsuldar, çoxtərəfli əməkdaşlıq formatının qurulması ilə nəticələnib.

Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin Ermənistan tərəfindən 30 illik işğalına, etnik təmizləməyə və bir milyon azərbaycanlının öz doğma torpaqlarından qovulmasına baxmayaraq, biz özünü təmin edən iqtisadiyyata və müstəqil siyasətə malik güclü ölkəni qura bildik. Dörd il öncə biz İkinci Qarabağ müharibəsində tarixi Qələbəni qeyd etdik.

Bir il əvvəl biz BMT-nin Nizamnaməsinə, beynəlxalq hüquqa və BMT-nin Təhlükəsizlik Şurasının 30 il kağız üzərində qalmış qətnamələrinə uyğun olaraq, suverenliyimizi tam bərpa etdik. Biz həmin qətnamələri özümüz icra etdik, beynəlxalq hüququ, ədaləti bərpa etdik və Ermənistanın işğalına son qoyduq. COP29-un sədri kimi Azərbaycan inkişaf etmiş və inkişaf edən ölkələr, Qlobal Cənub və Qlobal Şimal arasında ümumi anlaşmaya nail olmaq üçün əlindən gələni edəcək. Azərbaycan 120 ölkənin yekdil qərarı ilə dörd il ərzində, BMT-dən sonra ikinci beynəlxalq qurum olan Qoşulmama Hərəkatına uğurla sədrlik etdi.

Azərbaycan, həmçinin təxminən 60 ölkəni birləşdirən İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür. Avropa İttifaqının 10 üzvü ilə Azərbaycan sazişlər imzalayıb və Strateji tərəfdaşlıq haqqında bəyannamələr qəbul edib. Bütün bunlar bizə düşünməyə imkan verir ki, biz iqlim dəyişmələri məsələsində fərqli mühüm iştirakçılar arasında körpülərin salınmasında çox faydalı və yardımçı ola bilərik. Azərbaycan çoxtərəfliliyin tərəfdarıdır. Eyni zamanda, biz mədəniyyətlərarası dialoqda fəal rol oynayırıq.

BMT-nin Sivilizasiyalar Alyansı ilə birlikdə biz iki ildən bir Bakıda Mədəniyyətlərarası Forum təşkil edirik. Multikultu-

ralizm bizim dövlət siyasətimizdir və həyat tərzimizdir. Azərbaycan xalqı etnik və dini mənsubiyyətindən asılı olmayaraq sülh və razılıq şəraitində bir ailə kimi yaşayır.

İndi isə mən Azərbaycanın Yaşıl gündəliyi haqqında bir neçə söz söyləmək istərdim. Bərpaolunan enerjidə texniki potensialımız quruda 135 giqavat və dənizdə isə 157 giqavat təşkil edir. Ötən il BƏƏ-nin Masdar şirkəti bir regionumuzda 230 meqavatlıq Günəş enerji stansiyasının açılışını etdi. Səudiyyə Ərəbistanının "Acwa Power" şirkəti isə hazırda 240 meqavatlıq külək enerjisi stansiyasını tikir.

COP29 çərçivəsində Birləşmiş Krallığın bp şirkəti ilə 240 meqavatlıq Günəş enerjisi stansiyasının dörd il əvvəl erməni işğalından azad edilmiş Cəbrayıl rayonunda tikilməsi ilə bağlı saziş imzalanacaq. Bu layihə sayəsində dünyanın ən iri neft və qaz terminallarından biri olan Səngəçal terminalında dekarbonlaşma təmin ediləcəkdir.

Biz 2030-cu ilə qədər təxminən altı giqavatlıq Günəş, külək və hidroenerji stansiyalarının tikilməsini planlaşdırırıq. Lakin bu, tam planlarımızın hamısı deyil, 10 giqavatlıq bərpaolunan enerji layihələri üzrə müqavilələr və anlaşma memorandumları imzalanıb.

Biz, həmçinin ixrac bazarlarına diqqət yetiririk və Xəzər dənizindən başlayaraq Qara dənizin dibi ilə enerji kabelinin çəkilməsini nəzərdə tutan digər mühüm enerji təhlükəsizliyi layihəsinin həyata keçirilməsi üçün tərəfdaşlarımızla fəal çalışırıq.

Bu, bizə Avropaya yaşıl enerjini ixrac etmək imkanı verəcək və bu kabelin texniki potensialı dörd giqavatdır. Yeri gəlmişkən, texniki-əsaslandırma işləri bu yaxınlarda bitəcək. Lakin yenə də bu, yalnız başlanğıcdır.

Yaşıl gündəliyimiz, həmçinin Azərbaycanın müxtəlif bölgələrini əhatə edir. Beləliklə, Azərbaycanın Naxçıvan, Qarabağ və Şərqi Zəngəzur regionları yaşıl enerji zonaları elan edilib və bu, ərazimizin, demək olar ki, dörddəbir hissəsidir.

İndi isə mən enerji təhlükəsizliyinin digər seqmenti haqqında bir neçə söz söyləmək istərdim. Bu da neft və qazla bağlıdır. Anlayıram ki, bu mövzu iqlim dəyişmələrinə aid konfransda o qədər də populyar deyil. Lakin bunsuz mənim şərhlərim tam olmazdı. Sadəcə, bir informasiya ilə başlamaq istərdim. Dünyada sənaye üsulu ilə ilk neft quyusu Azərbaycanda, Bakıda 1846-cı ildə qazılıb. O, buradan uzaq yerdə yerləşmir və həmin yerə 10-15 dəqiqəlik yoldur. Dənizdə ilk neft quyusu da Azərbaycan neftçiləri tərəfindən Xəzər dənizində XX əsrin ortalarında qazılmışdır. XIX əsrdə qlobal neft hasilatının yarısı Azərbaycanın payına düşürdü.

Əgər o vaxt bəzi Qərb siyasətçiləri və media bizi neft dövləti adlandırsaydı, bu, bəlkə də anlaşılan olardı. Lakin əgər onlar indi, yəni bu gün də bizi neft dövləti adlandırırlarsa, bu, ədalətsizlikdir və yalnız siyasi mədəniyyət və biliklərin çatışmamasından xəbər verir. Bu gün Azərbaycan qlobal neft hasilatında 0,7 faiz, qlobal qaz hasilatında isə 0,9 faiz paya malikdir. Amma dünyada bir nömrəli neft və qaz hasilatçısı olan, Azərbaycandan 30 qat artıq neft hasil edən ölkənin yalan xəbər mediası bizi neft dövləti adlandırır.

Yaxşı olardı ki, ən azı onlar özlərinə və Azərbaycandan 10 dəfə artıq neft hasil edən özlərinin qonşuluğundakı ölkəyə baxsınlar. Azərbaycanın qlobal qaz atılmalarındakı payı cəmi 0,1 faizdir. Mən bu rəqəmləri auditoriyamızın diqqətinə çatdırmalıyam, çünki Azərbaycan COP29-a ev sahibi seçildikdən dər-

hal sonra biz əlaqələndirilmiş və yaxşıca təşkil olunmuş qarayaxma və böhtan kampaniyasının hədəfinə çevrildik.

Qərbin yalan xəbər mediası, dırnaqarası müstəqil QHT-ləri və bəzi siyasətçiləri sanki ölkəmiz haqqında dezinformasiya və səhv məlumatın yayılmasında yarışa çıxıblar. Neftimizin olmasında bizi ittiham etmək bir növ Bakıda il ərzində 250-dən artıq günəşli günün olmasında bizi suçlamağa bənzəyir.

Ölkələrə qiymət başqa meyarlara görə verilməlidir. Məsələn, Azərbaycanda işsizliyin səviyyəsi 5,4 faiz, yoxsulluğun səviyyəsi 5,2 faizdir. Yaşıl gündəliyimizə gəldikdə, mən planlarımızı artıq təsvir etdim. Ölkələr öz xarici borcunu necə idarə edirlər? Azərbaycanın xarici borcu ÜDM-in cəmi 7,5 faizini təşkil edir.

Beləliklə, ölkə göstəricilərinin qiymətləndirilməsində əsas götürülməli bu və bir çox digər mühüm meyar bunlardır, Tanrının bəxş etdiyi təbii sərvətlər meyar kimi götürülməli deyil. Mən bir neçə ay bundan əvvəl söylədim: indi mənə hücum çəkmək istəyənlərin hamısı, – mən beynəlxalq medianı nəzərdə tuturam, – mənim yalnız Tanrının bəxş etdiyi hədiyyə sözlərimə iqtibas edirlər.

Bu gün isə mən bu auditoriyada, burada təkrar etmək istəyirəm: Bu, Tanrının bəxş etdiyi hədiyyədir. Hər bir təbii sərvət – istər neft, qaz, külək, günəş, qızıl, gümüş və mis – bunların hamısı təbii sərvətlərdir. Ölkələr onların olmasına görə günahlandırılmalı və bazarda onlara tələbatın olması səbəbindən onları bazara çıxardıqlarına görə suçlanmalı deyillər. İnsanlara onlar lazımdır. Bir sözlə, mesajım belədir. COP29-un sədri kimi, əlbəttə, biz yaşıl keçidin güclü carçısı olacağıq və bunu edirik, lakin, eyni zamanda, biz realist olmalıyıq.

Digər ittiham məsələsinə gəldikdə, iki il əvvəl Azərbaycan və Avropa Komissiyası enerji sahəsində strateji tərəfdaşlıq bəyannaməsinə imza atdılar. Lakin bu, bizim ideyamız deyildi. Bu, Avropa Komissiyasının təklifi idi. Avropa Komissiyasının sədri bu sənədi imzalamaq üçün iki il öncə Bakıya gəldi, çünki geosiyasi vəziyyətin dəyişməsi səbəbindən onlara bizim qaz lazım idi. Onlar bizdən yardım xahiş etdilər. Biz razılaşdıq. Əgər yardımımıza ehtiyac varsa, biz hər zaman kömək etməyə hazırıq. Dedik, yaxşı, biz enerji təhlükəsizliyində Avropaya kömək edəcəyik. İki il əvvəl həmin bəyannaməni imzalayanda qazımızı alan ölkələrin, yəni Avropa ölkələrinin sayı iki idi. İndi isə səkkiz ölkə alır.

Azərbaycan qazına çıxışı olan on ölkədən səkkizi Avropada yerləşir. Avropa Komissiyası, həmçinin bizdən xahiş edib ki, biz qaz təchizatını 2027-ci ilə qədər iki dəfə artıraq. Bu, Avropa Komissiyasının sədri və mənim tərəfimdən iki il öncə Bakıda imzalanmış bəyannamədə əks olunub. Əfsuslar olsun ki, ikili standartlar, digər ölkələrə dərslər vermək adəti və siyasi riyakarlıq bəzi qərb ölkələrindəki bir sıra siyasətçilər, dövlət nəzarətində olan QHT-lər, yalan xəbər mediası üçün fəaliyyət metoduna çevrilib.

Mənim sonuncu mesajım təxminən bir ildir ki, boykotu təşviq edən dairələrədir. Onlar əllərində olan bütün alətlərdən istifadə etdilər ki, Bakıda COP29-u boykot kampaniyası başlansın. Onlara pis xəbər var: bizim 196 ölkədən gəlmiş və qeydiyyatdan keçmiş 72 min iştirakçımız var. Onların sırasında 80 prezident, vitse-prezident və Baş nazirlər var. Beləliklə, dünya Bakıya toplaşıb və biz bütün dünyaya deyirik: Azərbaycana xoş gəlmisiniz!

Sağ olun.

# BAKIDA COP29-un LİDERLƏR SAMMİTİNİN AÇILIŞ MƏRASİMİNDƏ BMT-nin BAŞ KATİBİ ANTONİO QUTERREŞİN ÇIXIŞI

12 noyabr 2024-cü il

– Cənab Prezident Əliyevə, COP sədri Muxtar Babayevə və eyni zamanda, Azərbaycan Hökumətinə qonaqpərvərliyə görə təşəkkürümü bildirirəm. Çox sağ olun.

Prezidentlər bizim əməkdaşlığa etibar edə bilərlər. Həqiqətən də sizin səyiniz nəticəsində uğurlu bir COP-a imza atacağıq. Hər kəsə bu COP-da ehtiyacımız vardır. Həqiqətən bir saata bənzəyən və bir toplam olaraq biz qlobal temperaturların 2,5-ə çatdırılmasına yaxınlaşırıq və vaxt bizim tərəfimizdə deyil. Bu, 2024-cü ilin əlavəsi və ən yüksək temperatur olaraq ən isti il olacaqdır, rekordları qıracaqdır. İqlim baxımından görürük ki, növbəti qasırğa çatmamış ailələr artıq evlərindən qaçırlar, biomüxtəliflik dağılır, insanlar, işçilər həqiqətən də isti bir dövrdə öz huşunu itirirlər. İnsanlar daşqınlardan, infrastrukturu dağıdılan təbii fəlakətlərdən, quraqlıqdan əziyyət çəkirlər, bitkilər tələf olur.

Bütün bunlar və digər faciələr, eyni zamanda, faktiki olaraq insanların səbəb olduğu iqlim dəyişmələri ucbatından baş verir. Burada hər hansı bir ölkə istisna deyil. Bu şoklar bütün xərcləri artırır. Dağıdılmış evlər sığorta haqlarının artımına səbəb olur. Meşələr məhv edilir. Bütün bunlar, həqiqətən də bir növ qaçılmaz ədalətsizliyə səbəb olur, bunu varlılar yaradır, yoxsullar isə onun haqqını ödəyirlər. Biz görürük ki, karbonlar və emissiyalar ortalama olaraq aşağı düşməsə, adaptasiya təd-

birləri tətbiq olunmasa, bütün iqtisadiyyatlar daha böyük ziyana uğrayacaq. Amma bu kontekstdə hələ də ümidimiz qalır. COP28-də siz hər biriniz öz üzərinizə karbohidrogen resurslarından yayınma və xalis sıfra yaxınlaşma öhdəliyi götürmüsünüz. İqlimə uyğunlaşma tədbirlərini təşviq etməyə və eyni zamanda, iqtisadi baxımdan iqlim dəyişmələri planları və milli təklifləri qəbul etməyə söz verdiniz. İndi isə bu sözə əməl etməyin vaxtı çatıb. Bəşəriyyət sizi dəstəkləyəcək. BMT-nin İnkişaf Proqramı və Oksford Universiteti göstərir ki, dünyada əhalinin 80 faizi planda nəzərdə tutulan tədbirləri təşviq etməyə hazırdır. Alimlər, gənclər – hər kəs bu dəyişikliyi tələb edir. Onları eşitmək və duymaq lazımdır, səslərini kəsmək deyil. Beləliklə, daha çox bərpaolunan enerjilər, hər yeni innovasiyalar və hər qiymətin aşağı salınması ilə irəliləyişə nail olmaq imkanınız olacaqdır. Şəbəkələrə və bərpaolunan enerjiyə qoyulan sərmayələr karbohidrogen resurslarından daha çox idi. Demək olar ki, hər yerdə Günəş və külək enerjisi istehsalı ən ucuz variantdır. Ona görə bu resursların, karbohidrogen resurslarının olmaması problem olmayacaqdır və yeni biznes, hər hansı bir ölkə onu dayandıra bilməz. Beləliklə, bərpaolunan enerji hökm sürəcək. Biz əmin olmalıyıq ki, bu, çox sürətli olmalıdır ki, temperaturlar 2,5-dən yuxarı qalxmasın. Eyni zamanda, burada üç prioritetə fokuslanmaq istərdim. İlk növbədə, emissiyaların azaldılması. Qlobal temperaturun azaldılması və 2,5 Selsiyə çatdırılması üçün qlobal emissiyanı hər il 9 faiz azaltmalıyıq. Bu, 2030-cu ilə qədər 43 faiz azalmalıdır. Təəssüf ki, 2019-cu ilin baza xəttinə əsasən bu emissiyalar hələ də artmağa davam edir.

Bu COP sammitində səmərəli karbon bazarının yaradılmasına dəstək göstərilməsi çox önəmlidir. Dünən də biz bu

məsələni müzakirə etdik. Təbii ki, yeni bazar qaydaları təmin edilməlidir. Yerli ictimaiyyətlərə torpağın alınmasına və yaxud da hər hansı bir digər problemə icazə verməmək üçün işlər görülməlidir, iqlim dəyişikliyi planları hazırlanmalıdır. Razılaşdıq ki, sizin yeni planlarınız 1,5 temperatura uyğun olacaq. Bu, o deməkdir ki, həmin plan bütün emissiyaları və iqtisadiyyatları əhatə etməlidir.

Qlobal ehtiyacları nəzərə alaraq enerji səmərəliliyinin ikiqat artırılması və səhralaşmanın qarşısının alınması önəmlidir. Qlobal karbohidrogen resursları 30 faiz azalmalıdır. Eyni zamanda, ölkə daxilində enerji keçidi dayanıqlı iqlim məqsədlərinə, iqlim dəyişikliyi tədbirlərinə uyğun olmalıdır ki, lazımi investisiyaları təşviq edək. Bütün bunlar yerli şərait nəzərə alınaraq ortaq və eyni zamanda, paylaşılmış məsuliyyət əsasında reallaşmalıdır. Amma əlbəttə ki, hər bir ölkə öz işini görməlidir və G20 bu istiqamətdə lider olmalıdır. Onlar ən böyük emissiya edən ölkələrdir. Onların məsuliyyəti daha da yüksəkdir. Onlar texnoloji transferi və keçidi təmin etməlidirlər, inkişaf edən ölkələrə dəstək göstərməlidirlər, bütün dövlətlərin əlində lazımi alətlər və resurslar olmalıdır. BMT bu səylərə dəstək göstərməyə tam hazırdır. İnkişaf edən ölkələrə yeni milli səviyyədə cəlb olunmuş töhfələr, eyni zamanda, ədaləti bərqərar etmək bərpaolunan enerji sektorunda kritik enerji keçidi təşəbbüsləri vasitəsilə bunu etməyə nail olacağıq. Amma nəticə etibarilə bu işi bacara biləcək ölkələr məhz sizsiniz. Ancaq siz bu saata qarşı mübarizə apararaq 1,5 dərəcə hədəfinə nail ola bilərsiniz.

İkincisi, siz öz xalqlarınızı, insanlarınızı iqlim dəyişmələrinin və iqlim böhranlarının fəsadlarından müdafiə etməlisiniz. Eyni zamanda, adaptasiya ehtiyacları ilə maliyyə arasında olan

boşluq 2030-cu ilədək milyardlarla dollara bərabər və ya 300 milyarddan yuxarı olacaqdır. Çatışmayan bu vəsait hər hansı hesabatda qeyd olunan rəqəm deyil. Bu, həyat itkiləri, infrastrukturun dağıdılması deməkdir. Bu cür maliyyə vədlərini icra etmək lazımdır. 2025-ci ilə qədər ən azı 40 milyard dollar vəsait toplanmalıdır. Adaptasiya və investisiya iqtisadiyyatları dəyişə və Dayanıqlı İnkişaf Məqsədləri ətrafında formalaşa bilər. Ölkələr yeni fəaliyyət planları hazırladığı zamanda məhz maliyyə vəsaiti bu şəkildə formalaşacaq, dünyada hər kəs erkən xəbərdarlıq sistemləri tərəfindən qorunmalıdır. Bütün təşəbbüslər üzrə bu erkən xəbərdarlıq sistemləri qurulmalıdır, eyni zamanda, iqlim ədalətliliyinə ehtiyacımız var. Həmçinin İtki və Zərərə Cavab Fondundan danışaraq bu cür vəsaiti lazım olan insanlara çatdırmaq önəmlidir.

Eyni zamanda, çarpaz şəkildə olan bütün sektorlara fundamental baxsaq, üçüncü prioritet məhz maliyyədir. İnkişaf edən ölkələr, əlbəttə ki, bir sıra problemlərlə üzləşir. Çatışmayan dövlət infrastrukturu vəsaiti, eyni zamanda, iqlim dəyişmələri, borclanma və digər sahələrdə böyük çətinliklər mövcuddur. Məhz bunun nəticəsində adaptasiya tədbirləri də ləngiyə bilər. Çin istisna olmaqla, keçən il ərzində inkişaf edən və meydana çıxan yeni bazarlar investisiya olunmuş hər bir dollara cəmi 15 sent alıb. COP29 yeni fərq yaratmalıdır və inkişaf edən ölkələr Bakını əliboş tərk etməməlidir. Əminəm ki, buna birlikdə nail olacağıq.

Yeni maliyyə imkanları və bu istiqamətdə beş əsas element lazımdır. Birincisi, dövlət investisiyalarının kəskin şəkildə artırılmasıdır. Dövlət investisiyaları səfərbər olunmalı, inkişaf edən ölkələrə trilyon dollarlarla vəsait ayrılmalıdır. İnnovativ

resurslar, xüsusən aviasiya, karbohidrogen mədən işləridir və buna görə də çirkləndirici tərəflər "daha çox ödəməlidir" prinsipinə əsasən ödəməlidir. Şəffaflıq, hesabatlılıq olmalıdır ki, həqiqətən də bu vəsait reallaşsın. Bu işə daha böyük çoxtərəfli banklar cəlb edilməlidir və əminəm ki, yaxşı xəbərlər olacaq. Burada böyük kapital qoyuluşu səylərinə və biznes modellərin islahatlarına ehtiyac var ki, onlar özəl sektordan əlavə vəsait ala bilsinlər. Bu resurslar çatışmayan kimi görünə bilər, amma onlar çoxtərəfli sistemdə böyüyə bilər. Böyük nəticələr böyük dəyişikliklər tələb edir. Beləliklə, sentyabr ayında Nyu-Yorkda əldə etdiyimiz konsensusa əsasən irəli getməliyik.

Beləliklə, bütün dövlət nümayəndələrinə müraciət etmək istəyirəm ki, artıq itirməyə vaxtımız qalmayıb. İnsanlar, dövlətlər iqlim dəyişmələrinə qarşı mübarizə üçün vəsait ayırmalıdırlar. Əks halda, bu, bəşəriyyətə baha başa gələcək. İqlim maliyyələşməsi xeyirxah əməl deyil, bu, bir investisiyadır. Bu, ixtiyari məsələ deyil, məcburi məsələdir. Hər ikisi əvəzolunmaz tədbirdir, bunlar bəşəriyyətin gələcəyi və firavanlığı üçün lazımdır. Vaxt gedir, sizə inanıram, sizə təşəkkürümü bildirirəm.

# AZƏRBAYCAN RESPUBLİKASINDA BƏRPA OLUNAN ENERJİ MƏNBƏLƏRİNDƏN İSTİFADƏ OLUNMASI ÜZRƏ

# DÖVLƏT PROQRAMI

## Giriş

Ənənəvi enerji mənbələrinin tədricən tükənməsini və onlardan istifadə zamanı ətraf mühitə vurulan külli miqdarda ziyanı nəzərə alaraq, dünyanın inkişaf etmiş ölkələrində ekoloji cəhətdən təmiz *bərpa olunan* enerji mənbələrindən (günəş və külək enerjisi, kiçik SES-lər, termal sular, bio-kütlə enerjisi) geniş istifadə olunur. Bu sahədə ABŞ, Kanada, Almaniya, Finlandiya, Norveç, Danimarka, İspaniya, Yaponiya və Çin daha qabaqcıl mövqe tuturlar. Statistikaya görə inkişaf etmiş ölkələrdə bərpa olunan enerji mənbələrinin payına (su elektrik stansiyaları daxil olmaqla) ümumi istehsal olunan enerjinin 13,5 faizi düşür.

Bərpa olunan enerji mənbələri arasında külək enerjisi mühüm yer tutur. Külək enerjisindən istifadəyə görə Almaniya dünya ölkələri arasında liderlik edir. Həmin ölkədə "Bərpa olunan enerji mənbələri haqqında" Qanunun qəbul edilməsi bu işə güclü təkan vermişdir. İndi Almaniyada külək enerji qurğularının istehsalı, quraşdırılması və istismarı sahəsində 35 mindən çox işçi çalışır.

Elektrik enerjisinin istehsalında suyun potensial enerjisi ekoloji baxımdan təmizdir. Bu mənbədən alınan elektrik enerjisinin istehsalı 1990-cı ildən başlayaraq yüksələn templə artır. Böyük su ehtiyatlarına malik olan Latın Amerikası, Asiya və

Afrikanın bəzi ölkələri, həmçinin Avropanın şimal ölkələri digər *bərpa olunan* enerji mənbələrindən istifadə etməklə yanaşı, bu mənbədən də istifadə etməyi prioritet istiqamət kimi qəbul etmişlər.

Günəş enerjisinin birbaşa istilik enerjisinə çevrilməsi dünya praktikasında geniş yayılmışdır və bu, inkişaf etmiş ölkələrdə energetikanın əsas istiqamətlərindən biri hesab olunur. 1997-ci il Kioto razılaşmasının protokoluna əsasən Avropa Birliyi ölkələrində və ABŞ-da *bərpa olunan* enerji mənbələrindən istifadə etmək üçün iri miqyaslı stansiyaların tikintisinə başlanmışdır. Günəş enerjisindən istifadə etməklə alınan istilik enerjisinin həcmi elektrik enerjisi ekvivalentində kifayət dərəcədə yüksəkdir. Belə ki, bu göstərici ABŞ-da 600 MVt, Fransada 100 MVt, İsraildə 100 MVt, Türkiyədə 50 MVt və b. səviyyəsindədir.

ABŞ-da, Almaniyada, Yaponiyada və Çində günəş enerjisini birbaşa elektrik enerjisinə çevirən günəş stansiyalarının əsas işçi elementinin (fotoelementin) hazırlanması üçün yüksək səmərəliliyə malik texnologiyalar tətbiq edilir. Onların faydalı iş əmsalı 12-14 faiz təşkil edir. Belə fotoelementlər əsasında yaradılan stansiyaların tutduğu ərazi 1 MVt üçün 2 hektar təşkil edir. Dünyanın inkişaf etmiş ölkələrində fotoelementlərin sahə tutumlarının azaldılması istiqamətində geniş elmi tədqiqat işləri aparılır.

Beləliklə, yerləşdiyi əlverişli coğrafi mövqe və iqlim şəraiti dünyanın inkişaf etmiş ölkələrində olduğu kimi, Azərbaycanda da ekoloji cəhətdən təmiz *bərpa olunan* enerji mənbələrindən geniş istifadə edilməsinə imkan verir. Bu, istilik elektrik stansiyalarında yandırılan böyük miqdarda yanacağa qənaətlə ya-

naşı, ətraf mühitə atılan zərərli tullantıların miqdarını da xeyli azaldar. Ölkənin təbii potensialından istifadə etməklə alternativ enerji mənbələrinin elektrik və istilik enerjisi istehsalına cəlb edilməsi elektroenergetikanın gələcək inkişaf istiqamətlərində mütərəqqi dəyişikliklər etməyə imkan yaradar.

Bərpa olunan enerji mənbələrindən istifadə sahəsində Azərbaycan Milli Elmlər Akademiyasının Fizika İnstitutunda, Radiasiya Problemləri İnstitutunda, Azərbaycan Elmi Tədqiqat Energetika və Enerjilayihə İnstitutunda, həmçinin Bakıhidrolayihə İnstitutunda məqsədyönlü işlər aparılmışdır.

Dövlət Proqramı "Enerji resurslarından istifadə haqqında", "Elektroenergetika haqqında", "Energetika haqqında", "Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 20 fevral tarixli 854 nömrəli Fərmanı ilə təsdiq edilmiş "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı", 2002-ci il 25 mart tarixli 893 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Enerji və su sektorlarında maliyyə intizamının gücləndirilməsi tədbirləri haqqında", "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 2003-cü il 24 noyabr tarixli 4 nömrəli Fərmanı, 2004-cü il 11 fevral tarixli 24 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)", habelə "Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 aprel tarixli 458 nömrəli Fərmanı və s. normativ hüquqi sənədlər əsasında hazırlanmışdır.

## 1. Dövlət proqramının məqsədi və əsas vəzifələri

Dövlət Proqramının məqsədi ölkənin təbii potensialından istifadə etməklə bərpa olunan və ekoloji cəhətdən təmiz mənbələrdən enerji istehsalını genişləndirməkdən və karbohidrogen enerji resurslarından daha səmərəli istifadə edilməsini təmin etməkdən ibarətdir.

Dövlət Proqramının əsas vəzifələri aşağıdakılardır:

- elektrik enerjisinin istehsalında *bərpa olunan* enerji mənbələrinin potensialını müəyyənləşdirmək;
- bərpa olunan enerji mənbələrini istismara cəlb etməklə ölkənin enerji resurslarından istifadənin səmərəliliyini yüksəltmək;
- yeni enerji istehsalı sahələrinin yaradılması hesabına əlavə iş yerlərinin açılmasını təmin etmək;
- Azərbaycan Respublikasında ənənəvi enerji mənbələrinin mövcud ümumi gücü nəzərə alınmaqla *bərpa olunan* enerji mənbələrinin hesabına enerji gücünün artırılması və bununla da ölkənin enerji təhlükəsizliyinin təminatının yüksəldilməsinə nail olmaq.

## 2. Azərbaycanda bərpa olunan enerji potensialı

### 2.1. Külək enerjisi

Külək enerjisi digər bərpa olunan enerji mənbələri olan günəş, hidroenergetika, geotermal və biokütlə enerjisindən özünün maya dəyərinə, ekoloji təmizliyinə və tükənməzliyinə görə ən sərfəlisidir.

Təcrübə göstərir ki, Azərbaycanın bir çox rayonlarında külək enerjisi qurğularının tətbiqinin böyük perspektivi vardır.

Hesablamalara görə Azərbaycan Respublikası özünün coğrafi vəziyyətinə, təbii şəraitinə və iqtisadi infrastrukturuna görə 800 MVt-a yaxın illik külək enerji ehtiyatına malikdir. Bu ehtiyat ildə təxmini hesablamalara görə 2,4 milyard kVt/saat elektrik enerjisi deməkdir. Bu isə öz növbəsində, ildə 1 milyon tona yaxın şərti yanacağa qənaət, ən əsası isə ildə külli miqdarda tullantıların, o cümlədən azondağıdıcı olan karbon dioksidin atmosferə atılmasının qarşısının alınması deməkdir.

Çoxillik müşahidələr nəticəsində müəyyən edilmişdir ki, ən əlverişli külək şəraiti Abşeron yarımadasında, Xəzər dənizi sahili zolağında və akvatoriyanın şimal-qərb hissəsində olan adalardadır. Azərbaycanın qərbində Gəncə-Daşkəsən zonasında və Naxçıvan Muxtar Respublikasının Şərur-Culfa ərazisində küləyin orta illik sürəti 3-5 m/san. olduğu üçün bu regionlarda orta güclü külək elektrik qurğularından istifadə etmək olar.

1999-cu ildə Yaponiyanın "Tomen" şirkəti Azərbaycan Elmi Tədqiqat Energetika və Enerjilayihə İnstitutu ilə birlikdə Abşeronda hündürlüyü 30 və 40 metr olan iki qüllə quraşdırmış, küləyin sürətinin orta illik qiyməti v = 7,9 - 8,1 m/san. müəyyən edilmiş və Qobustan rayonu ərazisində ümumi gücü 30 MVt olan külək elektrik stansiyasının quraşdırılmasına dair texniki iqtisadi əsaslandırma hazırlanmışdır.

2002-ci ildə Azərbaycanın bərpa olunan enerji resurslarının qiymətləndirilməsi həyata keçirilmiş və aşkar olunmuşdur ki, Abşeron yarımadası iri həcmdə külək enerjisi potensialına malikdir. Uzunmüddətli küləyin orta sürəti 6 m/san.-dan artıqdır ki, bu da külək enerjisi üçün əlverişli texniki-iqtisadi potensialın olmasını göstərir. Şimal DRES-nin yerləşdiyi ərazidən toplanılmış külək enerjisi üzrə statistik məlumatlar bir daha

təqdim olunan göstəriciləri təsdiq etmişdir. Aparılmış bu tədqiqatlar zamanı Qobustan rayonu ərazisi üçün təqdim olunmuş göstəricilər külək enerjisi potensialının 4-cü sinfinə aid edilir ki, bu da yüksək potensial hesab olunur.

**2.2. Günəş enerjisi**

Azərbaycanın təbii iqlim şəraiti günəş enerjisindən istifadə etməklə elektrik və istilik enerjisinin istehsalını artırmağa geniş imkanlar açır. Belə ki, günəşli saatların miqdarı il ərzində ABŞ-da və Orta Asiya ölkələrində 2500-3000 saat, Rusiyada 500-2000 saat, Azərbaycanda isə 2400-3200 saatdır.

Günəş enerjisindən istifadənin inkişafı Azərbaycanın bir çox rayonlarında enerji problemini qismən həll edə bilər. Son zamanlar dünyanın bir sıra qabaqcıl dövlətlərində Fotovodtaik Proqramının (FVP) geniş şəkildə tətbiq olunmasına başlanmışdır. Azərbaycanın bu Proqrama cəlb olunması regionda belə tip enerji sistemlərinin tətbiqində mühüm rol oynaya bilər.

Qeyd etmək lazımdır ki, günəş stansiyalarının effektivliyi ölkənin təbii iqlim şəraitindən və coğrafi movqeyindən asılıdır. Belə ki, bir il ərzində lm$^2$ yer səthinə düşən günəş enerjisinin miqdarı ABŞ-da 1500-2000 kVt.s, Rusiyada 800-1600 kVt.s, Fransada 1200-1400 kVt.s, Çində 1800-2000 kVt.s və Azərbaycanda 1500-2000 kVts təşkil edir. Göründüyü kimi, Azərbaycan ərazisinə düşən günəş şüalarının miqdarı digər ölkələrlə müqayisədə üstünlük təşkil edir ki, bu da günəş enerjisindən istifadənin tətbiqinə sərmayələrin cəlb edilməsinin səmərəlilik meyarlarından biri kimi qiymətləndirilə bilər.

**2.3. Kiçik su elektrik stansiyaları**

Azərbaycan Respublikasının ümumi enerji sistemində su elektrik stansiyalarının istehsal gücünün xüsusi çəkisi hazırda

17,8 faiz təşkil edir. 2003-cü ildə istehsal olunan elektrik enerjisinin 2,4 mlrd.kVt.s su elektrik stansiyalarının payına düşür ki, bu da istehsal olunmuş ümumi elektrik enerjisinin 11,4 faizini təşkil edir.

Ölkədə indiyə qədər istifadə edilməmiş hidroenergetika ehtiyatlarının mənimsənilməsi üçün geniş imkanlar vardır. Bu istiqamətdə aparılmış tədqiqat işləri nəticəsində Azərbaycan Respublikasındakı çayların tam hidroenerji potensialının 40 mlrd.kVt.s, texniki cəhətdən əlverişli potensialın isə 16 mlrd.kVts olduğu müəyyən edilmişdir ki, bunun da 5 mlrd.kVt.s kiçik su elektrik stansiyalarının payına düşür.

Su elektrik stansiyalarının tikintisi – sel sularının tənzimlənməsi, ekoloji cəhətdən təmiz elektrik enerjisi istehsalı və yeni suvarma sistemlərinin yaradılması kimi dövlət əhəmiyyətli məsələlərin həllində mühüm rol oynayır. Azərbaycan Respublikasında çaylar üzərində və su təsərrüfatı obyektlərində onlarla kiçik su elektrik stansiyaları yerləşdirmək olar ki, onların da istehsal etdiyi elektrik enerjisi ildə 3,2 mlrd.kVt.s təşkil edə bilər. Yaxın perspektivdə 61 kiçik SES-in tikintisi məqsədəuyğun hesab edilir. Bu SES-lər irriqasiya kanalları üzərində, axını tənzimlənməmiş çaylarda və tikiləcək su anbarlarının yanında yerləşdirilə bilər. Ölkədə həmçinin vahid enerji sisteminin elektrik xətlərindən və yarımstansiyalarından uzaqda yerləşən obyektlərin, yaşayış məntəqələrinin elektrik enerjisi ilə təchizində mikro SES-lərdən də istifadə olunması elektrik enerjisi problemləri ilə yanaşı, digər sosial məsələlərin də həllinə imkan yarada bilər.

Naxçıvan Muxtar Respublikası enerji sisteminin ölkənin əsas enerji sistemi ilə əlaqəsinin olmadığını nəzərə alaraq, orta,

kiçik, mikro su elektrik stansiyalarının ilk növbədə Naxçıvan Muxtar Respublikasında tikilməsi daha məqsədəuyğundur.

**2.4. Biokütlə enerjisi**

Azərbaycan Respublikasında sənaye, kənd təsərrüfatı və sosial xidmət sahələrinin sürətli inkişafı biokütlədən istifadə etməklə enerji istehsalı üçün yeni imkanlar açır. Ölkədə biomaddələrin aşağıdakı mənbələri mövcuddur:

– yanma qabiliyyəti olan sənaye tullantıları;
– meşə təsərrüfatı və ağac emalı sahələrinin tullantıları;
– kənd təsərrüfatı məhsulları və üzvi birləşmə tullantıları;
– məişət və kommunal sahələrinin tullantıları;
– neft və neft məhsulları ilə çirklənmiş sahələrdən alınan tullantılar.

Aparılmış tədqiqatlar göstərir ki, iqtisadiyyatın bütün sahələrində istehsal tullantılarının tərkibinin çox hissəsini biokütlə maddələri təşkil edir. Həmin biokütlə maddələrindən elektrik enerjisinin istehsalında istifadə olunan bioqaz, biomaye və bərk biokütlənin alınması mümkündür. Belə ki, Azərbaycan Respublikasında hər il tullantıların zərərsizləşdirilməsi poliqonlarına 2,0 milyon tondan çox bərk məişət və istehsalat tullantıları atılır. Bakı və ölkənin iri sənaye şəhərlərində ictimai binaların qızdırılmasındakı çətinlikləri aradan qaldırmaqda bərk məişət və istehsalat tullantılarının utilizasiya olunması (emal edilməsi) həmin problemlərin qismən aradan qaldırılmasını təmin etmiş olardı.

Artıq bir çox Avropa ölkələrində bu problemin həlli yolları tapılmışdır. Belə ki, əhalisi sıx olan ərazilərdə zibilyandırma zavodları tikilməklə, orada məişət tullantıları yandırılır. Zibillərin yandırılmasından alınan enerji hesabına ətrafdakı yaşayış məntəqələri istilik və elektrik enerjisi ilə təmin edilir. Yan-

dırılmış tullantıların qalıqlarından isə gübrə kimi torpaqların münbitliyini artırmaq məqsədilə geniş istifadə olunur. Göründüyü kimi, kompleks əhəmiyyəti olan belə zavodların tikilməsi Azərbaycan üçün də çox zəruridir.

**2.5. Geotermal enerji**

Yer təkinin istiliyi bir çox ölkələrdə sənaye, kənd təsərrüfatı, məişət və kommunal sahələrdə və təbabətdə geniş istifadə olunur. Enerji istehsalında və istehlakında geotermal enerji mənbələrindən istifadənin üstünlüyü ondan ibarətdir ki, onların tətbiqi iri həcmli maliyyə vəsaiti tələb etmir.

Azərbaycan Respublikasının ərazisi termal sularla zəngindir. Bunlar Böyük və Kiçik Qafqaz dağları, Abşeron yarımadası, Talış dağ-yamac zonası, Kür çökəkliyi və Xəzəryanı-Quba ərazisi kimi geniş sahələri əhatə edir. Göstərilən ərazilərdə olan termal suları istifadəyə cəlb etməklə məişətdə və digər sahələrdə istilik enerjisinə olan ehtiyacın bir hissəsini ödəmək mümkündür.

Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində özəl investisiya mənbələrini cəlb etməklə bərpa olunan enerji mənbələrinin imkanlarından maksimum istifadə edərək ölkənin elektrik enerjisi sisteminə əlavə güclər qoşula bilər.

Azərbaycan Respublikası Prezidentinin
2004-cü il 21 oktyabr tarixli 462 nömrəli
Sərəncamı ilə
TƏSDİQ EDİLMİŞDİR

Azərbaycan Respublikası Prezidentinin
17 iyul 2023-cü il tarixli 3970 nömrəli
Sərəncamı ilə
Dövlət Proqramında dəyişiklik edilmişdir.

# ENERJİ RESURSLARINDAN SƏMƏRƏLİ İSTİFADƏ VƏ ENERJİ EFFEKTİVLİYİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndinə uyğun olaraq enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlət siyasətinin hüquqi, təşkilati və iqtisadi əsaslarını müəyyən edir, bu sahədə dövlət orqanlarının (qurumlarının), fiziki və hüquqi şəxslərin fəaliyyətini və onlar arasında yaranan münasibətləri tənzimləyir.

## 1-ci fəsil
## Ümumi müddəalar

### Maddə 1. Bu Qanunun əhatə dairəsi

Bu Qanun enerjinin istehsalı, saxlanması, ötürülməsi, nəqli, paylanması, satışı və istehlakı sahəsində yaranan münasibətləri tənzimləyir və bu sahədə fəaliyyət göstərən dövlət

orqanlarına (qurumlarına), fiziki və hüquqi şəxslərə, o cümlədən son istehlakçılara şamil olunur.

**Maddə 2. Əsas anlayışlar**

2.1. Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. enerji (enerji resursları) – bütün növ enerji məhsulları, o cümlədən yanacaq növləri, bərpa olunan enerji, elektrik, istilik, su enerjisi və digər enerji formaları;

2.1.2. enerji effektivliyi – məhsulun (işin, xidmətin) və ya enerjinin istehlak olunan enerjiyə nisbəti;

2.1.3. təsərrüfat subyekti – hüquqi şəxslər və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər;

2.1.4. enerji resurslarından səmərəli istifadə – ətraf mühitə texnogen təsirin azalması şərtilə enerji resurslarının (enerjinin) iqtisadi cəhətdən daha faydalı istifadəsi;

2.1.5. enerji effektivliyi üzrə tədbirlər – enerji resurslarından səmərəli istifadəyə yönəlmiş təşkilati, hüquqi, elmi, texnoloji və iqtisadi tədbirlərin məcmusu;

2.1.6. enerjiyə qənaət – enerji effektivliyi üzrə tədbirlərin tətbiqi nəticəsində istehlak olunan enerji miqdarının azaldılması;

2.1.7. enerji auditi – enerji istehlakına dair məlumatın əldə edilməsi və iqtisadi cəhətdən səmərəli enerji istehlakı imkanlarının müəyyənləşdirilməsi məqsədilə binaların (qurğuların) və təsərrüfatların qiymətləndirilməsi;

2.1.8. enerji auditoru – bu Qanunla müəyyən edilmiş tələblərə cavab verən və enerji auditini həyata keçirən, energetika və iqtisadi sahələrdə ali təhsilə malik və müvafiq ixtisas üzrə ən azı 3 (üç) il iş təcrübəsi olan fiziki şəxs;

2.1.9. enerji effektivliyi üzrə xidmətlər – istehlak olunan enerjinin həcminin ölçülməsi, təhlili və səmərəliliyin qiymətləndirilməsi, habelə enerji effektivliyi üzrə tədbirlərin tətbiqi ilə bağlı xidmətlərin məcmusu;

2.1.10. enerji istehlakı üzrə məhsulların etiketlənməsi – enerji və digər resurslarından istifadənin effektivliyinin səviyyəsi barədə istehlakçının enerji etiketi vasitəsilə məlumatlandırılması;

2.1.11. enerji etiketi – enerji istehlak edən və ya enerji istehlakına təsir edən avadanlığın, qurğu və cihazların enerji istehlakı həcminə dair sənəd;

2.1.12. enerji menecmenti sistemi – enerji effektivliyi üzrə tədbirlərin həyata keçirilməsini nəzərdə tutan daimi enerji idarəetmə sistemi;

2.1.13. enerji idarəçisi (meneceri) – müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi tələblərə cavab verən, energetika və texniki sahələrdə ali təhsilə malik və müvafiq ixtisas üzrə ən azı 3 (üç) il iş təcrübəsi olan, enerjidən səmərəli istifadəyə cavabdeh fiziki şəxs;

2.1.14. ağıllı sayğac – istehlak olunan enerjinin miqdarını və dəyərini zamana görə ölçən, məlumatların müasir informasiya və kommunikasiya texnologiyalarından istifadə etməklə, təchizatçılara və istehlakçılara çatdırılmasını təmin edən müasir ölçmə cihazı;

2.1.15. kogenerasiya – bir proses çərçivəsində istilik enerjisi ilə elektrik və ya mexaniki enerjinin eyni zamanda yaradılması;

2.1.16. kogenerasiya qurğusu – kogenerasiya rejimində işləyə bilən qurğu;

2.1.17. yüksək effektiv kogenerasiya qurğusu – istilik və elektrik enerjisinin ayrılıqda istehsalı ilə müqayisədə ilkin enerji resursuna ən azı 10 faiz qənaət edən kogenerasiya qurğusu;

2.1.18. ekoloji dizayn tələbi – enerji istehlak edən və ya enerji istehlakına təsir edən məhsulun ətraf mühitə təsir göstəricilərinin ekoloji tələblərə uyğunluğunu təmin etmək üçün məhsula və ya onun konstruksiyasına dair tələblər;

2.1.19. ekoloji dizayn – ekoloji dizayn tələblərinin enerji istehlak edən və ya enerji istehlakına təsir göstərən məhsulun dizaynına inteqrasiyası;

2.1.20. effektivlik potensialı – texniki cəhətdən mümkünlüyü və iqtisadi cəhətdən əlverişliliyi nəzərə alınmaqla enerji effektivliyi üzrə tədbirlərin tətbiqi nəticəsində qənaət oluna biləcək enerjinin miqdarı.

2.2. Bu Qanunda istifadə olunan digər anlayışlar energetika sahəsində Azərbaycan Respublikasının qanunlarında və digər normativ hüquqi aktlarda nəzərdə tutulmuş mənaları ifadə edir.

**Maddə 3. Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

3.1. Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu Qanundan, energetika sahəsini tənzimləyən Azərbaycan Respublikasının qanunlarından, energetika və enerji resurslarından səmərəli istifadə sahəsində münasibətləri tənzimləyən Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından ibarətdir.

3.2. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində bu Qanundan fərqli qaydalar müəyyən edildikdə, həmin beynəlxalq müqavilələr tətbiq olunur.

3.3. Ələt azad iqtisadi zonasında enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.

## 2-ci fəsil
## Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlət siyasəti

**Maddə 4. Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlət siyasətinin əsas məqsədləri və dövlətin vəzifələri**

4.1. Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlət siyasətinin əsas məqsədləri aşağıdakılardır:

4.1.1. Azərbaycan Respublikasının energetika sisteminin etibarlılığının və təhlükəsizliyinin təmin edilməsi;

4.1.2. enerji resurslarından səmərəli istifadə etməklə rəqabətə davamlı iqtisadi inkişafın təmin edilməsi;

4.1.3. enerji resurslarından səmərəli istifadəyə xidmət edəcək əlverişli mühitin yaradılması, enerji effektivliyi üzrə tədbirlərə və yüksək effektiv texnologiyalara investisiyaların cəlbinin təşviq edilməsi;

4.1.4. enerji istehsalçıları, ötürücüləri, nəql edənləri, paylayıcıları, təchizatçıları və istehlakçıları, habelə dövlət orqanları (qurumları) və yerli özünüidarəetmə orqanları arasında əməkdaşlığın gücləndirilməsi.

